İSSN 2224-5529

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR
## HUMANİTAR ELMLƏR SERİYASI

# SCIENTIFIC WORKS
## THE SERIES OF THE HUMANITARIAN

# НАУЧНЫЕ ТРУДЫ
## СЕРИЯ ГУМАНИТАРНЫХ НАУК

№ 5 (86)
II CİLD

NAXÇIVAN, NDU, "QEYRƏT" - 2017

# PEDAQOGİKA

**VAHİD RZAYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 37**

## CƏLİL MƏMMƏDQULUZADƏ VƏ İCTİMAİ-PEDAQOJİ FİKRİMİZ

**Açar sözlər:** *Cəlil Məmmədquluzadə, Mirzə Cəlil və pedaqoji fikrimiz, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi, ana dilinin tədrisi, qadın təhsili və tərbiyəsi*

**Key words:** *Jalil Mammadguluzadeh, citizenship and patriotism education, mother tongue teaching, women's education, Mirza Jalil and our pedagogical conception*

**Ключевые слова:** *Джалил Мамедкулизаде, воспитание гражданственности и патриотизма, преподавание родного языка, воспитание и образование женщин, Мирза Джалил и наша педагогическая мысль*

Dahi Mirzə Cəlil ictimai-pedaqoji fikir tariximizdə sistemli pedaqoji təhsil görmüş, dövrünün qabaqcıl pedaqoji fikrini mənimsəmiş, müəllimlik fəaliyyəti dövründə yeniliklərin yaradıcısı kimi tanınmış bir mütəfəkkir - pedaqoqdur. "Azərbaycanın tərəqqipərvər nümayəndələri sırasında Cəlil Məmmədquluzadə ən görkəmli simalardan, əsl mənada bütün ömrünü xalqın xeyrinə, cəhalət və avamlıqdan xilas olmasına sərf etmiş ictimai xadimlərdən biridir. Onun zəngin, demokratik pedaqoji irsini, təlim - tərbiyə haqqında mütərəqqi fikirlərini tədqiq edib sistemləşdirilmiş şəkildə Azərbaycan xalqına çatdırmaq olduqca faydalı işdir" (4, 251). Həqiqətən də böyük Cəlil Məmmədquluzadənin bədii, publisistik irsi ilə yanaşı, maarifçi - pedaqoji baxışları da öyrənilməyə, müasir şəraitdə necə bir əhəmiyyətə malik olduğunu müəyyənləşdirməyə, bu ideya, əməli - təcrübi sərvətdən indiki zamanda istifadə imkanlarını aşkar etməyə, dəqiqləşdirməyə və dəyərləndirməyə ehtiyac var.

Mirzə Cəlil məktəbdə həyati, zamanın tələblərinə cavab verəcək biliklərin verilməsi, təhsildə dünyəviliyin əsas götürülməsi, hər iki cinsdən olan uşaqların tədris - tərbiyə işləri ilə əhatə olunması, yüksək mənəvi keyfiyyətlərə yiyələnmiş vətəndaşların tərbiyə edilməsi və s. vacib pedaqoji problemlərin qoyuluşu və həlli yollarını müəyyənləşdirməyə səy göstərmiş böyük maarifçi, mütəfəkkir pedaqoq olmuşdur. Məktəbdə demokratizmi və humanist münasibətləri yaymaq, tədris prosesində yeni pedaqoji üsul və vasitələrdən istifadə etmək kimi yüksək, ali tələblər Cəlil Məmmədquluzadənin bütün fəaliyyəti boyu qoruduğu, müdafiə etdiyi prinsiplər idi. Böyüdüyü, boya - başa çatdığı mühitdə ruhaniliyin və ruhanilərin heç nə ilə tənzimləməyən, qadağa və məhdudiyyətlər qoyulmayan fəaliyyətinə, heç bir ölçüyə sığmayan hərəkətlərinə Mirzə Cəlil qədər kəskin tənqidi münasibət göstərən ikinci bir maarifçi tapmaq çətindir. Dövrünün məktəblərində fanatizmin, mövhumatın yayılması mənbəyi kimi sxolastik təlim - tərbiyə qaydalarına, öyrənmə üsul və vasitələrinə Mirzə Cəlil qədər yüksək ifşa tərzinə malik ikinci bir pedaqoq da tapmaq çətindir.

Belə bir məsələni əvvəlcədən qeyd edək ki, Cəlil Məmmədquluzadənin həyat, ideya - əqidə, fəaliyyət prisipləri müəyyən mənada böyük maarifçi Məhəmməd ağa Şahtaxtlının fəaliyyət prinsipləri ilə bir çox məqamlarda üst - üstə düşür, biri digərini tamamlayır. Cəlil Məmmədquluzadə də həyat hadisələrinə, həlli vacib problemlərə münasibətdə mövqeyinin ümumi mənafeylərinə uyğunluğu ilə seçilir. Öz fikirlərini bəyan edərkən hansı səbəblərdənsə ehtiyyatkarlıq göstərmək,

müəyyən sədləri gözləmək, hansısa zümrənin mənafelərinə toxunmamaq, onların diqtəsinə əməl etmək boyük mütəfəkkirin əqidəsinə, məsləkinə, fəaliyyət prisiplərinə yad bir düşüncə idi. Xalqa xidmət amalında dönməzlik, ardıcıllıq, qətiyyətlilik Mirzə Cəlilin həyat amalı, ömrü boyu izlədiyi məqsəd idi. O, siyasi, ictimai, məişət məsələlərində də, məktəb, təhsil məsələlərində yüksək əqidəyə, inama malik vətəndaş yazıçı, ictimai xadim, yüksək səviyyəli ziyalı, nəzəriyyəçi pedaqoq idi.

Cəlil Məmmədquluzadə yaradıcılığında Azərbaycan maarifçilərinin Vətən və xalq məfumu daha da konkretləşir, azərbaycançılıq ideologiyası səviyyəsinə yüksəlir. Azərbaycanın haralardan ibarət olduğunu, Vətənin haradan başlandığını kütləyə başa salmaq, onda bu ruhu dirçəltmək, yetişən nəsildə vətənpərvərlik keyfiyyətləri formalaşdırmaq Mirzə Cəlil yaradıcılığında qabarıq şəkildə əks olunur. Dünyanın dəyişdiyi, yeniləşdiyi bir zamanda Vətən haqqında düşünmək hər bir kəsin ali, müqəddəs hissləridir ki, böyük azərbaycanlı bu hissləri sadə, anlaşıqlı bir dildə ifadə edərək yazırdı:

Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki:

-Mənim anam kimdir?

Öz - özümə də cavab verirəm ki:

- Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

- Dilim nə dildir?

-Azərbaycan dilidir.

-Yəni vətənim haradır?

- Azərbaycan vilayətidir” (3, 4).

Mirzə Cəlil yetişən nəslin yeni həyat tərzinə, yeni baxışlara, Vətəninə, xalqına faydalı insanlar kimi yetışməsinə xüsusi əhəmiyyət verirdi. Böyük mütəfəkkir gəncliyi milli mənliyin, milli diriliyin ümid yeri hesab edir, onları Vətən, millət yolunda faydalı işlərə qoşulmağa səfərbər etməyi vacib sayırdı. “ Bircə ümidim cavanlara idi. Həmişə və hər məkanda Vətən məhz cavanlardan öz nicatını gözləyib” - deyən Mirzə Cəlil bu işdə yeganə vasitə kimi gənclərin tərbiyəsinin məzmununun yeniləşdirilməsi, onların həyata baxışlarının, dünyagörüşlərinin zamanın tələblərinə uyğun şəkildə formalaşdırılması qayğısına qalmağı başlıca şərt hesab edirdi. O, dönə - dönə belə bir doğru qənaəti, fikri təkrar edərək yazırdı ki, məhz mənəvi zəngiliyə, yüksək əxlaqi keyfiyyətlərə yiyələnmiş şəxs Vətən təəsübünü daşımağa, millət qeyrətini çəkməyə qadir ola bilər. Bu cür şəxslərin yetişdirilməsi isə dünyəvi təhsildən keçir.

Professor Əhməd Seyiovun qeyd etdiyi kimi Cəlil Məmmədquluzadə ayrıca pedaqoji əsər yazmamışdır (4, 253). Lakin tərbiyə və təhsilin müxtəlif problemləri, dil, əlifba, elm, mədəniyyət, ailə tərbiyəsi, məktəbin və müəllimin funksiyası, maarif məşəlinin bu iki şöləsinin cəmiyyət həyatında tutduğu mövqe dövrünün yeni pedaqoji ideyaları ilə silahlanmış Cəlil Məmmədquluzadənin ədəbi, publisit yaradıcılığında geniş yer tutmuşdur. “Danabaş kəndinin məktəbi” povesti və “ Danabaş kəndinin müəllimi” pyesi İ. H. Pestalotsi və A S. Makarenkonun ədəbi - pedaqoji əsərləri ilə səsləşən nümunələrdir. Bu əsərlər dövrünün müxtəlif zümrələrinin - kütlənin, ruhanilərin, dövlət idarəçilik nümayəndələrinin, maarif məmurlarının məktəbə münasibətinin, təhsilə aid düşüncəsinin ədəbi - bədii fonda ifadəsi idi. Felyoton və məqalələrində dövrünün pedaqoji problemləri bütün aydınlığı və kəckinliyi ilə qoyulurdu. Böyük mütəfəkkir elə arzu və niyyətlər uğrunda mübarizə aparırdı ki, bu ideallar pedaqoji düşüncə pərdəsi ilə süslənmişdi.

Maarifçiliyin baş məqsədi düşüncənin yeniləşməsi, insanlığın ətalət, mövhumat, cəhalət çirkabından təmizlənməsi idealından ibarət idi və Mirzə Cəlil də bütün qüvvəsini buna həsr etmiş, fəaliyyətinin əsas istiqamətini bu əsasda qurmuşdu. İstər nəsr və dram əsərlərində, istərsə də məqalə və felyatonlarında mühitinin eybəcərliklərini aradan qaldırmağın, qaranlıqdan işığa çıxmağın yolunu

xalqa başa salmağı özünün başlıca məqsədi hesab etmişdi. Bu ali məqsədlərə nail olmaq üçün yollar da müəyyənləşdirmişdi: ənənəvi təhsil müəsisələrindən imtina etmək, dünyəvi təhsil verən məktəblər açmaq.

Köhnəlmiş üsul və vasitələrlə, quru əzbərçilik yolu ilə təhsilin məzmununu təşkil edən dinin əsaslarını mənimsəmək, heç bir pedaqoji qadağalara sığmayan fiziki cəzaların tətbiqi və qeyri - təhsil şəraitində (tədris - təchizat, maddi baza və s.) təhsil - tərbiyə almaq Mirzə Cəlilin hələ ilk təhsil illərində yaşadığı mühitdə qismətinə düşmüş təsirlər idi. Böyük mütəfəkkir belə bir taleyi yaşamışdı. Ona görə də sönrakı müşahidələri və təcrübəsi əsasında aydınlaşdıra bilmişdi ki, belə bir struktura və məzmuna malik təhsil və tərbiyə müəssisələri dövrün tələblərinə cavab verə biləcək halda deyil. O başa düşürdü ki, milli məktəblər kimi məscidlər yanında, həmçinin ayrı - ayrı şəxslər, mollalar tərəfindən evdə yaradılan məktəblər zamanla ayaqlaşmaq iqtidarında deyildi. Ona görə də Cəlil Məmmədquluzadə haqlı olaraq digər maarifçilər kimi məzmunca yeniləşmiş, həyati biliklərin, dünyəvi təhsilin yeni üsul və vasitələrlə öyrədilməsinə istiqamətlənmiş təlim - tərbiyə müəssisələrini millətin ümid yeri hesab edirdi.

Mirzə Cəlil kütlələr arasında cəhalətin, mövhumatın yayılma mənbəyi və şəraitini bütün təfərrüatı ilə görür və heç bir güzəştə getmədən qətiyyətlə mübarizə aparırdı. Böyük mütəfəkkir köhnə adət - ənənələrin əsiri olan, caduya, mövhumi qüvvələrə inanan, fanatizmin qurbanı olan, qəza rəisinin rus dilindəki çıxışında “soldat” sözündən təşvişə düşüb oğlan uşaqlarını qalaqda gizlədən avam camaatın, ümumən kütlələrin maarifləndirilməsini təbliğ edir və bu işdə dünyəvi təhsil müəssisələrininən mühüm vasitə olduğunu göstərirdi. Cəlil Məmmədquluzadə fərqli qurluşa və məzmuna malik məktəblərə xalqın rəğbət göstərəcəyinə də inanırdı. Bu məktəblər müəllimin tədris - tərbiyə üsullarının humanist məzmunu, gigeyinik qaydalara uyğun sinif otaqları, maddi təchizatı ilə şagirdlərin bilik və bacarıqlara yiyələnməsinə, sağlamlığına yaxşı təsir bağışlayacağına görə onların bü cür bilik məbədinə böyük həvəslə davam edəcəyinə təminat verirdi.

Ana dili və onun tədrisi məsələsi Mirzə Cəlili böyük mütəfəkkir, böyük azərbaycanlı kimi düşündürən, ömrü boyu məşğul edən problemlərdən idi. Vaxtı ilə professor Ağaməmməd Abdullayev Mirzə Cəlilin Azərbaycan dilinə aid fikirlərini ümumiləşdirərək söylədiyi kimi “ Cəlil Məmmədquluzadə 10 illik müəllimlik fəaliyyətində köhnə məktəbin bütün nöqsanlarını, ana dili tədrisinə əngəl olan səbəbləri, ərəb əlifbasının tədris prosesində qarşıya çıxardığı böyük çətinlikləri təcrübədə görmüş və sonralar bunları öz bədii əsərlərində və “Molla Nəsrəddin” jurnalında yazdığı məqalələrində, felyetonlarında böyük bacarıqla tənqid və ifşa etmişdir” (1,159).

Digər böyük maarifçilər kimi Cəlil Məmmədquluzadə də ana dilinin tədrisinin zamanın tələblərinə uyğun qurmaq üçün ilk növbədə ərəb əlifbasından imtina etməyi vacib sayırdı. Cəlil Məmmədquluzadə ərəb əlifbasının şərti - işarə cəhətdən doğurduğu çətinliklərlə yanaşı, dilimizin qanunlarına, təbiətinə uyğun olmadığını, ümumən bir əlifba nümunəsi kimi bu hərf - işarələrin qüsurlarını tənqid və ifşa edirdi. Ərəb əlifbasını latın əlifbası ilə əvəz etmək ideyası Mirzə Cəlili hələ gənclik illərində, kənd müəllimi olduğu dövrdə düşündürmüş, bu məqsədlə 1895 - ci ildə Peterburqa getmiş, mövcud əlifbanın dəyişdirilməsi ilə bağlı fikirlərini “Novoye vremya” qəzetinin redaktoru Suvorinlə bölüşmüşdü. Suvorin Cəlil Məmmədquluzadəyə belə bir məsələnin vaxtı çatmadığını, ona bu təşəbbüsdən əl çəkməyi məsləhət görsə də böyük mütəfəkkir ömrü boyu bu yoldan dönməmişdi.

Böyük maarifçi Azərbaycan dilinin yüksək pedaqoji - metodik səviyyədə tədris olunması, tədris prosesinin doğma ana dilində aparılması məsələlərinə də xüsusi əhəmiyyət vermişdir. O göstərirdi ki, bir qism ziyalıların, millətin bir çox “ sahibi - mənsəblərinin”, ruhanilərin əcnəbi dillərdə danışa bilməsi hələ hünər deyil. Hünər odur ki, “türkün ( azərbaycanlının V. R.) açıq ana dilində” danışmağın eyib yox, səviyyəsizlik yox, böyük mədəniyyət, yüksək qürur mənbəyi, ali vətəndaşlıq və vətənpərvərlik keyfiyyəti olduğunu dərk edib onun təəssübünü çəkməkdir. Millət övladlarının birinin ərəbcə, birinin farsca, birinin rusca danışması, ana dilini - anaları Zöhrəbanı

bacının dilini unutması əslində onların faciəsinin başlanğıcıdır. Bütün xalqlar ana dili vasitəsilə ucalır, inkişaf edir, həmişə- yaşar olur. Böyük Mirzə Cəlilin düşünüb daşındığı, sonda gəldiyi qənaət, böyük ideal, məram belə məzmuna və mahiyyətə malik idi.

Mirzə Cəlilin maarifçi - pedaqoji görüşlərində qadın təhsili və tərbiyəsi haqqında məsələlər xüsusi yer tutur. Yuxarıda qeyd etdiyimiz kimi, qızlarımızın təhsilə cəlb edilməsinə aid ilk təcrübələrdən biri məhz onun adı ilə bağlıdır. Böyük yazıçı - publisist cəmiyyət həyatında maarifin yayılmasını, işıqlı sabahların açılmasını bilavasitə qızların düzgün təhsil - tərbiyəsi ilə əlaqələndirirdi. Xüsusi qeyd edirdi ki, uşağın yüksək tərbiyəvi keyfiyyətlərə malik olmasında yaxşı təhsil görmüş qadın - ananın rolu böyükdür. Azərbaycanlı qızların təhsilə cəlb edilməsi, avam, hüquqsuz vəziyyətdən xilas olması böyük mütəfəkkiri həmişə düşündürən məsələ olmuşdur. O, bir pedaqoq kimi oğlanlarla yanaşı, qızlarımızın da təhsil almaq arzularını, biliklərə yiyələnmək, zəngin mənəvi keyfiyyətlərə malik olmaq kimi hisslərini çox gözəl duyur və bu cəhəti öz ədəbi - publisist əsərlərində yüksək səviyyədə təsvir edirdi.

"Bir nişanlı qıs" felyotonunda qızların hüquqsuzluğu, təhsillənmək, cəmiyyət həyatına qoşulmaq arzusu çox təbii, uşaq ruhunu ifadə edən bir mənzərə kimi canlanır. Burada həm də köhnə düşüncənin, ətalət və cəhalət girdabında sürünən insanlarımızın Avropaya bir sivilizasiya məkanı kimi yox, öz ağlının və əxlaqının səviyyəsində baxması, özünü bu təmiz güzgüdə görə bilməsə də əksinin aydınlığı, dəqiqliyi ilə heyranedici bir şəkildə təsvir edilmişdir. Çox yığcam və mənalı şəkildə ifadə olunmuş felyotonun tam mətni belədir:

Nişanlı qız ağlaya - ağlaya deyir ki, " Ey mənim qara bəxtim, nə olaydı ki, mən anadan olaydım Firəngistan şəhərinin birində, atamın adı olaydı Fridrix, anamın adı olaydı Avqustina, mənim adım olaydı Mariya. Nə olardı ki, dünyanı işıqlandıran günün üzünə hərdənbir baxmış olaydım və atam - anam məni qoca kişiyə vermək istəyəndə bir söz danışmağa ixtiyarım olaydı. Ey mənim qara bəxtim, nə olardı ki, milyonlarla yazılan kitablardan ikicəyini oxumuş olaydım və biləydim ki, dünyaya nədən ötrü gəlmişik. Ey mənim qara bəxtim, doğrudur, firəng qızı olsa idim, öləndən sonar yerim cəhənnəmin dib bucağı olacaq idi; amma çifayda ki, indidə öləndən sonra cənnətə gedib görəcəyəm ki, elə hayana istəyirəm gedəm, hayanda istəyirəm oturam, hər yan və hər tərəf doludur keçəl - küçəl məşədi və kəlbayılar ilə, bitli hacılar ilə və çirkli və tərli çadralı arvadlar ilə, ey mənim qara bəxtim!" (2, 439).

Qızların təhsil və tərbiyədən məhrum edilməsi, ər-arvad qarşılıqlı yaşayış qaydalarına hazırlamadan erkən yaşdan "ər evinə göndərilməsi", burada isə düzgün qurulmuş ailə münasibətlərinin olmaması, ən adi məişət azadlıqlarından məhrum edilməsi, ərin qadın üzərində qeydsiz - şərtsiz hökmranlığı, zülmkar hərəkətləri Cəlil Məmmədquluzadənin ictimailəşdirərək, geniş əhalinin nəzərinə çatdıraraq qınaq hədəfinə çevirdiyi zərərli - ziyanlı, köhnə adət - ənənələr idi. Böyük yazıçının yaradıcılığında qız təhsili və tərbiyəsi sosial - peaqoji problem kimi qoyulur və onun həlli yollarının müəyyənləşdirilməsinə səy göstərilirdi. Valideynlərin hər ikisinin təhsilli olmasını ailə münasibətlərinin düzgün qurulmasının əsası kimi qiymətləndirən Mirzə Cəlil yaxşı təhsil görmüş cənc oğlanların ailə qurmaq məsələsində problemlər yaşadığını müşahidə edərək yazırdı ki, bu təhsilli gənclər " evlənmək fikrinə düşəndə axtarırlar ki, özlərinə elə bir ömür yoldaşı tapsınlar ki, onların səliqəsinə və zövqünə müvafiq gəlsin. Amma çünki özləri az - çox elm və tərbiyə görüblər, dəxi tərbiyə və elm görməmiş qızlarımıza mail olmurlar və çoxları gedib əcnəbi millətlərin oxumuş qızlarından bəyənib, alıb özlərinə övrət qərar verirlər."

Əgər bu iş bir qədər vaxt belə getsə, axırda bir yandan ailələrimiz milliliyini itirib millətimizdən yadırğayacaqlar; bir tərəfdən də qızlarımız yekəlib, illərlə evdə qalıb, nişanlı intizarında olacaqlar" (3, 50).

Böyük mütəfəkkir doğru olaraq belə bir cəhəti təbii sayır və qəbul edirdi ki, ata və ananın dünyagörüşü və əxlaqi - mənəvi keyfiyyətlərinə görə fərqli xüsusiyyətləri ailə münaqişələrində təsir amilidir. Ona görə də Mirzə Cəlil məsələyə özünəməxsusluqla yanaşaraq yazırdı: " … alim cavanlarımızı qınamaq mümkün deyil; səbəb budur ki, əgər onlar gedib tərbiyəsiz qız alıb evə

gətirsələr, yola getməyəcəklər və necə də yola getsinlər ki, kişi kitabdan və elmdən danışanda övrət saatda bir asqırıb deyəcək: "Kişi, tək səbir gəldi, kitabı qoy yerə" (3, 50).

Cəlil Məmmədquluzadənin yaradıcılığında pedaqoji mötivlər cüclüdür, həm də çox cəhətlidir. Onun yaradıcılığı dövrünün pedaqoji düşüncəsinin demək olar ki, bütöv mənzərəsini və bütün çalarlarını əks etdirir. Ona görə də dahi Mirzə Cəlilin fəlsəfi, ədəbi - estetik baxışları ilə yanaşı pedaqoji görüşləri də çox saylı tədqiqatların mövzusu olmalıdır. Bu sahədə professor Əhməd Seyidovun monoqrafik tədqiqat xarakterli oçerkini və digər bir neçə məqalələri göstərmək olar. Lakin bunlar Cəlil Məmmədquluzadənin sosial - pedaqoji məzmuna malik elmi - nəzəri görüşlərinə aid daha dərin, sistemli tədqiqatlara olan ehtiyacı azaltmır.

## ƏDƏBİYYAT


1. Abdullayev A. S. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, Maarif, 1966
2. Məmmədquluzadə C. Əzsərləri, 4 ciliddə, II cild, Bakı, Öndər, 2004
3. Məmmədquluzadə C. Əzsərləri, 4 ciliddə, III cild, Bakı, Öndər, 2004
4. Seyidov Ə. Y. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən, Bakı, Maarif, 1987.


## ABSTRACT


**Vahid Rzayev**


### JALIL MAMMADGULUZADEH AND OUR SOCIO-PEDAGOGICAL CONCEPTION


The paper deals with the place and role of Jalil Mammadguluzadeh's ideas on education in the history of our pedagogical thought. The influence of his pedagogical views and thoughts about citizenship and patriotism qualities of personality, the content of education, mother tongue teaching and women's education on socio-pedagogical environment of the contemporary period is investigated in the paper; and studying of the essential features of this pedagogical heritage for modern time is aimed


## РЕЗЮМЕ


**Вахид Рзаев**


### ДЖАЛИЛ МАМЕДКУЛИЗАДЕ И НАША СОЦИАЛЬНО-ПЕДАГОГИЧЕСКАЯ МЫСЛЬ


В статье рассмотрены вопросы места и роли в истории нашей педагогической мысли взглядов Джалила Мамедкулизаде на образование и воспитание. Здесь исследуется влияние на общественно-педагогическую среду того периода его педагогических взглядов и идей о гражданских и патриотических качествах личности, преподавании родного языка, образовании и воспитании женщин.Сделана попытка изучить важные и для сегодняшнего дня особенности этого большого педагогического наследства.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

**VƏLİ ƏLİYEV**

*Naxçıvan Dövlət Universiteti*

**UOT:37**

# TƏLİMDƏ ƏYANİLİKDƏN İSTİFADƏNİN SƏMƏRƏLİ TƏŞKİLİ

**Açar sözlər:** *təlim, təlimin prinsipləri, əyanilik, əyaniliyin növləri, vasitələri*

**Key words:** *training, the principles of training, visualization kinds of visualization means of visualization*

**Ключевые слова:** *обучение, принципы обучения, наглядность, виды, средства наглядности*

Təlimin müvəffəqiyyətlə nəticələnməsini təmin etmək üçün onun, yəni təlimin prinsipləri irəli sürülən əsas tələblərdir. Bu prinsiplərdən biri və ən önəmlisi əyanilik prinsipidir. Əyanilik prinsipi təlimi mücərrəd sözlər üzərində deyil, uşaq tərəfindən bilavasitə qavranılan konkret şeylər və hadisələr üzərində qurmağa deyilir. Təlimdə əyanilik prinsipi hələ çoxdan bəri materialist filosoflar və materialist fikirli pedaqoqlar tərəfindən əsaslandırılmışdır. Əyanilik prinsipinin yaradıcısı isə haqlı olaraq XYII əsrin böyük çex pedaqoqu Jan Amos Komenski sayılır. J.A.Komenski ingilis filosofu F.Bekonun materialist fəlsəfəsinə əsaslanaraq təlimdə əyanilik prinsipini irəli sürmüş və öz məktəbində tətbiq etmişdir. Orta əsr əzbərçilik təliminə etiraz edən J.A.Komenski haqlı olaraq tələb edirdi ki, görülməsi mümkün olan cismə, eşidilməsi imkan daxilində olan səsə qulaq asmaq, toxunulması gərək olan varlığı duymaq vacibdir. O, bilik qazanmaqda hiss üzvlərinin mövqeyini xüsusi qeyd edərək, özünün məhşur "Böyük didaktika" əsərində yazır: " Duyğularda omayan heç bir şey, şüurda da olmadığından ağıl bütün düşüncələr üçün materialı yalnız duyğulardan alır". Komenski təlimdə biliyin hissi qavrayışdan başlanmasını irəli sürür və özünəməxsus təşbihlərdən istifadə edərək deyirdi ki, söz qabıq, əşya isə onun nüvəsidir, başı nüvəsiz qabıqla doldurulmaq lazım deyildir.

Sözlər ancaq əşyalarla əlaqəli bir şəkildə şagirdlərə izah edilməlidir. Komenski əyanilik prinsipini təlimdə "Qızıl qayda" adlandıraraq yazırdı: "... mümkün olan hər şeyi duyğularla qavramağa təqdim etmək, qoy müəllimlər üçün qızıl qayda olsun, yəni görünəni – görmə duyğusuna, dadı olanı – dad duyğusuna, səsi – eşitmə duyğusuna, iyi – iybilmə duyğusuna, toxunula biləni – lamisə duyğusuna təqdim etməlidir. Əgər bir şeyi birdən – birə bir neçə duyğu ilə qavramaq mümkündürsə, ... qoy eyni zamanda bir neçə duyğu ilə qavranılsın". Bu o deməkdir ki, əgər hər hansı bir şeyi və ya hadisələri eyni zamanda görmək, iyləmək, eşitmək, toxunmaq vasitəsilə dərk etmək mümkündürsə, bunların hamısını təlimdə eyni zamanda işə salmaq lazımdır.

Cisim və hadisələrin rəngi, səsi, forması, dadı, istiliyi, bərkliyi və s. əlamətləri təlim üçün nə qədər zəruri olsa da kifayət deyildir. Çünki əlamətlərin bilavasitə duyulması və qavranılması idrakın ilk mərhələsidir. Təlimi bu mərhələdə məhdudlaşdırmaq olmaz. Onu daha yüksək mərhələyə - anlayışlar mərhələsinə qaldırmaq lazımdır. Bu yüksəlişdə əyanilikdən bir vasitə kimi istifadə edilməlidir. Əyani vasitə bir neçə məqsədə xidmət edə bilir:

1) hadisələrin müxtəlifliyini konkret nümunədə yəqin etmək : 2) bir çox obyektlər üçün ümumi olan əlamətləri görmək: 3) konkret obyekti müşahidə etməyi bacarmaq: 4) ümumiləşmiş ideyanı konkret təsəvvür edə bilmək: 5) ideyanı aydın, şüurlu başa düşmək və s.

Əyaniliyin əhəmiyyəti haqqında rus pedaqoqu K.D.Uşiniskinin fikirləri də çox qiymətlidir. O, ilkin təlimini elmi əsaslarını işləyib hazırlayarkən əyaniliyə böyük əhəmiyyət vermiş, ona elmi

əsaslandırma verməyə çalışmışdır. Həmçinin şagirdlərdə müşahidə qabiliyyətinin, qavrama fəallığının inkişaf etdirilməsində əyani təlimin əhəmiyyətini yaxşı başa düşürdü. O, balaca məktəblilərin əyani təliminin təbiətinin təhlilinə əsaslanaraq müəllimlərə elə kitabları göstərməyi məsləhət görürdü ki, kitablar şagirdlərdə canlı, parlaq obrazlar doğurmuş olsun, tanış əşyaların yeni tərəflərini açıb göstərmiş olsun, tədris materiallarının şagird tərəfindən daha möhkəm mənimsənilməsinə kömək etmiş olsun. Uşiniskinin fikrincə: "Uşağın təbiəti aydın bir surətdə əyanilik tələb edir. Uşağa ona məlum olmayan beş kəlmə söz öyrətməyə çalışın, o bunların üzərində uzun müddət və əbəs yerə əzab çəkəcəkdir. Lakin bu cür iyirmi kəlməni şəkillərlə əlaqələndirin və uşaq bunları çox asanlıqla mənimsəyəcəkdir".

Əyaniliyi müxtəlif vasitələrlə həyata keçirmək olar. Bura təbii varlıq əyaniliyi, şərti əyaniliyi, sözlü əyaniliyi və hərəkətli əyaniliyi misal göstərmək olar. Təbii varlıq əyaniliyinə müxtəlif bitkilər, yarpaqlar, süxurlar, musiqi və nəğmə nümunələri aiddir. Müxtəlif mövzularla əlaqədar istifadə olunan sxemlər, xəritələr, cədvəllər, diaqramlar, qrafiklər, çertyojlar şərti əyanilikdə istifadə olunur. Bunlardan əlavə sözlü əyaniliyi də qeyd etmək lazımdır ki, burada söz vasitəsilə şagirdlərdə konkret təsəvvür yaratmaq mümkün olur. Müəllim bu məqsədlə hadisələrin canlı, obrazlı təsvirinə nail ola bilir. Söz vasitəsilə canlı təsəvvür yaratmaqda atalar sözləri, zərbi məsəllər, müdrik ifadələr, bənzətmələr, təşbehlər və s. bədii ifadə vasitələri müəllimin karına gəlir.

Əyani vasitələrin tətbiqi zamanı şagirdlərin diqqətini yalnız müşahidə olunan konkret obyektlərin əlamətlərinə yönəltdikdə əsasən qavrayış və təsəvvürün formalaşmasına, həmin əlamətlər ümumiləşdirilərək eyni tipli digər obyektlərə aid edildikdə isə anlayışların formalaşmasına imkan yaranır. Qanunauyğunluğu nəzərə alan müəllim dərsdə əyani vasitələrdən istifadə edərkən çalışır ki, şagirdlərdə yaranan qavrayış və təsəvvürlər müvafiq anlayışların formalaşmasına xidmət etsin.

Əyanilik şagirdlərin şeylər və hadisələr haqqındakı təsəvvürlərini dürüstləşdirir, aydınlaşdırır. Əyanilik biliyin asan və möhkəm mənimsənilməsinə səbəb olur, təlimdə formalizmi aradan götürməyə kömək edir. Əyanilik həm də nitq və təfəkkürün inkişafına xidmət edir, uşaqları fəallaşdırır, dərsin maraqlı keçməsinə səbəb olur. Dərs yuxarıda adlarını çəkdiyimiz müəyyən əyani vasitələr üzərində qurulduqda şagirdlər daha çox həvəslənirlər, ancaq quru söz əsasında keçilən dərslər uşaqları, xüsusən aşağı yaşları az maraqlandırır və tez yorur.

Beləliklə, əyanilik təlimin keyfiyyətini yüksəltmək üçün çox vacib prinsipdir. Hər bir müəllim təlimdə əyanilikdən geniş istifadə etməlidir. Eyni zamanda müəllim hər bir dərsində fərqinə varmadan əyanilik tətbiq etməyə məcbur deyildir. Burada belə bir qaydanı əsas tutmaq lazımdır: ayrı – ayrı əşyalar və hadisələr haqqında şagirdlərin təsəvvürü natamam olan zaman və ya bu haqda təsəvvürü olmayan vaxt əyanilik mütləq tətbiq olunmalıdır. Bu cəhətdən aşağı yaşlarda əyaniliyin tətbiqinə daha çox ehtiyac vardır. Uşaqlar böyüdükcə onlarda şeylər və hadisələr haqqında təsəvvürlər genişlənir, dəqiqləşir. Ona görə yuxarı yaşlarda, əgər şey haqqında uşağın dürüst təsəvvürü varsa, həmin şeyi ona göstərməkdən adını çəkmək kifayət edər. Lakin bu yaşlarda da şagirdlərin danışılan hadisə haqqında təsəvvürləri yoxdursa və ya təsəvvürləri dürüst deyilsə, əyanilik tətbiq edilməlidir.

Tədris mövzuları çox və əyani vasitələr də müxtəlif olduğundan əyaniliyin tətbiqi zamanı bir sıra tələblər nəzərə alınmalıdır:

1. Əyani vasitələrdən istifadənin məqsədi hər dəfə müəllimə aydın olmalıdır. Çünki məqsəd müxtəlif ola bilir: Öyrənilən obyektlərdəki əlamətlərin müəyyənləşdirilib ümumiləşdirilməsi, ümumi əlamətin konkret obyektdə üzə çıxarılması, hadisənin inkişaf mərhələlərinin sezilməsi, əlamətlər arasında qarşılıqlı asılılığın dərk edilməsi, konkret obrazın yaradılması və s.

2. Əyani vasitədən istifadə ilə əlaqədar veriləcək izahatın məqamını müəllim qabaqcadan müəyyənləşdirməlidir. Çünki izahat əyani vasitənin nümayişindən əvvəl də, sonra da, nümayiş zamanı da mümkün ola bilir.

3. Dərsdə əyanilikdən istifadənin vaxtını və yerini müəllim əsaslandırmalıdır. Əyani vasitə sinifdə dərsə qədər, dərsin gedişində, təkrar zaman və yeni mövzunun öyrədilməsi zamanı aparıla bilər.

Bütün bunlarla yanaşı unutmaq olmaz ki, əyaniliyin məqsədi nəzərə alınmadan istifadə edildikdə faydadan daha çox zərər verə bilir: şagirdlərdə anlayışlar əvəzinə konkret qavrayışlar formalaşır. Dərslərin əyani materiallarla yüklənməsi zamanı meydana çıxan təəccürat bolluğu təfəkkürün həzmini çətinləşdirir və şagirdlərin biliklərinin keyfiyyətinə ziyan vurur.

Bütün bunları yekunlaşdıraraq onu qeyd etməliyik ki, təlimdə müvəffəqiyyət qazanmaq üçün onun bütün prinsiplərindən istifadə edilməlidir.

## ƏDƏBİYYAT


1. Kazımov H.M., Həşimov Ə.Ş. Pedaqojika, pedaqoji universitet və institut tələbələri üçün dərslik. Bakı, 1991
2. Kazımov H.M. Məktəb pedaqogikası. Dərslik. Bakı, Çaşıoğlu, 2005
3. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı, 1991
4. Komenski Y.A. “Böyük Didaktika” Bakı, 2012
5. Rüstəmov F. Pedaqogika tarixi. Dərslik. Bakı, 2006
6. Əhmədova H.H., Zeynalova N.E. Pedaqogika. Dərslik. Elm və təhsil, 2016


## ABSTRACT


**Valı Alıyev**


## USEFUL ORGANIZATION OF VISUALIZATION IN TRAINING


The article deals with one of the main principles of visualization acting in training process. This is also one of the main principles for both secondary school experience and high school.

Visual tool can serve several purposes: 1) make sure the variety of events concretely 2) see signs which are common to a lot of objects 3) to be able to observe specific object 4) understand the idea cleanly, consciously etc.

It is possible to realize the visualization, by different means. Here are examples of real existence visualization, conventional visualization, verbal visualization and active visualization.

Being different the training topics a number of requirements should be taken into consideration during the implementation of visualization.

Summarizing the above we should note that for achieving success on training the teacher has to use the forms and means of visualization skillfully.


## РЕЗЮМЕ


**Вели Алиев**


## ЭФФЕКТИВНАЯ ОРГАНИЗАЦИЯ ИСПОЛЬЗОВАНИЯ НАГЛЯДНОСТИ В ОБУЧЕНИИ


В статье рассматривается наглядность, являющейся одним из важных принципов обучения, что составляет важный принцип обучения учеников и студентов и в школе, и в высшем учебном заведении.

Наглядное пособие может служить некоторым целям: 1) определять разнообразность событий на основе конкретных образцах; 2) видеть признаки, присущие для некоторых

объектов; 3) уметь наблюдать за действиями конкретного объекта; 4) ясно и сознательно понимать идею и т.д.

Наглядность можно осуществлять разными способами. Примерами могут быть наглядность естетственного бытия, условная наглядность, наглядность словами и наглядность в действии.

Поскольку темы обучения разны, следует учитывать ряд требований по применению наглядностей.

Обощая вышесказанное, можно прийти к заключению, что для достижения высоких результатов в обучении, преподаватель должен мастерски использовать формы и средства наглядности.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

**MİRHASAN EMİNOV**
*Nakhchivan State Univercity*
*mirhesenemin@yahoo.com*

**UOT:371**

# THE ROLE OF PERSON-ORİENTED CONTENT OF EDUCATİON İN GENERAL SECONDARY SCHOOL

**Açar sözlər:** *şəxsiyyətyönümlü təhsil, əməkdaşlıq, yaxşı nümunə, təhsil sistemi, əxlaq normaları, milli-mənəvi dəyərlər, insan kapitalı*

**Key words:** *person-oriented education, cooperation,a good example, education system, moral standards, national and spiritual values, human capital.*

**Ключевые слова:** *личностно-ориентированное образование, сотрудничество, хороший пример, система образования, моральные нормы, национально-нравственные ценности, человеческий капитал.*

The history of education system in Azerbaijan dates back to III century B.C. The latest education system of Azerbaijan includes three historical periods: the first system existed from 1918 to 1920 and the second period covers the years between 1920 to1990 which was imposed by the Soviet Russia and the current education system has been applied since the country gained its independence in 1991. Since independence, one of the first laws that Azerbaijan's Parliament passed was to adopt a modified-Latin alphabet to replace Cyrillic [10]. Modern education in Azerbaijan is regarded as a type of activity that constitutes the basis for the progress of the society and the state. The educational system has a democratic, secular character and its basis is national and international values in the Republic of Azerbaijan. The right to education is the fundamental right of citizens living in and outside of the Republic of Azerbaijan. This was reflected in the Constitution of the Republic of Azerbaijan within the Education Law of the Republic of Azerbaijan. The right of citizens to be educated is determined in the article 42 of the Constitution of the Republic of Azerbaijan as follows:

- Every citizen has the right to education;
- The state grants free compulsory general secondary education;
- The state controls the education system;
- The State guarantees the education of talented persons without regard to their material condition;
- The government sets minimum educational standards;
- Everyone has the right to education in the framework of the state standard;
- It is guaranteed that all citizens have the right to education in Azerbaijan irrespective of differences such as nationality, religion, race, language, sex, age, health and social status, activity area, place of residence and political views [9].

Education in Azerbaijan develops through integration into the global education system whilst prioritizing national, moral, and universal values in education system [4].

The content of education is one of the major problems of didactics and is an important means in shaping human personality. To choose what from the treasury of knowledge acquired by humanity and the issue of teaching in general schools remain a problem. The success of the training

depends on the correct solution of the problem. In the globalizing world, the improvement of living standards of the country's population is linked to its competitiveness, as well, as its educational indicator. The educational level, intellectual potential, political will and national unity of the country's population play an important role in this process. Knowledge, innovations and their application are considered to be a source of value. From this point of view, we do not only improve our knowledge, skills, habits and outlook by upgrading the content of our education, but also enhancing the living standards of our pupils and students. It is known that educators and public representatives complained about the heavy curriculum and textbooks and their overburdening with redundant and unnecessary materials.

In relation with this problem the State Commission was established on March 30, 1998 by the Order of the President of the Republic of Azerbaijan to investigate and resolve the issue. In the "Education Reform Program of the Republic of Azerbaijan", prepared by the State Commission, we read: "At present, the education system does not have a concept of education, which is based on our national ideology, which instills a sense of patriotism, citizenship, commitment to the land and the people into our youth". In the education programs constituting the basis of the content of education and upbringing, the absence of the topics that instills the sense of patriotism has a negative impact on development of national-spiritual values of the youth. In other countries moral education activities such as in Malaysia is priority, as well. For example, Balakrishnan claims that Moral Education Curriculum contains an entire field of study devoted to patriotic activities such as discussing the ways of showing gratitude to the government for its efforts to develop the nation and the people [2] Reforms have started in our country's general education system taking the shortcomings, mentioned above, into consideration since 1999. Reforms are mainly focused on renovation and improvement of the content of education in quality. Children between the ages of 6 and 15 get free and compulsory education in Azerbaijan. Basic schooling includes three stages: primary education, general secondary and full secondary education. Primary school begins at the age of 6 and lasts for 4 years covering 1-4 classes General secondary education and full secondary education are also free in public schools in Azerbaijan including 5-9$^{th}$ forms and 10-11$^{th}$ forms respectively [8]. In secondary education, the question of content is objectively more complicated. Many people in the recent past and even today do not pay the needed attention to the content of secondary education and they consider secondary education, simply, as preparation for the next stage of education.

The realm of knowledge is progressing rapidly, which means the content of most subjects in public schools requires substantial and frequent revision in order to properly prepare today's youth.

Banks is also of the view that the values are essential to ensure healthy relationships and interaction between the individual and family, peer groups, society and the institutions he/she is a member [3]

The content of the topics is indispensable for teaching and learning. The activities in the class depend on the content of the topic including students' engagement, their interests, needs and skills.

In relation with the content, let's look through English student's book of 7 grade.

Student's Book English 7 includes 10 Units through the school year supported by passages, dialogues, texts: Unit 1. School. Unit 2. Communication. Unit 3. Motherland. Unit 4. Special Occasions. Unit 5 Weather. Unit 6. Environment. Unit 7. Good Habits. Unit 8. Art and Creativity. Unit 9. The World of Talent. Unit10. Summer Holidays. According to the authors of the student's book, all tasks, tests, grammar rules, illustrations, texts, fables, stories, poems, dialogues, given in the SB are relevant to the Ss' ages, skills, abilities and needs, interests and their understanding. They hope that the teachers and students will enjoy using the book and that they will gain satisfaction by experimenting with new ideas. In order to come to an understanding of person-oriented content of education and its effective use, let us now enter a classroom of the 7$^{th}$ form of

Yayji secondary school, Sharur region, Nakhchivan AR where the English language is taught. There are 16 students at the age of 13 in a group. The class meets for one hour a day, 3 days a week. According to the planning of the lesson, the theme of the text is “My Home Is My Castle!” [ 5, 37]. The teacher planned her lesson according to school-based language curriculum built in pedagogical approaches which facilitate learning progressions, stated aims, objectives, stages and timing for each stage, interaction (pairs, groups, whole class), procedures and activities and tasks/exercises, materials and teaching aids. The aims of the lesson are to increase the Ss’ listening, speaking, reading, and writing skills, practicing different activities and brushing up their critical and logical thinking skills on the given topic. The aim of classroom management is to create the conditions in which learning can take place. It covers the whole setting: the sitting arrangements, the teacher’s positioning in the classroom, his management of groups and pairs, how she deals with disruptive students, even her instructions.

The objectives of the lesson for students are:

- To recognize the names of places on the map
- To define the main idea and the characteristic features of the topic
- To express his/her ideas concerning the topic
- To read and match the pictures with passages
- To describe the places in pictures in different ways
- To think creatively and answer the questions on the topic “Motherland”

According to the curriculum for the 7$^{th}$ form, the standards for the lesson are:

1.1.2. To identify/define the main idea in the text listened
2.1.2. To use speech patterns/models in dialogues
2.1.3. To express ideas on the topic in different ways changing tense forms
3.1.4. To identify the main idea on the topic
4.1.2. To write the descriptions of the given things and situations

Note: to clarify we noted explanation of the standards

| | |
|---|---|
| Content line | Listening/Speaking/Reading/Writing |
| Integration | Geo.-3.2.1. Lit.-1.2.4./3.1.1./Native Language-1.2.4. |
| Interaction | CW/GW/PW/IW |
| Strategy | Incomplete story, Completion/Description |
| Resources | SB, video roll, CD, handouts, pictures, map |

As we enter the classroom, the first thing we notice is that the students are listening to the song ”Azerbaijan” attentively by M. Magomayev. The teacher asks the students to answer the following questions:

What is the song about?

How did you feel while listening?

Then teacher draws the Ss’ attention to the title of the text “My Home Is My Castle!” and tries to create a warm atmosphere in the class, because a “quick warming” helps to get students into the right mood for learning. The teacher draws the Ss’ attention to the map of the Republic of Azerbaijan. Teacher’s all instructions are in English. Sometimes she uses mimics to convey meaning. She gets the students to show their country on the map and name its capital, biggest towns, lakes, rivers, mountains, places of interest taking the level of each student into consideration. The teacher tries to find out what interests the students because person-oriented content of education is aimed at solving key problems of humanization of general secondary education: increasing the prestige of school education, developing students' sustained interest in cognition, the desire and ability to learn independently. Simultaneously, the teacher tries to reveal each student’s

subject experience and to provide psychological and pedagogical assistance in the development of his personality. If the traditional education brings each student closer to the parameters of the personality, the person-oriented content of education comes from recognizing the uniqueness of the student's own experience as an important source of individual activity. What this looks like in the classroom may depend on how the tenets are interpreted and applied

The students look at the map and complete the sentences. After the students have completed the sentences [5, 37], the teacher shifts to next major phase of the lesson.

The teacher draws a circle on the board and asks the Ss to write their answers around the key word “Motherland”. Because motherland is an important means to foster patriotism for the students. The same matter was emphasized by the researchers such as Muneer and Al-buhouachi who tried to relate one of the national-spiritual values such as national identity and patriotism with the notion of motherland.

Muneer believes that the national identity is identified through indicators that include the features and characteristics relating to the individual as he identifies his identity and patriotism, choosing and deciding with full freedom, and expressing his affiliation to his nationality and identity. [7]

Research question: What is “Motherland” for you? What ideas come to your mind when you hear the word “Motherland?




For the next activity, the teacher gets the Ss to exchange their ideas describing the pictures that demonstrate the development of Azerbaijan in the last few years [5, 38]. Students work cooperatively in groups, read the samples, discuss them, adding their own ideas. As there are new words in the samples, the teacher introduces key words: extreme, witness, be rich in, landscape, hospitality, a skyscraper. [5, 38].The teacher instructs her students to describe the pictures and match them with the given themes (1. Land of beauty! 2. Birth of music! 3. Azerbaijan, land of fire! 4. Land of culture! 5. Land of mineral and thermal springs and high mountains! 6. Land of natural riches!) and pay attention to the pronunciation of the key words. For example, Sample 1. Land of beauty! - You can see most beautiful and attractive landscapes! You can meet very hospitable people here! Sample 4. Land of culture!-Baku is the city of winds. Baku changes day by day. You can see a lot of places of interest, historical monuments and skyscrapers here, etc. Such a group activity boosts the students’ confidence, which facilitates learning progressions and suits learners’ needs, interests and abilities. The teacher provides a language environment to encourage learners to learn and use English. In order to do this, students need to overlearn the target language, to learn to

use it spontaneously. At the same time the teacher pays attention to the students' ages. When we teach 13 year old children we should:

- encourage them to read English (stories, comics, reading games);
- explain things about language, but only very simple notions;
- encourage creative writing and help them to experiment with language;
- explain their intentions and ask them to help each other;
- keep teacher talking time down, so students speak more;
- talk a lot in English to our Ss. The more English the children hear, the more they will learn.

Doing these exercises Ss speak about the places of interest in Azerbaijan and express their impressions easily . These exercises encourage students to discuss the topic and make them think more creatively and enthusiastically about their homeland. The teacher applies personality-oriented model of learning and tries to disclose each student's individual cognitive abilities. The main objectives of personality-oriented model of learning are:

-disclosure of each student's individual cognitive abilities;

- help him/her in self-knowledge, self-actualization, self-realization, self-determination;

- the formation of a culture of life, which enables him/her to productively build his/her own lives.

Consequently, the teacher facilitates the development of general characteristics - the areas of intellectual, social, personality and development of students' other individualities. Then the teacher gets the Ss to think and to answer the questions individually [5, 39]. The aim of this exercise is to foster the best in students, to love their country and make as much for it as possible.

- What is Azerbaijan famous for?
- What does our country attract tourists with?
- What natural resources does Azerbaijan have?
- What does the word "Baku" mean?
- What places do tourists enjoy visiting in our country ?
- How do Azerbaijani people greet their guests?
- Who is the head of the country?

Finally, the teacher instructs the students to turn to an exercise in the lesson which asks them to write and to say proverbs about countries. For example, what do these proverbs "My Home is My Castle" and "East or West, Home is Best" mean for you? The Ss think of the proverbs and explain the meaning individually. Students talk about these proverbs in order to explain that the people in Azerbaijan are fond of their motherland and our people always value the presence of visitors. The same idea was reflected by Al-buhouachi, as well. Al-buhouachi identifies the national identity as the linking of the individual with a piece of land known as the homeland [1]

Then the teacher calls attention to the Present Perfect Tense Form. The teacher draws Ss' attention to the usage of Yes/No questions in Present Perfect and the construction: "Have you ever been to…" [5, 39]. In the end, Ss read and act out a dialogue [5, 40]. For the final few minutes of the lesson the teacher carries out assessment by collecting samples of students' work [5, 39]. The class is almost over. The teacher uses the last few minutes to give the home assignment. The students are to collect additional materials on Heydar Aliyev Foundation from different sources. They will read these for their classmates at the beginning of the next lesson.

The lesson we have just observed might be considered a form of language immersion, where the topic is learned through the medium of a foreign language. It is essential to note that the success of the training depends on the person-oriented content of education. In the globalizing world the educational level, intellectual potential, political will and national unity of the country's population play an important role in this process.The concept of education is based on our national ideology, which instills a sense of patriotism, citizenship, commitment to the land and the people

into our youth. According to Hin, moral values of individuals are very essential, as well. Hin says: “The aim of Moral Education is to produce individuals who are respectable and responsible through the nurturance, appreciation and practice of moral values” [6] We are sure that Azerbaijani teachers will continue to do everything possible to educate the young generation in the spirit of Azerbaijanism, in other words, to implement measures arising from the "National Strategy for the development of education in the Republic of Azerbaijan" approved by Order No. 13 of President of the Republic of Azerbaijan dated 24 October 2013

## REFERENCES


1. Albuhouachi, A. (2000) Education and the educational identity dilemma in the age of globalization. A research paper presented in the 8th annual conference Education and the Cultural Plurality at the Beginning of the Third Millennium, Cairo: the Egyptian Society of Comparative Education and Administration
2. Balakrishnan, Vishalache, (2009), Teaching Moral Education in Secondary Schools Using Real-life dilemmas. Ph.D thesis submitted to the Victoria University of Wellington, New Zealand
3. Banks, Ellen, (1993). Moral Education in a Multicultural Context, The Malaysia Primary Curriculum. ERIC ED 361068
4. Education in Azerbaijan, The Challenges of Transition, Azerbaijan International, Winter 1996, Retrieved August 23, 2017.
5. Guliyeva G., Rustamova K, Textbook for Grade 7 of Secondary schools, Kovsar, Baku, 2014
6. Hin, Eow Boon. (2007). Moral Education Person, Malaysia, SDN BHD
7. Muneer, A. (2002). Landmark, Indicators and Measurement of the National Identity, the National Identities, the International Community and Media, Beirut: Dar Annahda.
8. Azerbaijan Education System. www.classbase.com, Retrieved 2017-05-11.
9. https://en.wikipedia.org/wiki/Education_in_Azerbaijan
10. http://edu.gov.az/en/page/72/5244



**XÜLASƏ**

**M.S.Eminov**

**ÜMUMİ ORTA MƏKTƏBDƏ TƏHSİLİN ŞƏXSİYYƏTYÖNÜMLÜ MƏZMUNUNUN ROLU**

Məqalədə ümumi orta məktəbdə təhsilin şəxsiyyətyönümlü məzmunundan istifadənin səmərəli yollarından bəhs olunur. Müəllif qeyd edir ki, şəxsiyyətyönümlü təlim bir sistemdir. Bu sistemdə şagird təhsil prosesinin bərabər hüquqlu iştirakçısına çevrilir. Belə yanaşmada məqsəd tədris planının yerinə yetirilməsi yox, şagirdin şəxsi potensialının inkişaf etdirilməsidir. Belə halda şəxsiyyətyönülü təlim elə təşkil olunmalıdır ki, şagir özünü fəaliyyət mənbəyi kimi hiss etsin. Bir çox insan hələ də şəxsiyyətin insanın fiziki görünüşü ilə əlaqəli olduğunu düşünür. Əgər bir nəfər yaxşı bir paltar geymişsə, deməli yaxşı şəxsiyyətdir. Lakin bu düzgün yanaşma deyil. Bu yanaşmanın mahiyyəti müəllimin şagirdin bütün şəxsi xüsusiyyətlərini - onun temperamentini, qabiliyyətini, ehtiraslarını, istəklərini və arzularını nəzərə almasından ibarətdir. Buna görə də ailə, məktəb və müəllimlər akademik həyatının hər mərhələsində uşağın şəxsiyyətinin inkişafını nəzarətdə saxlamalıdırlar.

**РЕЗЮМЕ**

**М.С.Эминов**

**РОЛЬ ЛИЧНОСТНО-ОРЕНТИРОВАННОГО СОДЕРЖАНИЯ ОБРАЗОВАНИЯ В ОБЩЕЙ СРЕДНЕЙ ШКОЛЕ**

В статье речь идет об эффективном использовании личносено-орентирован-ного содержания образования в общей средней школе.

Автор отмечает, что обучение, ориентированное на человека, - это система, в которой студент становится в равной степени активным участником образовательного процесса. Главная цель этого подхода заключается не в овладении учебным планом, а в развитии личного потенциала учеников в образовании. В этом контексте обучение, ориентированное на человека, должно строиться таким образом, чтобы учащийся чувствовал себя источником активности. Многие люди все еще думают, что личность связана с физическим обликом человека. Если человек хорошо построен и одет в хорошее платье, говорят, что у него хорошая личность. Но это не рациональный подход. Суть этого подхода заключается в том, что учитель должен принимать во внимание все личные характеристики ученика - его темперамент, способности, страсти, устремления и желания. Поэтому семья, школа и учителя должны контролировать личность ребенка на каждом этапе академической жизни.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

**MƏHSƏTİ ƏSGƏROVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 371**

# MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ XARİCİ DİL ÖYRƏNMƏYİN ÜSTÜNLÜKLƏRİ

**Açar sözlər:** *erkən yaşda dil öyrənmək, məktəbəqədər yaş, xarici dil öyrənmə, bir neçə xarici dil öyrənmək*

**Key words:** *early childhood learning, pre-school age, foreign language learning, learning a few foreign languages*

**Ключевые слова:** *дошкольного возраста, изучения иностранного языка, изучения нескольких иностранных языков*

Müasir dövrdə xarici dillərin öyrənilməsinin ən münasib yaş dövürlərindən çox danışılır. Əvvəllər Azərbaycanın orta məktəblərində xarici dillərin tədrisinə 5-ci sinifdən (11-12 yaş) və əlifbadan başlanılırdı. Ölkəmiz müstəqillik qazandıqdan sonra, Azərbaycan Təhsil Nazirliyi təhsil sistemində bir çox islahatlar apardı. O cümlədən xarici dillərin öyrənilməsinə daha erkən yaşda başlanılmasına qərar verildi. 2006-cı ildən xarici dillər 6 yaşından yəni 1-ci sinifdən və kommunikativ (sirayətedici) üsulla öyrədilir.

Ölkəmizdə də xarici dilin tədrisində ən müvəffəq metodlardan istifadə etmək üçün dünya təcrübəsi daima araşdırılır, öyrənilir və lazım gəldikcə tədrisə tətbiq edilir. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Fransız dili Müəllimləri Assosiasiyasının (APFAz) birgə əməkdaşlığı ilə orta məktəblər üçün fransız dili dərslikləri də dövrümüzün tələblərinə uyğun olaraq yeniləndi.

Mütəxəssislərin araşdırmalarına görə xarici dillərin kommunikativ üsulla öyrədilməsi və öyrənilməsinin ən uyğun zamanı məktəbəqədər yaş dövrü hesab edilir. Üç yaşında bir uşağın əqli daha əsnəkdir, yəni hər hansı bir dili təlqin edərək öyrənməyə daha geniş imkanları var.

Bu sahədə dünya təcrübəsini öyrənmək maraqlıdır ki, erkən yaşda dil öyrənmənin nə kimi üstünlükləri var. Az yaşlı uşaqlarda tələffüz edərkən aksent fərqi olmur, daha asan və müvəffəqiyyətlə öyrənirlər. Danışarkən nitq vərdişlərinə yiyələnmək daha asan olur. Suzan Hallivel "dolayı yolla öyrənməyə" üstünlük verərək qeyd edir ki, oyun oynayaraq dil öyrənmək uşaqda motivasiyanı gücləndirir [5].

Hələ məktəbəqədər yaş dövründən öyrənilən ikinci dil daha çox uşağın gələcəyi üçün nəzərdə tutulur. Uşaq bağçasında və məktəbdə ünsiyyət quracağı dili yaxşı öyrənməzsə cəmiyyətə adaptasiya ola bilməz. Ölkədən kənara səfər edərkən, istər iş üçün, istərsə də gəzinti üçün ən azı bir xarici dil bilmək müasir dövrümüzün prioritet tələbidir. İstənilən sahədə yaxşı bir mütəxəssis olmaq, dünya təcrübəsini öyrənmək və ya öz bilik və bacarıqlarını həmkarları ilə bölüşmək, fikir mübadiləsi aparmaq üçün öndə olan aparıcı xarici dillərdən birini mənimsəmək mütləqdir. Öyrənilən ikinci xarici dil hər birimizin həyatında elm və biliklərin açarı rolunu oynayır.

Ölkəsindən kənarda yaşayan bir uşaq məktəbəqədər yaş dövründə iki dil öyrənə bilir; həm öz ana dilini (bəzən ata başqa millətdən olarsa onun dilini), həm də ünsiyyət yaratmaq üçün yaşadığı ölkənin dilini. Daha sonra məktəbdə təhsil alarkən xarici dil kimi yeni bir dil öyrənməli olur. Yəni ailəsi ilə danışdığı dil, bağça və ya məktəb yoldaşları ilə ünsiyyət yaratdığı mühitin dil və tədrisdə öyrəndiyi xarıcı dil.

Bütün bunları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, hər hansı bir xarici dilin öyrənilməsi üçün ən münasib yaş dövrü üç yaşdan başlayır. Tanınmış fransız dilçisi, əlliyə yaxın dil bilən poliqlot Klod Hajejin fikrincə on yaşından sonra uşaq üçün öz ana dilində mövcud olmayan xarici dildəki səsləri tələffüz etmək çətin olur [1]. Bilinqivizmlə maraqlanan tədqiqatçılar daha erkən yaşlarda, yəni məktəbəqədər yaş dövründə gənc bir beynin yeni quruluşda olan iki və ya üç dili sanki yalnız bir dil öyrənirmiş kimi daha tez, asanlıqla qavradığını önərirlər. Əgər uşaq dilini öyrəndiyi mühitin əhatəsindədirsə tədrisə və ya tərcüməyə ehtiyac olmadan 6-7 yaşa qədər qeyri-ixtiyari, kommunikativ yolla iki və hətta üç xarici dildə öz ana dilindəki kimi danışmağı öyrənə bilər. Biz bunu valideyinləri uzun müddət xaricdə işləyən azyaşlı uşaqların timsalinda görürük. Bu uşaqların yaxşı oxumaq, əlaçı olmaq, mütəxəssis kimi yetişmək potensialı digərlərinə nisbətən daha çoxdur.

4-7 yaş dil öyrənmək üçün ən mükəmməl dövr hesab olunur [2]. Əgər uşağa şərait yaradılarsa, bu yaş dövründə uşaq oyun oynayırmış kimi, ana dilində danışırmış kimi xarici dilə yiyələnəcək. Necə ki ilk müəllimi kimi anasından, yaxınlarından və ətraf aləmdən tədricən öz ana dilini qrammatika, fonetika bilmədən öyrənir. Alimlər bunu "öyrənmənin təbii situasiyaları" da adlandırırlar. İkidilli ailələrdə uşaq hər iki dildə sərbəst danışmağı asanlıqla öyrənir. Uşaq bağçasına gedərkən yaşadığı xarici ölkənin dilini də öyrənir, hətta məktəbdə xarici dil kimi daha bir dili də mənimsəmək imkanlarına malik olur.

Beləliklə, biz deyərdik ki, xarici dil öyrənmək üçün ən yaxşı dövr 2-10 yaş arasıdir. Fundamental dil öyrənmə sistemi 4 yaşdan başlayır. Uşaq öz ana dilini 33 aya yəni 1000 günə öyrənir. Amerikan sosioloqu D.Makkartinin fikrincə, 18 aylıq uşaq tək-tək sözlər və sözbirləşmələri işlədir və 2 yaş yarıma qədər isə iki-üç söz və 3yaş yarımda artıq 4 sözlə cümlə qurmağı öyrənir. 6 yaş yarım olanda beş elementli, 7 yaş yarım olanda isə 6 sözlə cümlə qurmağı artıq bacarır [3]. Beləliklə, uşaqlarda təlqin edərək mühitində dil öyrənməyin son dərəcə yaxşı üsul olduğunu görürük, sanki bir sınaq meydançasında məşq edir.

Martinikdən olan professor Dominik Qru da düşünür ki, məktəbəqədər yaş dövrü dil öyrənmək üçün ən uyğun dövrdür [2]. Bu zaman uşağın hafizəsində informasiyanı yadda saxlamaq və xatırlamaq bacarığı daha da aktiv rol oynayır və tətbiq etmək strategiyası yaranır. Uşaq yavaş-yavaş həyata atılır və həyatı cəmiyyətdə öyrənməyə başlayır.

İndi Azərbaycanda da məktəbəqədər yaş dövründən özəl bağçalarda uşaqlara bir və ya iki xarici dil öyrədilir. Çox vaxt zamanın tələbi ilə ingilis və rus dillərinə üstünlük verilir.

## ƏDƏBİYYAT


1. Claude Hagège L'Enfant aux deux langues, Paris, Éditions Odile Jacob, 1996. 298 s.
2. Dominique Groux L'apprentissage précoce des langues, P.U.F., Coll. Que sais-je?, 128 pages, (en collaboration avec L. Porcher), (2ème édition mise à jour, 2003).
3. *McCarthy D.* Le *développement* du *langage chez* l'*enfant*. In *Manuel* de *psychologie* de l'*enfant,* L. *Carmichae* (*Ed.*)*, Vol. II, p. 751-916. Paris, P.U.F., 1952*
4. Rachel Cohen Plaidoyer pour les apprentissages précoces. Paris: Presses Universitaires de France Communication et langages Année 1982 Volume 53 Numéro 1 pp. 121-122
5. Susan Halliwell Teaching English in the Primary Classroom (Longman Handbooks for Language Teachers) 1993, 176s.

**ABSTRACT**

**Mahsati Asgarova**

**THE ADVANTAGE OF LEARNING FOREIGN LANGUAGE IN THE PRE-SCHOOL AGE PERIOD**

This article reports the pre-school age as the most appropriate age period in study of foreign languages and the important role of teaching second,third languages in the life of underage child in modern times.If the child is surrounded by the atmosphere which he learned language,he can learn rechonically,the communicative way speaking in 2 even 3 languages as a native without needing training or translation up to his 6-7 ages.It's mentioned that,in the kindergarden and then at school these languages will help to adapt society and will occupy the significant place in the future.It's referred to the investigations of foremost and well known linguist and social scientist related to this field.

**РЕЗЮМЕ**

**Мехсети Аскерова**

**ПРЕИМУЩЕСТВА ИЗУЧЕНИЯ ИНОСТРАННОГО ЯЗЫКА В ПЕРИОД ДОШКОЛЬНОГО ВОЗРАСТА**

В статье исследуется роль дошкольного возраста, как самый приемлемый период в изучении второго и третьего иностранного языка в современном мире, а также о значении и роли изучаемого языка в жизни малолетнего ребенка. Если ребенок находиться в среде изучаемого языка, не прибегая к обучению и переводу, до 6 -7 лет естественным путем, посредством коммуникации, кроме своего родного, может учиться говорить на двух, даже на трех языках. В статье говориться о том, как в детском саду и в будущем в школах знание этих языков будут помогать ему в адаптации в обществе играть огромную роль в его жизни.

Исследование проводилось на основе изучения знаменитых, передовых французских, английских лингвистов и социологов в этой области.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 5 (86)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 5 (86)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 5 (86)**

**SEVİNC ORUCOVA**
*Naxçıvan Dövlət Unversiteti*
*Orucova.sevinc@ mail.ru*

**UOT:371**

# UŞAQLARIN SOSİALİZASİYA PROSESİNDƏ AİLƏ MÜHÜM AMİL KİMİ

**Açar sözlər**: *sosializasiya, psixoloji təsir, ailə, mühüm amil, proses.*
**Key words:** *socialization, psiychological impecet, family, main faktor, process.*
**Ключевые слова:** *социализация, психологическое восдействие, семья, важный фактор, процессе*

Ailə kiçik sosial qrup olaraq, öz üzvlərinin təbii həyat üçün vacib təlabatlarını təmin edir, birbaşa qarşılıqlı münasibətlər üçün şərait yaradır, öz üzvlərinin sosial təcrübələr, sevgi, bağlılıq və bir-biri üçün məsuliyətlilik hissləri vasitəsilə sosiallaşdırır.

Elmi ədəbiyyatda sosializasiya anlayışı müxtəlif mənalarda şərh olunur. "Böyük izahlı psixoloji lügət"in müəllifi Artur Reber göstərir ki, "Sosializasiya elə bir prosesdir ki, fərd onun vasitəsilə biliklər, dəyərlər, sosial vərdişlər və sosial həsaslıq əldə edir və bundan ona cəmiyyətətə inteqrasiya etməyə, orada özünü lazımi şəkildə aparmağa imkan verir ciddi şəkildə desək, bu tərif bütün yaşlardan olan insanlara eyni səviyyədə şamil edilə bilər, ən həqiqi mənada, sosializasiya həyat təcrübəsidir. Lakin bu termindən daha çox elə prosesləri nəzərəçatdırmaq üçün istifadə olunur ki, onların vasitəsilə uşağa cəmiyyətin dəyərləri və özünün sosial rolları öyrədilir"(3) professorlar Ə.S.Bayramov və Ə.Ə.Əlizadənin fikrincə, "Sosializasiya qrup normaları və sərvətlərinin verilməsi prosesidir. Onun qaynaqları, ilk növbədə, ailə ilə, ata və ana ilə bağlıdır" (2). Demək olar ki, bu prosesdə ailə özünəməxsus əvəzolunmaz yer tutur. Heç şübhəsiz ki, uşaqların sosializasiyası üçün ailə ən mühüm mikromühitdir.

Ailə öz üzvlərinin iqtisadi, sosial və fiziki təhlükəsizliyini, azyaşlılara, qocalara və xəsətələrə qayğını təmin edir, uşaqların sosiallaşması üçün şərait yaradır, Ən əsası isə üzvlərini birgəlik hissləri ilə birləşdirərək, həyatın çətinliklərini, uğurlarını bir-biri ilə bölüşmək imkanı verir. Məhz ailə həmişə əhali artımını təmin edərək, nəsillər arasında əlaqə yaratmaqda əsas vasitədir. Bununla bərabər ailə çox mühüm bir funksiyanı- sosializasiya funksiyasını yerinə yetirir. Sosializasiya sayəsində insan əşyalar aləmini, mənəvi həyat sferasını, müəyyən idrak, sosial rol, sərvət meylləri, stereotip və yönəliş normalarını mənimsəyir, artıq sosiallaşmış fərd kimi aktiv yaradıcı fəaliyyətə qoşulur. Deməli, əslində ailənin alternativi yoxdur, yəni o, həmişə öz sosial funksiyasını yerinə yetirəcəkdir. Çünki uşaq yalnız ailədə dünyaya gəlir və əsasən ailənin köməyi ilə sosiallaşaraq insani mahiyyət kəsb edir. Uşağın doğulması və tərbiyəsi, gündəlik problemlərin həlli ilə bağlı ənənəvi funksiyalarla yanaşı, ailə müasir həyatın tez-tez dəyişilən, gözlənilməz şəraitində öz üzvlərini çətinliklərin öhdəsindən gəlməyə, yaşamağa kömək edən etibarlı psixoloji sığınacaq rolunu oynayır. "Ailə insan üsün psixoteropevtik mühitdir" –söyləyən prof Ə.Ə.Əlizadənin fikri ilə razılaşmamaq mümkün deyil (4). Ailədaxili münasibətləri müstəqil olaraq tənzim etməklə, ailə özünün yaşaması və kamil şəxsiyyət tərbiyə etməsi üçün böyük məsuliyyət daşıyır.

Məlumdur ki, ailə və ailədaxili münasibətlər nisbətən fərdi-psixoloji, qapalı sistemdir. Ailə zaman və məkan amillərindən asılı olduğu kimi, həm də cəmiyyətdə baş verən müxtəlif qəbilli sosial proseslərdən, iqtisadi və mənəvi psixoloji şəraitdən və.s. asılıdır. Buraya hər bir xalqın etnik

xüsusiyyətləri, adət-ənənələri də ciddi təsir göstərir. Başqa sözlə desək sosial-siyasi, maddi-iqtisadi, mədəni, mənəvi-psixoloji şəraitlərində dəyişməsi bilavasitə cəmiyyətin əsas özəyi olan ailədə öz əks-sədasını tapır və bu yolla uşaqların sosializasiya prosesinə həlledici təsir göstərir. Yəni, ailənin, ailə münasibətlərinin mühüm cəhətlərindən biri onun yaşam səviyyəsinin cəmiyyətdən asılığıdır.

Ə.S.Bayramov və Ə.Ə.Əlizadə haqlı olaraq qeyd edirdilər ki, Azərbaycan ailəsinin bənzərsiz dəyələrində uşaqların tutumlu yeri var. Evin bərəkəti ağsaqqalında, nuru körpəsindədir– deyib, ata babalarımız. Ailənin obyektiv mərkəzi uşaqlarla bağlıdır. Ana da onlar üçün yaşayır, ata da (2). Əfsuslar olsun ki, müasir Azərbaycan ailələrinin bir çoxuna bu fikri şamil etmək olmaz. Ailənin maddi və yaşayış çətinlikləri, sosial və psixoloji problemləri, ailədə sabitliyin olmamasına, ailədaxili münasibətlərin pozulmasına gətirib çıxarır ki, burada da diqqətdən kənarda qalan uşaqlar olur. Bir çox hallarda uşaqlar valideynlərlə çox az ünsiyyətdə olurlar. Valideyn övlad münasibətləri bu səbəbdən dəyişikliyə uğramağa başlayır. Məsələn, artıq valideyn sözü, onun özünəməxsus mənəvi dəyərləri uşaq üçün önəm kəsb etmir. Belə olduqda əlverişli sosializasiya mühitindən danışmaq qeyri mümkündür.

Uşaqların sosializasiyası prosesinə mane olan digər bir amil də boşanmadır. Ə.Əlizadə yazırdı: Boşanma təkcə ər və arvadın deyil, həm də uşaqların faciəsidir. Boşanma nəticəsində minlərlə uşaq atalı-analı yetimə çevrilir. Boşanma ailənin özəyini təşkil edən insan münasibətlərini, ər-arvad, ata-oğul, ata-qız, ana- uşaqlar arrasındakı münasibəti pozur. Uşaqlar çox vaxt ana ilə yaşasalar da valideynlərin istər məhkəməyə qədərki, istərsə də məhkəmədən sonrakı dövrdə həddi-hüdudu bilinməyən təhqir və hədələrinin hədəfinə çevrilirlər (4). Bu isə sosializasiya prosesinin uğurlu olmasına əngəl yaradır. Ailə üçün atanin tərbiyə funksiyasının daha çox əhəmiyyətə malik olduğunu qeyd edən Ə.Ə.Əlizadə göstərir ki, bu gün uşaq tərbiyəsi sahəsində ən ciddi nöqsanlar məhz o ailələrdə müşahidə olunur ki, ata özünün və ya ananın günahı üzündən nüfuzunu itirmişdir. Öz tərbiyə funksiyalarını yerinə yetirə bilmir (4). Bu fikir ilə tamamilə şərik olmaq olar, çünki yaşanan münasibətlər, sosial rollar hər bir uşağın şüuruna həkk olunur. Və gələcəkdə onların quracağı ailənin istinad nöqtəsi olur.

Umimiyyətlə, sosializasiya hər hansı bir cəmiyyətdən davranış normalarının həmin cəmiyyəti təşkil edən insanlara mənimsədilməsi və bu zəmin üzərində onların cəmiyyətin bir üzvü halına gətirməsidir.

Obyektiv baxımdan sosializasiya dedikdə cəmiyyətin insan üzərindəki təsiri nəzərdə tutulur. Belə ki, cəmiyyət sahib olduğu dəyərləri, düşüncə tərzini, davranış normalarını onun üzvü olacaq insanlara aşılayır, insanlara sosial rolu mənimsədir.

Subyektiv baxımdan sosializasiya insanın tərkibində olduğu sosial mühitə uyğunlaşmasıdır. Beləliklə, insan cəmiyyətin hər kəs tərəfindən qəbul edilmiş düşüncə və davranış normalarını mənimsəyir və şəxsiyyətə çevrilir.

Uşaqların sosializasiya prosesinin uğurlu gedişini təmin etmək üçün ailənin uşaqlara psixoloji təsiri, ailədə təlim tərbiyə işləri və uşaqların yaşadıqları cəmiyyətə müsbət istiqamətdə adaptasiyası ilə bağlı xüsusi tədbirlər, proqramlar həyata keçirilməlidir. Mütəxəssislər tərəfindən valideynlərin övladlarını tanımada və onlara gərəkli sosial inkişaf imkanları yaratmaqda kömək edə biləcək tədbirlərin həyata keçirilməsi bu baxımdan çox önəmlidir.

## ƏDƏBİYYAT


1. Əliyev R,İ, Psixologiya. Bakı, 2008
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2005
3. Большой толковый психологический словарь. Пер. С. Анг. Ребер А.М. Вече, 2003
4. Əlizadə Ə.Ə Məhəbbət aləmi. Bakı, 1995.
5. Əlizadə A.Ə. Sosial pedaqogikanın aktual problemləri. Bakı, 1988.

6. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2003.
7. Əliyeb R.İ. Tərbiyə psixologiyası. Bakı, 2006
8. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, 1981.

## ABSTRACT

**S.Orujova**

## FAMİLY AS A MAİN FAKTOR İN THE PROCESES OF SOCİALİZATİON OF CHİLDREN

It this article is considering the role of family as a main faktor in the process of socialization of children, Within the family child gains a knowledge, values, social skills which allow them successfully to integrate to the society and behave adequately.

Changing of social, economic, cultural, moral and psychological conditions in the society has direct influence to the family and may have impact to the socialization of the children. Currenty in Azerbaijan, as in the many countries, there is a family crisis situation.

## РЕЗЮМЕ

**С.Оруджовой**

## СЕМЬЯ КАК ВАЖНЫЙ ФАКТОР В ПРОЦЕССЕ СОЦИАЛИЗАЦИИ ДЕТЕЙ

В статье рассматривается роль семьи как важного фактора в процессе социализации детей. Благодаря семье ребенок приобретает знания, Ценности, социальные навыки, которые позволяют ему успешно интегрироваться в общество и вести себя там адекватном образом.

Изменения социальных, экономических, культурных, нровственно-психологических условий непосредствено отражаются в семье, и во многом влияют на процесс социализации детей. В настоящее время в Азербайджане, как и во многих стронах мире, наблюдается кризис семьи.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 5 (86)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 5 (86)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 5 (86)**

**SOLMAZ BAYRAMOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 371**

# GƏNC AİLƏLƏRDƏ ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** *Ailənin psixoloji mühitində gənc ailə, şəxsi münasibət, ər-arvad münasibətləri, ailədə çətinliklər, ailə üzvləri, ailə problemləri, şəxsi, qarşılıqlı münasibətlər*

**Key words:** *Young family, inter personal relations, husband and wife relations, difficulties in a family, members of the family, family problems, personal, mutual relations in a family psychological climate of family*

**Ключевые слова:** *Молодая семья, межличностные отношения, отнешение мужа-жены, трудности в семье, члены семье, члены семьи, проблемы, личные взаимоотношения в семье, психодогический климат в семье*

İnsanlar birgə yaşayıb və fəaliyyət göstərmələrinə görə onların arasında istər-istəməz qarşılıqlı münasibətlər özünü göstərir.

Bu cür münasibətlər şəxsiyyətlərarası münasibətlər adlanır. İnsan birliyinin ilkin formalarından biri olan ailə özündə bilavasitə fərdi və kollektiv başlanğıcları birləşdirir. Bununlada sosial ideyaların və davranışların meyarının mənbəyi kimi çıxış edir.

Gənc silə iki ömrün qovuşmasıdır. Artıq burada yeni rolları vəzifələr əmələ gəlir. Dünən oğlan və qız olanlar indi artıq ər-arvad ömrünü yaşamağa başlayırlar. Onların həyat yolları birləşərək yeni mərhələyə daxil olur.

Hər bir gənc ailə özünün hansısa bir xüsusiyyəti ilə başqa ailələrdən fərqlənir. Bu xüsusiyyətlər təkcə onların şəxsiyyəti, evdardarlıq səriştəsi, təhsili, peşəsi və s. ilə tamamlanmır, buraya həm də qohum-əqrəbanın münasibəti, mənzil şəraiti, onların kimlərlə yaşaması, kimlərin əhatəsinə düşməsi aiddir.

Müasir elmlər “Gənc ailənin” aydın təyinini vermir. Nəzəriyyələr verilmiş anlayışı müxtəlif məzmunlarda izah edirlər. Bunlardan daha düzgün tərifi T.Qurku vermişdi. “Gən ailə otuz yaşdan olmayan, birgə həyat təcrübəsi üç il olan ər-arvaddan ibarətdir”. Gənc ailənin mövcudluğunun daha çətin dəyişkən dövrüdür. Nigaha daxil olan gənc ər-arvad özləri ilə birgə ailəyə sosial normalar, həyati dəyərlər gətirir. Gənc ər-arvad bir-birinə uyğunlaşır, ailə rollarının bölgüsünü, yeni sistemini, psixoloji yaxınlığın dərəcələrini hazırlayırlar. Gənc ər-arvadın qarşılıqlı təhsil və münasibətlərinin xarakteri, onların ailənin funksiyalarının yerinə-yetirilməsindəki ostanovka və fikirlərinin bir-birinə nə dərəcədə uyğun gəlməsindən asılıdır.

Şəxsiyyətlərarası qarşılıqlı münasibətlərin 4 tipi fərqləndirilir; yaxınlıq, yoldaşlıq, dostluq və sevgi. Ailədə şəxsiyyətlərarası münasibətlər şəxsi münasibətlər çərçivəsində həyata keçir. Ailənin mahiyyəti ilk növbədə ailə münasibətləri ilə bağlıdır. Bu münasibətlər şəxsi səciyyə daşısa da burada da qanunlar mövcuddur. Ailə üzvlərinin hər biri bu qayda-qanun əsasında qarşılıqlı münasibətdə olurlar.

Ər-arvad münasibətləri özünə şəxsiyyətlərarası münasibətlərinin müxtəlif səviyyələrini daxil edir:

- Psixofizioloji-ər-arvad arasında intim, seksual əlaqəni əhatə edir.

- Psixoloji-özünə şəxsi xüsusiyyətləri, qeyri-formal ünsiyyətin, şəxsin özünü ifadə etmək tərzini daxil edir.

- Sosial-psixoloji-ailə funkisyalarının həyata keçirilməsində partniyorların əməkdaşlığının xüsusiyyətləri, ər və arvadın ailə dəyərlərinin uyğunluğunun dəyərəcələri ilə xarakterizə olunur.

- Sosio-mədəni səviyyə-həyatdakı mövqeyi, sərvəd meyilləri, ətraf mühitə baxışları, maraq və sosial davranışın motivlərinin uyğunluğunu əhatə edir.

Ailə üzvlərinin hər birinin bir-birinə olan münasibətləri fərqlidir. Ərlə arvad, valideyn və övlad, gəlinlə qaynana, qaynata, baldız və s. münasibətləri bir-birindən fərqli şəkildə özünü göstərir. Ən aktual məsələlərdən biri də məhz bu münasbibətlər və bu münasibətlərdə baş verən dəyişikliklərdir.

Ailə üzvlərinin aralarında olan münasibətlər əsasən sevgi və hörmətə əsaslanır. Məhz buna görə də bu münasibətlər güclü və sağlam olur. Ata ilə ana arasındakı münasibətlər valideyn-övlad və övladlar arasındakı münasibətə çox güclü təsir göstərir.

Ər-arvad arasındakı qarşılıqlı münasibətlər insanlar arasındakı münasibətlərin ümumi qanunauyğunluğuna tabe olsa da özünəməxsus spesfikliyə malikdir. Bu onunla şərtlənir ki, ər-arvad intim münasibətlərə daxil olduqda bir-birinə daha doğma və yaxın olur, onlar arasındakı münasibətlər isə əxlaq normaları ilə tənzim olunur.

Gənc ailələr valideynlərinin ailə həyatı nümunələrinin izlərini özlərində daşıyırlar. Öz valideynlərinin nigahını ideal kimi qiymətləndirən gənc öz ailəsinə də elə yanaşır.Valideynlər onlara ər-arvad münasibətlərinin necə olmasında nümunə olurlar.

Şəxsiyyətlərarası qarşılıqlı münasibətlərdə “yaxşılıq əvəzində-yaxşılıq” prinsipi mövcuddur. Əgər kimsə güzəştə gedirsə, sən də ona güzəştə getməlisən. Kimsə digərlərindən hörmət gözləyirsə, onun özüdə hörmət etməlidir.

Ailədə ər-arvad bir-birinin xarakterini dəyişməyə çalışır. Lakin həyat yoldaşının xarakterini dəyişmək yox, onun mənfi və müsbət xüsusiyyətləri ilə birlikdə qəbul etmək lazımdır. Kimisə xarakterini dəyişməzdən əvvəl özünə nəzər salmalı və mənfi vərdişlərini aradan qaldırmağa çalışmalıdır.

Ailədə şəxsiyyətlərarası münasibətlər əsasən ailə daxili ünsiyyət vasitəsi ilə tənzim olunur. Ailə, məişət və ailə üzvlərinin normal həyat fəaliyyəti ilə bağlı olan bütün məsələlər ərin arvadla, ananın uşaqlarla, bacının qardaşla, nənənin nəvələr ilə ünsiyyət şəraitində həll olunur. Bu zamanda ailə üzvləri arasında ünsiyyətin xarakterində ciddi fərqlər görülür. Belə ki ər-arvad arasında olan ünsiyyət intik xarakter daşıyır. Yəni ər-arvad heç kimə demədiyi ürək sözünü, dərdini, sirrini öz həyat yoldaşına etibar edir.

Gənc ailə harada, kiminlə birlikdə yaşayırsa yaşasın, özünəməxsus çətinliklərlə rastlaşır. Ailədə ilk gündən rahatlıq yaradılmalıdır. Bu zmana təkcə səliqə səhman nəzərdə tutulur. Evin böyük və kiçik, təzə və ya köhnə olmasından asılı olmayaraq səliqə səhmana ciddi fikir verilməlidir. Bu tələbə çox vaxt hamı əməl edir. Lakin evdə emosional rahatlığın yaradılmasına isə əhəmiyyət verilmir. Ev səliqə-səhmanla yanaşı elə olmalıdır ki, ər də arvad da özünü xoşbəxt hiss etsin. Əgər onlardan hər hansı biri evlənməyinə peşman olursa, bu ailədə emosional rahatlığın olmadığını göstərir.

Ər-arvad bir-biri ilə münasibətdə xeyirxah və səmimi olmalı, qətiyyən yalan danışmamalı, evin sirrini saxlamağı bacarmalı, bir-birinə inanmalı və etibar etməli, ailənin sevincini və kədərini də birlikdə yaşamalıdır.

Əgər ilk gündən inam itirsə, onlardan hər biri özü üçün yaşayırsa belə ailənin sonrakı ömrü heç də fərəhli olmur.

Psixoloqlar göstərir ki, nigahda iki “mən”in qarşılıqlı mübarizəsi və psixoloji uyğunlaşması on il müddətinə davam edir. Nigah, ailə münasibətinin əsasında nəinki qarşılıqlı məhəbbət, habelə ər-arvad, ailə borcu, ailənin qurulması üçün əxlaqi və hüquqi məsuliyyət, uşaqların tərbiyəsi, ailənin əmək qabiliyyəti olmayan üzvlərinin maddi cəhətdən təminatıdır. Asudə vaxtın səmərəli təşkili də diqqətdən yayınmamalıdır. Gənclər tanışlıqlarının ilk günlərində yaxud da nişanlı vaxtlarında tez-tez yeni filimlərə və tamaşalara baxır, konsertlərə gedir, birlikdə sevinir və kədərlənirlər. Bu onların maraqlarını və

zövqlərini bir-birinə daha da yaxınlaşdırır. Həmin ənənənəni davam etdirmək lazımdır. Lakin bəzi hallarda gənclər ailə qurandan sonra asudə vaxtdın, istirahətin birlikdə keçirilməsinə lazımi fikir vermirlər. Cavan ər boş vaxtını yalnız özünün dost tanışları ilə keçirir, qadın isə evdə qalmalı, gecə yarısı keçənədək onun yolunu gözləməli olur. Lakin belə hallara yol verilməməlidir.

Ailə məhəbbəti öz şəklini dəyişir, yeni keyfiyyətlərlə zənginləşir. Sevgini saxlamaq üçün hər zaman maraqlı qalmağa çalışmaq və yeni tərəflərini üzə çıxarmaq lazımdır.

Ailənin xoşbəxtliyi, gənclərin valideynlərinin münsibətindəndə asılıdır. Gənclərin ailə həyatına uyğunlaşması ilə yanaşı, valideynlərin də bu evliliyə uyğunlaşması çətin olur. Belə ki, bunların evlərinə qızı (oğlu) qədər yaxın tamamilə yad bir insan gəlir. Ola bilər ki, analarda qısqanclıq yaransın. Ancaq gənclər özlərini ağıllı, təmkinli aparsalar bu qısqanclıq ailənin yeni üzvünə qarşı sevgi və xeyirxahlıqla əvəz olunacaqdır.

Gənc ailədə, ola bilsin ki, ilk günlər müstəqil ailə həyatını təşkil etmək çətinlik törətsin. Bu çətinlik müstəqil yaşayış sahəsinin olmaması, aylıq qazancın kifayət etməməsi, gənc ər-arvadın valideyinləri ilə münasibətində uyğunsuzluq və s. amillərlə şərtlənə bilər. Lakin burada əsas məsələ qarşılıqlı anlaşmadır. Ər-arvadın bir-birinin marağına, zövqünə, adətlərinə hörmət etməli, şəxsi keyfiyyətlərinə həssas olmalıdır. Ər-arvad münasibətlərində ahəngdarlığın gözlənilməsi ailənin xoşbəxtliyi üçün mühüm şərtdir.

Nigahın ilk illərində bir çox hallarda ər-arvad bu və ya digər məsələnin həllində bir-birinə güzəştə getmək istəmirlər. “Mənlik” iddiası, özünütəsdiq, öz sözünü yeritmək hikkəsi buna mane olur, onlar mübahisə edir, qışqırıq salır, əsəbləri gərginləşir. Lakin nə kiş, nə də qadın özünü sındırmaq istəmir. Halbuki, bir xoş söz, incə zarafat, həlim nəvaziş əsəb gərginliyinin qarşısını alır.

Nigahın bağlanması ilə gənc ailənin həyatında ilk mərhələ başlayır.

Gənc ər-arvadın bir-birinə uyğunlaşmasında yaşlıların böyük rolu vardır. Gənc ər və arvad hər iki ailənin qız və oğlan tərəfinin yaxınlaşmasına xüsusi fikir verməlidirlər. Qaynanalar mehribançılıqda, ülfət bağladıqda gənc ailə daha möhkəm olur.

Uşağın dünyaya gəlməsi ilə ailə öz həyatının yeni mərhələsinə daxil olur. Həmin mərhələ ən azı iyirmi-iyirmi beş il davam edir. Uşağın dünyaya gəlməsi ilə ailənin həyat tərzi dəyişir. Eyni zamanda uşağın dünyaya gəlməsi ilə ananın diqqətinin, qayğısının, sevgisinin böyük qismi uşağa istiqamətlənir.

Bu zaman atalarda qısqanclıq yaranır. Ona görə də analar nə qədər işlə yüklənsələr də, ərinə diqqət ayırmalı və öz gözəlliklərini saxlamalıdırlar. Ərlə arvadın ideya sərvətləri uyğun gəlmədikdə, onlar özlərinin asudə vaxtlarını birlikdə keçirməkdə çətinlik çəkirlər.

Ərlə arvadın əsas baxışları uyğun, yaxın olduqda ailə münasibətlərinin inkişafı üçün əlverişli şərait yaranır. Onlar münasibətlərini, özlərinin ailə üzvlərini düzgün başa düşür, müvafiq şəkildə hərəkət edirlər.

Ailənin ideyalılığı yüksək olduqda, ər və arvad özlərinin məqsəd və vəzifələrini düzgün başa düşür, ailənin gələcək perspektivlərini aydın görürlər.

Ər-arvadın bir-birinə münasibəti psixoloji cəhətdən son dərəcə mürəkkəbdir. Zəriflik, mühribanlıq ər-arvad münasibətlərinin mühüm cəhətidir. Ər-arvad bir-birini düzgün başa düşməyə çalışmalı, təmkinli və qayğıkeş olmalıdırlar. Ailə təkcə ərlə-arvad arasındakı münasibətdən ibarət deyildir, onun çox mühüm sahəsi valideynlərlə övladlar arasındakı münasibətlərlə bağlıdır. İlk uşağın doğulması ilə ər-arvad ata və anaya çevrilirlər. Onların münasibətlərində yeni məna çalarları əmələ gəlir, ailənin bütün sonrakı həyatı məhz bu zəmində inkişaf edir. Ailəni kişi qadın münasibəti deyil, ana-uşaq münasibəti, deməli, ata-uşaq, ata-ana münasibətləri yaradır.

Ailənin psixoloji iqlimi ərlə arvadın, valideyinlərlə uşaqların, uşaqlarla uşaqların qarşılıqlı münasibətlərinin xarakteri ilə müəyyən olunur. Əgər ərlə arvad bir-birinə rəğbət bəsləyirsə, hörmət edirsə, qəlbən yaxındırlarsa, ailədə psixoloji iqlim də əlverişli olur. Ərlə arvadın ünsiyyəti ailədə psixoloji iqlimin əlverişli olduğunu göstərən mühüm əlamətlərdən biri hesab olunur.

## ƏDƏBİYYAT

1. Bayramov Ə, Əlizadə Ə., Psixologiya, 2002
2. Əlizadə Ə, Bayramov Ə., “Ailə” Bakı, 1989

3. Əlizadə Ə.Ə., “Məhəbbət aləmi” Azərbaycan ensiklopediyası, Bakı, 1995
4. Mirzayev İ., Ailənin praktik psixologiyası, Bakı, 2005

**ABSTRACT**

**Solmaz Bayramova**

İn the orticle it is dealt with the features of yaung family, the character of nutual relations and influcnccs of husbond and wife in a young family, thcir being of the same opinion on fulfilling family functions.

At the same time, it is talked about the differcnt levels of interpersonal clations/

More ovtr, in the article the features of mutual relations between husbond and wife, the role of ages about husbond and wife s going with cach other. The psycholagical climate of family are explained.

The article shows the level and peculiar specificity of interpersonal relations. It is about family difficulties and ways to eliminate them.

At the same time it is said about the influence of the birth of a child on relationships in the family. The main role of the conversations about ways of establishing communication with childrenand forming a child as a person. The article talks about the acquisition of ideas and concepts about natural and social events and assimilating the tendencies of evaluating othwrs and themself.

Also the article noted the ability to stand against external and internal forces.

**РЕЗЮМЕ**

**Солмаз Байрамова**

В сатье рассматриваются такие проблемы, как особенности молодых семей, характеристика взаимовлияния и взаимоотношений мужа-жены в молодой семье, соответствие друг их мнений в выполнении семейных функций, разные уровни межличностных отношений.

Автор статьи комментирует особенности взаимоотношений мужа-жены, роль, взрослых в прцессе адаптации друг к другу мужа-жены, а также психологический клитмат семьи.

В статье обозначены различные уровни, своеобразные специфические особенности межличностных отношений. Автор рассматривает вопрос о внутрисемейных трудностях и путях их преодоления.

В исследовании находит свое отражение также влияние на семейные отношения рождение ребенка. Отмечастся важная роль путей общения с ребенком и проводимых с ним бесед в формировании его как личность. В статье также говорится о приобщении детей к понятиям природных и общественных явлений посредством своих родителей, об освоении ими оценочных склонностей других людей и их самих в познании жизненных явлений.

Автор также подчеркивает умение противостоять против сил, оказывающих влияниенавнешнюю и внутреннюю среду.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 5 (86)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 5 (86)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 5 (86)**

**MƏHCƏBİN QƏDİMBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT : 398**

# NAXÇIVAN FOLKLORU NÜMUNƏLƏRİNİN ETNOPEDAQOJİ MAHİYYƏTİ VƏ ŞƏXSİYYƏTYÖNÜMLÜLÜK XÜSUSİYYƏTLƏRİNİN ALİ MƏKTƏBDƏ TƏDRİSİNƏ DAİR

**Açar sözlər:** *Naxçıvan, folklor, etnopedə, tədris, folklor janrları*

**Key words:** *Nakhchivan, folklore, ethnopedagogical, teaching, folklore genres*

**Ключевые слова:** *Нахчыван, жанры фольклора. ашуг, фольклор, преподавание, этнопедагогический.*

Azərbaycan ali məktəblərində tədris olunan pedaqogika fənlərinin əsas və aparıcı mövzularından biri də folklorumuzda xüsusi yer tutan etnopedaqoji məsələlərin və onların şəxsiyyətyönümlülük xüsusiyyətlərinin tədrisi ilə bağlıdır. Odur ki, ali məktəblərdə pedaqogika ilə bağlı kursların tədrisində folklor materiallarının etnopedaqoji və şəxsiyyətyönümlülük xüsusiyyətlərinin tədrisinə də xüsusi yer verilməlidir. Çünki Azərbaycan pedaqoji fikir tarixində folkolor nümunələri yeni nəslin bir şəxsiyyət kimi yetişməsində, inkişafında və formalaşmasında intəhasız rola malikdir. "Şifahi xalq ədəbiyyatı nümunələri şəxsiyyətin hərtərəfli inkişafında həmişə mühüm tərbiyəvi vasitələrdən biri kimi qiymətləndirilmişdir" (24, s. 3). Xüsusilə bu möhtəşəm mənəvi abidələr sırasında özünəməxsus yer alan Naxçıvan folkloru nümunələri min illər, əsrlər boyu mövcud olmuş, dildən-dilə, ağızdan-ağıza keçərək insanların milli-mənəvi dəyərləri səviyyəsinə yüksəlmişdir.

Biz öz pedaqoji təcrübəmizdə ali məktəbdə pedaqogikadan tədris etdiyimiz möbzuları yeri gəldikcə folklorumuzla bağlı tədrisə cəlb edir və mili-mənəvi dəyərlər səviyyəsinə yüksələn folklor nümunələrinin etnopedaqoji mahiyyətini aydınlaşdırmağa çalışırıq. Bu məsələlərin tədrisində Naxçıvan folklorunun etnopedaqoji mahiyyətinə və onun şəxsiyyətyönümlülük xüsusiyyətlərinin təhlilinə də üstünlük verilir. Ona görə ki, bu gün şəxsiyyətin formalaşdırılmasında mühüm rol oynayan ən mötəbər mənbələrdən biri milli folklorumuz hesab olunur. Milli folklorumuzun, "Şifahi xalq ədəbiyyatımızın çoxnövlü janrlarında fəlsəfi məzmun, yüksək estetik zövq və emosionallıq, habelə gözəlliyi tərənnüm əsas motiv olmuşdur" (10, s.38).

Naxçıvan folklorunun etnopedaqoji və şəxsiyyətyönümlülük xüsusiyyətlərindən danışan müəllim mühazirədə diqqəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixdə təsdiq etdiyi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Srategiyası" layihəsinə yönəltməlidir. Çünki bu layihədə birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasına yönəldilmişdir. Burada şəxsiyyətyönlü təhsilin məzmununda şəxsiyyətyönümlü təlim-tərbiyə işləri də yer aldığı üçün ictimai fənlərin tədrisində, xüsusilə ədəbi-bədii materialların öyrənilməsi zamanı bu məsələyə xüsusi diqqət göstərmək lazım gəlir. Yəni pedaqoji prosesdə folklor materiallarının didaktik mahiyyət kəsb edən nümunələrindən səriştəyə əsaslanan novatorluq səviyyəsində müasir təlim texnologiyalarının gücü ilə elə istifadə etmək lazımdır ki, onlar şagird və tələbə şəxsiyyətinin hərtərəfli inkişafını təmin emiş olsun. Çünki şəxsiyyətyönlü tərbiyə işinin ilkin mərhələsi folklor nümunələrinin öyrədilməsindən başlayır. Xüsusilə kənd və rayonların məktəblərində folklor nümunələri vasitəsilə yetişən nəslin

nümayəndələrinin bir şəxsiyyət kimi yetişdirilməsi daha asan olur.

Məlum olduğu üzrə, uşaqların və ali məktəb tələbələrinin nümunəvi təlim-tərbiyəsini ümumdidaktik və ümumpedaqoji prinsiplərə, metodlara, tələblərə və vasitələrə istinad etmədən düzgün qurmaq mümkün sayıla bilməz. Məhz bu baxımdan tərbiyə prosesinə sadədən mürəkkəbə, ibtidaidən aliyə prinsipinə əsaslanmaqla yanaşmaq lazım gəlir. Bunun üçün kiçikhəcmli folklor nümunələri ən dəyərli tərbiyə vasitəsi hesab olunur. Xüsusilə regionlarımızda unudulmaqda olan folklor nümunələrinin toplanılaraq pedaqoji prosesə gətirilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan folklorunun kiçikhəcmli nümunələri böyük bir regional folklor məktəbinin tərkib hissəsi hesab olunur. Bu nümunələr əsasında uşaq folkloru nümunələrini xüsusi qeyd etmək lazımdır. Onların sırasında laylalar, oxşamalar, arzulamalar, sanamalar, düzgülər, deyimlər, acıtmalar, yanıltmaclar, uşaq oyunları, uşaq nəğmələri, uşaq tapmacaları, uşaq nağılları, kiçikhəcmli dastansayağı rəvayətlər xüsusi yer tutur. Bu nümunələr içərisində Azərbaycan folklorunun Naxçıvan bayatılarının da yer almasını qeyd etməliyik.

Müəllim dərsdə folklor materiallarının etnopedaqoji xüsusiyyətlərindən danışarkən professor Əliheydər Həşimovun tədqiqatlarına da yığcam səyahət etməlidir. O, qeyd edə bilər ki, Azərbaycan xalq pedaqogikasının banisi hesab olunan professor Əliheydər Həşimov Azərbaycan folklorunun böyük bir tərbiyə məktəbini, etnopedaqoji əsaslarını yaratsa da, folklorumuzun regional xüsusiyyətlərini, eləcə də Naxçıvan folklorunun etnopedaqoji əsaslarını tədqiqata cəlb etməmişdir. Ona görə bu gün Naxçıvan folklorunun tərbiyə məktəbinin, bu folklorun kiçikhəcmli nümunələrinin tərbiyəvi əsaslarının yaradılmasına, inkişaf etdirilərək təkmilləşdirilməsinə, pedaqoji prosesə gətirilərək yetişən nəslin nümayəndələrinin bir şəxsiyyət kimi formalaşdırılmasına kömək edən didaktik materiallar kimi sistemə salınmasına zəruri ehtiyac vardır.

Bu izahatdan sonra müəllim öz fikirlərinə aşağıdakı şəkildə davam edə bilər:

Naxçıvan folklorunun kiçikhəcmli nümunələri içərisində oxşamalar və əzizləmələr ilkin pillədə dayanır. Oxşamalarda və əzizləmələrdə ana övladını yaxşıların ən yaxşısına oxşadır, onu əzizləyir və əyləndirir. Məsələn:

Ay Tanrı, bunun tayını ver,
Oxunu gizlə, yayını ver.
Hər kimin var, onu saxla,
Olmayanların payını ver (5, s. 314).

Oxşama və əzizləmələrdə ananın öz doğma balasına olan istək və arzuları ilə yanaşı, nənələrin öz nəvələrinə olan arzu və istəkləri də ifadə olunur:

Gözümün qarasısan,
Qəlbimin parasısan.
Boy at, boyuna qurban,
Balamın balasısan (5, s. 312).

Etnopedaqoji mahiyyət daşıyan bu cür oxşama və əzizləmələr körpədə çağa yaşlarından emosional hisslərin yaranmasına səbəb olur və onlarda anaya, nənəyə məhəbbət tərbiyəsi aşılayır.

Oxşama və əzizləmələrlə yanaşı, Naxçıvan folklorunda arzulamalar da çoxdur. Arzulamalar layla xarakteri daşısa da, onların pedaqoji tələblərə uyğun özünəməxsusluğu da vardır:

Balama dil demişəm,
Ağlama, gül demişəm.
Balam dil açan günə
Quzu qurban demişəm (4, s. 307).

Bu arzulamada ananın öz körpəsini əzizləməsi və ona bəslədiyi arzuları milli tərbiyə baxımından Naxçıvanın regional xüsusiyyətlərini özündə əks etdirir. İstər əzizləmələrdə, istərsə də arzulamalarda Naxçıvan bölgəsinin övlada məhəbbət, vətənpərvərlik, yurdsevərlik elementləri

özünü daha qabarıq şəkildə göstərir. Bunlar tərbiyənin ilkin emosional elementlərini, ilkin esetik bədii zövq tərbiyəsinin xüsusiyyətlərini özündə əks etdirir.

Naxçıvan laylalarında da regional xüsusiyyətləri əks etdirən güclü tərbiyə elementləri vardır. "Xalq öz laylalarından başlayaraq bəşər övladını əzizləyir, onun böyüyüb ərsəyə çatan (şəxsiyyət kimi özünü tanıdan) gününü görmək istəyini bildirir" (2, s. 45). Ümumiyyətlə desək, xalq yaradıcılığında Naxçıvan laylalarının tərbiyəvi mahiyyəti, demək olar ki, tədqiqata cəlb edilməmişdir. Ə.Ş. Həşimov, F. B.Sadıqov, İ.B. Həşimov, İ. Q.Xəlilov kimi tədqiqatçılar laylaların etnopedaqoji dəyərindən danışsalar da, Naxçıvanda yaranan laylaların spesifik cəhətlərindən söhbət açmamışlar. Halbuki pedaqoji mahiyyət daşıyan Naxçıvan laylalarında estetik-bədii zövq tərbiyəsi daha çox üstünlük təşkil edir.

Naxçıvan folklorunda verilən ana laylalarında həm əxlaqi-mənəvi, həm də estetik tərbiyə süjetləri çoxluq təşkil edir. Bu o deməkdir ki, poetik nümunə kimi estetik-bədii zövq oxşayan bu nəğmələr həm də çox yüksək tərbiyə məktəbi təsirinə malikdir:

Laylay dedim doyunca,
Baş yasdığa qoyunca,
Pardaxlan, qızılgülüm,
Bir iyliyim doyunca (4, s. 306).

Naxçıvandan toplanmış bir çox laylalarda şirinliyin, gözəlliyin məzmunu daha qabarıq verilir. Ananın canından əziz saydığı körpəsi əsrarəngiz təbiətin gülünə, çiçəyinə, qönçəsinə bənzədilir. Laylalarda anaların öz balalarını çiçəyə, qızılgülə bənzətmələri onları hədsiz dərəcədə sevmələrinin təzahürüdür. Bu laylada ananın balasına "pardaxlan, qızılgülüm" deməsi övlad ətrinin bənzərsiz şirinliyinə işarədirsə, "bir iyliyim doyunca" deməsi isə bu şirinliyin ana tərəfindən nə qədər müqəddəs olmasına işarədir.

Qeyd olunanlardan belə qənaətə gəlmək olur ki, laylalar insanların, xüsusilə anaların diləklərinin, arzularının ilkin başlanğıcı, təməl daşıdır. Bu təməl tərbiyənin özülü sayılır.

Naxçıvan folklorunda laylalar kimi bayatılar da özünəməxsus olan spesifik xarakter daşıyır. Hansı ki, Naxçıvan bayatıları kiçikhəcmli folklor nümunəsi hesab olunsa da, onların hər birindəki güclü məntiqi məna çalarlarının böyüklüyü etnopedaqoji tərbiyə məktəbi vəsiqəsi alır. Demək lazımdır ki, Naxçıvan bayatılarının bir qismində insana daha çox tərbiyəlilik elementləri və ideyaları bəxş olunur. Çünki bu bayatıların bir çoxunda vətənə, anaya, ailəyə, insanlara məhəbbət tərbiyəsi əsas yer tutur. Dastanlarımızda olduğu kimi, Naxçıvan bayatılarında da insanın insana sədaqət və sevgi tərbiyəsi ön planda verilir:

Gəmi ollam dolannam,
Araz ollam bulannam.
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam (3, s. 275).

Naxçıvanın bir sıra bayatılarında insanın hicran və ayrılıq dərdi, vətənə qovuşmaq həsrəti, ailəyə, doğmalara birləşmək arzusu, sevgilisinə məftunluq, dərdinin milli xalq dilində ifadəsi tərbiyəlilik simvolu olmaqla etnopedaqoji mahiyyət daşıyır:

Qəribəm bu vətəndə,
Gözüm yoldan ötəndə.
Könlüm bir qardaş istər,
Baş yastığa yetəndə (3, s. 275).

Naxçıvan folklorunun kiçikhəcmli nümunəsi olan bu bayatıda insanın insana sevgisi tərbiyəsi yüksək mənəvi-əxlaqi norma kimi verilir. Ümumiyyətlə, Naxçıvan bayatılarında sədaqətlilik, mərdlik, vətənpərvərlik, ismətlilik, bir-birinə hayan olmaq kimi etnopedaqoji xüsusiyyətlər tərbiyənin əsas qayəsini təşkil edir.

Naxçıvan folklorunun kiçikhəcmli nümunələri içərisində vücudnamələr də özünün tərbiyəvi

dəyəri ilə seçilir. Yeri gəlmişkən qeyd edək ki, bu vaxtadək Azərbaycan pedaqoji fikrində folklorun bu janrından tərbiyə məqsədilə bəhs olunmamış, vücudnamələrin çoxu tərbiyəvi baxımdan təhlilə cəlb olunub dəyərləndirilməmişdir. Tədqiqat göstərir ki, Naxçıvan folklorunda yer tutan vücüdnamələr etnopedaqoji məzmununa görə xüsusi tərbiyə elementləri aşılayır. "Naxçıvan folkloru antologiyası"na salınmış bir vücudnamədə qız övladın üç yaşından başlayaraq yüz yaşına qədər həyatı, yaşayışı, əxlaqı və tərbiyəsindən bəhs olunur və tərbiyə elementləri onun ayrı-ayrı yaş dövrlərini əhatə edir. Beləliklə, Naxçıvan folklorunun bu kiçikhəcmli janrı həm psixoloji, həm də pedaqoji tərbiyə elementlərini özündə ehtiva edir. Səkkiz bənddən ibarət olan bu vücüdnamənin birinci bəndində üç və on yaşına çatan qız uşağının gözəlliyindən söhbət gedir və bu bənd xüsusi olaraq estetik tərbiyə aşılayır:

Üş yaşınnan beş yaşına varanda,
Bu cür gözəlliyə əcəb qız olar.
Həddi-bulux on yaşına çatanda,
Açıla laləsi, xub nərgiz ola (5, s. 248).

Vücudnamənin ikinci bəndi ismət, həya, əxlaq tərbiyəsi elementlərini özündə əks etdirir. Qədim ata-baba adətinə görə qız uşağı başıaçıq gəzmir, başına kətan örtük salır, zahiri gözəlliyinə, səliqəsinə fikir verir. Həmçinin bu bənddə on üç yaşına çatmış qız övladın tərbiyəsi ilə məşğul olmaq, həddi-buluq vaxtı valideyn tərəfindən nəzarətdə saxlanılmaq kimi əxlaqi, tərbiyəvi keyfiyyətlər aşılanır:

On yaşında kətan örtər başına,
On birində vəsmə yaxar qaşına.
Elə ki doldu on üç yaşına,
Qoyma qonşulara, yaman söz olar (5, s. 248).

Vücudnamənin sonrakı bəndlərində on dörd yaşa çatan qız gözəllərə qatılır, on beşində nişanlanır, on altıda toyu olur və s. Beləliklə, qız övladın yüz yaşa qədərki bütün mənəvi, əxlaqi keyfiyyətləri ardıcıllıqla təsvir olunur. Bu cür mənəvi-əxlaqi və tərbiyəvi elementlər Naxçıvan folklorunun heç bir kiçikhəcmli nümunələrində yaş xüsusiyyətlərinə görə ardıcıllıqla verilmir. Vücudnamədə verilən bu etnopedaqoji xüsusiyyət Naxçıvan folklorunun regional özünəməxsusluğundan nəşət edir.

Müəllim izahat zamanı Naxçıvan folklorunun digər janrlarını da tədrisə cəlb edə bilər. O, şərh edə bilər ki, Naxçıvan folklorunda geniş yer tutan mövsüm və mərasim nəğmələri də çox mühüm tərbiyəvi əhəmiyyət kəsb edən milli-mənəvi dəyərlərimizdəndir. Naxçıvanda yaranan mövsüm və mərasimlərin hər biri ilə bağlı deyimlərin olması onları səciyyələndirən regional xüsusiyyətlərdəndir. Məsələn, Novruz bayramı münasibətilə deyilən mərasim nəğmələrinin toplanıb yazıya alınan nümunələri içərisində Naxçıvanın folklor mühitində ağızdan-ağıza dolaşan belə bir xalq deyimi vardır.

Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Səməni, can səməni,
Gözlərimə işıq ver,
İşıq ver, yaraşıq ver.
Dizimə taqət gəlsin,
Qoluma qüvvət gəlsin (5, s. 61).

Belə deyimlər əməkçi insanlara əkib-becərməklə, əmək məhsulları yığımına işgüzar yanaşmaqla, təbiət hadisələrinə obyektiv münasibət bəsləməklə bağlı elmi dünyagörüş qazandırır. Belə mərasimlər insanın işgüzar, cəsur, diqqətli, səbrli, təmkinli, hövsələli olmasına şərait yaratmış olur. Beləliklə, mövsüm-mərasim nəğmələri əməkçi insanın əxlaqının tənzimlənməsində də mühüm rol oynamış olur.

Naxçıvanın mövsüm-mərasim nəğmələri içərisində “Xıdır Nəbi mərasimi”, “Üzərriksalma mərasimi”, “İl adları söyləmə mərasimi”, “Qodu-qodu mərasimi”, “Xanbəzəmə mərasimi”, “Cangülüm mərasimi”, “Çillələrin bəhsi mərasimi”, “Duvaqqapma mərasimi” tərbiyəvi mahiyyətinə görə xüsusi əhəmiyyət kəsb edir. Ən ümdəsi ona görə ki, sadalanan mərasimlərin variantları Azərbaycanın digər regionlarında olan variantlarının hər birindən öz spesifik xüsusiyyətlərinə görə fərqlənir. Məsələn, Azərbaycanın digər folklor mühitlərində mövcud olan “Qodu-qodu” mərasim nəğməsindəki Qodu obrazı Naxçıvan folklorunda bir qədər dəyişikliklə, başqa variantda təqdim olunur. Bundan başqa, Azərbaycanın digər folklor bölgələrində olan Qodu obrazı ilə Naxçıvan variantındakı Qodu obrazının həm geyimində, yəni qiyafəsində, həm də gəlişində fərqlər var. Yəni Naxçıvan versiyasındakı Qodu atın üstündə, əlində çomaq, başında papaq gəlir. Özü də onun gəlişinə oxunan nəğmə də fərqlidir:

Qodu-qodu gördüyünüz varmı?
Qoduya salam verdiyiniz varmı?
Qodu gedənnən bəri
Gün üzü gördüyünüz varmı?
Qodunu atdan düşürün,
Qoduya süddü aş bişirin.
Qodu sabah gün çıxartmasa,
Vırın atdan düşürün (4, s. 89).

Mərasim nəğmələrinin ağılla, uzaqgörənliklə, əməyə vicdanlı münasibətlə, cəsarətliliklə, işgüzarlıqla, qoçaqlıqla, igidliklə, məişətə qayğı ilə bağlı ünsürləri onların etnopedaqoji dəyərini bir qədər də artırmış olur.

Naxçıvan folklorunun mövsümi xarakter daşıyan “Xanbəzəmə mərasimi”ndə yaz mövsümündə əməkçi insanların bir yerə toplaşıb əylənmələri kütləvi tədbir kimi təsvir olunur. Tədbirdə Naxçıvanın bir kəndi, ya qəsəbəsi yeddiləvin günü bir meydana toplaşıb şənlik edirlər. Bu mərasim daha çox Ordubadda keçirilir. Mərasimin əsas məzmunu xan seçib əski günlərin birini məzəli şəkildə yaşamağa, yəni köklü şəkildə əylənməyə, başqa sözlə desək, mədəni istirahət edib asudə vaxtı səmərəli şəkildə keçirməyə, novruzu qarşılamağa xidmət edir. Mərasimdə zurnaçı dəstələri, sazçalanlar, nəğmə oxuyanlar və pəhləvanlar da iştirak edirlər. Əslində mərasim zurnaçıların “Cəngi” sədaları altında “Zorxana” ilə başlayır. Pəhləvanların güləşi ərəfəsində kosa insanları əyləndirir. “Zorxana”dan sonra xanı seçmək mərasimi başlayır. Ağsaqqallardan biri irəli çıxır. Meydana yığılanlara üz tutub deyir:

“– Camaat, bu gün bir Xan seçməliyik. Xan gərək qaş-qabaqlı, sözü ötkəm adam olsun. Ona bir vəzir, bir vəkil, üç fərraş, bir də bir cəllad seçib verin.

Adamlar yer-yerdən deyirlər:

– Xanımız olsun başmaqçı Mərdan.
– Vəzirimiz də körükçü Əli olsun.
– Çayçı Məhmudu vəkil seçək.
– Fərraşlığa Qara Xudayar yaxşıdı.
– Biri də Çavuş Ələmdar olsun.
– Qurd Bağırdan da yaxşı fərraş olar.
– Cəlladlıq elə əzəldən Qəssab Tağının boyuna biçilib.
– Olsun, olsun.

Xanı təmtəraqla meydanın yuxarı başında qurulmuş taxtda oturdurlar. Vəzir-Vəkil də gəlib taxtın sağ-solunda əyləşir. Yaraqlı-yasaqlı Fərraşlar Xanın hüzurunda əmrə müntəzir dayanırlar. Cəllad qırmızı libas geyib, əlində balta meydanın aşağı başında gözləyir. Xan gözlənilməz əmrlər verir, adamları da onun buyuruqlarını can-başla yerinə yetirirlər. Kosayla Təlxək də tez-tez meydana girib Xanı güldürməyə çalışır. Minbir hoqqadan sonra Xanı güldürüb taxtdan yendirir,

aparıb suya basırlar” (4, 101-102).

Göründüyü kimi, bu mərasimin əsasən əxlaq tərbiyəsi, onun komponentləri, eləcə də əmək tərbiyəsi, fiziki tərbiyə, estetik tərbiyə, ekoloji tərbiyə, hətta hüquq tərbiyəsi baxımından əhəmiyyəti böyükdür. Bundan başqa, mərasimdə bölgənin ən hörmətli şəxsiyyətinin Xan seçilməsi şəxsiyyətyönümlülük baxımından xüsusi əhəmiyyət kəsb edir. Niyə? Birincisi, ona görə ki, bu mərasim ən yüksək səviyyəli bir şəxsiyyətin seçilməsini qarşıya məqsəd qoyur. İkincisi, bütün mərasim iştirakçılarının ürəyindən ən yüksək hörmət və ehtirama malik olan şəxsiyyətin seçilməsi keçir. Üçüncüsü, ən yüksək səviyyəli insanın, yəni Xanın seçilməsindən sonra onun vəzir-vəkilinin, yəni ikincidərəcəli şəxsiyyətlərin seçilməsi mərasim iştirakçılarının ideya-siyasi tərbiyəsi üçün stimula çevrilir.

Qeyd etdiyimiz kimi, bu günkü günümüzün aktuallıq kəsb edən direktivlərindən biri şəxsiyyətyönümlü təhsil və onun tərkib hissələri olan şəxsiyyətyönümlü təlim-tərbiyə işləri bütün tədbirlər üçün aparıcı amil olmalıdır. Müasir dünyada ən aparıcı təhsil texnologiyalarından biri kimi, şəxsiyyətyönümlü təhsilə böyük üstünlük verilir. Bu, o deməkdir ki, elm öyrətməklə, bilik, bacarıq, vərdiş aşılamaqla yanaşı, şagirdi bir şəxsiyyət kimi də yetişdirmək üçün konkret tərbiyəvi konsepsiya olmalıdır. Bu konsepsiya bilikli və tərbiyəli insan, yəni yeni insan yetişdirilməsinə xidmət etməlidir. Hazırlanan konsepsiyanı şəxsiyyətyönümlü konsepsiya da adlandırmaq olar. Şəxsiyyətyönümlü təhsil üçün təqdim edilən yeni modullardan biri kimi, kiçikhəcmli folklor nümunələrinin hər birinin pedaqoji prosesə gətirilməsi zamanı onların şəxsiyyətyönümlü tərbiyə baxımından təsir gücünü nəzərə almaq lazımdır. Ona görə ki, Naxçıvan folklorunun ən kiçik nümunəsində şəxsiyyətin formalaşmasına təsir edən amillərin olduğunu nəzərdən qaçırmaq olmaz. Eyni sözləri digər mərasimlər və onlarla bağlı deyimlər barədə də demək olar.

Müəllim öz şərhində vurğulaya bilər ki, miflər də Naxçıvan folklorunun kiçikhəcmli nümunələrindən olmaqla yetişən nəslin tərbiyəsi və bir şəxsiyyət kimi formalaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir.

“Ovçu Əhməd”, “Kasıb oğlan”, “Oğlanla sehirli kişi”, “Dağ oğlan” kimi miflərdə oğlanların igidliyi, qoçaqlığı, qəhrəmanlığı, mübarizliyi, dönməzliyi, mərdliyi, cəsarətliliyi, səbrliliyi, təmkinliliyi əxlaqi normalar kimi diqqəti cəlb edirsə, onların ağlı, fərasəti, dərrakəsi, uzaqgörənliliyi ağıl tərbiyəsi nümunəsi kimi önə çəkilir. Bu miflərdə oğlanların fiziki güclərini ağılları hesabına sərf etmələri onların qələbələrini təmin edən amil kimi irəli sürülür. Bu, o deməkdir ki, Naxçıvan miflərinin bir qismində insanların tərbiyəlilik səviyyəsi həmin miflərin etnopedaqoji səviyyəsinin yüksək olmasından xəbər verir. Naxçıvan miflərində şər qüvvələrlə xeyir qüvvələrin mübarizəsi ədalətin, haqqın, gerçəkliyin qələbəsi ilə nəticələnir. Əgər miflərdə təmsil olunan insanların haqqın, ədalətin uğrunda mübarizə edərək qələbə çalmaları təqdim edilirsə, deməli, bu da Naxçıvan miflərinin etnopedaqoji səviyyəsinin yüksək olması ilə izah edilməlidir. “Tilsimli cin”, “Ucuqulu”, “İlan şəfası”, “Sarbanla ilan”, “Tilsimli ilan”, “Zəncirlənmiş əjdaha”, “Qurd arvad”, “Kəlləgöz”, “Təkgöz” kimi miflərdə yenə haqqın, ədalətin, gerçəkliyin qələbəsi önə çəkilir. Yenə də tərbiyəvi prinsiplərə, tələblərə istinad edilməsi halları üstünlük təşkil edir. Fiziki gücün ağılla sərf olunması, əməksevərlik, halallıq, dostluq, qardaşlıq, yoldaşlıq, igidlik, cəsarətlilik, qorxmazlıq, mübarizə əzmi kimi əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnənlər sonda qalib gəlirlər.

Naxçıvan folklorunun kiçikhəcmli nümunələri içərisində əfsanə və rəvayətlər daha geniş yer tutur. Əfsanə və rəvayətlərin bir qismi yurd yerlərinin əxlaqı, isməti, namusu, qeyrəti, bir qismi insanların sosial məişətinin vəziyyəti, bir qismi kasıb, fağır, sakit həyat tərzi sürən adamların haqsızlıqlarla, ədalətsizliklərlə üzləşmələri, bir qismi isə elin, obanın, kəndin igid, qəhrəman, qorxmaz, dönməz, məğlubedilməz adamlarının yurdsevərliyi, vətənpərvərliyi, haqqı, ədaləti müdafiə etmələri ilə bağlıdır. Belə əfsanə-rəvayətlərdə əqli, əxlaqi, mənəvi, fiziki, ekoloji, estetik tərbiyə elementləri üstünlük təşkil etdiyi üçün onların tərbiyəvi dəyəri daha çoxdur. “Xəzinə qala”, “Cincili bulaq”, “Yalqız ağac”, “Oğlanqala-Qızqala”, “Qanlıgöl”, “Çərçiboğan”, “İtqıran kəndi”,

“İki dağ”, “Yeddi bulaq”, “Oğlan-qız məqbərəsi”, “Gəlin qalası”, “Oğlan qız”, “Qarıdağ”, “Qız qalası”, “Fərhad evi”, “Arpaçay gözəli”, “Qaçaq Məmməd” əfsanə və rəvayətləri beləlırindəndir. Bu əfsanə və rəvayətlərlə yanaşı, elə əfsanə-rəvayətlər də var ki, onlar indiki Naxçıvan diyarşünaslıq abidələri ilə bağlı olan tarixi hadisələri özündə əks etdirir. Belə rəvayətlər həm də bir didaktik material olaraq tərbiyənin bir neçə tərkib hissələrini özündə ehtiva edən tərbiyə elementləri haqqında təsəvvür yaradır. Məsələn, “Keygidər quşları” rəvayəti buna misal ola bilər. Həmin rəvayət əxlaq tərbiyəsinin bir neçə komponentini özündə birləşdirir.

Rəvayət belədir:

“Keygidəri ovlamazlar, günahdı. Lap əldən düşəndə, ölməyə macal Keygidərin özü çıxar ovçunun qabağına.

Bu quşlar yekəcədi, ətticə-cannıcadı.

Deyəllər ki, Keygidərlər ildə bir yol qanad bağlallar, bizim dağlardan düz İsfahanacan uçallar. Bunun işi bir sirri-xudadı. Uçanda qabağına çıxan dağın daşına-qayasına dəyəndə hövlünnən bağrı çatdıyıb ölər. Ölməsə, dünya da dağıla, düşdüyü dağdan bir də üçmaz, payi-piyada qayıdar öz dağlarımıza” (4, s. 43).

Burada Naxçıvanın ekoloji mühitinin çox nadir inciləri təsvir olunur. Estetik- bədii zövq aşılayan bu rəvayət şagirdlərə həm də çox güclü ekoloji və vətənsevərlik tərbiyə elementləri aşılayır. Çünki rəvayətdə ekoloji mühitin quşlar aləmini təmsil edən keygidər quşunu ovlamaq günah sayılır. Keygidər quşunun payi-piyada öz dağlarımıza qayıtması da vətənə bağlılıq ideyasını özündə birləşdirir və vətənpərvərlik tərbiyəsi aşılayır.

Elə əfsanə və rəvayətlər var ki, onlar tərbiyənin bütün tərkib hissələrini özündə ehtiva edir. Bu, o deməkdir ki, bu əfasanə-rəvayətlər uşaqlara, məktəblilərə əqli, əxlaqi, mənəvi, əmək, estetik, ekoloji, hüquq və iqtisadi tərbiyə elementlərinin hamısını aşılaya bilir. “Gəlin qaya” əfsanəsi buna nümunə ola bilər:

“Deyilənə görə, Gen dağın ətəyində bir iyid öz torpağında işdiyirdi. O, təzəcə əvlənmişdi. Gəlin də ki, nə gəlin. Gözəlliyi dörd bir yana işıx salırdı Gəlin hər gün ərinin yeməyini Gen dağın ətəyinə apardı. Bir gün yağılar yurda basqın edirlər. Gəlin də ərinə yemək aparırdı. Xəbəri yox idi ki, əri düşmənnər öldürüp. Gəlin ərinin öldürülməsini görüp, yağıdan qaçmağ istiyir. Düşmən də onu qovur. Gəlin görür ki, yağılar onu tutacax, göylərə üz tutub yalvarır ki, tanrı onu daşa çevirsin. Gəlin daşa çevrilir. O daş gəlin qaya addanır” (4, s. 46).

Göründüyü kimi, “Gəlin qaya” əfsanəsi bədii zövq mənbəyi olmaqla yanaşı, vətənsevərlik, vətəni yad əllərdən qorumaqlıq, namusluluq, qeyrətlilik, həyat yoldaşına sədaqətlilik, mərdlik, cəsarətlilik, qorxmazlıq kimi əxlaqi-mənəvi keyfiyyətləri özündə ehtiva edir.

Elə rəvayətlər də var ki, uşaqların, yeniyetmələrin, gənclərin tərbiyəsilə yanaşı, böyüklərin, hətta şahların tərbiyəsi üçün də nümunə ola bilir. “Güzgüdəki əjdaha” rəvayəti buna nümunə ola bilər:

“Rəvayətə görə, adam qocalanda aparıb qoyarmışlar dağa. Bir oğlan da aparıb atasını dağa qoyarkən vəhşi quşların onu didib-dağıdacağını gördühdə ürəyi dözmür. Atasını daş altında gizliyir. Hər gün də çörəyini, suyunu gizli aparıb verir.

Padşahın ölkəsindəki çayın qabağını əjdaha kəsir. Gündə bir qurban verməhlə bir az su gəlir. Oğlan əhvalatı atasına deyir. O, atasının məsləhəti ilə gəlib şaha böyük bir güzgü düzəltdirir. Güzgünü əjdahanın qarşısına tutullar. Öz böyüdülmüş şəklinnən qorxan əjdaha qaçır, bu yolla onu şahın torpağınnan çıxarıllar.

Şah oğlana deyir, get atanı gətir. Fərman verir ki, kim qocalmış atasını aparıb dağa qoysa, boynu vurulacax” (4, s.48).

Bu əfsanənin tərbiyəvi əhəmiyyəti çoxdur. Yəni bədii zövq tərbiyəsi aşılayan bu əfsanədə əqli, əxlaqi, mənəvi, ekoloji, fiziki tərbiyə elementləri ilə yanaşı, böyüklərin tərbiyəsi daha çox üstünlük təşkil edir.

Xalq yaradıcılığı ilə bağlı olan dəyərlərdə şahların tərbiyəsi qeyri-adi tərbiyə komponenti kimi Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində də yer alır. Belə nümunələrdə Naxçıvanın bir neçə ünvanı ilə birbaşa əlaqəsi olan tarixi hadisələrdən yaranmış əfsanə və rəvayətlər tərbiyə vasitəsinə çevrilir. Məsələn:

"Sədərəyin yaxınlığında Əjdəkom dağı var. Dağın altında bir bulaq çıxır, adına Cincili bulaq deyillər. Rəvayətə görə, bulaq yeddi ildən bir çıxır. Deyirlər bu bulaq çox suluymuş. Əkini, bağ-bağatı onun suyuyla suvarırmışlar. Bir əjdaha gəlib suyun qabağını kəsir, əvəzində gündə bir adam qurban istəyir. Qurban vermirlər. O vaxtdan bulağın suyu kəsilir. Əjdaha yeddi il bir tərəfi üstə yatır, yeddi il də o biri tərəfi üstə. Yeddi ildən bir tərpənib yerini dəyişəndə su gəlir, sonra kəsilir" (4, s. 67).

İlk öncə onu qeyd edək ki, bu əfsanə "Kitabi-Dədə Qorqud" abidəsindəki "Basatın Təpəgözü öldürməsi" boyunu yada salır. Həmin boyda da Təpəgöz kəndə gələn suyun qabağını kəsir, əvəzində bir adam alıb yedikdən sonra suyu buraxır. Naxçıvanda yaranan "Cincili bulaq" əfsanəsində də təxminən eyni tipli hadisədən bəhs olunur. Lakin sonluqları müxtəlif tərzdə bitir. "Cincili bulaq" əfsanəsi əməksevərlik, inamlılıq və əqidəlilik tərbiyəsi baxımından əhəmiyyətlidir.

Naxçıvan folklorunun kiçikhəcmli nümunələri içərisində həcmcə kiçik olan nağıllarla, dastansayağı rəvayətlərlə yanaşı, xalq hikmətləri, ibrətamiz hekayətlər, atalar sözləri, məsəllər, tapmacalar, yanıltmaclar, gülməcələr, haxıştalar, gülümheylər, xalq mahnıları, xalq rəqsləri və aşıqların bədii yaradıcılığı xüsusi yer tutur. Bundan başqa, Naxçıvan folklorunun özünəməxsus digər nümunələri də vardır ki, həmin nümunələr tərbiyənin tərkib hissələrini və hətta hər bir tərkib hissəsinin bütün komponentlərini özündə ehtiva edir. Oxşamalar, əzizləmələr, inanclar, sınamalar, oyunlar, pirlər, adətlər, yuxuyozmalar, ovsunlar, andlar, alqışlar, qarğışlar, yalvarışlar, peşmannamalar, ecəşmələr, müəllifi itmiş şeirlər, aşıq rəvayətləri belələrindəndir.

Naxçıvan folklorunun kiçikhəcmli nümunələri içərisində elələri də var ki, onlar Naxçıvanın həm antropoloji xüsusiyyətlərini, həm də diyarşünaslıq mövqeyini, yəni Naxçıvanın atmosferini, biosferini, hidrosferini və litosferini özündə əks etdirir. Naxçıvanın bu qəbildən olan kiçikhəcmli folklor nümunələri sırasında Nuh peyğəmbərlə bağlı olan deyimlər, xalq inancları, müdrik kəlamlar, rəvayətlər, əfsanələr və hekayətlər xüsusi tərbiyəvi dəyərə malikdir. Sadalanan kiçikhəcmli folklor nümunələrinin bəzilərində Naxçıvanın etimoloji məna çalarları da yer alır. "Nuhçıxan abidəsi" ilə bağlı yaranan kiçikhəcmli folklor nümunələri də fikrimizi sübut edir. Ümumiyyətlə, Naxçıvanın kiçikhəcmli folklor nümunələri sırasında Nuh peyğəmbərlə bağlı olan bütün folklor nümunələrinin çox mühüm tərbiyəvi əhəmiyyəti vardır. Nümunə təriqilə onlardan birinə diqqət edək:

"Qədim zamanlarda bir qarı yer üzünü su alacağını eşidir və Nuh peyğəmbərə yalvarır ki, onu da öz gəmisinə götüsün. Qarı bir balaca çörək pişirip özü ilə götürmək istiyir və təndirdə onu yuxu tutur. Su qarının təndirindən qalxır. Peyğəmbər bütün canlıların hamısınnan bir cüt gəmiyə alır. Gəmi qalxır, onun bir parçası İlandağa dəyərək düşür. Sonra bir xeyli irəlidə gəmi yenə başqa dağa çarpır və bir taxtası düşür. Sonra heyvannardan ilan narahatçılıx edir. Peyğəmbər deyir, Allahın heyvanı, səni kor olasan, gecə başın ağrısın, gündüz dişin, sürüncəhli qalasan. Nuhun gəmisi yenir, quşların hamısı uçup gedir. Toyuq uça bilmir, soruşur mən niyə uça bilmədim, ay Allah!

Peyğəmbər cavabında deyir: – Nahaqdan danışdığına görə uça bilmədin" (4, s. 49).

Burada mənəvi saflıq, ləyaqətlilik, paklıq, ülvilik, münəvvərlik kimi əxlaqi-mənəvi normalar insanın bir şəxsiyyət kimi formalaşmasına təkan verən amillərdən hesab olunur.

"Üzərliksalma", "Xanbəzəmə", "Cangülüm", "Duvaqqapma" mərasimlərində səslənən nəğmələrdəki xalq istəyi əslində şəxsiyyətin formalaşdırılması üçün ən zəruri etnopedaqoji istəklər kimi dəyərləndirilməlidir. Naxçıvan mühitində yaranan inanclar, sınamalar, xalq hikmətləri, ibrətamiz hekayətlər, gülməcələr, atalar sözləri və zərbülməsəllər, tapmacalar, yanıltmaclar, inanclar, miflər, sınamalar, yasaqlar, mərasimlər, oyunlar, rəqslər, yuxuyozmalar, ovsunlar, andlar,

alqışlar, lətifələr, əfsanələr, rəvayətlər, aşıq rəvayətləri, yalvarmalar, peşmannamalar, holavarlar, sayaçı sözləri, düzgülər, dolamalar, acıtmalar, uşaq oyunları, haxıştalar, gülümheylər, yallıbaşı-mahnılar, xalq mahnıları, kiçikhəcmli dastan və nağıllar tərbiyəvi əhəmiyyət kəsb edən nümunələr kimi, Azərbaycanın pedaqoji fikir tarixini zənginləşdirir.

–Naxçıvan folkloru Azərbaycan folklorunun ən dəyərli tərkib hissələrindən olmaqla zəngin tərbiyəvi təsir gücünə malik olan materiallardır;

–Naxçıvan folkloru tərbiyəvi mahiyyət daşımaqla yanaşı, müasir dövrümüzün şəxsiyyətyönümlülük xüsusiyyətlərini də özündə ehtiva edir.Yəni Naxçıvan folklorunun bütün janrlardan olan nümunələri istər ailədə, istər pedaqoji prosesdə, istərsə də sosial mühitdə şəxsiyyətin inkişafı və tərbiyəsini, bütövlükdə isə formalaşdırılmasını özündə ehtiva edir;

–Naxçıvan folkloru nümunələri şəxsiyyətyünümlülük əlamətlərini daşımaqla, ən dəyərli etnopedaqoji materiallar kimi, Azərbaycanda məktəb və pedaqoji fikir tarixini zənginləşdirir.

## ƏDƏBİYYAT


1. Abbasov A. N., Pedaqogika, Bakı, Mütərcim, 2010
2. Ağayev Ə. Ə., Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı, Avropa, 2005
3. Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru, Bakı, Sabah, 1994
4. Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru; 3 cilddə, I c., Naxçıvan; Əcəmi, 2010
5. Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru; 3 cilddə, II c., Naxçıvan; Əcəmi, 2011
6. Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru; 3 cilddə, III c., Naxçıvan; Əcəmi, 2012,
7. Babayev R. T., Naxçıvan folkloru, bəşərilik, türklük, regionallıq. Bakı, Elm, 2008
8. Bədəlova Ə. S., Azərbaycan xalq pedaqogikası, Bakı, Müəllim, 2009
9. Əfəndiyev P. Ş., Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, Elm və təhsil, 2013
10. Əkbərov T. S. Təbiət, insan, gözəllik, Bakı, Azərnəşr, 1966
11. Əliyev İ.İ. Azərbaycan etnopedaqogikası, Bakı, Elm və təhsil, 2009
12. Əliyev İ. İ. Etnopedaqoji materialların tərbiyəvi əhəmiyyəti, Bakı, Azərnəşr, 1995
13. Əliyev İ.İ. Təlim-tərbiyə işlərində etnopedaqoji materiallardan istifadə, Bakı; Gənclik, 1997
14. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları, Bakı Araz, 2000
15. Həşimov Ə. Ş. Azəri xalq pedaqogikasının ümumi əsasları və xüsusiyyətləri, Kirovabad; Zərdabi adına Kirovabad Dövlət Pedaqoji Universiteti, 1967
16. Həşimov Ə. Ş., Sadıqov F. B. Azərbaycan xalq pedaqogikası antologiyası, Bakı, ADPU, 1996
17. Həşimov Ə. Ş., Sadıqov F. B. Azərbaycan xalq pedaqogikası, Bakı, Ünsiyyət, 2000, 269 s.
18. Kazımov N. M., Həşimov Ə. Ş. Pedaqogika, Bakı, Maarif, 1996, 416 s.


## ABSTRACT


**Mahjabin Gadimbeyly**


## TEACHING THE ETHNOPEDAGOGICAL ESSENCE AND PERSONALITY-ORIENTED FEATURES OF FOLKLORE SAMPLES OF NAKHCHIVAN AT HIGHER INSTITUTION


The article deals with a scientific-pedagogical problem which has not been researched so far in the history of Azerbaijan pedagogy. For the first time the author researches the teaching problems of folklore materials carrying ethnopedagogical character in teaching of pedagogically biassed special courses at higher institutions referring to different genres of Nakhchivan folklore.

The article also researches the teaching problems of ethnopedagogical essence and personality oriented features of Nakhchivan folklore samples referring to the project “Government strategy on the development of education in Azerbaijan Republic”. Ilham Aliyev on October 24, 2013.

The author evaluates ethnopedagogical and educational issues of genres of Nakhchivan folklore such as lullaby, okhshama, bayati, vujudname.

The educational importance issues of leasonal and ceremonial songs, and pedagogical and educational analysis of ceremonies such as “Chidir Nebi”, “Uzarliksalma”, “Godu-godu”, “Duvaggapma”, “Khanbezeme” are also given in the article.

The educational issues of folk sayings about Nuh, myths, legends and narrations of Nakhchivan are analyzed and evaluated pedagogically.

## РЕЗЮМЕ

**Мехжебин Гадимбейли**

## К ВОПРОСУ О ПРЕПОДАВАНИИ В ВЫСШЕЙ ШКОЛЕ ЭТНОПЕДАГОГИЧЕСКОЙ СУЩНОСТИ И ОСОБЕННОСТЕЙ ВОСПИТАНИЯ ЛИЧНОСТИ ОБРАЗЦОВ НАХЧЫВАНСКОГО ФОЛЬКЛОРА

В статье рассматривается проблема, до сих пор не исследованная в истории азербайджанской педагогической мысли. Автор впервые, ссылаясь на отдельные жанры нахчыванского фольклора, рассматривает вопросы преподавания в высшей школе “Специальных курсов” педагогической направленности фольклорных материалов, носящих этнопедагогический характер.

В статье, руководствуясь проектом Президента Азербайджанской Республики Ильхама Алиева “Государственная Стратегия по развитию образования в Азербайджанской Республике” от 24 октября 2013 года, рассматриваются вопросы преподавания в высшей школе этнопедагогической сущности и особенностей воспитания личности образцов нахчыванского фольклора.

Автор, анализирует и в научно-педагогическом аспекте оценивает этнопедагогические и воспитательные вопросы таких малосодержательных образцов нахчыванского фольклора, как колыбельная песня, ласки, баяты и др.

В статье также рассматривается вопрос о воспитательной роли календарных и обрядовых песен, занимающихся большое место в нахчыванском фольклоре, анализируются педагогическое и воспитательное значение таких обрядов, как “Хыдыр Наби”, “Зажигание Руты”, “Году-Году”, “Дуваггапма”, “Ханбеземе”.

Автор рассматривает и в педагогическом аспекте оценивает такие образцы нахчыванского фольклора, как легенды и предания, мифы, народные сказания, связанные с пророком Ноя.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**KÖNÜL SALMANOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:37**

# ŞƏXSİYYƏTİN FƏALİYYƏTİ VƏ DƏYƏRLƏR SEÇİMİ

**Açar sözlər:** *şəxsiyyət, dəyərlər, fəaliyyət, şüur*
**Keys word :** *personality, value, activity, consciousness*
**Ключевые слова:** *личность, ценность, деятельность, сознание*

Cəmiyyət və mədəniyyətin inkişafını fəaliyyətsiz təsəvvür etmək qeyri-mümkündür. İctimai həyatın başlıca məzmununu, əsasını insan fəaliyyəti təşkil edir, fəaliyyətsiz ictimai varlıq ola bilməz. İnsanın mahiyyəti onun sosial maddi-mənəvi yaradıcı fəaliyyəti ilə müəyyən olunur.

Z.Hacıyevin fəaliyyətə verdiyi tərifdə yazır: "Fəaliyyət dedikdə insanların məqsədyönlü, dəyişdirici təsiri prosesi başa düşülür. Bu prosesdə həm təsirin yönəldiyi obyekt, həm də onun subyekti, yəni insanın özü dəyişir. Göründüyü kimi, fəaliyyət bir tərəfdən ətraf mühitin dəyişdirilməsi, digər tərəfdən isə insanın özünün yeniləşməsi deməkdir" (7, s.373).

Fəaliyyət anlayışı sosial həyat anlayışı kimi çoxölçülü, çoxanlamlı fenomen olduğu üçün onun ən əsas və ən mühüm əlamətlərini kompleks şəkildə götürməklə ona tərif vermək olar. Bu baxımdan yanaşdıqda L.P.Buyevanın fəaliyyətə verdiyi tərifi filosofların bir qismi ümumən uğurlu hesab edir. L.P.Buyeva fəaliyyətə aşağıdakı tərifi verir: "Fəaliyyət cəmiyyət və insanın mövcudluq üsulu və inkişafı olmaqla, onun tərəfindən təbii vasitə reallığı (subyekt kimi özü də daxil olmaqla) öz tələb aktları, məqsədi və vəzifələrinə müvafiq surətdə yeniləşdirməsinin hərtərəfli prosesidir" (2, s.69). L.P.Buyevanın fəaliyyət anlayışının izahında diqqəti cəlb edən cəhət odur ki, o, əvvəla fəaliyyəti cəmiyyət və insanın mövcudluq üsulu və inkişafı hesab edir. İkincisi, insan fəaliyyət prosesində təbii və sosial reallığı və özünü dəyişdirir: üçüncüsü insanın məqsəd və tələbatı onun fəaliyyətinin strukturuna daxil edilir.

M.H.Rzayev fəaliyyəti ümumi və sözün məhdud mənasında götürərək ona aşağıdakı tərifi verir: "Ümumi mənada fəaliyyət dedikdə ictimai subyektlərin müxtəlif növləri tərəfindən öz mövcudluğu və inkişafını təmin edən şərait yaratmaq naminə sosial reallığı yeniləşdirməsi başa düşülür". O daha sonra yazır: "Əslində isə insan fəaliyyətinin məzmunu təkcə əşya və maddi nemətlər istehsalı ilə məhdudlaşmır. O, geniş əhatə dairəsinə malik olub, sosial reallığın digər sahə və formalarını, müxtəlif qəbildən olan təşkilatların və institutların fəaliyyətinin tənzim olunması mexanizmini, ictimai şüurunu, bilikləri, əsas dəyərlər sistemini və s. də əhatə edir. Sözün məhdud mənasında götürülən sosial fəaliyyət dedikdə müxtəlif sosial qruplarda, milli etnik birliklərdə, habelə, çoxnövlü siyasi təşkilatlarda və institutlarda təmsil olunmuş şəxsiyyətin öz müvafiq kollektivlərinin tələbat və mənafelərini, məqsədlərini ödəməyə yönələn aktiv dəyişdirici və yeniləşdirici hərəkətlərinin və əməllərinin məcmusu başa düşülür"(3,s63- 66).

Müasir proseslər fəaliyyətin məzmununu daha da genişləndirir, təkmilləşdirir və zənginləşdirir. İnsan fəaliyyətinin dialektik inkişafı dərininə deyil, həm də eninə gedir və nəticədə onun əvvəllər mövcud olmayan yeni-yeni növləri meydana çıxır. Bu proses sonsuz olaraq davam edəcəkdir. Bu söylənilən fikri sübuta yetirmək üçün elmi-texniki inqilabın, müasir sosial reallığın və praktikanın insan fəaliyyətinə gətirdiyi yeni sahələri ən ümumi şəkildə sadalamaq kifayətdir: kosmosun fəthi, atom enerjisindən və okeanlardan istifadə, insan orqanlarının transplantasiyası, əməyin gedişində daha artıq surətdə elm ilə qovuşması və culğalaşması, kommunikasiya

əlaqələrinin sosial reallığın dəyişdirilməsi formasına çevrilməsi və s. Deməli, hər yerdə, heç bir zamanda mütləq hərəkətsiz fəaliyyət mümkün deyildir. İnsan fəaliyyəti hərəkətdə olan həyatın özüdür. İnsan fəaliyyətinin sosial-fəlsəfi mahiyyəti məsələsi onun sistemli struktur təhlilini də zəruri edir. Fəlsəfi ədəbiyyatda obyektin struktur anlayışı dar və geniş mənada işlədilir. Dar mənada struktur anlayışı sistem yaradıcı münasibət (əlaqə) ilə eyniləşdirilir. Geniş mənada struktur anlayışı elementlər arasındakı münasibətlərin məcmusu başa düşülür. Həqiqətən də fəaliyyət onu təşkil edən elementlərin və yarımsistemlərin subordinasiyası baxımından mürəkkəb, dinamik və nizama salınmış struktura malikdir. Ancaq fəaliyyətin özü çox funksional hadisə olduğuna görə onun sistem struktur əlaqələri də çox strukturludur.

M.V.Dyomin insan fəaliyyətinin strukturunun elementlərini aşağıdakı kimi müəyyən edir: insanlar fəaliyyətin subyektləri kimi; insanların fəaliyyətinin motivlərinin müəyyən edən tələbatları və manafeləri; məqsəd tələb olunan predmetlərin ideal obrazı kimi; fəaliyyətin obyekti və məqsədəuyğun fəallıq kimi fəaliyyətin özü. Bununla yanaşı, M.V.Dyomin insanın predmet fəaliyyətinin aşağıdakı növlərini fərqləndirir: intellektual emosional və praktiki fəaliyyət növləri subyekt-obyekt münasibətləri sferasında olur və predmetin mənəvi və ya maddi dəyişdirilməsinə yönəlir (4, s.44-45; 64). Abstrakt fəaliyyətin elementləri xalis şəkildə gerçəklikdə olmurlar. Lakin onlar fəaliyyətin bütün konkret növlərinin əsasını təşkil edir, sonunculara istisnasız olaraq nüfuz edir. Bu münasibətdə M.S.Kaqan insan fəaliyyətinin dörd əsas növünü göstərir: yeniləşdirici, idrakı, dəyərləndirici - səmtləşdirici və kommunikativ fəaliyyət (5, s.43-53; 105) . Lakin subyekt-obyekt münasibətləri tam həcmdə götürüldükdə daha genişdir. Belə ki, o həm də subyekt-obyekt münasibətlərini əhatə edir və bu meyar əsasında insan fəaliyyətinin kommunikativ növü ayrılır.

İnsan fəaliyyətinin strukturunun təsnifində ictimai həyat sferaları meyar kimi götürülür və bu meyar əsasında fəaliyyət tipləri müəyyən olunur. Göstərilən meyara müvafiq olaraq insan fəaliyyətini maddi istehsal fəaliyyətinə, sosial fəaliyyətə, siyasi fəaliyyətə və ictimai proseslərin idarəçiliyi fəaliyyətinə ayırmaq olar. Digər bir təsnifat ictimai münasibətlər sisteminin növləri üzrə verilir. Belə halda, əxlaqi, hüquqi və s. fəaliyyət haqqında danışmaq olar. İ.S.Qılıcovun göstərdiyi kimi fəaliyyətin insan nəslinin istehsalı və təkrar istehsalı göstəricilər üzrə də ayrı-ayrı növlərə ayırmaq olar (6, s.40). İ.S.Qılıcov insan fəaliyyətini yarımsistemlərə ayırmağın başqa bir aspekti üzərində də dayanır. Onun fikrincə bu aspekt üç meyardan (subyektiv-fəaliyyətlilik, funksional və sosioмədəni) çıxış edir. Birinci aspekt fəaliyyətin hansı subyekt tərəfindən həyata keçirildiyini ifadə edir. Şübhəsiz, fəaliyyətin subyekti yalnız insan ola bilər. Lakin insan üç formada - ayrıca bir fərd, kiçik və böyük sosial qruplarının üzvü və bütövlükdə cəmiyyət formasında fəaliyyətin subyekti kimi çıxış edə bilir. İkincisi, meyar fəaliyyətin nəyə yönəldiyini aşkar edir, başqa sözlə, insanın sosial əhəmiyyət kəsb edən fəallığının istiqamətlərini əks etdirir (iqtisadiyyat, təhsil, tərbiyə, idarəçilik, incəsənət, səhiyyə, müdafiə, ekoloji, informatik fəaliyyət və s.). Nəhayət, fəaliyyətin sosial-mədəni aspekti onun necə həyata keçirildiyini, məcmu səmərəliliyinin necə yarandığını, bütöv sistem kimi effektiv mövcud olmasının mexanizmləri və vasitələrini aşkar edir (6, s.20-21) .

Tədqiqatçılar fəallıq səciyyəsi baxımından insan fəaliyyətinin məzmununda üç əsas elementi seçib ayırırlar: a) fəallığa malik olan və onu başqa obyektlərə və ya subyektlərə yönəldən subyekt; b) subyektin fəallığınının yönəlmiş olduğu obyekt; c) fəallığın özü "bu obyektin subyekt tərəfindən bu və ya digər üsulla" ələ keçirilməsində ifadə olunur və yaxud subyekt tərəfindən başqaları ilə kommunikativ qarşılıqlı təsirin bərqərar edilməsində özünü göstərir (6, s.21; 51, s.45). Birinci element rolunda yuxarıda deyildiyi kimi, ayrıca bir fərd, insanların yerləşdiyi böyük və kiçik sosial qruplar və bütövlükdə cəmiyyət çıxış edə bilər. Lakin nəzərə almaq lazımdır ki, müəyyən hallarda, məsələn, insanın fəallığı öz daxili "mən"inə, özünüdərkə və özünüdəyişdirməyə yönələrsə, onda insanın özü də fəallığın obyekti olur. Fəallığın ikinci elementi sistemində çıxış edən obyekt də müxtəlifdir. Bu rolu təbiətin predmetləri, hər hansı sosial institut və insanın özü yerinə yetirə bilər. Sistem kimi götürülən fəaliyyətin üçüncü elementin və yaxud yarımsistemli daha mürəkkəb

məzmuna malikdir. Subyektin "aktivlik enerjisi son dərəcə müxtəlif formalara yönəlir, həm də bu rəngarənglik fəaliyyəti şərtləndirən amillərdən asılı olur" (6, s.22) .

İnsan fəaliyyət anlayışının sosial-fəlsəfi və metodoloji mənası ondan ibarətdir ki, ictimai varlığı, tarixi insanlar yaradır, ictimai-tarixi proses onların fəaliyyətinin nəticəsidir; insanların fəaliyyətindən kənarda sosial varlıq, reallıq mövcud ola bilməz, fəaliyyətdə, onun müxtəlif formalarında cəmiyyətin obyektiv inkişaf qanunları təzahür tapır və formalaşır. Fəaliyyət - ətraf aləmə fəal münasibətin insana məxsus spesifik formasıdır; onun məzmununu, mədəniyyətin mövcud formalarının mənimsənilməsi və inkişafı əsasında dünyanın məqsədəuyğun şəkildə dəyişdirilməsi və yeniləşdirilməsi təşkil edir.

Cəmiyyətdə insan fəallığının fəaliyyət göstərmə və fəaliyyətdən kənar formaları yanaşı mövcuddur. Fəaliyyətdən kənar insan fəallığına şüurlu davranış forması adlandırmaq olar. Ona görə də fəaliyyətin mahiyyəti ümumilikdə aşağıdakı məqamlardan ibarətdir: a)insan tərəfindən insan aləminin, onun onaməxsus ictimai münasibətlərinin və özü-özünü yaratması; b) fəaliyyət insanın öz şəxsiyyətini yaratmasıdır; c) fəaliyyət daim və qeyri-məhdud şəkildə onun əsasında duran proqramı dəyişdirir, təkmilləşdirir və yeniləşdirir.

Əgər şüurlu surətdə dərk olunmuş məqsəd yoxdursa, onda iş, fəaliyyət də yoxdur. Hər bir iş, fəaliyyət şüurlu məqsədlə bağlıdır. Fəaliyyət şüurlu səciyyə daşıyır. Bu o deməkdir ki, insan öz fəaliyyətinin məqsədini, ona nail olmaq yollarını dərk edir, olacağı nəticəni qabaqcadan görür. Fəaliyyət - insanın dərk olunmuş məqsədi ilə tənzim edilən daxili (psixi) və xarici (fiziki) fəallığıdır. Sosial fəaliyyət, insanların fəallığı özbaşına yaranmır. O, insanların müxtəlif maddi və mənəvi tələbatları, mənafeləri, məqsədləri, motivləri və dəyər orientasiyaları əsasında yaranır. İnsanın tələbatı, mənafeyi, məqsəd və hərəkət etmə motivləri olmayan yerdə fəaliyyət də yoxdur. Sosial fəaliyyət mövcud təbii və sosial reallığı dəyişdirir, onu insanların tələbat, mənafe, məqsəd və vəzifələrinə müvafiq hala salır, nəsillərarası varisliyi, ictimai-tarixi təcrübənin mənimsənilməsini təmin edir. Ümumilikdə götürdükdə məqsəd, motiv, tələbat, mənafe və şərait (bura predmet və fəaliyyət alətləri, habelə insanın bacarığı, bilikləri, vərdişləri də daxildir) sosial fəaliyyətin məzmununu təşkil edir.

İnsanın fəaliyyətində dəyərlər sisteminin vacib rolu hər şeydən əvvəl bununla izah edilir ki, bu prosesdə maddi-dəyişdirici, idraki-dərkedici və dəyərləndirici-qiymətverici tərəflər bir-birindən ayrılmazdır (1, s.14). Fəaliyyət prosesində dəyərlərin rolu öz əksini başlıca olaraq bunda tapır ki, onun subyekti təbii və sosial gerçəkliyin müvafiq predmetlərini, hadisələrini özü və fəaliyyət üçün faydalı və ya zərərli, doğru və ya yalan, ədalətli və ədalətsiz, zəruri və lazımsız olması baxımından qiymətləndirir. Buna görə də dünya onu dərk edən və yeniləşdirən şəxsiyyətin qarşısında çoxtərəfli və çoxpilləli dəyərlər dünyası kimi çıxış edir. Bu çox mühüm metodoloji prinsipdir. Bu metodoloji prinsip dəyərin insan şüurunun müstəqil xassəsi kimi götürməyi və idrakı münasibətdən fərqləndirməyi tələb edir.

İnsanın həyat fəaliyyəti formaları istinasız olaraq müxtəlif növlü dəyərlər sistemi ilə vasitələnir və onlardan ayrılmazdır; şəxsiyyətə sosial varlıq kimi məxsus olan yüksək insani keyfiyyətlər onun cəmiyyətdə mövcud olan və fəaliyyət göstərən mütərəqqi dəyərləri mənimsəməsi və əldə rəhbər tutmasının nəticəsidir.

Dəyər şüuru və dəyərlər seçimi şəxsiyyətin strukturunda müstəsna dərəcədə böyük rol oynayır. Dəyərlər seçimi mahiyyət etibarilə insanı dünyaya və özünün-özünə bütöv münasibəti deməkdir. Sözün əsl mənasında ictimai hadisələrin, şəxsiyyətin fəaliyyətini öyrənilməsinə aksioloji problematika, dəyərlərin aksioloji məzmunu getdikcə genişlənir və yeni vüsət alır. Bu baxımdan şəxsiyyətə onun aksioloji təşkili kimi yanaşmaq olar. Şəxsiyyətin varlığının özü sistemli dəyərlər təbiətinə malikdir. Dəyərlər şəxsiyyətin fəaliyyətinin tənzimləyici, səmtləşdirici inteqrasiyaedici və motivləşdirici mənbəyi rolunu oynayır. İnsanın cəmiyyət üçün faydalı olan hər cür məqsədyönlü fəaliyyəti bu və ya digər dəyərlər sisteminə əsaslanır. Dəyərlər insana yaxşını pisdən, gözəlliyi

eybəcərlikdən, ədalətlini ədalətsizlikdən ayırd etməyə kömək edir .

Şəxsiyyətin fəaliyyətində dəyərlərin və dəyərlər seçiminin rolunun aşkar olunmasında başlıca metodoloji prinsiplərdən biri də dəyərlərin yenidən mənalandırılması prosesi ilə əlaqədardır. Azərbaycan cəmiyyətində və dünya miqyasında baş verən köklü transformasiya prosesləri, sivilizasiyaların dialoqu şəxsiyyətin ictimai varlığında, aksioloji təşkilində və funksiyalarında, şüuru və davranışında keyfiyyət xarakterli yeniliklər yaradır. Bu yeniliklər öz əksini hər şeydən əvvəl müasir dünyada mövcud olan dəyərlərin yenidən mənalandırılması adlı dərin və çoxtərəfli prosesdə tapır. Sözügedən prosesdə, bir tərəfdən, totalitar quruluşdan miras qalan dəyərlər köklü surətdə dəyişilir və tədricən sıradan çıxır, xalqımızın tarixi, milli-mənəvi dəyərləri, mütərəqqi adət-ənənələri dirçəldilir, özünə qaytarılır; digər tərəfdən, dünya miqyasında, o cümlədən Azərbaycan cəmiyyətində dəyərlərin xeyli hissəsi kökündən dağılır, digər hissəsi yeni məzmunla tamamlanır, nəhayət, zəmanəmizin tələblərinə, reallıqlarına cavab verən tamamilə yeni dəyərlər sistemi yaranır və getdikcə genişlənir.

İnsan fəaliyyətində dəyərlər və dəyərlər seçimi probleminin araşdırılmasında metodoloji baxımından Şərq və Qərbin malik olduğu dəyərlərə xüsusi diqqət yetirilməsi çox vacibdir. Z.Hacıyev düzgün qeyd edir ki, müasir Azərbaycan cəmiyyəti hər iki regionun sərhəddində yerləşdiyinə görə şəxsiyyətin sosiallaşması prosesində hər iki regiona xas olan dəyərləri əlaqələndirmək zəruridir. Onun fikrincə, Şərq xalqlarının mentaletində ənənəvi olaraq kollektivçilik dəyərləri geniş yer tutur. İnsanlar arasında sosial əlaqələrin möhkəmləndirilməsində onlara söykənmək faydalıdır. Digər tərəfdən Qərb üçün səciyyəvi olan fərdiyyətin rolunun genişləndirilməsi, onun fəallığı və müstəqilliyinin artırılması ilə bağlı dəyərlərə xüsusi diqqət yetirilməlidir (7, s.615).

İnsan kapitalının formalaşması şəxsiyyət üçün normal iqtisadi təminat zəmini yaradılmasını, cəmiyyətdə siyasi stabilliyin, ədalətin, ictimai təhlükəsizliyin təmin olunmasını, demokratik, açıq cəmiyyətin təkmilləşdirilməsini, bazar münasibətlərinin dövlət tərəfindən tənzimlənməsini, insan hüquq və azadlıqlarının real qurulmasını tələb edir. Bu proses həmçinin şəxsiyyətin ətraf aləmə və mövcud ictimai münasibətlərə maraq göstərməsini, informasiya axınına cəlb olunmasını, onun fəaliyyət və dəyərlər seçimi etməsini tələb edir. İnformasiya cəmiyyətində yaşayan və fəaliyyət göstərən şəxsiyyət informasiya axınından müəyyən məlumatlar əldə edir, onları təhlil etmək üçün yaddaş koduna göndərir, təhlil nəticəsində müəyyən qərar qəbul edir və nəhayət, həmin qərarın icrasına başlayır. Bütün bu əməliyyatların reallaşmasında şəxsiyyətin fəaliyyət və dəyərlər seçimi xüsusi və əhəmiyyətli rol oynayır.

H.Əliyev xalqımızın keçmişi və hazırkı mənəvi-əxlaqi dəyərlərini müqayisə edərək demişdir: "Bizim xalqımız öz mənəvi dəyərlərinə əsrlər boyu sadiq qalmış və onları inkişaf etdirmişdir. Mənəvi dəyərlərimiz safdır, onlar həmişə insanlarda təmizlik, xeyirxahlıq, yüksək ideyalar tərbiyə etmişdir. Bu gün biz ona görə xoşbəxtik ki, babalarımızdan miras qalmış mənəvi dəyərlər yenidən canlanır və gələcək nəslə ötürülür" (9, s.1) .

Dəyər anlayışını fəlsəfəyə gətirən görkəmli alman filosofu İ.Kant olmuşdur. O, deyirdi ki, mövcud olan ilə olmalı olan, real ilə ideal arasındakı ayrılıq aksiologiyanın ilkin müqəddəm şərtini təşkil edir. İ.Kantın fikrincə, dəyərlər sözün müəyyən mənasında iradəyə qarşı yönələnən tələblər, insanın qarşısında duran məqsəd, bu və ya digər amilin şəxsiyyət üçün əhəmiyyətliliyi deməkdir. Hər adam ona həzz verən şeyi xoşa gələn hesab edir, bəyəndiyi hər şeyi gözəl, qiymətləndirdiyi şeylərin, yəni obyektiv dəyərli hesab etdiyi şeylərin yaxşı olduğunu söyləyir (10, s.211).

Prof. V.J.Kelle çox düzgün göstərir ki, əsl dəyərləri ayırmaq üçün əhəmiyyətlilik meyarından başqa aşağıdakı vacib şərti də nəzərə almaq lazımdır: hansı əhəmiyyətlikdən və hansı subyekt üçün əhəmiyyəti olan faydadan, rifahdan söhbət gedir (11, s.523-524). Belə halda aşağıdakı anlayışlar alınır: maddi və mənəvi dəyərlər, ali dəyərlər, sosial dəyərlər, ümumbəşəri dəyərlər, bədii dəyərlər və s. Həyat, həyatın mənası, insan şəxsiyyəti, insan hüquq və azadlıqları, ümumiyyətlə, humanizm dəyərləri, mənəvi-

estetik ideallar, həqiqət, xeyir, gözəllik ali dəyərlərdir. Müasir dövrlərdə humanizm dəyərlərinə orientasiya etmək insan fəaliyyətinin bütün sferalarının prioritet prinsipi olmalıdır.

Dəyərlər çoxsaylı, rəngarəng olduğuna görə onları müxtəlif meyarlar, əsaslar üzrə qruplaşdırmaq olar. Dəyərlərin təsnifatını verərkən belə bir metodoloji prinsipi də əldə rəhbər tutmaq lazımdır ki, hər bir cəmiyyətdə müəyyən dəyərlər sistemi formalaşır və fəaliyət göstərir. Lakin dəyişkən, mütəhərrik olur, nisbi xarakter daşıyır; elə dəyərlər vardır ki, müəyyən bir tarixi dövrdə fəaliyyət göstərir, insanların şüurunu və davranışını orientasiya edir, sonrakı dəyişən tarixi şəraitdə isə öz əhəmiyyətini itirir və ya ləğv olunur (12, s.315-321). Həqiqətən də, dəyərlərin böyük əksəriyyəti konkret tarixi məzmuna malikdir. Bununla yanaşı, elə dəyərlər də vardır ki, onlar bir-birini əvəz edən müxtəlif tipli mədəniyyətlərdə və tarixi dövrlərdə fəaliyyət göstərməkdə davam edirlər. Belə dəyərlər mütləq, ali dəyərlərdir. Mütləq, ali dəyərlərə insan həyatı, həyatın mənası, insan şəxsiyyəti, ümumbəşəri dəyərlər və ümumiyyətlə humanizm dəyərləri, həqiqət, xeyir, gözəllik, ədalət, məhəbbət, dini ideyalar, prinsiplər və s. daxildir. İnsanın həmin dəyərlərə olan tələbatı əbədidir, universaldır. Lakin mütləq, ali dəyərlər haqqında konkret təsəvvürlər hər bir dövrdə, tarixi şəraitdə müxtəlif olmuşdur. Burada qarşıya belə bir sual çıxır:mütləq dəyərlər mövcuddurmu və ya onların hamısı nisbi xarakter daşıyır, fövqəltarixi dəyərlər haqqında danışmaq olarmı və ya onlar yalnız konkret tarixi məzmuna malikdir,ümumbəşəri dəyərlər varmı və ya bu illuziyadır və s.

E.F.Sulimov insanın ictimai və bioloji mövcudluğu, onun həyat fəaliyyətinin formaları və növləri, cəmiyyətdə vəziyyəti, meyarlarına istinad edərək dəyərləri təbii və sosial dəyərlərə bölür (13, s.107). O, təbii dəyərlərə insanı əhatə edən predmet və hadisələri, onun qidalanmasını, geyim əşyalarını, mənzili olmasını, sağlamlığını və s. daxil edir; təbii predmet və hadisələr insan fəaliyyətinə, ictimai praktikaya cəlb edildikdə keyfiyyətcə sosial dəyər forması kəsb edir və yalnız onların əsasında digər dəyərlərin genezisi baş verir. Sosial dəyərlər insanların mövcudluğunun ictimai xarakteri ilə şərtlənən dəyərlərdir; onlar daha dəyişkəndir, mütəhərrikdir və insanların tələbatlarının və mənafelərinin bilavasitə təsiri altında formalaşır və fəaliyyət göstərir. Bununla əlaqədar olaraq E.A.Podolskaya düzgün yazır ki, sosial dəyərlər sırasında ümumbəşəri əhəmiyyəti olan dəyərlər də vardır. Məsələn, əmək, istehsal, ictimai münasibət, nizam-intizam, tərbiyə, əxlaq və s. belə dəyərlərdir. Bu dəyərlərsiz heç bir cəmiyyət normal yaşaya və fəaliyyət göstərə bilməz (14, s.39).

Prof. M.Rzayev ətraf aləmdəki obyektlərin insan üçün müsbət əhəmiyyət kəsb etməsi və onun tələbatlarını, mənafelərini ödəməsi meyarı əsasında dəyərləri iki növə ayırır: predmet dəyərləri və subyekt dəyərləri.Predmet dəyərləri ətraf aləmdəki obyektləri xeyir və şər, həqiqət və yalan, gözəl və eybəcər, ədalətli və ədalətsiz kimi qiymətləndirir.Onun və digər tədqiqatçıların fikrincə,insanın maddi və mənəvi fəaliyyətinin bütün predmetləri,ictimai münasibətlər və onlarla əlaqəli olan təbii hadisələr bu qrupa aiddir. Subyekt dəyərləri isə insanların fəaliyyəti və davranışının orientirləri və meyarları rolunu oynayır. Onlar adətən normalarda ifadə olunan nizamlamaları,qiymətləndirməni və qadağaları əks etdirir (3,s.27-28).

Yüksək, mütləq dəyər insanın özüdür, həyatıdır, onun həyatının mənasıdır, həqiqətdir və s. Həmin dəyərlərə yalnız məqsəd-dəyər kimi baxmaq lazımdır. İ.S.Qılıcov dəyərlərin təsnifatı haqqında daşıyıcısı olduğumuz dəyərləri aşağıdakı beş qrupa ayırır: a) sosial məqsədli dəyərlər (müqəddəslik, mənəvili, biliklik, məharət, işgüzarlıq, şöhrət, hakimiyyət və zənginlik (var-dövlət); b) sosial **instrumental** dəyərlər (hüquq, azadlıq, ədalət, həmrəylik, mərhəmətlilik); c) personal-instrumental dəyərlər (həyat, sağlamlıq, güc (qüvvət), çeviklik, gözəllik, ağıl); ç) subyektiv məqsədli dəyərlər (maddə, enerji, məkan); d)ümumbəşəri dəyərlər (düşünən ruh, cəmiyyət, insan) (6, s.158).

İnsan fəaliyyətində seçimin baş verməsinin və reallaşmasının başlıca şərti onun azadlığı, azad iradəsinin olmasıdır. İnsanın seçimi əslində onun azadlığı deməkdir. Azadlıq, iradə azadlığı olmayan yerdə seçimdən, o cümlədən dəyərlər seçimindən söhbət gedə bilməz. Məhz azadlıq

sayəsində insan öz həyatının yaradıcısı olur, dünyanı dəyişdirməklə yanaşı özünü də dəyişdirir, özünün yeni həyatını yaradır.

İnsanın hansı hərəkətlərini rasional hesab etmək olar? Bu suala cavab vermək üçün hər şeydən əvvəl gündəlik həyatda, təcrübədə insan hərəkətinin müxtəlif variantları arasında ağıllı seçimin necə baş verməsini nəzərdən keçirmək lazımdır. Biz adətən belə seçimi sağlam düşüncəni və həyati təcrübəni əldə tutaraq edirik. Adi danışıqda da seçim dedikdə biz obyektiv şəraitin təklif etdiyi iki və daha çox variantın hər hansı birinin üzərində dayanırıq və öz fəaliyyətimizi seçilən variantın həyata keçirilməsinə yönəldirik. Biz sağlam düşüncə anlayışı altında bu və ya digər fəaliyyət sferası haqqında intuitiv təsəvvürlərə söykənən mülahizəni nəzərdə tuturuq. Ən sadə həyati hallarda hərəkətin iki və daha çox variantları arasında ağıllı seçim etmək imkanı olur.

Öz mənşəyinə görə tələbatlar iki qrupa bölünür: təbii və sosial tələbatlar. Təbii tələbatlar orqanizmin bioloji funksiyaları ilə bağlı olsalar da, insanın tələbatını ödəyən predmetlər sosial xarakter daşıyır. Sosial tələbatlara şəxsiyyətin sosiallaşması ilə əlaqədar olan tələbatlar daxildir. Bu tələbatlar biliklərin əldə edilməsi, əmək vərdişlərinin formalaşması, sosial normalar, ideallar və s. bağlıdır. Dəyər orientasiyası idrak obyektini seçməkdə də insana kömək edir. O, insanın diqqətini dərk olunan predmetə yönəldir, obyektin subyekt üçün əhəmiyyətini aşkar edir. Bu, seçim aktının və əhəmiyyət anlayışının ayrılmaz vəhdətdə olmasını göstərir. Predmetin, hadisənin xassələri subyektin obyektiv vəziyyətinə müvafiq olaraq seçilir və dəyər mənası kəsb edir. Dəyərin əsası predmetin özüdür, onun nəticəsi isə predmetin dəyər səviyyəsidir. Şəxsiyyətin bu və ya digər dəyərlərə orientasiya etməsi qiymətvermə ilə ayrılmaz əlaqədədir. Qiymətverən fərd qiymətləndirdiyi obyektin faydalı və ya zərərli, gözəl və ya eybəcər, zəruri və ya lazımsız, doğru və ya yalan olmasını aşkar edir. Qiymətvermə insan üçün lazımlı olanın seçilməsi ilə bilavasitə əlaqədar olduğuna görə onun aşağıdakı növləri vardır: elmi, siyasi, hüquqi, etik, estetik, texniki, iqtisadi və s.; qiymətvermənin bu növləri insanın dünyanı dəyişdirmək istiqamətlərini müəyyən edirlər. Deməli, qiymətvermə nəticəsində biz insan və cəmiyyət üçün faydalı, lazımlı, dəyərli predmet və hadisələri seçib ayırırıq. Şəxsiyyətin düzgün dəyərlər seçimi edə bilmək qabiliyyəti aşağıdakı mərhələdən keçir: a) seçim haqqında məsələnin irəli sürülməsi; b) qərarın qəbul edilməsi; c) edilən seçimin həyata keçirilməsi; ç) edilən seçim və onun reallaşdırılması üçün şəxsiyyətin məsuliyyət hissinin formalaşması.

Müstəqillik əldə edən və ictimai həyatın bütün sahələrində böyük nailiyyətlər qazanan Azərbaycan dövlətində açıq cəmiyyətə keçid, demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarına real təminat yaradılması, bazar iqtisadiyyatını və xüsusi mülkiyyətin qərarlaşması insan fəaliyyətinin yeni modelini yaradır, şəxsiyyətin müasir yeni tipini, dünyagörüşünü formalaşdırır, tarixi, milli, ümumbəşəri, humanist dəyərləri dirçəldir. İndi insan harda və necə işləməli olduğunu seçmək imkanına malikdir. İnsan əməyi azad xarakter daşıyır və onun özü yaradıcı fəaliyyət göstərən şəxsiyyət kimi çıxış edir. Müstəqil Azərbaycan cəmiyyətinin tərəqqisi insanların ictimai şüurunu, qlobal planetar dünyagörüşünü kamilləşdirmişdir, onların seçim imkanlarını xeyli artırmışdır. Belə bir cəmiyyətdə yaşayan insan, hər kəs xoşbəxt gələcək üçün öz töhfəsini verə bilər. Yalnız azad olan fəaliyyət yaradıcı fəaliyyət ola bilər. Hər iki anlayış təkcə qarşılıqlı əlaqədə deyil, həm də demək olar ki, eyniyyət təşkil edir. Əgər fəaliyyət hərəkətdə olan subyektin iradə və arzusu ilə determinasiya olunursa, onda o azad fəaliyyətdir, əgər fəaliyyət subyektin iradə və istəyindən asılı deyilsə, onda həmin fəaliyyət azad fəaliyyət deyildir. Cəmiyyət insana dəyərlər seçimi imkanı vermirsə, onda o susmalı və özünü qul hesab etməlidir. Azad seçimin mənşəyi təkcə insanın özündə deyil, həm də ətraf aləmdədir. Daxili azadlıq özündə dərketmə, seçim, iradə azadlığını və məsuliyyəti əhatə edir.

Şəxsiyyətin həyatının mənası anlayışı azad dəyərlər seçim anlayışı ilə sıx əlaqədardır. Həyatın mənası anlayışı çox mühüm inteqrasiyaedici aksioloji funksiyanı yerinə yetirir. Azad dəyərlər seçimi müstəqil cərəyan edən məna axtarışları prosesini əks etdirir, iradə isə subyekt-

obyekt münasibətlərini müəyyən olunmasında vasitəçi rolunu oynayır. Daha dəqiq desək, dəyərlər seçimi və iradə insanı fikir və davranışını müəyyən edir; dəyərlər seçimi insanın məninin və daxili özgürlüyünün yeganə forması kimi çıxış edir. Məhz buna görə də həyatın mənası dedikdə sosial birliyin və ya ayrıca insan şüurunun elə bir üstünlük təşkil edən istiqaməti başa düşülür ki, o şəxsiyyətin və yaxud sosial birliyin fəaliyyətində təzahür edir və dəyər kəsb edir. Şəxsiyyətin həyatın mənası axtarışı prosesində ən mühüm və mürəkkəb vəzifələrdən biri onun obyektiv sosial vəziyyətini dərk etməsi və qiymətləndirməsidir. Bu baxımdan şəxsiyyətin bu və ya digər dəyərlərə orientasiya etməsi prosesi qiymətvermə ilə ayrılmaz əlaqədədir. Qiymətverən şəxs qiymətləndirdiyi obyektin faydalı və ya zərərli, doğru və ya yalan, zəruri və ya lazımsız olması haqqında fikir yürüdür.

İnsan hər hansı bir sosial qrupa mənsub olmasını seçmir; müəyyən sosial qrupa mənsub olmaq onun iradə və şüurundan asılı olmadan baş verir və ictimai fərd kimi şəxsiyyətin ən mühüm insani keyfiyyətlərinin formalaşmasına ciddi təsir göstərir. Lakin bu heç də o demək deyil ki, insan özünün cəmiyyətdəki vəziyyətinin sadəcə olaraq bir alətinə çevrilir. İnsan bir şəxsiyyət kimi mənsub olduğu sosial qrupun dəyərlərinə münasibətini müəyyən edə bilər, həmin dəyərləri qəbul edə və yaxud qəbul etməyə bilər, özünün cəmiyyətdəki həyat şəraiti ilə razılaşa bilər və yaxud mənimsədiyi yeni dəyərlər sistemi əsasında onun dəyişdirilməsi üçün mübarizə aparmaq yolunu seçə bilər. Bu o deməkdir ki, insanlar öz həyati fəaliyyətini obyektiv şəraitini seçməkdə azad deyillər. Bundan əlavə, obyektiv həyat şəraiti əksər hallarda insanların maraq dairələrini, arzularını, səylərini müəyyən edir. Lakin bununla yanaşı, insanlar öz həyati fəaliyyətinin orientasiyasını müəyyən etməkdə xeyli azadlığa malikdirlər. Çünki hər bir tarixi məqamda inkişafın bir deyil, bir neçə real imkanı olur. Həyati situasiya həmişə alternativdir. Ona görə də fərd bu və ya digər dərəcədə öz davranış xəttini seçməkdə azaddır. Bunun nəticəsində insanlar ictimai inkişafın onlar üçün faydalı olan tendensiyasından istifadə edə bilərlər və ya faydalı olmayan tendensiyasına əks təsir göstərə bilərlər.

Müstəqil Azərbaycan dövlətində ictimai həyatın bütün sahələrində baş verən radikal dəyişikliklər, yeniləşmələr şəraitində hər bir konkret situasiyada dəyərlər seçimi ilə bağlı qarşıya çıxan alternativlər, mümkün variantlar getdikcə genişlənir, qanunla qadağan olunmayan hər şeyə icazə verilir. İstənilən hər bir şəraitdə şəxsiyyətin iki və daha çox mümkün variantlar arasında dəyərlər seçimi etmək imkanı vardır; onlardan hər hansı biri üzərində seçim etmək, ona müvafiq qərar qəbul etmək və qəbul olunan qərarı məsuliyyət hissi ilə həyata keçirmək hazırda şəxsiyyətin daxili yetkinlik səviyyəsindən, subyektiv keyfiyyətlərindən daha çox asılıdır. Hazırda ölkəmizdə şəxsiyyət və cəmiyyətin inkişafı həmin sivilizasiyaların hər birinə xas olan mütərəqqi, insanın inkişafına kömək edən dəyərləri seçmək və onları xalqımızın tarixi, milli dəyərləri ilə ayrılmaz şəkildə əlaqələndirməyi tələb edir. Bu o deməkdir ki, Azərbaycan cəmiyyətində demokratiyanın, şəxsiyyətin inkişafı milli özünüdərkə və ümumbəşəri dəyərlərə əsaslanır, şəxsiyyətin milli təfəkkürü təbii və sosial gerçəkliyi adekvat dərk etməyə, iradəsi ilə onu dəyişdirməyə kömək edir.

Dəyər şəxsiyyətin davranış, seçim xəttini, həyat yolunu müəyyən edir. Bəs dəyərlər seçiminə nə müəyyən edir, başqa sözlə onu şərtləndirən amillər hansılardır? İnsan həyatının mənası və dəyərləri nədən asılıdır? Şəxsiyyətin fəaliyyəti, azad dəyərlər seçimi ona kənardan göstərilən təsir və məcburiyyət nəticəsində deyil, subyektiv keyfiyyətləri, iradəsi, istəyi və iqtisadi dildə desək daxili resursları ilə həyata keçirilir. Şəxsiyyətin azad dəyərlər seçimi etməsinin mənbəyi təkcə onun özündə deyil, həm də onu əhatə edən ətraf aləmdə, fəaliyyət göstərdiyi konkret tarixi şəraitdə, təbii və sosial reallıqdadır. Əslində şəxsiyyətin fəaliyyəti həmişə xarici təsir və obyektiv amillərlə şərtlənir, obyektiv və subyektiv amillərin birgə təsiri altında baş verir. Cəmiyyətdə mövcud olan ictimai münasibətlər sistemi, sosial-mikro mühit, ictimai-siyasi həyatın təşkilini və dövlət hakimiyyətinin xarakteri, istehsal vərdişləri, sosial institutlar şəbəkəsi, adət-ənənələr, normalar insan fəaliyyətinin obyektiv amilləridir. Dəyərlər öz ifadə formasına görə subyektiv olmasına

baxmayaraq obyektiv amillərlə determinasiya olunur. Dəyərlərdə obyektiv və subyektiv tərəflərin bir-birilə dialektik vəhdətdə götürülməsi mühüm metodoloji prinsipdir. Şəxsiyyətin dəyərlər seçimi prosesində obyektiv şərait, ictimai həyat, yəni ictimai zərurət, ictimai münasibət sistemi, sosial mühit, cəmiyyətin və dövlət hakimiyyətinin təşkilinin xarakteri fərdi həyata hərtərfli təsir göstərir. Fərd tərəfindən mənimsənilən ictimai münasibətlər onun daxili aləmini, subyektivliyini təşkil edir, onlar fərdin dəyər orientasiyasına, seçim motivlərinə, ustanovkalarına, dünyagörüşünə nüfuz edərək onun fəaliyyətini, davranışını müəyyən edir. Şəxsiyyətin fərdi həyat fəaliyyəti mahiyyət etibarilə ictimai həyatdır. Deməli, şəxsiyyətin fəaliyyəti, dəyərlər seçimi onların əsasında duran ictimai zərurət ilə şərtlənir. İctimai zərurət insanın nəinki həyat yolunu, həm də onun xarakterini determinasiya edir. Obyektiv sosial şəraiti, ictimai zərurətin tələblərini, insanın ətraf aləmə münasibətini hərtərəfli araşdırmadan onun fəaliyyətini hər hansı bir növünü dərindən öyrənmək və dəyərlər seçimini düzgün etməsini müəyyən etmək mümkün deyildir. Məhz buna görə də dəyərlərin fəlsəfi-aksioloji təhlili digər belə bir metodoloji prinsipə əsaslanır ki, onlar öz mahiyyətinə görə ümumbəşəri xarakter daşısa da (tarixi inkişafın müxtəlif dövrlərində öz məzmununu qoruyub saxlaması və nəsillərdən-nəslə keçməsi baxımından, məzmununa görə konkret tarixi məna kəsb edir, hər bir dövrün xarakteri və əsas qayəsi buradakı dəyərlər sistemində müvafiq olaraq əks olunur. Bununla əlaqədar olaraq prof. Z.Hacıyevin belə bir fikri diqqətə layiqdir ki, sosial dəyərlərin mahiyyəti onlarda mövcud ictimai münasibətlər sisteminin xarakterini, tələbatlarını, qanunauyğunluqlarını necə və hansı səviyyədə əks olunması ilə müəyyən edilir. Müəllifin fikrincə, bu çox mühüm metodoloji prinsipdir. Həmin prinsip əsasında müasir həyatda gedən proseslər ilə əlaqədar olaraq sosial subyektlərin dəyərlərində baş verən dəyişikliklər araşdırılır, yəni milli müstəqillik, dövlətçilik, azadlıq, demokratiya, milli mentalitet kimi mühüm dəyərlər ilə bağlı nizamlamalar, imperativlər və digər normativ tələblər, təsəvvürlər təhlil olunur. Belə metodoloji yanaşma özünü doğruldur, çünki o keçid dövründə fəaliyyət göstərən dəyərlərin aksioloji mahiyyətini, onların təkamülünü adekvat öyrənmək imkanı verir (1, s.13-14).

Hansı amillər şəxsiyyətin dəyərlər seçiminə, davranışına bilavasitə təsir göstərir? Bu mühüm problemi hərtərəfli və dərindən araşdıran L.N.Koqanın fikrincə, həmin amillər aşağıdakılardır: a) ictimai həyatda, insanın fərdi həyatında baş verən, ona bu və ya digər dərəcədə təsir edən ən mühüm dönüş məqamları, köklü dəyişikliklər; b) cəmiyyətin fərd qarşısında qoyuduğu tələblər; bu tələblər xarici amillərdə, yəni sosial normalarda, imperativlərdə, yasaqlarda və s. ifadə olunur; c) şəxsiyyətə bilavasitə təsir göstərən sosial mikromühüit; ç) insanların səhhətinin vəziyyəti, təbii imkanları və tələbatları; d) insanın həyat yoluna ciddi təsir edən gözlənilməz hadisələr, təsadüflər; e)cəmiyyətin tarixini, insanın həyat fəaliyyətinin, dəyərlər seçimini determinasiya edən ictimai inkişaf qanunları; ə) insanın həyatının mənası, məqsədi (16, s.144). Şəxsiyyət öz fəaliyyətini, davranışını, dəyərlər orientasiyasını seçməkdə azaddır.

Şəxsiyyətin ictimai fəaliyyəti, dünyagörüşü genişləndikcə, onun dəyərlər seçimi imkanları da genişlənir, ümumi fəallıq səviyyəsi yüksəlir. Bu baxımdan dəyərlər seçimi aktı şəxsiyyətin məqsədi, mənafeyi, ictimai tələbatı, davranış motivləri, dəyər orientasiyası və digər sosial-psixoloji amillər ilə şərtlənir; ictimai fəaliyyətin bütün tərəfləri şəxsiyyətin şüur və iradəsi seçim motivləri və məqsədi ilə tənzimlənir. Lakin insan şüurlu və məqsədyönlü sosial mövcud olduğuna görə yalnız obyektiv, xarici amillərin təsiri altında dəyərlər seçimi etmir. O,yaradıcı fəaliyyətini subyektiv xassə və keyfiyyətlərini, daxili resurslarını nəzərə almaqla qurur. Şəxsiyyətin fəaliyyət prosesində seçdiyi və əldə rəhbər tutduğu dəyərlər, bir tərəfdən obyektiv təbii və sosial amillər, digər tərəfdən onun malik olduğu daxili fərdi göstəriciləri, şəxsi təcrübəsi, fəal həyat mövqeyi, məqsədyönlülüyü, motivlərinin məzmunu, həyat proqramı və planları ilə şərtlənir. Bu mənada obyektiv amillərin şəxsiyyətin fəaliyyətinə, dəyərlər seçiminə təsiri onun özünün şəxsi daxili həyatı, subyektiv dünyası prizmasından keçərək baş verir. Deməli, obyektiv amillər şəxsiyyətin fəaliyyətinin və dəyərlər seçiminin ümumi əsaslarını müəyyən edir, konkret situasiyada isə çox şey şəxsiyyətin malik olduğu

subyektiv keyfiyyətlərindən asılıdır. Bu münasibətdə İ.S.Qılıcov düzgün yazır ki, xarici obyektiv amillərin rolu şişirdildikdə və mütləqləşdirildikdə, insanın fəallığı və yaradıcılığı, həyat mövqeyi, iradəsi, xarakteri, dünyagörüşü və digər keyfiyyətlərinin rolu kölgədə qalır. Şəxsiyyətin dəyərlər seçimi təkcə onun bilikləri, ağılı və zəkasından asılı deyildir. Bu prosesdə insanın hissləri, yaşantıları və iradəsi də çox fəal iştirak edir (6,s.136).

Şəxsiyyətin fəaliyyətində dəyərlər seçiminin obyektiv və sübyektiv amillərinin sıx əlaqəsini zəruri edən vacib bir şərt də onun davranış motivləridir. Şəxsiyyətin dəyərlər seçimi seçmək istəyi onun davranışının motivləri ilə sıx bağlıdır. Şəxsiyyətin fəaliyyətində dəyərləndirici, qiymətverici motivlər çox mühüm yer tutur. Əslində şəxsiyyətin fəaliyyət prosesində davranışı, həyat tərzi nəticə etibarilə xeyli dərəcədə motivasiya sferası ilə müəyyən olunur. Cəmiyyət üçün şəxsiyyətin dəyərlər seçiminin hansı sosial motivlərin şərtləndirilməsi çox vacibdir, çünki bu prosesdə ictimai və şəxsi maraqların vəhdəti öz əksini tapır. Belə halda ümumi yetkinlik səviyyəsi yüksək olan şəxsiyyət onu əhatə edən təbii və sosial mühitə fəal münasibət bəsləməyə, sonuncunun xarici təsirini seçim motivi əsasında qavramağa və ona əks təsir göstərməyə qadir olur. Şəxsiyyət öz fəaliyyətində dəyərlər seçiminin həyata keçirilməsinə maneçilik törədən xarici təsirə qarşı mübarizə aparmaqla yanaşı, çox vaxt bu mübarizəni öz daxili aləmində də aparmaq zərurəti qarşısında qalır. Bu baxımdan müasir şəxsiyyətin formalaşmasında, düzgün dəyərlər seçimi etməsində obyektiv və subyektiv amillərin sıx vəhdətini təmin olunmasına xüsusi diqqət yetirilməsi son dərəcə zəruridir. Şəxsiyyətin həyat yolu onun individuallığının formalaşması yoludur. Şəxsiyyət mənaları sistemi insanın individuallığının səciyyəsidir. Şəxsiyyətin individuallığının formalaşmasının inkişaf qanunauyğunluğunu müəyyən etmək üçün şəxsiyyətdən onun fəaliyyətinə və dəyərlər sisteminə doğru hərəkət etmək lazımdır. Belə halda şəxsiyyət bizim qarşımızda yeni proeksiyada - seçim subyekti kimi görüləcək. Şəxsiyyətin ümumi yetkinlik səviyyəsi yüksək olduqca onun ictimai əlaqələri daha geniş və rəngarəng olur. O, müxtəlif və bəzən də ziddiyyətli motivlər arasında dəyərlər seçimi etmək problemi ilə rastlaşır. Subyektiv interiorizasiya prosesində mənimsədiyi sosial normalar, rollar, dilin anlayışları, dəyərlər və ideallar, ictimai əlaqələr və s. onun üçün şəxsiyyət mənası kəsb edə bilər, «mənim üçün həyati əhəmiyyəti olana» çevrilə bilər. Gerçəklikdə predmetləşən əhəmiyyətini və şəxsiyyət mənalarının qarşılıqlı münasibəti insanın həyatında sosial və fərdi tərəflərin qarşılıqlı münasibətidir (15, s.350).

İnsanın həyat təcrübəsi ictimai-tarixi fəaliyyətdə, əmək prosesində formalaşır, onu şəxsiyyət mövqeyindən səciyyələndirir və dəyərlər seçimində mühüm funksiyalar (tənzimləyici, proqnozlaşdırıcı, qiymətverici və s.) yerinə yetirir. O, empirik və nəzəri cəhətdən ümumiləşdirilmiş təcrübəni əhatə edir. Bu cəhətdən insanın şəxsi həyatının ən mühüm səciyyəvi xüsusiyyətlərindən biri onun həyat təcrübəsidir. Şəxsiyyətin fəallığı yalnız xarici şəraitin və digər obyektiv amillərinin təsirinin nəticəsi deyildir. Burada yeni dünyagörüşü, özünüdərketmə, özünüqərarlaşdırma və özünütərbiyə şəxsiyyətin daxili həyatının subyektiv dünyasının əsaslarını təşkil edir. Bununla belə nəzərə almaq lazımdır ki, şəxsiyyətin daxili həyatı, subyektiv dünyası nə qədər müstəqil, zəngin olsa belə yenə də nəticə etibarilə ictimai zərurətlə, ictimai münasibətlər ilə, sosial mühitlə, cəmiyyətdə cərəyan edən hadisələrlə şərtlənir. Azərbaycan cəmiyyətində ənənəvi və sosial həyatda vaxtilə qərarlaşmış köhnə dəyərlər, sosial normalar, imperativlər tədricən dağıdılır və onların yeniləri ilə əvəz olunması, milli dəyərlərimizin dirçəldilməsi, canlandırılması prosesi baş verir. Hazırda milli dəyərlərimiz ictimai inkişafın başlıca amillərindən biri kimi çıxış edir və yeni ictimai münasibətlərin, sosial əlaqələrin yaradılmasında, müasir şəxsiyyətin formalaşmasında fəal rol oynayır.

## ƏDƏBİYYAT

1. Hacıyev Z. Keçid dövrü və sosial dəyərlər, BDU-nun xəbərləri, Sosial-siyasi elmlər seriyası, 2002, N 3-4, s.12-19

2. Буева Л.П. Человек, деятельность и общение, М.,1978, 215 с.
3. Rzayev M.H. Şəxsiyyət və dəyərlər, Bakı, 2005, 77 s.
4. Демин М.В. Природа деятельности, М., 1984, 168 с
5. Каган М.С. Человеческая деятельность (опыт системного анализа), М., Политиздат.,1974, 328 с.
6. Qılıcov İ.S. Fəaliyyət və dəyərlər seçimi, Bakı, 2005, 371 s
7. Hacıyev Z. Fəlsəfə. Bakı, 2000, 640 s.
8. Əfəndiyev M., Abdulayeva S. Şəxsiyyət-mədəniyyət sistemi, Sosial-fəlsəfi təhlil, Bakı, Elm 2008, 384 s.
9. Əliyev H. Novruz bayramında nitq, Azərbaycan qəzeti, 26 mart 1999-cu il
10. Кант И.Сочинения т.5, М.,1966
11. Келле В.Ж. Культура, Введение в философию, Издание четвертое. М., Культурная революция, 2007, 623 с.
12. Гуревич П.С. Философская антропология, М.,Изд-во Омега –Л, 2010, 607 с.
13. Сулимов Е.Ф. Теория и практика коммунистического воспитания, М.,1984, 197 с.
14. Подольская Е.А.Ценностные ориентации и проблема активности личности, Харьков,изд-во Основа,1991,164
15. Асмолов А. Психология личности, Принципы общепсихологического анализа, М.,изд-во Смысл,2001, 416 с.
16. Коган Л.Н. Человек и его судьба, М., Мысль, 1988, 283 с.

## ABSTRACT

**K.Salmanova**

## PERSONALİTY ACTİVİTY AND VALUE SELECTİON

In the scientific article, the social-philosophical and methodological meaning of the concept of human activity is being investigated. It is stated in the article that social existence creates historical people, the social-historical process is the result of their activities; there is no social existence or reality beyond human activity, and the forms of objective development of society are manifested in various forms.

It also states in the article that the forms of human life activity are undeniably employed by a system of different values and are indivisible; high human nature as social beings with personalities that are a result of the retention and the resulting adoption of progressive values guide that shows that exists in society and its activities.The prerequisite of the realization and fulfillment of the election in human activity has been shown to be his freedom, his free will. The choice of one person leads to ideas about freedom. Freedom, freedom will not include the option where values are not subject to the election.

In the article, Azerbaijan and foreign philosophers and eminent personalities of the various opinions and ideas about the value selections are also included.

## РЕЗЮМЕ

**К. Салманова**

## ДЕЯТЕЛЬНОСТЬ ЛИЧНОСТИ И ВЫБОР ЦЕННОСТЕЙ

В научной статье рассматривается социальный, философский и методологический смысл человеческой деятельности. Социальное существо, историю создают люди, и общественно-исторический процесс является результатом их деятельности. Без деятельности

людей не может быть реальности и социального существования, в его различных формах формируется закон объективного развития общества.Основным требованием выбора и осуществления человеческой деятельности является ее свобода и свобода воли. Выбор человека порождает идеи о его свободе. Если нет свободы, свободы выбора, тогда о выборе ценностей не может быть и речи.

В статье также рассматриваются различные мнения выдающихся азербайджанских и зарубежных философах о деятельности личности и выборе ценностей.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**SEVDA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:371**

# ÖZÜNÜ TƏHSİL FƏALİYYƏTİNƏ HAZIRLIĞIN XÜSUSİYYƏTLƏRİ VƏ MOTİVLƏRİ

***Açar söz-*** *bacarıq,vərdiş, motiv, təlim,tələbat, tədqiqatlar*
***Key word-*** *ability, habit, motive,training, requirement, research*
***Ключевое слово-****умение, привычка, мотив, обучение, нужда, иссле-дование*

Təlim prosesinin mahiyyəti kimi biliklərin,bacarıq və vərdişlərin mənimsə-nilməsi,onun sosial-tarixi təbiətinin aydınlaşdırılması cəmiyyət həyatının inki-şafını təmin edir.Canlı orqanizmlərin təkamülünün tarixi inkişafı prosesində insan öz fəaliyyətini şüurlu şəkildə ifadə və idarə etmişdir. Bu zaman praktik fəaliyyət prosesində toplanmış təcrübənin gənc nəslə ötürülməsi ehtiyacı yaranmışdır. İlk əvvəl təbiət,cəmiyyət,təfəkkür haqqında formalaşmış biliklər inkişaf edir, fəaliyyət üsulları və sahələri yaranır.

Təlim prosesində əldə edilmiş biliklər,yəni təlimi idrak öz xüsusiyyətlərinə görə elmi idrakdan fərqlənir. P.M.Erdinyev yazır ki, öyrənmə-idrakın xüsusi hadisəsi kimi müəllimin rəhbərliyi altında zənginləşdirilmiş bilikdir. Təbii ki, idrakın ümumi qanunauyğunluqlarının xüsusi didaktiv məsələ kimi həll edil-məsi faydalı ola bilməz.

İ.F.Xanlarov müəyyənləşdirdiyinə görə "bilik" anlayış olub,elmi faktların əsaslarının yadda saxlanılması və onlardan çıxarılan qaydalar, nəticələr və qanunauyğunluqlardır.

İ.F.Xanlarov uşaqların düşünmə prosesində bacarıqsız olmasının səbəbini onda görür ki, qavrama,yaddasaxlama,alınmış bilikləri pratikada tətbiq etmə və daha sonra zənginləşdirmə,sistemləşdirmə və möhkəmləndirmə və. s kimi fikri fəaliyyət və əməliyyatlara etinasız yanaşırlar.Bu isə vərdiş və bacarıqların formalaşdırılmasında çətinliklər yaradır - deyə, müəllif fikrini tamamlayır.Ona görə də pedaqoqların başlıca vəzifəsi uşaqlarda fikirləşmək, nəticə çıxarmaq, qanunauyğunluqları müəyyənləşdirmək kimi keyfiyyətlərin yaranmasında kömək göstərməkdən ibarətdir.

Elmi biliklər üçün anlayışlar daha çox əhəmiyyət daşıdığından bu cəhətdə nəzərə alınmalıdır.Anlayışın formalaşdırılması çox mürəkkəb prosesdir.Elmi bilik forması kimi anlayış obyektiv, mövcud olan əşya və hadisələrin əks etdirilməsi və onun müəyyən əlamət və xüsusi terminlə möhkəmləndirilməsidir. Bir qrup alim onun praktik fəaliyyətlə əlaqələndirir, əqli və maddi prosesin təzahürü kimi qiymətləndirirlər. N.F.Talızina zehni fəaliyyət nəzəriyyəsindən bəhs edərkən yazır ki, qavrayışı hissi obrazlar prosesi kimi, anlayışı isə dərk-etmə fəaliyyətinin məhsulu kimi başa düşmək lazımdır.

Biliklərin alınması və keyfiyyəti məsələsində isə didaktikada xüsusi mülahi-zələr yoxdur. Y.K.Babanski, M.A.Danilov, İ.Y.Maxmutov, A.V.Usova, M. Mu-radxanov, B.Əhmədov və başqalarının tədqiqatlarında bu məsələ ilə bağlı kifa-yət qədər aydınlıq var.

Didaktik aspektdə belə bir məqsədə yönəlmiş fikir mübahisəsiz mövcuddur ki, bilik, vərdiş və bacarıqlar sintez halında, qarşılıqlı əlaqə və təsirdə götürülməli-dir. M.A.Danilov və B.P.Yespov "bacarıqları" bilik fəaliyyəti kimi müəyyənləş-dirir.Əlbəttə,belə müəyyən etmə kifayətləndirici deyil, onların arasinda çox güclü fərqli əlamətlərədə malikdir."Vərdiş" anlayışının

müəyyənləşdirilməsində də mürəkkəblik,aydınlaşma və dəqiqləşmə nöqtəyi-nəzərdən mübahisələrə çəkilmək ehtiyacı vardır.Vərdişləri minimum üç qrupa bölmək olar: sensor, hərəkətverici və əqli.

Hələ ötən əsrin 40-cı illərində psixoloq K.N.Kornilov bacarıq və vərdişlərin münasibəti məsələsi haqqında çox kəskin çıxış edir, xüsusi mübahisə yaradırdı. K.N.Kornikov belə hesab edirdi ki, bacarıqlar tamamlanmamış, yerinə yetirilməmiş vərdişlərdir. Vərdişlərin özü də artıq şüurun nəzarəti olmadan avtomatlaşmış, tamamlanmış, başa çatmış bacarıqlardır. Digər bir nöqtəyi-nəzər A.V.Barabanşikova məxsusdur. Müəllif bacarıqları praktik fəaliyyət prosesində öz biliklərindən yaradıcı şəkildə istifadə etmək və insanın əldə etdiyi məqsədə yönəlmiş keyfiyyət kimi qiymətləndirmişdir.

Bacarıq və vərdişləri ayrı-ayrı qruplara ayırmaq, şübhəsiz, praktik fəaliyyətdən doğur və bu şərtlərdən çıxış etməyi lazım bilirik. Müəllimin bilik, bacarıq və vərdişləri verməsi bu və ya digər dərəcədə tədris və təlim sahələri ilə əsaslandırılmalıdır. Çünki onlar bir-birilə sıx bağlıdır. Digər tərəfdən bilik, bacarıq və vərdişlərin formalaşdırılması paralel getməlidir və deməli,təlim məqsədi və praktik fəaliyyət bu prosesin əsasında durmalıdır.

Tədqiqatların təhlili zamanı aydın oldu ki,bacarıq və vərdişlərin, qrup halında təsnifatında müxtəliflik olsa da,fikrimizcə onları aşağıdakı qruplarda cəmləş-dirmək mümkündür :

a) zehni bacarıq və vərdişlər

b)əmək bacarığı və vərdişləri

Professor B.A.Əhmədov bacarıq və vərdişlərin formalaşdırılması üçün əhəmiyyətli rolu çalışmalara verərək yazır: "Bacarıq və vərdişlərin formlaşdırılması üçün çalışmalar sistemindən istifadə olunmalıdır. Bu aşağıdakı ardıcıllıqla təşkil olunur: 1) formalaşdırılan bacarıq və vərdişin əhəmiyyəti başa salınır; 2) zəruri biliklər yada salınır,formalaşdırılmış bacarıqlar fəallaşdırılır; 3) təlimat verilir
4) çalışma müəllimin yaxından iştirakı,ciddi nəzarəti altında icra edilir; 5) müstəqil çalışmalar yerinə yetirilir" .

Təlimin son nəticəsinin alınmasında və uşaqların müstəqil fəaliyyətinin inkişafında bacarıq və vərdişlərin nə kimi mövqeyə və rola malik olduğu bir də onunla izah olunur ki,L.P.Aristovanın dediyi kimi,şagirdlərin bilik mənbələri üzərində işlərində bacarıqların tez və yüksək nəticə verir. Uşaqların təlim fəallığının inkişafında ilkinlik,birincilik roluna da malik deyil. Şəxsiyyətin formalaşdırılması prosesi bilik, bacarıq, vərdişlərin qarşılıqlı əlaqəli təsirini, sıx vəhdətini tələb edir.

Motivlər haqqında nəzəri təhlillərin əsası N.Y.Voytoniç, L.S.Vıqostki, A.Q. Zdravomislov, V.A.Yazov və başqalarının əsərlərində qoyulmuşdur. Bu əsərlər motiv anlayışının müəyyənləşməsində bir açar rolunu oynayır.

Araşdırılan tədqiqatlarda motiv anlayışı, onun mahiyyəti və məzmunu, insanda hansı motivlərin inkişaf etdirilməsi və formalaşdırılması yolları haqqında ziddiyyətli, kəskin fikir ayrılıqlarına rast gəlinmir. Lakin bu fikir və mülahizələrdə müxtəliflik, fərqli cəhətlər olduğunu nəzərə alıb, onları diqqətə çəkməyi lazım bilinir.

Tədqiqatlarda "motiv nədir ?"sualına verilən cavablarda elə bir fikir ayrılığı, mübahisə doğuran cəhətlər yoxdur. Baxmayaraq ki, bəzi tədqiqatçılar motiv anlayışının mahiyyəti ilə qısa, konkret, bəziləri isə nisbətən geniş şərhlər, cavablar verirlər. Professor B.Əhmədov bu suala qısa və aydın şərh verərək yazır: "Motivlər stimulun şüurda əks olunmasıdır". A.İ.Qiro isə çoxsaylı tədqiqatları təhlil-tərkib edərək belə nəticə çıxarır ki, motivlər insanda xarici hadisələrin stimul və təhriki ilə onun daxilən təkmilləşməsinə aparan təhriklərə səyini müəyyənləşdirir.

Bütün tədqiqatlarda motivlər emosiyaların mənfi və müsbət olmasından asılı olaraq iki yerə bölünür: a) müsbət motivlər b) mənfi motivlər

Motivlərin əsas funksiyaları və yaranma səbəblərinə gəlincə isə tədqiqatlarda fərqli cəhətlər, tam sistem təşkil etməyən fikirlər nəzərə çarpacaq dərəcədə vardır.

Tədqiqatçılar kimi V.P.Şuman da bu mövqeydən çıxış edərək özünütəhsil motivlərinin aşağıdakı tələbatdan irəli gəldiyini söyləyir :

1. Şəxsiyyətin yeniliyə olan tələbatı;
2. İxtisasa maraq tələbatının əldə edilməsi;
3. Hərtərəfli inkişaf tələbatı;
4. Mədəni insan olmaq tələbatı;
5. Cəmiyyətin,insanların xeyrinə yaranan tələbatlar.

Müəllif bu tələbatlara uyğun olaraq oxumaq marağı, öyrənmədən zövq almaq, çoxlu biliklər əldə etmək istəyi,biliksiz yaxşı mütəxəssis ola bilməyəcəyini başa düşmək, çox inkişaf etmək istəyi kimi motivləri irəli sürür.

Pedoqoji təmayüllü ali məktəb tələbələrinin özünəməxsus fəaliyyəti ilə bağlı tədqiqatın müəllifləri N.D.Xmel və N.D.İvanova da özünütəhsil motivlərini müəyyənləşdirməyə çalışır. Bu tədqiqatçıların fikirləri bizim araşdırdığımız problemlə nə qədər tədqiqatçıların fikirləri bizim araşdırdığımız problemlə nə qədər bağlı və əhəmiyyətli olsa da tam və qaneedici deyil. Müəlliflər tələbə özü nütəhsil motivləri kimi mənəvi ehtiyacları, seçilmiş ixtisasın əhəmiyyətinin dərk olunmasını və praktik səyləri qeyd edirlər.

Motiv müəyyən tələbatın ödənilməsi ilə əlaqədar insanı bilavasitə fəaliyyətə təhrik edən psixi hadisədir. Müasir psixologiyada "motiv" termini şəxsiyyətin fəallıq ümumi tələblərdən doğursa, bu tələblərin konkretləşdirilməsi fəaliyyətin motividir. İnsan davranışının əsl motivini müəyyənləşdirmək üçün xarici şəraitlər onun daxili psixoloji səbəbi vəhdətdə təmin edilməlidir. Şəxsiyyətin dünyagörüşü, inamı, marağı, cəhdi, istəyi, arzusu onun fəaliyyətinin motivini müəyyən edir, şəxsiyyətin davranışını düzgün müəyyənləşdirmək üçün onun həqiqi motivini müəyyən etmək zəruridir.

Biz tələbələrin özünütəhsil fəaliyyətinin əsasında motivlərin inkişaf xarakterini qoyur və təhsilin bu növünə tam yanaşmanı əsas tuturuq. Motiv və stimullar özünütəhsil mərhələləri ilə sıx bağlıdır. Müxtəlif mərhələlərdə bu və ya digər motivlər aparıcı olur bəzi digər motivləri isə əksinə,az əhəmiyyətli olur.Onlardan bəziləri uzun müddət üçün sabit olur,digəri isə keçici. Motivlər özünütəhsilin müxtəlif mərhələlərindən bu və ya digər həcmdə bilavasitə stimullara uyğun olaraq özünü göstərir: irəli sürülmüş məqsəd, proqramın işlənib hazırlanması, öz üzərində işin nəticələrinin qiymətləndirilməsi və təhlinin metod və formalarının müəyyənləşdirilməsi və s.

Əgər ümumtəhsil məktəblərində motivlərin əsas funksiyası şagirdi təlim əməyinə təhrik etməkdirsə, ali məktəbdə isə motivlərin başlıca vəzifəsi tələbələri müəyyən ixtisas üzrə baza təhsilinə təhrik etmək, istiqamətləndirməkdir. Ona görə də özünütəhsil motivləri tələbənin yaradıcılıq potensialı ilə əlaqədardır və əksərən fərdi xarakterdədir.

## ƏDƏBİYYAT


1. Tusi Nəsrəddin. Əxlaqi-Nasiri. Bakı, Elm, 1989
2. Tolstoy L.N. Dirilmə romanı. Bakı, Şərq-qərb,1961
3. Uşaq ensiklopediyası, cild 1, Bakı, Pedaqogika, 1987
4. Uşaq ensiklopediyası, 2-ci cild, Bakı, Pedaqogika, 1988.


## ABSTRACT


**Sevda Karimova**



The meaning of training`s process is misappropriation of knowledge,habits and skills. Pedagogues` main duty is to determine exceptionality of thinking coming to conclusion in children and to help in order to rease these qualities. Thinking is directly to human's speech. The second

system is a main feature of human . Thinking changes and improves, from lower quality to higher quality . Thinking performs as impact's process with mutually connected psycological act, and knowledge its product. Personality's outlook,faith, interest,attempt desire and dream are determining motive of his activity. To correct determininig personality's behaviour it is important to determine his real motive. Habits are automated completed skills without consciousness. Forming of knowledge,skill and habits should be equal and teaching`s target and practic activity must be in the basis of this process


**РЕЗЮМЕ**

**Севда Каримова**

Сущностъ процесса учёбы заключается в усвоении знаний, умений и прывычек .Главная должностъ педагога это выявление в учениках закономерности мышления и вывода результатов .Способность мышления человека на прямую связана с его речью. Главной особенностью человека человека является система второго сигнала . Мышление развиваясь меняется и перехотит из одного уновня на другой .Спсобность мышления является взаимосвязанным психологическим методом воздействия, а знания выступают в роли продукта этого процесса . Мировоззрение,вера интерес, попытки, желания, мечты определяют мотивы деятелности личности .Для правильного определения поведения, необходимо выявить его настоящие мотивы. С другой стороны, знания, умения и формирование привычек должны развиваться на ровне, и в основе этого должны стоять цель учёбы и практическая деятельность. И должны способствовать рождению таковых качеств .Привычки по сути это автоматизированные навыки вне контроля разума.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**LALƏ ALLAHVERDİYEVA**
*Naxçivan Dövlət Universiteti*

**UOT: 371**

# AZUŞAQLI VƏ ÇOXUŞAQLI AİLƏLƏRİN TƏRBİYƏ İMKANLARI

**Açar sözlər:** *azuşaqlı ailə, çoxuşaqlı ailə, uşaqların tərbiyəsi, psixoloji mühit, mənəvi tərbiyə, valideyn, əhalinin artımı, ailə problemləri, sosial vəziyyət, uşaq hüquqları*

**Key words:** *family having few children, family having many children, breeding of children, psychological atmosphere, moral upbringing, parent, population growth, family problems, social status, children's rights*

**Ключевые слова:** *малодетная семья, многодетная семья, воспитание детей, психологическая среда, духовное воспитание, родитель, рост численности населения, семейные проблемы, социальное положение, права детей*

Məlum olduğu kimi sosial-iqtisadi vəziyyət, çox uşağın dünyaya gətirilməsində maraqların olmaması, Avropaya meyl Azərbaycan ailəsini azuşaqlı ailəyə çevirib. Əvvəllər Azərbaycan ailələrinin əksəriyyəti çox uşaqlılardan ibarət idi. Çoxuşaqlı ailələrin sayı zaman keçdikcə azalmağa başladı. Valideynlər çox uşaq arzusunda olsalar da, sosial-iqtisadi vəziyyət bu istəyin həyata keçməsinə əngəl yaradır. İndi əksər ailələrdə 2, ən çoxu 3 uşaq böyüdülür. Hazırda nəsilvermə qabiliyyətinə malik qadınların hər birinə 2 uşaq düşür.

Sosioloqların fikrincə, ailələrdə az uşağın olması təkcə sosial-iqtisadi vəziyyətlə əlaqəli deyil. Burada Avropa meyllərinin də böyük rol oynadığı müşahidə edilir.

Təkuşaqlı ailələrin sayı günü-gündən artmaqdadır. Tək uşaqla kifayətlənən ailələr ümumiyyətlə, uşaq sahibi olmağa çox dəyər verən və uşaq yetişdirmə mövzusunda qayğıları olan ailələrdir. Bu ailələr uşaqlarının inkişaf impulslarına mane törətməməyə, zehni və psixoloji inkişaflarını dəstəkləməyə əhəmiyyət verirlər. Bəzi ailələr çoxuşaqlı ailələrin övladlarına lazımi zaman ayrılmaması qənaətindədirlər. Yəni, az uşaq sahibi olan valideynlər elə hesab edirlər ki, ailəsində 7-8 uşaq olan valideyn övladına yetərli zaman ayıra bilmir və bu da uşağın gələcək həyata hazırlanmasına (təhsil, iş, karyera) əsaslı dərəcədə təsir edir.

Müşahidələr göstərir ki, bəzi təkuşaqlı ailələr uşaqla böyük kimi davranırlar. Bu düzgün deyil. Tək uşaqla əvvəlcə tək uşaq olaraq deyil, uşaq olaraq davranmaq lazımdır. Standart intizam üsullarını tətbiq etməklə yaşına uyğun qaydalar qoymaq, bu qaydaları mütəmadi olaraq tətbiq etmək gərəkdir. Görkəmli müəllim-pedaqoq, istedadlı bəstəkar Üzeyir Hacıbəyov söyləmişdir: "Uşağı bütə döndərmək olmaz, böyüdükdən sonra o qurbanlar tələb edir". Uşağa gözləmək, səbr etmək öyrədilməlidir. Hər istədiyini anında qarşılamaq doğru davranış hesab edilmir. Uyğun hesab olunan, lazımlı olduğunu düşündüyünüz istəklərini qarşılamaq daha münasibdir. İstəklərinin də yaşına və ailənin yaşayış səviyyəsinə uyğun olmasına diqqət yetirilməlidir.

Dünyada baş verən demoqrafik proseslər, xüsusilə də, əhalinin sayının azalması artıq bəzi ölkələr üçün daha ciddi problem olaraq özünü göstərməkdədir. Əhalinin artım tempinə görə Azərbaycanda demoqrafiya sahəsində hələ ki, hər hansı ciddi problemlər yoxdur.

Bir neçə il öncəyə qədər daha çox şəhər yerlərində azuşaqlı ailələr mövcud idi. Belə ailələrdə bir, maksimum iki dünyaya gəlir. Hazırda kənd yerlərindəki ailələrdə də daha az uşaq dünyaya gətirmək halları çoxalıb. Səbəb kimi maddi vəziyyət, uşaqların sonrakı həyatını lazımi

səviyyədə qura bilməmək, anaların sağlamlıq problemi, fiziki görünüşünün qorunub saxlanması istəyi və s. faktorlar göstərilir. Müşahidələr göstərir ki, bəzi ailələr yalnız oğlan uşağı dünyaya gətirmək istəyindədirlər. Müasir tibbin imkanlarından yararlanan ailələr hələ ana bətnində ikinci övladın cinsini müəyyən edərkən seçim edirlər. Bu da təbii ki, ailələrdə uşaqların sayına təsir göstərir.

Demoqrafların fikrincə, Azərbaycanda demoqrafik artım normaldır.

Valideynlərlə aparılan söhbətlərdən aydın olur ki, onlar kəmiyyətə deyil, keyfiyyətə üstünlük verirlər. Azərbaycan ailələrində bu məsələ ilə əlaqədar Avropasayağı yanaşma müşahidə edilir.

Ümumiyyətlə, ailədə uşağın olması ailəni möhkəmləndiridiyi kimi, həm də onların sayı ahəngdarlığa da müsbət təsir göstərir. Təcrübələr göstərir ki, ailədə işaqlar nə qədər çoxdursa, ailə bir o, qədər möhkəmdir. Uşaqların ailəni möhkəmləndirən, kişini və qadını bir-birinə bağlayan əsas amillərdən biri olduğu unudulmamalıdır.

Uşaqların tərbiyəsi ər-arvad qarşısında ümumi problemlər qoyur ki, bu da ər və arvadın ailə həyatında birgə fəaliyyət göstərməsinə, möhkəm əlaqə yaratmasına və izdivacın möhkəmlənməsinə səbəb olur. Ailədə müxtəlif yaşlı uşaqların olması bu məsələni daha da dərinləşdirir, onlara qarşı qayğının da çox və müxtəlif olması tələblərini (məktəb, uşaq bağçası, körpələr evi) yaradır. Ailə problemlərinin çox hissəsi uşaqlarla əlaqədar olur. Bütün bunlar isə ər-arvadın istək və arzularını birləşdirib xoşbəxt ailə formalaşdırır.

Tək uşaqlı ailələrdən fərqli olaraq çoxuşaqlı ailələrin bir çox müsbət cəhətləri var. Belə ailələrdə optimizm, xeyirxahlıq, fərasətlilik, şən həyat tərzi və birlik hökm sürür, cansıxıcılıq əhval-ruhiyyəsi nisbətən az olur. Əgər başqa heç bir arqument olmasa da, yuxarıda qeyd olunanlar çoxuşaqlı ailənin var olması üçün kifayətdir. Çoxuşaqlı ailədə yaranan atmosfer sağlamlığa müsbət təsir göstərib, sinir sistemini möhkəmləndirir, stres hormonlarını neytrallaşdırıb orqanizmə zərər verə biləcək şəraitin qarşısını alır. Uşaqlarda valideynlərin əsas gərginliyini aradan qaldırmaq, stres vəziyyətini yüngülləşdirə bilmək qabiliyyəti vardır.

Azuşaqlı ailələrə nisbətən, çoxuşaqlı ailələrdə tərbiyə edilmiş uşaqlar daha sərbəstdir, kollektivdə öz yerini tez tapır, ətrafdakılarla ünsiyyət bağlamağı bacarır, mehriban, qayğıkeş, iltifatlı və səmimi olurlar. Bu keyfiyyətlərin kökü isə şübhəsiz, ailədən gəlir. Çoxuşaqlı ailə əhalinin geniş təkrar istehsalında cəmiyyətin tələblərinə cavab verir. Xüsusi uşaqcanlı valideynlər, əlbəttə, daha çox övlad böyüdə bilərlər.

Sağlam mühit, ər-arvadın bir-birinə qayğı və nəvazişi, bir-birini başa düşməsi, lazım gələndə güzəştə getməyi bacarması və s. uzunömürlülüyün və çoxuşaqlı ailələrin meydana gəlməsinin şərtlərindəndir.

Bu gün xüsusilə böyük şəhərlərdə ananın işləməsi, ya da maddi şərtlərə görə tək uşaq sahibi olmağı seçən ailələrin sayı xeyli çoxdur. Bəzən ailədə tək övladın olması bu uşaqda mənfi davranışların  paxıllıq, ərköyünlük, qaradinməzlik kimi mənfi göstəricilərin olması təəssuratını yaradır. Halbuki əhəmiyyətli olan uşağın necə yetişdirilməsi, ona necə tərbiyə verilməsidir.

Cəmiyyətimizdə tək uşaq üçün edilən araşdırmalarda ərköyünlük öndə dayanır. Tək uşaq ilə əlaqədar ön mühakimələrdən biri də budur ki, maraq mərkəzi olmağa alışır və həmişə tələb edir. Bir başqa göstərici də budur ki, tək uşaq yaşından böyük, yaşına uyğun olmayan hərəkətlər edir. Doğrudur, bəzi uşaqlar yaşıdlarından daha yetkin və daha çox məsuliyyət sahibi ola bilərlər. Bu heç də tək uşaq olmaqla əlaqəli deyil.

Çoxuşaqlı ailə böyük ailə kolletivi deməkdir. Burada uşaqlarda erkən yaşlardan kollektivçilik və dostluq, yoldaşlıq hissləri tərbiyələndirmək üçün imkanlar açılır. Uşaqlar bir-birinə qarşılıqlı kömək və qayğı göstərməyə, səmimi davranmağa alışır, yeri gələndə onlara doğma olan şəxsin – bacının, qardaşın xatirinə öz mənafelərindən və marqlarından əl çəkib sevinc və kədərlərini bir yerdə bölüşürlər.

Çoxuşaqlı ailələrdə valideynlər bütün uşaqlara eyni dərəcədə qayğı göstərməlidirlər. Bu, evdə sağlam psixoloji və mənəvi mühitin bərqərar olmasına, uşaqların ahəngdar inkişafına kömək edir. Görkəmli rus pedaqoqu A.S.Makarenko ailənin strukturu ilə bağlı çoxuşaqlı və azuşaqlı ailələrdə tərbiyənin xüsusiyyətləri məsələsinə də yanaşmışdır. Onun fikrincə, tək uşağı tərbiyə etmək çox uşağı tərbiyə etməkdən çətindir; belə uşaq ailənin diqqət mərkəzində olur, əzizlənir, tələb görmür, ərköyün böyüyür və s. Çoxuşaqlı ailədə isə səs-küy, nadinclik, "qanqaralığı" olsa da, ancaq buna baxmayaraq uşaqlar yaxşı böyüyürlər, çünki burada həm dostluq, həm də sevinc var, - ən başlıcası isə kollektiv var.

Beləliklə, bu qənaətə gəlmək olar ki, ailədə neçə uşağın olması onun tərbiyə işinin təşkilinə təsir edir. İstər tək övladı, istərsə də bir neçə övlad böyüdüb yetişdirərkən onlara əxlaq normaları çərcivəsində tərbiyə verilir. Bu əxlaq normaları ilə yanaşı həmçinin hüquqi norma və tələblərə riayət edilməli, tərbiyə işində uşağın ləyaqətinə toxunulmamalıdır. Ailədə tərbiyə işini həyata keçirən valideynlər mütləq bu məsələlərə də diqqət yetirməlidirlər. Hüquqi sənədlərdə ***uşaq hüquqları*** xüsusi yer tutur. "Uşaq hüquqları haqqında" BMT Konvensiyasında uşaq hüquqları aşağıdakı kimi müəyyən edilmişdir:

- dövlət, inzibati, məhkəmə və xüsusi təşkilatlar uşaqların müdafiəsi və maraqlarını əsas tutur;
- mənşəyi, irqi, milliyyəti, fəaliyyət növü və valideynlərinin əqidəsindən asılı olmayaraq uşaqların bərabərliyi təmin edilir;
- uşaqların müxtəlif zorakılıqdan, təhqir və istismardan, mənəvi və cinsi təzyiqlərdən müdafiəsi təmin edilir;
- təhsilə, tibbi xidmətə, əməyə, peşə hazılığına, istirahətə və qabiliyyətlərinin inkişafına diqqət yetirilir, ictimai hüquqları təmin edilir;
- uşağın şəxsi hüquqlarına: şəxsi həyatına təzyiq və müdaxilə hallarına yol verilməməsinə, onun şəxsiyyətinə və dini azadlığına, məlumatlar almasına və həyat şəraitinə təminat verilir.

Uşaq hüquqları, eləcə də onların tərbiyəsi ilə bağlı hüquqi norma və tələblər, onların pozulmasına görə məsuliyyətlər hüquqi sənədlərdə öz əksini tapmışdır. İnzibati qanunpozmalar haqqında məcəllədə uşaqların tərbiyəsi və təlimi üzrə öz vəzifələrini yerinə yetirməyən valideynlər və onları əvəz edən şəxslər üçün məsuliyyət nəzərdə tutulmuşdur: uşaqların təlim-tərbiyəsi üzrə öz vəzifələrini qərəzli şəkildə yerinə yetirmədikdə: uşaq (lar) narkotik maddələr qəbul etdikdə və digər qanunpozmalara yol verdikdə, 14-16 yaşlı yeniyetmələr xuliqanlıq törətdikdə valideynlər (və ya qanuni nümayəndələr) müvafiq qaydada cərimə olunurlar. Cinayət məcəlləsində isə uşaqlarla kobud davranış, onların yeməyinin məhdudlaşdırılması, uzun müddət tənha saxlanması, uşağın döyülməsi, təhqir olunması və şəxsi ləyaqətinin alçaldılmasına görə valideynlər, müəllim və tərbiyəçilər üçün cinayət məsuliyyəti nəzərdə tutulur. Ailə qanun vericiliyində də uşağın maraqlarına toxunan bütün hallarda onun öz rəyini bildirməsi, eləcə də hər cür məhkəmə və inzibati araşdırmaların gedişində onun fikirlərinin dinlənilməsi və rəyinin nəzərə alınması hüququ öz əksini tapmışdır.

Təhlillərdən bu qənaətə gəlmək olar ki, ailə institutunun formalaşmasında uşaqların olması əsas məqsədlərdən biridir. Ailənin və valideynlərin həyatında uşaqların olmasının bir neçə funksiyası var. Bunlar aşağıdakılardır:

1. Uşaqlar ona görə lazımdır ki, ailə möhkəm, şən və mükəmməl olsun. Başqa sözlə, uşaqlar ailə həyatına ahəngdarlıq verirlər.
2. Uşaqlar valideynlərin tərbiyəçi kimi atalıq və analıq imkanlarının meydana çıxmasına səbəb olurlar.
3. Uşaqlı ailədə valideynlər qocalıq dövründə tək-tənha qalmaqdan qorxmurlar;
4. Bir neçə uşağı olan ailələrdə nəslin düzgün tərbiyəsi daha yaxşı həyata keçirilir;

Bu fikirlərdən belə bir nəticəyə gəlmək olar ki, evlilik, ailə həyatı, uşaqlar insanın sağlam, xoşbəxt həyatı üçün ən əlverişli amillərdir.

**ƏDƏBİYYAT**

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı, Mütərcim, 2013, 324 səh.
2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Ped.elm. dokt….dis., Bakı, 1996, 297 s.
3. Hüseynzadə R., Allahverdiyeva L. Ailə pedaqogikası, Dərslik, Bakı, ADPU-nun mətbəəsi, 2016, 340 səh.
4. Makarenko A.S. Valideynlər üçün kitab. Bakı, Dövlət tədris pedaqoji ədəbiyyatı nəşriyyatı, 1964
5. Mirzəyev İ.Ə. Ailənin praktik psixologiyası. Bakı, Adiloğlu, 2005, 312 s.

## ABSTRACT

**L.Z.Allahverdiyeva**
**G.A.Shiraliyeva**

### UPBRINGING POSSIBILITIES OF FAMILIES HAVING FEW AND MANY CHILDREN

In the article the issue of having few and many children in family, is analysed. In the process of searching upbringing possibilities of families having few children it becomes clear that, single child gets accus tomed to be in the center of interest and always demonds. Other inducator is that, single child acts not corresponding to his age. Majority of children helpharmonius development of children, formation of healthy psychological and spiritual atmosphere in family.

## РЕЗЮМЕ

**Л.З.Аллахвердийева**
**Г.А.Ширалиева**

### ВОСПИТАТЕЛЬНЫЕ ВОЗМОЖНОСТИ МАЛО- И МНОГОДЕТНЫХ СЕМЕЙ

В статье анализируется вопрос мало и многодетности в семье. Изучением воспитательных возможностей малодетных семей установлено, что единственный ребенок в семье привыкает находиться в центре внимания, чего требует он от окружающих в дальнейшем. Кроме того, ребенок ведет себя как взрослый что не соответстувует его возрасту. В многодетных семьях действует здоровая психологическая и духовная среда, что способствует гармоническому развитию детей.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**KİFAYƏT ƏHMƏDOVA**
*Naxçıvan Müəllimlər İnstitutu*

**UOT:37**

# ŞƏXSİYYƏTİN İNKİŞAFINA ONUN TƏSİRİ

**Açar sözlər:** *ailə, qadın, tərbiyə, uşaq, valideyn*
**Key words:** *family, woman, education, training, children, parents*
**Ключевые слова:** *семья, женщина, воспитание, ребёнок, родители*

“Təbiətin insanlara bəxş etdiyi nemətlərdən, səadətdən biri də dünyaya övlad gətirmək, valideyn olmaqdır. Çox az-az hallar istisna olmaqla (sonsuzluq, ailə qurmamaq və s. ) yetkinlik yaşına çatan hər bir kəs valideyn olur. Lakin hər bir şəxsə valideyn xoşbəxtliyi də nəsib olmur. Xoşbəxt valideyn ola bilməməyin bir çox səbəbləri vardır. Məsələn, övlad itkisi, şikəst övlad, eləcə də valideynlərin və cəmiyyətin ümid və etimadını doğrultmayan övladlar” (1, s.76).

Müasir dövrdə ailə həyatı və fəaliyyətin bütün aspektləri – sosial mühitlə, cəmiyyətdə gedən proseslərlə sıx bağlıdır. Ona görə də ailədəki mühitə çoxsaylı amillər: siyasi, sosial-iqtisadi, psixoloji və s. təsir göstərir. Valideynlərin asudə vaxtının məhdudlaşması, əlavə gəlir mənbəyinin əldə olunması üçün əsas iş yerindən başqa digər bir sahədə də fəaliyyət göstərilməsi psixoloji yükün artmasına, stress, affekt vəziyyətlərinin yaranmasına səbəb olur. Bütün bunlar valideynin xroniki yorğunluğuna, nəticədə onun aqressiv davranışına təkan verir. Bir çox gənc valideynlər çoxsaylı psixi və fiziki gərginliyin təsiri altında özünün neqativ emosiyalarını uşağa yönəldir. Bu, həm psixoloji, həm də bəzən fiziki aqressiya kimi təzahür edir. Uşaq əslində onu qorumalı olan şəxsin təzyiqi altına düşür. Elə bu səbəbdən də uşaq valideynin əhval-ruhiyyəsindən, emosional və fiziki halətindən asılı olur. Bu isə bu və ya digər formada uşağın psixi sağlamlığında özünü tapır və sonralar uşaq böyüdükdən sonra onun davranış və ünsiyyətində, ustanovkasında özünü göstərir.

Müasir dövrdə psixoloq, pedaqoq və sosioloqların əksəriyyəti valideyn-övlad münasibətlərini xarakterizə edərkən fiziki, xüsusilə psixoloji gərginliyin artdığını göstərirlər. Psixoloqlar (O.N.İstratova, N.Y.Sinyagina və b. ) valideyn-övlad münasibətlərində təzahür edən aşağıdakı xarakterik xüsusiyyətləri qeyd edirlər:

- valideyn-övlad münasibətlərində özünü göstərən real münasibətlər;
- uşağa qarşı münasibətdə dərk olunmayan motivasiya;
- uşağa qarşı refleksiv münasibət ( 2, s. 120) .

Göstərilən bu üç cəhətin hər biri ayrılıqda və kompleks şəkildə aşağıdakı amillərdən asılıdır:

1. Valideynin şəxsi keyfiyyətləri və davranışının xüsusiyyətlərindən;
2. Valideynin psixoloji-pedaqoji səriştəliliyindən, təhsilinin səviyyəsindən;
3. Ailənin emosional-mənəvi mühitindən;
4. Tərbiyəvi təsir vasitələrindən;
5. Uşağın ailə həyatına nə dərəcədə cəlb edilməsindən;
6. Uşağın tələbatlarının nə dərəcədə ödənilməsindən.

O.N.İstratovaya görə, valideyn-övlad münasibətlərində aşağıdakı vəziyyətlər uşağın psixika və davranışına mənfi təsir göstərir:

- valideyn uşağın tələbatlarını ödəmədikdə, onunla emosional ünsiyyətə girmədikdə;
- uşaq valideynlər arasındakı konfliktdə vasitəyə çevrildikdə;
- valideynlərdən biri ailəni tərk etdikdə;

- valideynlər uşağı daim günahkar qismində gördükdə;
- ailədə uşağı başa düşən adam olmadıqda (2, s. 120) .

O.N.İstratova tərbiyə işində düşünülməmiş vasitələrə əl atan ailələrin aşağıdakı tiplərini verir:

“Ailə - sanatoriya”. Bu ailələr üçün uşağa qəyyumluq, ciddi nəzarət, ən xırda şeylərin təsirindən qorumaq xarakterikdir. Nəticədə psixikaya olan yüksək təzyiq uşaqda hədsiz həssaslıq, qıcıq yaradır. Hədsiz qəyyumluq və nəzarət uşaqda etiraz etmək, aqressivlik formalaşdırır.

“Ailə - qala” . Valideynlər çalışırlar ki, uşağın hər bir hərəkətini nəzarətdə saxlasın, yeri gəldikdə qətiyyət və prinsipiallıq göstərsinlər. Bu isə nəticədə uşaqda özünə inamsızlıq formalaşdırır və o, heç bir təşəbbüskarlıq göstərmək istəmir. Uşaq psixoloji təcrid vəziyyətinə düşür, yoldaşları ilə ünsiyyətə girməkdə çətinlik çəkir. “Ailə - qala” tipli münasibətlər uşaqda şəxsiyyətdaxili konflikt yaradır və bu da psixi gərginliyə, nevroza səbəb olur.

“Üçüncü artıqdır” ailə tipi. Belə ailələrdə ər-arvadın bir-birlərinə emosional bağlılığı yüksək, uşağa diqqət və qayğı az olur. Belə münasibət uşaqda özünün lazımsızlığı hissi yaradır. Uşaq daim özündə çatışmazlıq axtarır. Onda elə fikir formalaşır ki, o kimsəsizdir, lazımsızdır. Əzabverici gərginlik uşaqda təşəbbüs göstərməmək, istənilən halda valideynə tabe olmaq hissi yaradır. Belə uşaqlar daim valideynlərinə bağlanır, ətrafdakılarla əlaqə qurmaqda çətinlik çəkirlər.

Məhz belə ailələrdə pedaqoji təsir vasitələri az, fiziki təsir güclü olur. Başqa sözlə, uşaqla təhlükəli davranış uşaqda psixi və mənəvi travma yaradır.

Yuxarıda göstərilən problemlər uşaq bağçaya gedərkən daha tez üzə çıxır, tərbiyəçilərin diqqətini cəlb edir. Burada valideynlərə psixoloji kömək kimi ilk növbədə psixoloji məsləhət lazım gəlir. Köməklik valideynə uşağın tərbiyəsində buraxılan səhvlərin izah olunması ilə bağlıdır.

Apardığımız müşahidə və söhbətlər nəticəsində məlum olur ki, valideynlər uşağın təlimə hazırlanmasında çətinliyin olmasından, davranışlarından narahatdırlar. Hesab edirlər ki, uşaqlarında tərslik, inadkarlıq, neqativizm, sözə baxmamaq kimi mənfi keyfiyyətlər özünü göstərir. Müşahidələr göstərir ki, valideynlərin narahat olduqları bu keyfiyyətlər əsassızdır və özlərinin valideyn kimi səriştəsizliklərinin məhsuludur. Valideynlərin bir çoxu uşağın yaş xüsusiyyətlərini bilmədiklərindən bəzən səhv qərarlar çıxarırlar. Unudurlar ki, söylədikləri neqativ hesab olunan davranış 3-4 yaşlı uşaqların yaş xüsusiyyətlərindən irəli gəlir. Deyilənlərin bir qismi ilə valideynlərin şəxsi keyfiyyətləri və seçdikləri tərbiyə modeli ilə bağlıdır. Bir çox hallarda valideynlər uşağa qarşı ifrat tələbkarlıq, prinsipiallıq, hövsələsizlik göstərirlər. Uşaqdan onun imkanı xaricində olan əxlaqi-mənəvi, intellektual göstəricilər tələb edirlər.

Təbii ki ailə mühiti, ailənin təminatı və s. nəzərə alınmalıdır. Eyni zamanda ər və arvadın bir-birlərindən və uşaqdan gözləntiləri, maddi və mənəvi dəyərlərə münasibətləri diqqətdən kənarda qalmamalıdır.

V.V.Yustiski və E.Q.Eydemiller ailədə vacib olan üç keyfiyyəti ayırırlar. Bunlardan birincisi ailədə yaşamaq, mövcud çətinlikləri dəf edə bilmək tələbatıdır. Bura ata (ana) olmaq tələbatı, ər-arvad münasibətlərindən razı qalmaq tələbatı daxildir. İkincisi, ər-arvad münasibətləri və uşaqların tərbiyəsində vacib olan bilik və bacarıqların, qabiliyyətlərin məcmusudur. Üçüncüsü, özünün emosional vəziyyətini idarə edə bilmək, mövcud istək və arzularını tənzim edə bilmək keyfiyyətidir.

Yuxarıda göstərilən bu üç xüsusiyyət və keyfiyyətin birlikdə, vəhdətdə götürülməsi ər və arvada ailə həyatında meydana çıxan çətinlikləri aradan qaldırmaqda kömək edir.

Valideyn-övlad münasibətlərindəki boşluqlar, tərbiyədə buraxılan səhvlər çox vaxt valideynlər tərəfindən başa düşülmür. Problem yalnız pedaqoq və tərbiyəçilər tərəfindən üzə çıxarılandan sonra diqqəti cəlb edir.

Valideyn-övlad münasibətlərindən asılı olaraq uşağın şəxsiyyəti formalaşır, fəallığı inkişaf edir.

Göstərilən xüsusiyyətlər valideynlərin uşağa münasibətində öz əksini tapır. Yəni uşağın inkişafı, ünsiyyəti, qarşılıqlı münasibətlərə qoşula bilməsi hələ lap körpə vaxtlarından ailədəki psixoloji mühitdən çox asılıdır. Bir çox hallarda valideynlər hesab edirlər ki, uşağın tərbiyəsi ilə xüsusi şəkildə məşğul olmağa ehtiyac yoxdur. O, hələ körpədir, böyüdükcə özü hər şeyi öyrənəcək. Digər halda isə hesab edirlər ki, uşağa lap körpəlikdən ciddi yanaşılmalı, hər şey nəzarətdə saxlanılmalı, onların istədiyi kimi olmalıdır.

Birinci vəziyyətin qəbuledilməzliyi onunla bağlıdır ki, uşaq istər insani münasibətləri, normaları, qadağaları, ətraf mühiti, təbiət hadisələrini və s. böyüklərdən öyrənir. Uşaq vaxtı buraxılan bu boşluqları sonrakı yaş dövrlərində bərpa etmək çətinlik yaradır, bəzən isə mümkün olmur.

İkincisi isə onunla qəbulolunmazdır ki, uşaqda qorxu, asılılıq hissi formalaşır. Uşağın diqqəti, xüsusilə ixtiyari diqqəti zəif inkişaf edir. Uşaqda bir süstlük, ətalət yaranır. Hətta böyüdükdən sonra da asılılıq hissindən xilas ola bilmir.

Göründüyü kimi, uşağın şəxsiyyətinin formalaşması, qabiliyyətlərinin inkişafı çoxsaylı amillərin təsirindən asılıdır. Valideynin vəzifəsi hər bir yaş mərhələsinə uyğun olaraq inkişafı təmin edə bilən şərait yaratmaqdır. Bunun üçün ilk növbədə uşağın şəxsi fəallığını artırmaq lazımdır. Çalışmaq lazımdır ki, onun təşəbbüskarlığı inkişaf etsin, ətrafda baş verənlərə maraq göstərsin. Bunun üçün ümumi, psixi inkişafı şərtləndirən, şəxsiyyətin ahəngdar şəkildə formalaşmasını təmin edən fəaliyyət və münasibət formasından istifadə olunsun.

## ƏDƏBİYYAT


1. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı, Nurlan, 2006, 200 s.
2. Истратова О.Н. Большая книга детского психолога. Ростов н\Д : Феникс, 2008, 568 с.
3. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə həyatının etika və psixologiyası. Bakı, Maarif, 1988, 192 s.
4. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı, Bilik, 2012, 240 s..


## ABSTRACT

**K.Ahmadova**

### PARENTS-CHILDREN RELATIONS AND THEIR INFLUENCE ON THE DEVELOPMENT OF THE CHILDRENS DEVELOPMENT IN YOUNG FAMILIES


The article deals with the modern problems of the family life. It is said that, at present all the aspects of the family life and activity are connected with the social environment and social possesses. So lots of factors: political, socio-economic, psychological and some other factors influence on the family environment. Restriction of the parents' free time, to search for the second job in order to earn extra money, causes increasing of the psychological load, stress and affect. All these cause the chronic tiredness and aggressive behavior of the parents. Most young parents pass their negative emotions to their children under the influence of a number of psychological and physical tensions. Sometimes it appears both as psychological and physical aggression.

At last we come to conclusion that the formation of the personality of the children and development of their ability depend on influence of a number of factors. The main duty of the parents is to establish circumstances according to the age of the children in order to maintain their development. First of all the parents should increase their personal activity. You should try to increase their personal initiatives and make them get interested in environment. You should use activity and attitude forms that stipulate general psychological development and maintain harmonious formation of the personality.

## РЕЗЮМЕ

**К.Ахмедова**

## РОДИТЕЛЬСКО-ДЕТСКИЕ ОТНОШЕНИЯ И РАЗВИТИИ ЛИЧНОСТИ ДЕТЕЙ В МОЛОДЫХ СЕМЬЯХ

В статье отмечается, что на современном этапе семейная жизнь и все аспекты деятельности тесно связаны с социальной средой, процессами, идущими в обществе. Поэтому на семейную среду влияют многочисленные факторы: политические, социально-экономические психологические и др. Ограничение свободного времени родителей, их деятельность в другой сфере от основной работы с целью дополнительной заработки порождают дополнительные стресс, аффект и повышают психологическую нагрузку. А все это приводит к хронической утомлённости родителей, в результате чего они ведут себя агрессивно. Многие родители под влиянием психической и физической нарпяжённости свои негативные эмоции направляют детям, что проявляет себя и как психологическая, а иногда и как физическая агреция.

Автор приходит к такому заключению, что формирование личности ребенка, развитие его способностей зависит от многочисленных факторов. Задача родителя заключается в обеспечении условий развития ребенка в соответствии с каждым возрасным этапом. Для этого в первую очередь требуется повысить личную активность ребёнка, следует постараться, чтобы развивалась его инициативность, чтобы оп проявлял интерес к происходящим вокруг событиям. При этом нужно применить формы деятельности и отношений, обеспечивающих гармоничное формирование личности.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 5 (86)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 5 (86)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 5 (86)**

**ЛЯТАФЯТ ГУММАТОВА**
*Азербайджанский Государственный Экономический Университет*
**ЗУЛФАЛИ КУЛИЕВ**
*Нахчыванский Государственный Университет*

**UOT: 39**

# ЭТНОКУЛЬТУРНАЯ ОБУСЛОВЛЕННОСТЬ РАЗВИТИЯ ЛИЧНОСТИ

***Açar sözlər:*** *şəxsiyyət, etnos, millət, qloballaşma, milli şüur, mədəniyyət*
***Key words:*** *personality, ethnicity, nation, globalization, national identity, culture*
***Ключевые слова:*** *личность, этнос, нация, глобализация, национальное самосознание, культур*

Актуальность проблемы в глобальном масштабе обусловлена возрастанием национально-политической активности, кардинальным изменением геополитической ситуации в мире, феноменом "этнического ренессанса". Причины его различны. В развитых странах этот феномен имеет не только социально-экономическую, но и социально-психологическую основу. Речь идет о подсознательном стремлении людей противодействовать нивелирующему и унифицирующему воздействию глобализации на их жизнь,в т.ч. и национальную. Несмотря на унификацию культурных различий в глобализирующемся мире, с такой же интенсивностью идут и противоположные процессы – рост национального самосознания, национальной самоидентификации [1]. Все чаще сегодня употребляются выражения “многообразие культур”, “культурный плюрализм”, “мультикультурализм”, понимая под ними сохранение своеобразия различных этнических культур в рамках одного сообщества. В этом смысле формирование личности происходит и под влиянием этнического образа жизни, культурных установок, зафиксированных национальным языком и передаваемых из поколения в поколение посредством этого языка. Можно сказать, что за каждым носителем той или иной культуры стоит национально-специфическое восприятие объектов действительности. И это опровергает идею о “глобальной деревне”, наднациональности глобального сообщества.

Актуальность темы нарастает и в плане участия личности в межнациональном общении, предъявляющем высокие требования к культуре сотрудничества, общения между нациями, народностями и их представителями, что требует исследования его сложных социально-психологических механизмов и факторов, решения задачи научного обеспечения культуры межнационального общения.

Исходя из диалектического понимания соотношения общего и особенного, можно сказать, что, если отдельный индивид в своей индивидуальной неповторимости образует единичное в его определенности любой формы этнической общности, то категория личности включает в себя в диалектическом единстве всеобщее – общечеловеческое, особенное – этнотипичное и все богатство индивидуально-неповторимого слоя психологии. Поэтому важное значение, с нашей точки зрения, имеет модель динамической структуры личности. Так как личность, будучи носителем как всеобщего, общечеловеческого и особенного, так и индивидуально-неповторимого, имеет сходство с психологией этнической общности и отображает структуру, свойства и отношения между структурными образованиями

психологии нации. Личность, субъективируя сущность общественных отношений, которые модифицированы сообразно конкретно-историческим условиям развития национальной общности, овладевает также и достижениями национальной культуры, ее традициями, в совокупности образующих существенный элемент внутреннего духовного мира личности. Нация со всеми элементами психологии выступает специфической средой, в которой осуществляется процесс формирования и развития личности. Всесторонне присваивая свою общественную сущность, личность всесторонним же образом субъективирует и национальные процессы. Следовательно, взаимоотношения личности с нацией не могут ограничиваться какой-то одной стороной национальной жизни, например, национальной культурой или психологией, национальными традициями или языком нации. Включая в себя все аспекты национального бытия, данная проблема предполагает комплексное исследование связей личности со всеми сторонами национальной жизни. В исследовании связей личности с нацией следует различать социально-философский аспект, исследующий национальную принадлежность как одну из сторон связей личности с обществом, рассматривающий личность в качестве субъекта общественных, в том числе и национальных отношений, а нацию в качестве одной из форм ее национального бытия; этносоциологический аспект, исследующий национальную определенность личности как отражение в ее структуре социальнокультурных особенностей данной национальной общности; этнопсихологический аспект, исследующий индивидуальные проявления национальной психологии, национальные особенности поведения личности, ее мировосприятия, социально-психологические формы участия в межнациональных контактах. Решать эту задачу позволяет рассмотрение нации в качестве формы социального бытия личности, в основании которого лежит положение о нации как форме общественного развития. Специфика нации как общественного явления, ее своеобразие как элемента социальной структуры общества состоит в том, что она типологически связана с категорией "этнические общности".

Ввод в научный оборот понятия "этническое" был вызван тем, что обычно используемая в нашей литературе терминология, связанная с изучением национальных явлений, неоднозначна. Поэтому встала необходимость отграничивать и различать понятия "национально-специфическое (этническое)" и "национальное" в широком смысле этого слова. Удачным оказалось введенное Ю.В.Бромлеем в научный обиход понятия "этнонациональный организм", указывающий на то, что этническое всегда связано с социально-экономическими отношениями, и только через эти отношения оно существует. Термин "этносоциальное" показывает, что речь идет о таком социальном явлении, которое существует в этнической форме, то есть имеет этнические особенности культуры, языка, обычаев и т.д. При этом под собственно этнической общностью понимается "исторически сложившаяся на определенной территории устойчивая межпоколенная совокупность людей, обладающих не только общими чертами, но и стабильными особенностями культуры (включая и язык) и психики, а также сознанием своего единства и отличия от всех других подобных образований (самосознанием), фиксированном в самоназвании (этнониме)" [2, с.58]. Другими словами, это совокупность локальных сообществ, представители которых рассматривают друг друга как "своих" в некотором интуитивно очевидном отношении как наиболее предпочтительных (при прочих равных условиях) партнеров по любым формам межличностного и межгруппового взаимодействия. Отсюда, например, феномен национальных землячеств за границей. Именно это общее, связанное с наличием у групп людей, обозначаемых термином "этнос", определенной языковой и культурно-бытовой специфики, а также наличием единого самосознания и общей исторический памяти, называется этническим. Такие факторы, как окружающая природная среда, относительная территориальная обособленность, численность общности и ее связь с родственными макроэтническими образованиями, уровень социального и культурного развития, трудовые и профессиональные традиции, язык – все это можно назвать этнодетерминирующими факторами, наиболее характерными для данной эпохи. Взаимодействуя с

основными детерминантами социально-исторического развития – способом производства материальных и духовных благ – они обусловливают устойчивость общности как этноса, его историческое своеобразие и этническую специфику. Передаваясь от поколения к поколению, этнические моменты сами превращаются в механизм преемственности социального развития этноса.

Система природных факторов, таких, как климат, оказывающий существенное влияние на хозяйственную деятельность, различные стороны быта, культуры, почву, рельеф, флору, фауну, оказывающие значительное влияние на материальную культуру народа.

Территориальная общность проявляется в личности как определенная социальная и социально-психологическая связь индивида с данной средой обитания. Личность относится к данной территориальной среде как к родной, привычной, органически связанной с определенными традициями, обычаями, ценностям родной природы как к национальному достоянию.

Одним словом, вхождение личности в нацию дано ей не непосредственно, а через систему разнотипных социальных общностей, из которых складывается ее социальная структура. Экономические, территориальные, языковые связи являются объективными узлами национальных связей личности. Рассматривая эти аспекты национальных связей личности, мы предполагаем, что объективные характеристики национального бытия становятся внутренним достоянием личности главным образом через духовную жизнь, культуру, психологию нации. Личность несет в себе национальное в форме усвоенной национальной культуры. Укорененность индивида в этнической общности, отмечал Г.Шпет, оборачивается его укорененностью в истории своего народа. По его мнению, причастность каждого отдельного человека к национальной истории измеряется не биологической наследственностью, а степенью сознательного приобщения к тем культурным ценностям и святыням, которые образуют содержание этой истории. “Духовное богатство индивида, - указывал Г.Шпет, есть прошлое народа, к которому он сам себя причисляет” [7,с.146]. Он также отмечал, что нигде так ярко не сказывается психология народа, как в его отношении к им же созданным духовным ценностям.

Таким образом, этнические особенности личности связаны с той культурной информацией о национальной жизни, которая, будучи освоенной личностью, входит в систему ее знаний и представлений, способствуя формированию идеалов и ценностных ориентаций. Национально-культурная среда вырабатывает у субъекта устойчивую установку, определяющую избирательное отношение воспринимающего к социокультурной информации.

Для того, чтобы глубже разобраться в вопросе о границах социокультурной детерминации личности. И в связи с этим следует констатировать, что до недавнего времени в нашей литературе подчеркивался творимый характер личности. При этом настойчиво указывалось на исключительную роль социальной и культурной среды, роль воспитания, обучения, что обуславливалось состоянием глубокого застоя в обществе. Ныне в философско-социологических исследованиях человека произошла смена парадигмы: проблема личности стала рассматриваться не как проблема социальной детерминации индивида, а как проблема его самодетерминации, саморазвития, самодеятельности, самосовершенствования [4; 6]. Отличительной стороной человека является его свободная субъективность, его способность сознательно самоопределяться по отношению к своему месту и роли в социуме, к его духовным ценностям, что применительно к нашей теме означает, что и национальное происхождение само по себе не переносит автоматически на личность своеобразия той или иной общности.

Напрямую с вопросом о соотношении социальной детерминации и самодетерминации личности связана и проблема соотношения этнического самосознания и индивидуализации, поскольку социальное бытие взаимодействует с каждым носителем этнического самосознания, и лишь изменение сознания представительной части его носителей изменяет само это самосознание. В наше время этническое самосознание в неизмеримо большей

степени подвергается воздействию других культур. Общий технологический прогресс неизбежно вызывает рост культурного уровня широких масс. В социологическом плане исторической перспективой становится ослабление межнациональных перегородок, установление приоритета общечеловеческих ценностей. Как отмечает Ю.А.Замошкин, "налицо рост, с одной стороны, потребности индивидов, групп, общностей, наций, стран в максимально свобод ном выражении своей самобытности, неодинаковости, неоднородности, в отстаивании своих частных интересов, а с другой стороны, потребности тех же индивидов в единстве действий, опирающихся на осознание своей еще более глубокой взаимосвязанности, потребности в подчинении - во имя решения общих и глобальных проблем – своих частных интересов интересам цивилизации человечества в целом" [3, с.135].

В этих условиях возрастает значимость в историческом процессе к конкретной личности. Повышая свой культурный уровень, интенсивнее взаимодействуя с другими культурами и образом жизни, личность постепенно все активнее рефлектирует свое социальное, в т.ч. этносоциальное, бытие, как бы возвышаясь над ним и переходя на более высокую ступень внутренней свободы. Такие индивидуальные изменения сознания с течением времени преобразуют конкретно-исторический облик всего этноса, как бы раскрывая его вовне и делая его более схожим с культурным обликом других этносов. Поэтому вопрос о том, насколько далеко зайдет процесс индивидуализации отдельной личности, напрямую связан с будущностью национальных культур.Дело в том,что в условиях глобализации процессы взаимодействия стран и народов настолько широки, что без учета этого нельзя представить себе развитие культуры ни одного народа.Неслучайно в литературе по национальному вопросу указывается, что обрисовать специфические национальные особенности образа жизни человека -дело очень трудное. И две крайние позиции по вопросу будущности национальных культур представлены, в частности, К. Марксом и В.С.Соловьевым. В связи с "парадоксом" современности, то есть в связи с тем, что при очевидной интеграции в экономике, культурной глобализации, увеличивающемся сходстве культуры этническая специфика все более перемещается в духовную сферу, в сферу психологии, ценной представляется мысль В.С. Соловьева, идущая в разрез с современными представлениями о будущем стирании национальных различий, о том,что с ходом времени изменится лишь "удельный вес" национальных характеристик личности, в то время как их положительная совокупность, причем не мозаичное сложение, но действительный синтез останется неотъемлемым достоянием как самой личности, так и всего человечества [5].

Это значит, что, во-первых, этничность и в дальнейшем сохранит свою роль для личности в той мере, в какой будет отвечать раскрытию сущностных сил человека.

Во-вторых, этническое все более становится частью единой общечеловеческой истории.

## ЛИТЕРАТУРА

1. Бабаков В. Г., Семенов В. М. Национальное сознание и национальная культура. - М., 2012
2. Бромлей Ю.В. Очерки теории этноса. – М.: Наука, 2013
3. Замошкин Ю.А. "Конец истории": идеологизм или реализм //Вопросы философии. 1990.- №3. – с. 134-147.
4. Мерлин В.С. Структура личности: характер, способности, самосознание. Пермь, 2012. - 312 с.
5. Соловьев В.С. Национальный вопрос в России. Предисловие // Собрание сочинений: в 8 т. СПб.: Тип. Просвещение, 1914.Т.5.С.3-6
6. Столин В.В. Самосознание личности. - М.: Изд-во МГУ,2013. - 284 с.
7. Шпет Г. Введение в этническую психологию. – М., 1927

**XÜLASƏ**

**L.Hümmətova**
**N. Quliyev**

**ŞƏXSİYYƏTİN İNKIŞAFININ ETNOMƏDƏNİ ŞƏRTLƏRİ**

Şəxsiyyətin inkişafının etnomədəni şərtlərinin təhlilinə həsr edilmiş məqalədə şəxsiyyətin millətlə əlaqələrinin sosial-fəlsəfi, etnososioloji, etnopsixolojiaspektləri qeyd edilir və qloballaşmanın etnikliyin yox olmasına deyil, əksinə, onun daha da aktuallaşmasına səbəb olduğu əsaslandırılır. İqtisadiyyatda gedən inteqrasiya prosesləri, mədəni qloballaşma, mədəniyyətlərin bir-birinə yaxınlaşması şəraitində etnik spesifiklik getdikcə mənəfi sferaya, psixoloji sahəyə keçid edir. Etniklik insanın mahiyyətdaşıyıcı qüvvələrinin açıqlanmasına şərait yaratmaqla gələcəkdə də şəxsiyyətin həyatında öz rolunu oynayacaq. Lakin insanın fəlsəfi-sosioloji tədqiqində paradiqmanın dəyişməsi və onun özdeterminasiya kontekstndə öyrənilməsi şəxsiyyətin sosiomədəni determinasiyasının həddlərinin, şəxsiyyətin sosial determinasiyası ilə özdeterminasiyası, etniki şüuru ilə fərdiləşməsinin nisbətinin aydınlaşdırılmasını tələb edir.

**ABSTRACT**

**L.Hummatova**
**N. Guliyev**

**ETHNIC AND CULTURAL CONDITIONALITY OF PERSONAL DEVELOPMENT**

In an article devoted to the analysis of ethno-cultural conditionality of personal development highlighted the socio-philosophical, ethno-sociological aspect, ethnic and psychological aspects of the relations of the individual with the nation, the question of the boundaries of socio-cultural, ethno-cultural determination of personality and substantiates the idea that globalization promotes not the displacement of ethnicity, but rather its actualization. The apparent integration in the economy, cultural globalization, the increasing similarity of culture of ethnic specificity is all the more moving in the spiritual sphere, in the sphere of psychology. Ethnicity will continue to retain its role for the individual in the extent that would meet the disclosure of the essential forces of man. However, the paradigm shift in the philosophical and sociological research of a person and its consideration in the context of self-determination presupposes clarification of the boundaries of the socio-cultural determination of the individual, the correlation of social determination and self-determination, ethnic self-awareness and individualization of the individual.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**AYNUR İSKƏNDƏROVA**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*aynuriskenderova@inbox.ru*

**UOT: 1**

# PRAKTİK PSİXOLOQUN ŞƏXSİ KEYFİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİNİN ELMİ-NƏZƏRİ ƏSASLARI

**Açar sözlər:** *Praktik psixoloq, psixoliji xidmət, məktəb psixoloqu,şəxsi keyfiyyətlər, peşə bacarıqları*

**Keywords:** *Practical psychologist, psychological services, school psychologist, personal qualities, professional*

**Ключевые слова:** *Практический психолог,психологические услуги,школьный психолог, личные качества, профессиональные навыки*

Müasir dövrdə bütün dünyada insanların fəaliyyəti və münasibətlərinin faydalılığı psixoloji biliklərin tətbiqindən aslıdır. Ona görə də psixologiya insan haqqında olan elmlər arasında insana xidmət etməsi ilə fərqlənir. Psixologiya elminin praktik problemlərini həll etmək üçün yaranan psixoloji xidmət sahəsinin formalaşması xüsusilə diqqəti cəlb edir. Müşahidələr göstərir ki, psixologiya elmi dövrün praktiki problemlərini həll etdikcə, cəmiyyətin müxtəlif fəaliyyət sahələrinə uğurla nüfuz edir.

Ölkəmizdə praktik psixoloqlara ehtiyac getdikcə artmaqdadır. Əvvəllər praktik psixoloqlar psixoloji mərkəzlərdə, məktəblərdə, məhkəmələrdə işləyirdilərsə, indi tib müəssisələrindədə fəaliyyət göstərirlər. Hal-hazırda insanların psixoloji problemləri əvvəlki dövrə nisbətən daha mürəkkəb xarekter daşıyır. Bu problemləri analiz etmək və aradan qaldırmaq praktik psixoloqların işidir.

Praktik psixoloqların fəaliyyətini üç fərqli əlamətə: praktik psixoloqun şəxsi xüsusiyyətlərinə, peşə biliklərinə, praktik psixoloq bacarıqlarına görə dəyərləndirirlər. Adı çəkilən üç əlamət praktik psixoloqların peşəkarlığını müəyyən etməyə imkan verir.(2, s121)

N.N.Obozov qeyd edir ki, praktik psixoloq dərin müşahidə qabiliyyətinə malik olmalı və hər hansı bir tədqiqat apararkən, elmi cəhətdən diaqnozu qoyulan vəziyyətin əlaməti ilə müşahidə olunanın davranış, mimika, səs, baxış, vegetativ reaksiyalar arasında daim əlaqə axtarmalıdır. (5)

Psixoloji tədqiqatlar göstərir ki, peşə fəaliyyətinin təsiri ilə praktik psixoloq şəxsiyyətində bir sıra dəyişikliklər müşahidə olunur. D.Q.Trunov öz tədqiqatında praktik psixoloqun şəxsiyyətindəki dəyişikliklərlə bağlı peşəkar fəaliyyətin amillərini, mexanizmlərini nəzərə alaraq müəyyən nəticələr əldə edib. O, bu dəyişiklikləri pozitiv və neqativ xüsusiyyətlər olaraq aşağıdakı kimi göstərmişdir. (17)

| Pozitiv xüsusiyyətlər | Neqativ xüsusiyyətlər |
|---|---|
| Özünü, insanları və baş verən hadisələri dərindən dərketmə | Neqativ problemləri özünə və ətrafındakılarına proyeksiyalaması |
| Həyati situasiyaları analiz etmə | Özünəvə ətrafdakılarına lazımsız diaqnoz qoymaq |
| Refleksivlik bacarığı | Ətrafdakılara məsləhət vermək |
| Kritik və sarsıdıcı vəziyyətdən çıxma | Müəllim rolunu mənimsəmək |

| | |
|---|---|
| Komnikativ bacarıq | Hədsiz özünənəzarət, hiperrefleksiya, kortəbiiliyin itməsi |
| Mənfi təsirlə mübarizə | Öz üzərində iş |
| Özününizamlama bacarığı | Həyat təcrübəsinə əsasən həssaslığın, rasionalığın, stereotipliyin azalması |
| Empatiya bacarığı | Ünsiyyətdən doymaq |
| Geniş dünya görüşü və fərqli düşünənlərə tolerant yanaşma | Soyuqqanlı olmaq |
| Qnostik maraq | Hisiyyatsızlıq |

Ölkəmizdə fəaliyyət göstərən məktəb psixoloqları daha çox diqqət tələb edən və müzakirə olunan praktik psixoloqlardır. Məktəb psixoloqunun fəaliyyətinin özünəməxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər onların fəaliyyət göstərdikləri təhsil müəssisələrinin funksiyalarından qaynaqlanır. Burada əsas məsələ gənc nəslin sağlam psixoloji inkişafı, təlim və tərbiyəsidir. Bunun öhdəsindən gəlmək üçün isə bir sıra peşə bacarıqlarına yiyələnməlidir. Peşə bacarıqlarına yiyələnməsi onun şəxsi keyfiyyətlərindən aslıdır. Bu baxımdan məktəb psixoloqunun şəxsi keyfiyyətlərinin, peşə bacarıqlarının öyrənilməsi vacib məsələlərdəndir.

Məktəbdə psixoloji xidmətin üç mühüm əhatə sahəsi mövcuddur:1. Müasir məktəb şəraitində psixoloji biliklərin professional tətbiqinin yol, vasitə və metodlarını yaratmaq məqsədilə şagirdlərdə psixi inkişafın və şəxsiyyətin formalaşmasının qanunauyğunluqlarını öyrənmək (elmi aspekt); 2. Tədris proqramlarının tərtibi, dərsliklərin hazırlanması, didaktikvə metodik materialların psixoloji əsaslarının işlənməsi, müəllimin psixoloji hazırlığı və s. sahələri özünə daxil etməklə bütün təlim tərbiyə prosesini psixoloji cəhətdən təmin etmək(tətbiqi aspekt); 3.Psixoloqların məktəbdə bilavasitə işləmələri (praktik aspekt). Əlbəttə bu aspektlərin məqsəd və vəzifələrinin yerinə yetirilməsi üçün icaraçıdan xüsusi peşəkar hazırlıq tələb edir.(1, s.244)
Təhsil sisteminin psixoloqu üçün əhəmiyyətli peşəkar keyfiyyətlərinin formalaşması və inkişafı probelminə diqqət 1990-cı ildən, V.İ.Dolqovoy, İ.B. Dubrovinoy, V.N.Karandaşev, A.A.Krılov, R.S.Nemov, R.V.Ovçarov, V.E.Paxalyana, E.İ.Roqov, İ.V.Şevsov öz tədqiqatlarında əks etdirərək vurğulayırlar ki, yerli nəzəriyyə və praktika bu məsələ barəsində dəqiq məlumata malik deyil. (4,s.63)
VV.Rubsova görə psixoloq öz fəaliyyətini düzgün qura bilməsi üçün ilk əvvəl özünütəhsilin qayğısına qalmalıdır:

- psixologiya sahəsində keçirilən elmi-praktik konfranslar, dəyirmi masa və diskussiyalarda, təcrübəli praktik psixoloqların seminarlarında iştirak etmək;
- məktəb təcrübəsi üçün spesifik və ya qeyri spesifikpsixoloji vəziyyətin, hal və situasiyaların yaranma səbəbləri, təzahürləri və həlli yolları ilə bağlı biliklərini genişləndirmək;
- diaqnostika və korreksiya təcrübəsini artırmaq;
- kitabxana və ya mağazalarda, kitab sərgilərində, təhsil yarmarkalarında olmaq, İKT-dən istifadə etməklə yeni psixoloji ədəbiyyatlarla tanış olmaq;
- yaş, inkişaf və təlim psixologiyasının müasir metodları ilə tanış olmaq;
- dünyanın tanınmış praktik psixoloqlarının biblioqrafiyası və iş təcrübəsi ilə tanış olmaq;
- magistratura, doktorantura pillələri üzrə ixtisas təhsilini artırmaq, ixtisasartırma kurslarından keçmək.(6, s.4)Рубцов В.В. Служба практической психологии образования: современное состояние и перспективы развития // Вопросы психологии, 2003, №6, с. 32-40.

Türkiyənin psixoloqları da məktəb psixoloqunun fəaliyyəti, vəzifələri, peşə bacarıqları, şəxsi xüsusiyyətlərini araşdıran tədqiqatlar aparmışdır.Məsələn, türk tədqiqatçısı Muslu-Köseoğlu İstanbulda məktəb, xəstəxana və psixoloji mərkəzlərdə fəaliyyət göstərən praktik psixoloqların empatiya bacarığının, iş stresinin şəxsi xüsusiyyətlər arasındakı aslılğı müəyyən etmişdir. Mehmet

Salih Özgün "Okul Psikolojik Danişmanlarinin Kişilik Özellikleri İleMesleki Yetkinlik Beklentileri Arasindaki İlişkinin İncelenmesi",E.Ceyhan "Mesleki Sorun Düzeyleri FarklıOkul Rehber Öğretmenlerinin Kişisel ve Sosyal Uyum Düzeylerinin İncelenmesi", A.Malkoç-İstengel "Okul Rehber Öğretmenlerinin Kişilik Özellikleri ve İşStresleri Arasındaki İlişki Düzeyinin İncelenmesi" adlı tədqiqat işlərində məktəb psixoloqlarının peşəkarlıq səviyyəsinin şəxsi keyfiyyətlərindən aslılığını öyrənmişdir.
Məktəbdə psixoloji xidmətin geniş inkişaf etdiyi ABŞ-da məktəb psixoloqunun işində problemin həllinin xüsusi prinsipləri və texnikası bir çox mütəxəssislər tərəfindən müzakirə edilir.

Amerikada fəaliyyət göstərən CACREP (The Council for Accreditation of Counseling and Related Educational Programs) adlanan təşkilat məktəb psixoloqlarının sahib olmalı şəxsi keyfiyyətləri, peşə bilikləri və peşə bacarıqlarını aşağıdakı kimi sırlayıb:

a) Məktəb psixoloqları şagirdləri hər tərəfli inkişaf etdirmək üçün inkişaf etdirici psixoloji proqramlar hazırlamaq və tətbiq etmək bacarığına sahib olmalıdır.
b) Şagirdlərin təlimdə müvəffəqiyyətini artıra bilmək üçün lazım olan metodikaları istifadə etməyi bacarmalıdır.
c) Müəllimlərlə, məktəb rəhbərliyi ilə, ailələrlə və müxtəlif qruplarla konsultasiya aparmaq üçün lazım olan bilik və bacarıqlarına sahib olmalıdır.
d) Hüquqlarını və etik qaydaları bilməlidir.
e) Məktəb psixoloqu olaraq şagirdlər üçün inkişafetdirici proqramalar hazırlamalı və tətbiq etməlidir.
f) Təhsil sistemində olan digər müəssisələrlə əlaqə qurmağı və birlikdə işləməyi bacarmalıdır. (3, s.16-19).

R.M.Hause və R.L.Hayesa görə, məktəb psixoloqlarının indiki vəzifələri; psixoloji xidmət göstərmək, daha çox fərdi problemlərlə maraqlanmaq, şagirdlərin problemlerini terapevt kimi həll etmək, fərdi və qruplarla işləmək, ən vacibi isə onların psixoloji və sosial inkişafına diqqət yetirməkdir. Məktəb psixoloqlarının gələcəkdəki vəzifələri isə indikindən daha fərqli və geniş olacaqdır. Belə ki, məktəb psixoloqları şagirdlərin akademik müvəffəqiyyətini düşünən, bütün məktəb və sistemlə maraqlanan,konkret vəzifələri olan, bütün şagirdləri psixoloji inkişafını əhatə edəcək proqramlar hazırlayan, məktəb və cəmiyyətdəki digər insanlarla əməkdaşlıq edən mütəxəssislər olacaqdır.(8, s. 250)

Göründüyü kimi məktəb psixoloqunun peşə hazırlığı onun insan psixikası haqqında inteqrasiyalı biliklərə malik olması ilə müəyyənləşir. Ona görə də çox sahəli xidmət göstərməli olan məktəb psixoloqu bir sıra bacarıq və səriştələrə, şəxsi və ixtisas keyfiyyətlərinə malik olmalı, yaş, pedaqoji, fizioloji, psixoloji, sosial elmlər sahəsindəki biliklərdən yararlanmalıdır. Praktik psixoloqun peşənin tələb etdiyi şəxsi keyfiyyətlərə və ixtisas bacarıqlarına sahib olması onun fəaliyyətinin səmərəliliyinə, işini düzgün, dəqiq, səriştəli yerinə yetirməsinə mühüm təsir göstərir.

## ƏDƏBİYYAT


1. M.Ə.Həmzəyev. Pedaqoji psixologiya. Bakı, "Maarif",1991, 296s.
2. İlhan Yalçın. 21.Yüzyılda Psikolojik Danışman. Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Dergisi,2006, cilt:39, sayı 1, 117-133s.
3. Hatice Hatipoğlu. Okullarda yürütülen psikolojik danışma ve rehberlik uygulamalarının belirlenmesi ve bazı değişkenler açısından incelenmesi. Yüksek lisans tezi, Adana,2010,156s.
4. П.А. Геннадьевна. психологическая защита как профессионально важное качество педагогов-психологов в процессе профессионализации. Диссертация на соискание ученой степен кандидата психологических наук. Ярославль, 2014, 250с.

5. Вопросы практической психодиагностики и консультирования в ВУЗЕ / Под ред. Обозов Н.Н., Л.: Изд-во ЛГУ, 1984,153с.
6. Рубцов В.В. Служба практической психологии образования: современное состояние и перспективы развития // Вопросы психологии, 2003, №6, с. 32-40.
7. Степанова, М.А. О критериях профессионализма школьного психолога / М.А. Степанова // Вопросы психологии. – 2002. – № 1. – С. 85-95.
8. House, R. M., Hayes, R. L. (2002), “School Counselors: Becoming Key Players in School Reform”, Professional School Counseling, 5 (4), 249- 257.

## ABSTRACT

**Aynur Iskanderova**

## THE PRACTICAL PSYCHOLOGY'S PERSONAL QUALITY LEARNING SCIENTIFIC SCIENCES

Identified the most important individual-personal qualities of the psychologist: the ability to communicate; ability to explain correctly and quickly find the solution in this situation; to be persistent and confident in making decisions; to be patient, tolerant, and emotionally stable; to be sensitive to the emotional state of the person next to; to be considerate of her, to be flexible, easy to handle difficult situations; to be able to remove the anxiety of the client; to be resistant to stress; to show empathy, to be emotionally open and communicative, self-confident; to have adequate self-esteem, and to be responsible, organized, open, curious, to have a high level of intelligence, be creative, friendly, observant, sensitive, gentle, humane, intelligent; to be outwardly attractive, have a sense of humor, strive for self-development and self-realization.

## РЕЗЮМЕ

**Айнур Искандерова**

## ОБУЧЕНИЕ ЛИЧНОГО КАЧЕСТВА ПРАКТИЧЕСКОЙ ПСИХОЛОГИИНАУЧНЫЕ НАУКИ

Выделены наиболее существенные индивидуально-личностные качества психолога: умение общаться; умение корректно объяснять и быстро находить решение в сложившейся ситуации; быть настойчивым и уверенным в принятии решений; быть терпеливым, толерантным, а также эмоционально устойчивым; проявлять чуткость к эмоциональному состоянию человека, находящегося рядом; тактично относиться к ней, бытьгибким, легко выходить из сложных ситуаций; уметь снять тревожность клиента; быть устойчивым к стрессу; проявлять эмпатию, быть эмоционально открытым и коммуникативным, уверенным в себе; иметь адекватную самооценку, а также быть ответственным, организованным, открытым, любознательным, иметь высокий уровень интеллекта, быть креативным, доброжелательным, наблюдательным, чутким, вежливым, гуманным, интеллигентным; быть внешне привлекательным, иметь чувство юмора, стремиться к саморазвитию и самореализации.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 5 (86)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 5 (86)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 5 (86)**

**TÖRƏ MƏCİDOVA**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*tora.adpu@mail.ru*

**UOT: 371**

# QOCALIQ YAŞ DÖVRÜNDƏ AİLƏNİN ROLU

**Açar sözlər**: *qocalıq, ailə, cəmiyyət, şərait, nəsillərarası münasibət*

**Key words:** *old age, family, society, conditions, intergenerational relations*

**Ключевые слова:** *старость, семья, общество, условия, отношения между поколениями*

Mühüm sosial-psixoloji qrup, cəmiyyətin özəyi kimi ailənin yerini heç bir sosial struktur əvəz edə bilməz. Ailə sosial dəyərlər arasında həmişə xüsusi yer tutmuş və müxtəlif profilli tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Yalnız ailə mikrosəviyyədə yüksək dərəcədə əlverişli şərait yarada bilər ki, bu da bütünlüklə cəmiyyətə transformasiya edə bilər. Ailə - şəxsiyyətin sosiallaşmasının elə unikal yoludur ki, insan özünü burada çox rahat hiss edir. Məhz ailə insanın imkan və bacarıqlarının reallaşması üçün ilkin şərait yaradır, ailə üzvləri arasında xüsusi xarakterli münasibətlər – intimlik münasibətləri, bərabərlik, dözüm, səbr, qarşılıqlı anlaşma kimi münasibətlər qurulur. Ailə yaxın və mühüm adamların evlilik, qohumluq və valideyinlik əsasında funksional birləşməsidir. Ailənin həyatı cəmiyyətin inkişafının konkret şərtlərilə determinə olunur. Bu şərait ailənin funksialarını müəyyən edir, bu da öz növbəsində ailə üzvlərinin mövqelərinə və rollarına, ailədəki münasibətlərin xüsusiyyətlərinə öz təsirini göstərir.

Ailə öz inkişafında qəbilə şəkilində ümumi yaşayış formasından, bir dam altında bir neçə nəslin nümayəndələrinin sıx kontakda yaşadığı "böyük ailədən", kiçik, yalnız valideyin və övladlardan ibarət olan "nuklear ailə" qədər mürəkkəb inkişaf yol keçmişdir [1]. Ailədə verbal münasibətlərin öyrənilməsi çox aktualdır, belə ki, cəmiyyətin generasiya strukturu elə qurulmuşdur ki, insan həmişə digər nəslin nümayəndələri ilə sıx kontaktda olmalıdır və həmişədə olacaqdır. Nəsillərarası kommunikasiyanın öyrənilməsi yeni prespektiv sahə olub, müxtəlif yaş dövründə olan adamların ünsiyyətinin təhlilinə yönəlmişdir.

Nəsillərarası münasibətlər problemi insan cəmiyyəti yaranan vaxtdan mövcudur və onlar cəmiyyətin fəaliyyəti və inkişafının əsas faktorlarından biridir. Bu məqalədə biz məhz nəsillərarası münasibətlərin təhlili baxımından ailədə yaşayan yaşlı adamların ailədəki yerini və psixoloji problemlərini nəzərdən keçirəcəyik.

Həyat tsiklinin müxtəlif mərhələlərində şəxsiyyətin ailədə olan funksiyaları dəyişir. Cavanlıq dövründə həyat yoldaşları ailədə aktiv rol oynayırlar və ailədaxili münasibətlərin inkişafı prosesində hər bir ailədə qaçılmaz olan psixoloji dəyişikləri iradi olaraq tənzimləmək imkanlarına malik olurlar. Yaşlılıq dövründə olan şəxs ailədə olan əsas funksiyalarını itirməyə başlayır ailədə yeni rola qədəm qoyur, nənə və baba rolu daşımağa başlayırlar. 60-cı illərdə Amerikalı alimlər yaşlı şəxslərin ailədəki rollarını təhlil edərək onların təsnifatını verilmişlər: "formal nənə və baba" – ailədə icra etməli olan konkret rola malikdirlər; "suroqqat valideyinlər" – ata və ananın rolunu bütövlükdə öz üzərlərinə götürülər; "ailə dəyərlərinin qoruyucuları" – ailə üzvlərini ailənin kökü və tarixi ilə tanış etmək, məlumatlandırmaq rolu oynayırlar; "pozitiv yaşlılar qrupu" – nəvələrin asudə vaxtının şən keçirilməsini təmin edirlər; – "uzaqda olanlar" nadir halda öz övlad və nəvələri ilə kontakda olurlar [2]. Benqstona görə isə ailədə nənə və babanın dörd müxtəlif motivasiya istiqaməti

olan simvolik rolu vardır. 1) Nənə və babanın ailədə sakit şərait yaratmasıdır. Bu xüsusilə də cavan ailənin dağılmaq təhlükəsi olduqda çox mühümdür. Onlar ailədə stabil vəziyyəti saxlamağa, onu parçalanmamağa qoymağa çalışırlar. 2) Ailə "milli qvardiya rolu"- bəzi nənə və babalar ailənin həyatında aktiv rol oynamağa, yetişməkdə olan nəslə qayğı göstərməyə çalışırlar. Bu halda onlar sadəcə ailənin yanında olmaq çərçivəsindən çıxırlar. 3) "Arbiterlər" – nənə və babaların hərəkətləri ailə dəyərlərinin, ailənin yenilməzliyinin saxlamasına, nəsillərarası əlaqənin davam etdirilməsinə yönəlmişdir. Müxtəlif nəsilərin dəyərlərinin müxtəlif olmasına baxmayaraq bəzi yaşlı insanlar hesab edirlər ki, onlar öz övladları ilə nəvələri arasındakı konflikti daha asanlıqla həll edə bilərlər. 4) Ailə tarixinin qorunub saxlanması rolu. Nənə və babalar öz ailə sərvətlərini və ənənələrini öz nəvələrinə ötürmək kimi hərəkətlərə sövq edirlər [3]. Göründüyü kimi, yaşlı nəsil cəmiyyətin, ailə və nəsillərarası münasibətlərin inkişafında çox ciddi rol oynayır. Ailə sosiumu müxtəlif nəsillərin nümayəndələrinin fəal həyat mövqeyini saxlamaqla həm yaşlı nəslə, həm də kiçik yaşlı nəslə yardım edir. Məhz yaşlı nəsil ailənin ənənələrinin qoruyucusu kimi çıxış edir. Onlar topladıqları həyat təcürbəsini öz uşaqlarına və nəvələrinə ötürülər. Biz hər zaman yaşlı nəslin öz həyat və sosial təcürbəsinin yetişməkdə olan nəsillərə verilməsi prosesinin şahidi oluruq. R.İ. Əliyev qeyd edir ki, böyüməkdə olan nəsil cəmiyyətin xarakterik xüsusiyyətlərini yaşlı üzvlərinin vasitəsi ilə mənimsəyir və cəmiyyətdəki mənəvi dəyərlər və əsas fəaliyyət sahələrini məhz onlardan öyrənir [4]. Yaşlı adamın ailənin üzvlərilə ünsiyyətinin əsas xarakteri ilk növbədə ailədə daha əvvəldən qurulan münasibətlərdən asılıdır. Yaşlı adam yaşayan ailənin üzvlərini dərin hisslər bağlamırsa və əgər ailədə emosional təməl yoxdursa ünsiyyətin xarakteri də müxtəlif olacaq. Ünsiyyət hər iki nəsil üçün mühümdür, belə ki, bir tərəfdən yaşlı nəslin psixoloji vəziyyətinə, digər tərəfdən isə ailənin gənc üzvlərinin kommunikativ motivasiyasına və onlarda nəsillərarası ünsiyyətin müəyyən stereotipinin formalaşmasına təsir göstərir. Ailənin yaşlı üzvləri ilə ünsiyyət keçmişlə əlaqəni, onlarda keçmiş nəsillərin həyatı haqında təsəvvürün yaranmasını təmin edir, kiçik yaşlılarda daha dərin zaman – məkan perspektivi yaranmasına, gənc nəslin gerçək aləm haqda təsəvvürlərinin formalaşmasına inkişaf tarixi və özünün orada tutduğu dərk etməsinə etməsinə imkan yaradır. Bu baxımdan qocalığın və gənc nəslin bir birinə ehtiyacı olduğu üzə çıxır. Müşahidələrdən görünür ki, bəzən yaşlı nəsil kiçik yaşlıların tərbiyəsi ilə daha çox məşqul olur və valideyinlik funksialarını öz üzərinə götürür. Bu prosesdə yaşlı nəslin tərbiyə üsulu ilə gənc ata-ananın tərbiyə modeli arasında uyğunsuzluqlar nəzərə çapır. Yaşlı insanlar tərbiyə işində daha mühafizikar baxışlara malikdilər, gənc valideyinlər isə daha çox ehtiyyatlıdılar. Yaşlılar uşaqlara qarşı münasibətdə həmişə onların müstəqilliyini, fəallığını və təşəbbüskarlığını məhdudlaşdırmağa, hədsiz himayə göstərməyə üstünlük verdikləri halda, gənc valideyinlər emosional bağlılığa, öz məhəbbətini daim nümayiş etdirməyə üstünlük verilər. [5]. Yuxarıda qeyd olunanlara baxdıqda görünür ki, yaşlı adamları ilk növbədə uşaqlarının və nəvələrinin problemləri narahat edir və onlar bu problemə öz şəxsi problemləri kimi baxırlar. Onların əksəriyyəti öz sağlamlıqları və qocalma problemlərini arxa plana çəkərək, yalnız öz yaxınlarının taleyinin qayğısına qalırlar. Ailənin həyatına belə dərindən nüfüz etmək yaşlı inasan üçün zəruri olan sosial əlaqələri möhkəmləndirir və onun həyatına xüsusi məna verir.

Qeyd olunanlara baxmayaraq, bir çox ailələrədə yaşlılar və gənclər ayrı yaşamağa üstünlük verilər ki, bunun da bir çox səbəbləri vardır. Bu səbəblərdən biri kimi onu qeyd etmək olar ki, qocalıq yaş dövründə olan insanların əksəriyyəti bütün vaxtı xatirələrlə yaşadıqlarına görə illərlə yaşadığı şəraiti, əşyalarını qoruyub saxlamaq məqsədidə övladlarından ayrı yaşamağa üstünlük verilər. Y. Djems qeyd edir ki, insanın şəxsi əşyaları onun üçün böyük dəyər kəsb edir, onda xatirələr yaradır, keçmiş nəaliyyətlərini yada salır, keçmiş və indi arasında əlaqə yaradır. Yaşlı insanın əşyaları ilə bağlı olan hadisələr yaxınlarının ona olan hörmətini artırır. Bu onların ailə ənənələri, əsl-nəcabətləri, tarixinə münasibəti ilə şərtlənir. Bu əşyalar yaşlı insanın özünə verdiyi qiyməti artırır, onu enerji və müsbət emosiyalarla doldurur, onu müəyyən müsbət hərəkətlərə sövq

edir. Amma birgə yaşayış şəraitində yaşlı insan istər-istəməz bu mühitdən uzaqlaşmalı olur. Bir çox tədqiqatçılar həmçinin qeyd edirlər ki, ayrı yaşamaq ər və arvadın münasibətində yeni səhifə açır və onlar bir-birinə daha yaxın olurlar. Q. Krayqın apardığı sorğuya görə yaşlı ər-arvadlar nigahda ən böyük məmnunluğu övladlarının ayrı yaşamağa başladığı vaxdan sonra hiss etdiklərini bildirmişdirlər. Əksəriyyəti iddia edir ki, gərginlik hissindən çox məmnunluq və harmoniyanı daha çox güclü hiss etmə başlamışlar. Həmçinin sorğuda iştirak edənlərin əksəriyyəti onların emosional həyatında nigahın daha çox əhəmiyyətli yer tutmağa başladığını qeyd etmişlər. Nigahın onlar üçün təskinlik, bir-birinə dəstək və yaxınlığın mənbəyi oluğunu qeyd etmişdilər [6]. Bu yaş dövründə olan insanları daha yaxşı anlamaq üçün onlara xas olan xüsusiyyətləri bilmək lazımdır.

Qocalıq dövründə digər yaş dövrləri kimi özünə məxsus spesifik xüsusiyyətlərə malikdir. Bir çox hallarda baş verən proseslər ətrafdakılar tərəfindən anlaşılmır və konfliktlərə səbəb olur. Qocalıq yaş dövrünün xüsusiyyətlərindən biri odur ki, insanın yaşı artıqca o, ətraf mühitdən uzaqlaşmağa başlayır və öz daxili aləminə qapanır,insanda ipoxandrik xüsusiyyətlərin artmasi müşayət olunur. Yaşlı insanda öz daxili və fiziki dəyişikliklərini izləməsi hissinin üstünlük təşkil etməsi onda həyacan, hüzura can atmaq kimi hisslər oyadır. Qocalıq dövründə yeni şəraitə uyğunlaşmaq, həyat steriotiplərini dəyişmək və yeni vərdişlər əldə etmək getdikcə çətinləşir. Qocalmaqda olan insanın psixi aktivliyi azalır, psixomotor reaksiyaları ləngiyir, duyğu həcmi azalır, unutqanlıq, qərar verə bilməmək, fikir yayğınlığı, yaddaşın zəifləməsi halları təzahür edir. Təfəkkürün müşküllüyü ilə bağlı olaraq yaşlı adamlarda tez-tez təzadlı şəxsi keyfiyyətlər: sensitivlik və emosional regidlik, yüksək tələbkarlıq və konservatizm, ətrafdakıların hərəkətlərinə və baxışlarına hövsələsizlik, öz davranışına tənqidi yanaşmanın azalması və.s. kimi keyfiyyətlər təzahür edir. Belə hallarda insan tərs və yolagəlməz adam təsirini bağışlayır, yaşlı adamın özü isə özünüqiymətləndirmə ilə ətrafdakıların ona verdiyi qiymətin dərin konfliktini yaşayır, yeni emosional, neqativ çalara malik olan vəziyyəti düşünür və qüssələnir. Xarici və daxili faktorlara qarşı qeyri-adekvat reaksiyalar da qeydə alınır. Orta yaşlı adam üçün əhəmiyyətsiz olan inciklik yaşlı adam üçün çox dərin ola bilər, onun psixi vəziyyətinin dekompensasiyasına və emosional müvazinətinin pozulmasına səbəb ola bilər. Yaşlılıq dövründə olan insana qarşı ətrafdakılar tərəfindən hər hansı kiçik bir laqeydlik, hörmətsizlik və kobudluq onlar tərəfindən ağır psixoloji travma kimi qəbul edilir. Yaşlı insan özünü arzuedilməz, gərəksiz, tənha hiss etməyə başlayır. Ətrafdakılara qarşı emosional maraq itir, ünsiyyət dairəsi daha da daralır, psixoloji dəyişikliklərdən ən çox küsəyənlik, tez xətrinə dəymək, tez özündən çıxmaq, əsəbi olmaq özünü göstərir. Yaşlı adamların əhvalları dəyişkən olur, pessimizm üstünlük təşkil edir və ətrafdakılardan narazılıq çoxalır, Asanlıqla həyacan və qorxu hissi əmələ gəlir. Digər variantda, əksinə xarakterin əvvələr ortaya çıxan xüsusiyyətləri daha da qabarıqlaşır. Çox əlverişli halda – onların xarakterində müvazinət əmələ gəlir, onlar daha üzü yola olurlar. Onlar unutqanlıqdan və fikir dağınlığından, yeni informasiyanı mənimsəyə bilməməsindən şikayət edirlər. Yadda saxlamaq çətinliyinin öhdəsindən gəlmək üçün onlar əvvəlcə yeni informasiyanın mahiyyətini anlamağa çalışırlar və onu bir neçə dəfə təkrar edirlər. Yaşlı insanlarda həmçinin yeniliyə münasibət, yeni dəyərlərə alışma çətin formalaşır, buna görə də onlarda müxtəlif təbiətli qorxu hissi asanlıqla əmələ gəlir. T.V. Kolçina yaşlı adamları müşahidə edərkən vahimə formasında psixogeniyanın əlamətlərini aydınlaşdıraraq fobiyanın inkişafına səbəb olan əsas psixofaktorları aşkar etmişdir. 1) digərlərin xəstəliyi və ölümü; 2) ailə konfliktləri; 3) bədəndə xoşagəlməz hisslər; 4) keçmiş hiss və həyacanların aktuallaşması; 5) təhqiredici söz və xatirələrin təsiri; 6) yuxugörmə; 7) adət olunmuş stereotiplərin qırılması; 8) qocalıq və yaşla bağlı dəyişiklərlə barışma [7]. Qocalıq üçün daha xarakter olan şəxsi keyfiyyətlərin aşırı təzahürlərinin cilalanması nəticəsində dərin qocalıq dövrünü yaşayan insanlar arasındakı fərqlər itir, oxşarlıq isə getdikcə artır. Bu təzahürlər qocalıqda psixi pozğunluqlar və xəstəliklərin işarəsidir. Bütün bunlarla bağlı olaraq yaşlı adamların digər yaş dövründə olan adamlarla anlaşılmazlıqları olur. Yaşadığımız cəmiyyəti nəzərdən keçirdikdə görünür ki, yaşlı insanlar əsasən

tənhalığın psixoloji aspektlərindən, ətrafdakı adamlar və bütövlükdə cəmiyyət tərəfindən başa düşülməməkdən və onlara göstərilən etinasızlıq üzündən əziyyət çəkirlər. Yaşlı adamlar ətrafdakıların onlara kifayət qədər qiymət vermədiyini düşünürlər, çətin dövrlərdə öz yaxınlarına çox ümüd bəsləyirlər və bu gözləntiləri doğrultmadıqda onlara qüssələnirlər. Ünsiyyət dairəsinin daralması və digər nəsillərin nümayəndələri tərəfindən anlaşmanın olmaması, həyatın sonunun yaxınlaşmasının qüssəsini çəkmək ontogenezin son dövrünün əsas xüsusiyyətlərindən biridir. Onların övladları olsa da belə tənhalıqdan əziyyət çəkirlər, övladları öz həyatlarını yaşayır, dostları və həmyaşıdları vəfat etmiş, ətrafdakılar öz problemləri ilə məşquldurllar, qocalar isə get-gedə həm fiziki, həm də madii vəsait baxımdan məhdudlaşırlar. Bu səbəblərə görə də onlar ailədə yaşasalar da özlərini ailə üzvlərindən təcrid olunmuş hesab edirlər. Belə xarakterik dəyişikliklər ünsiyyətdə çətinliklər yaradır və şəxsiyyətlərarası konfliktlərə səbəb olur, ilk növbədə isə öz ailəsində, öz övladları ilə belə konfliktlər adət halını alır.

Qocalıq yaş dövründə özünü qəbul edilmənin əsas şərti yaşadığın həyat yolunun və həyat dəyərlərini, qəbul olunmasıdır. Humanist psixologiya nöqteyi-nəzərindən istənilən yaş dövründə özünü reallaşdırmanın əhəmiyyətli şərti ozünü pozitiv qəbul etməsi və ətrafdakılar tərəfindən pozitiv qəbul olunmasıdır. Ailə üzvlərinin əsas vəzifəsi yaşlı nəslin tipik xüsusiyyətlərinin, dəyərlərinin, reaksiyalarının onların yaşadığı yaşa uyğun olduğunu anlamaqdır və baş verən dəyişikliklərə səbrlə yanaşmaqdır. Qocalma prosesi insanın fərdi şəxsiyyət keyfiyyətlərindən aslı olaraq müxtəli cür gedir. Yaşlı insanın sosial-psixoloji adaptasiyası da məhz bundan asılıdır. Mühüm faktorlardan biri isə də həyat şəraitidir. Yaşlı insanın yeni şəraitə necə adaptasiya etməsi ailədə və ya yaxınlarından uzaqda, tək yaşamasından asılıdır. Ailənin öhdəsinə nəinki yaşlı adamın sağlamlığının qayğısına qalmaq düşür, eləcə də ona psixoloji dəstək olmaq, həyatının son dövrünü zənginləşdirmək üçün, həyatına yeni məna vermək üçün ona hər cür şərait yaratmaq düşür. Qocalara hər şeydən əvvəl emosional dəstək, dostluq, məhəbbət, öz təəssüratlarını bölüşmək imkanı, ətrafdakıların həyatında iştirak etmək, uğurlu olmaq, onların həyatına ətrafdakıların marağı və hörməti lazimdir. Qocalığın mənası öz uzun həyat yoluna hörmət, yaşadığı illərin xatirələri, yaşadığı vaxtlar haqda danışmaq imkanıdır, onu əhatə edən ailələyə gülümsəmək, cavabında onun təbəssümü və sevgisini hiss etməkdir. Bütün bunlar isə yalnız ailədə reallaşa bilər.

## ƏDƏBİYYAT


1. Шнейдер Л.Б. Семья оглядываясь вперед. Изд. Питер, 2013, 368 с.
2. Краснова О.В. Бабушки в семье //Вестник Удмуртского университета. 2000, Вып. 2, с. 6-15.
3. Ермамолаева М.В. Психология зрелого и позднего возрастов в вопросах и ответах. Учеб. пособие, Изд. М.: Московский психолого-социальный институт, 2004, 280 с.
4. Əliyev R.İ. Tərbiyyə psixologiyası. Bakı, Nurlan, 2006, 200 s.
5. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı, Mütərcim, 2015, 424 s.
6. Мустаева Ф.А., Сизоненко З.Л., Юлдашева О.Н. Исследование роли семьи в жизни пожилого человека //Здоровье и образование в XX веке: журнал научных статей, 2016, № 3, с.143-147.
7. Колчина Т.В. Страхи у пожилых людей. Организация сихологической помощи. Методическое пособие. Изд.: Волгоградский областной геронтологический центр, 2011, 18 с.


## ABSTRACT


**T.R.Medjidova**


## THE ROLE OF THE FAMILY IN OLD AGE


The article deals with the psychological problem of human aging from the point of view of the role and place of the elderly person in the family. Has been given the review of existing views

of scientists on the process of aging of a person in the context of his being in the family. It was found that an elderly person needs more than anyone else in the family.

## РЕЗЮМЕ

**Т.Р.Меджидова**

## РОЛЬ СЕМЬИ В СТАРЧЕСКОМ ВОЗРАСТЕ

В статье рассматривается психологическая проблема старения человека с точки зрения роли и места пожилого человека в семье. Приведен обзор существующих взглядов ученых на процесс старения человека в контексте нахождения его в семье. Было выявлено что пожилой человек как никто другой нуждается в семье.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

# METODİKA

**FARİZ ƏHMƏDOV**

*Naxçıvan Dövlət Universiteti*

**UOT: 02**

## NDU ELMİ KİTABXANASINDAN İSTİFADƏ QAYDALARI VƏ YOX CAVABLARININ ARADAN QALDIRILMASI YOLLARI

**Açar sözlər:** *Naxçıvan Dövlət Universiteti, Elmi Kitabxana, kitabxanaçı, oxucu, İnformasiya Komnikasiya Texnologiyaları, sorğu, tələbat*

**Keywords:** *Nakhchivan State University, Scientific Library, librarian, reader, Information Communication Technologies, request, demand*

**Ключевые слова:** *Нахчыванский Государственный Университет, Научная библиотека, бибилиотекарь, читатель, Штформационно-Коммуникационные Технологии, запрос, потребность*

Kitabxanalar oxucu kontingentinin çap məhsullarından kütləvi istifadəsinin təşkilatçısıdır. Kitabxanalar öz fondlarında qoruyub mühafizə etdikləri çap məhsullarını oxuculara istər kitabxanada istərsə də kitabxanadan kənarda istifadə etmələri üçün şərait yaratmalıdırlar.

NDU Elmi Kitabxanası öz oxucularına kitabxana xidmətini ən müasir şəkildə quraraq həm abonoment, həm oxu zalları, həm elektron oxu zalı, həm də elektron köşkün köməyi ilə həyata keçirir. Elmi kitabxanada oxuculara xidmət işi təcrübəli və peşəkarlığı ilə seçilən kitabxanaçılara həvalə edilir. Buna görə də yalnız öz yüksək peşəkarlığı ilə seçilən kitabxanaçılar oxucu kontingentinin mütaliə sorğularını tam və dolğun ödəmək imkanına malikdirlər.

Kitabxanaya daxil olan hər bir oxucu elektron köşk, elektron oxu zalı, abonoment şöbəsi və oxu zallarından istifadə etməklə yanaşı, eyni zamanda kitabxanaçıların istiqamətləndirməsi ilə kataloq və kartoteka yeşiklərindən də tam sərbəst yararlanıb çap məhsullarından istifadə edə bilərlər. Çünki bu günün müasir oxucuları müasir tələblər baxımından İnformasiya Kommunikasiya Texnologiyalarından istifadə edən təsadüfi şəxslər sayılmır.

Kitabxanaya müraciət edən oxucuların müxtəlif məzmunlu sorğularını yüksək ixtisaslı kitabxanaçılar dinləyir, bu sorğuların səbəb və məqsədini öyrəndikdən sonra sorğunu ödəmək üçün müvafiq məlumat aparatına müraciət edirlər. Həmçinin qeyd etmək yerinə düşərdi ki, abonoment və oxu zallarında oxuculara xidmət işi oxucuların ümumi inkişafında, müxtəlif elmlər üzrə ən yaxşı kitabların oxucular arasında təbliğində başlıca rol oynayır. Oxucu kitabxanaya müraciət edərkən bəzi kitabları evə oxumaq üçün ala bilir. Bəzəndə oxucu kitabxanadan götürmək istədiyi kitab nadir kitab olduğundan və yaxud başqa oxucunun istifadəsində olduğundan ala bilmir və məcburi kitabxanada istifadə etməli olur.

NDU Elmi kitabxanasında çap materiallarının evdə istifadəsi üçün oxucu kontingentinə verilməsi kitabxananın təsir imkanlarını çoxaldır. Bu qayda kitabxana kitabının daha çox oxunmasına səbəb olur və kitabxanaya yeni-yeni oxucuların cəlb olunmasına təsir göstərir. Kitabxanamızdan oxucular təkcə çap materialı deyil, kitabxana fondundan CD,DVD-lərdən, çap xidmətlərindən, elektron oxu zalının xidmətindən, dövrü mətbuat fondundan və eləcədə kitabxananın internet mərkəzindən istifadəyə imkan yaradılır. Elektron oxu zalının imkanları nəticəsində oxucular Prolib Avtomatlaşdırılmış İdarəetmə sisteminin köməyilə istənilən çap materiallarından sərbəst şəkildə istifadə edə bilirlər. Həmçinin kitabxana lib.ndu.edu.az ünvanında

öz saytını yaratmışdır ki, buda oxuculara zaman və məkan məhdudiyyəti ilə qarşılaşmayaraq istənilən məsafədən və istənilən ünvandan İKT vasitələrinin köməyi ilə istədikləri çap materialından istifadə edə bilərlər. Oxucu NDU Elmi kitabxanasından istifadə etmək üçün mütləq şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçməli, əgər elektron oxu zalının imkanlarından istifadə etmək istərsə,o zaman elektron oxu zalının qeydiyyat xidmətinə yaxınlaşmalı və şifrə -parol əldə etməlidi. Şifrə -parolu əldə etdikdən sonra elektron oxu zalının xidmətlərindən istifadə edə bilər.

Elmi kitabxanaya üzv yazılmaq istəyən hər bir oxucu şəxsiyyəti təsdiq edən sənəd, (əgər tələbədirsə həmçinin oxucu biletini ) təqdim etməlidir.

Fərdi abonomentdə Naxçıvan Dövlət Universitetinin bütün işçıləri istifadə edə bilər:

-Akademik və müxbir üzvlərə -10;

-elmi işçilərə-5;

-tələbələrə -3 nüsxədən artıq ədəbiyyat verilmir.

Digər ali məktəb tələbə və müəllimləri kitabxananın oxu zalının və elektron oxu zalının xidmətlərindən istifadə edə bilər.

Fərdi abonomentə verilmir:

-məlumat xarakterli nəşrlər (lüğət, ensiklopediya və s);

-nadir kitablar, qiymətli nəşrlər;

-avtoreferat və dissertasiyalar;

-dövrü mətbuat.

”Abonoment “sözünün mənası –müəyyən edilmiş vaxt ərzində hər hansı bir xidmət sahəsində istifadə hüququ deməkdir. Məlum olduğu kimi abonoment şöbəsindən alınan kitabların həm sayı həm də istifadə olunma müddəti baxımından müəyyən məhdudiyyətlər var. Belə ki, oxuculara dərs vəsaiti 1 ay, bədii kitab isə 15gün müddətinə evə istifadə olunmaq üçün verilir.

Kitabxanada oxucu sorğuları nə qədər operativ ödənilərsə, oxucunun kitabxanaya müraciəti bir o qədər mütəmadi xarakter daşıyar.

Oxuculara lazım olan ədəbiyyat NDU-nun Elmi kitabxanasında olmazsa, KAA (kitabxanalararası abonoment) vasitəsilə respublikanın başqa kitabxanalarından sifariş edilə bilər.

Kitabxana, ümumilikdə 15 min oxucuya xidmət edir.

Kitabxanaya borcu olan və şəxsiyyəti təsdiq edən sənədi təqdim etməyən oxucuya kitabxana qaydalarına əsasən xidmət göstərilmir.

NDU Elmi Kitabxanasının oxucu kitabxana xidmətinin ən mühüm göstəricilərindən biri də oxucu sorğularının ödənilməsi prosesində “yox” cavablarının azlığı və aradan qaldırılmasıdır. Bu baxımdan “yox” cavablarının müəyyənləşdirilməsi, yox cavabları verildiyi ədəbiyyatın qeydiyyatının aparılması zəruridir.

Öz xidmət üsulları, daxili, texniki və digər imkanları barədə oxuculara yazılı şəkildə, yaxud rəsmi qaydada məlumat verən NDU Elmi Kitabxanası oxucuları qarşısında öz öhdəliklərini yerinə yetirmək imkanına malikdir.

Kitabxana işçisi oxucunun tələb etdiyi ədəbiyyatın mövcudluğu barədə və yaxud ona oxşar ədəbiyyat olduqda və oxucunun az məlumatlı olduğunu müəyyən etdikdə ona lazımi məlumatı verməyi özünə borc bilir. Bütün bunlar oxucu sorğularının tam və dolğun ödənilməsi üçün görülən zəruri tədbirlərdir. Burdan da belə nəticəyə gəlmək olur ki, oxucu öz sorğusunun mövzusu üzrə kitabxanada olan ədəbiyyat haqqında informasiyaya malik olduqda bu sorğu düzgün istiqamətləndirilir, eləcə də ödənilməsi mümkün olur. Nəticə etibarı ilə kitabxanada oxucu sorğularına olan “yox” cavabları azalmağa başlayır.

Kitabxanada oxucunu istiqamətləndirmək dedikdə, ilk növbədə oxucunun öz mütaliə marağına müvafiq kitab seçməklə, oxucunu istiqamətləndirmək və köməklik göstərməkdən ibarətdir, fonddan və kitabxananın istifadə imkanlarından qadağa qoymaq deyil. Çünki kitabxanaçı

oxucu sorğularının ödənilməsinə zəruri köməkliyi göstərməsə "yox" cavablarının sayı maksimum şəkildə artar.

Bəzi kitabxanaçılar bildirirlər ki, ilk anda ödənilməsi mümkün olmayan oxucu sorğularına başqa vaxt müraciət etməsini təmin etmək lazımdır. Bəziləri isə "fondumuzda yoxdur" və yaxud "kitab oxucudadır" cavablarını başlıca səbəb kimi izah edirlər. Bu verilən cavabların heç biri oxucunu razı salmağa yetərli səbəb ola bilməz.

Bu gün NDU Elmi Kitabxanasında kitabxanaçılar oxucular tərəfindən soruşulan kitabın fondda olmadığını və yaxud başqa oxucunun istifadəsində olduğunu bildirdikdə, dərhal oxucuya həmin kitabı kitabxana fondunda olan başqa kitabla əvəzləməyi təklif edir

Hər bir oxucu sorğusunun öz vaxtında ödənilməsi oxuculara xidmət işinin yüksək keyfiyyətinin göstəricisidir. Ona görə də oxucu hansı kitabxanada operativlik görsə, həmişə həmin kitabxanaya getməyə can atır.

Kitabxanamıza müraciət edən hər bir oxucu sifariş etdiyi çap məhsullarının aktuallığını öz tələbatının imkanları ilə görür. Belə halda mütləq çalışmaq lazımdır ki, oxucunun sorğusu ödənilsin. Məsələn, oxucunun kitabxanadan istədiyi kitab psixologiya, daxili xəstəliklər, nitq mədəniyyəti, müasir dilçilik və digər dərsliklərdir. Burdan aydın görünür ki, bu dərslikləri oxumağa tələbat sessiya müddəti ilə bağlıdır. Bu zaman kitabxanaçı öz fondunu yaxşı bilməli, fondunda bir kitabdan neçəsinin olduğunu qeydə almalı və hansı kitabın daha çox oxunduğunu nəzərə alaraq oxucuların istifadə edə bilməsi üçün tənzimləməlidir. Bu gün Naxçıvan Dövlət Universitetinin kitabxanaçıları bu cür sorğuları tam operativ ödəmə imkanına malikdirlər. Sorğuların oxucu tərəfindən düzgün istifadə olunması onun göstəricisidir ki, kitabxanada məlumat-biblioqrafiya aparatından istifadə imkanları oxuculara yaxşı izah edilir. İstənilən sorğunun düzgün izah olunması onun asan ödənilməsinə şərait yaradır. Bundan əlavə Elmi Kitabxanada təşkil olunan, qısa müddətli və daimi sərgilər, kitab müzakirələri, kitab təqdimatları, dəyirmi masalar, ədəbi bədii gecələr və digər tədbirlərdə oxucuları kitabxanaya cəlb etmək üçün stimul yardır.

NDU Elmi Kitabxanasında yaradılan bu şərait muxtar respublika rəhbərliyinin elmə, təhsilə əsasda gəncliyə göstərdiyi diqqət və qayğının nəticəsidir. Muxtar respublika kitabxanaları arasında kitab fonduna görə ən böyük kitabxana olan Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanası bütün imkanları ilə oxucularının keşiyindədir.

## ƏDƏBİYYAT


1. Xələfov A.A Kitabxanaşünaslığa giriş 2 cilddə 1-2. B., 2001. s-352
2. Rzayev S.M. Kitabxana xidməti. Dərslik. B., 2008. s-337
3. Bayramov Ə.S. və Əlizadə Ə.Ə Psixologiya. Ali məktəblər üçün dərslik Б., 1989. s-128.
4. İsmayılov X.İ Kitabxana menecmentinin əsasları. Dərs vəsaiti.B., 2005. s-197


## ABSTRACT


**Fariz Ahmadov**


### THE RULES OF USING NDU SCIENTIFIC LIBRARY AND WAYS OF REMOVING THE *NO* ANSWERS


The article deals with the rules of using the Nakhchivan State University's Scientific Library and ways to eliminate *no* answers. The main focus in the article is on the librarian and reader contingency. It is noted that the Scientific Library of Nakhchivan State University is building modern library service to its readers, with the help of readers, reading rooms, electronic reading rooms and electronic boothes. It was also noted that each reader who comes to the library can use

electronic catalogs, electronic reading rooms, reader departments and reading rooms, but also have access to catalogs and cartoons with the directions by the librarians, as well as use printing products.


## РЕЗЮМЕ

**Фариз Ахадов**

### ПОРЯДКИ ИСПОЛЬЗОВАНИЯ НАУЧНОЙ БИБЛИОТЕКИ НГУ И ЛИКВИДАЦИЯ ОТВЕТОВ “НЕТ”

В статье говорится о порядках использования Научной библиотекой НГУ и о путях ликвидации ответов “нет”. Здесь основное внимание уделено на контингент библиотекаря и читателя. Автор статьи подчеркивает, что Научная библиотека Нахчыванского Государственного Университета осуществляет библиотечные услуги своим читателям на современном уровне с применением абономентного отделения, и с помощью читательскими залами, и электронным читательским залом, и электронной трибуной. Наряду с использованием перечисленных библиотечных услуг, читатели одновременно направляются библиотекарями на самостоятельные поиски нужных литератур с использованием каталогов и картотечных ящиков, а также других печатных продукций.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**TÜRKAN İSMAYILLI**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 372.8:811.111**

# SOSİAL ŞƏBƏKƏLƏRİN XARİCİ DİL ÖYRƏNİLMƏSİ PROSESİNDƏKİ ÜSTÜN VƏ ÇATIŞMAMAZLIQLARI

**Açar sözlər:** *Sosial şəbəkələr, dil bacarıqaları, dil öyrənmə prosesi, yeni texnologiaylar, ikinci dilin öyrənilməsi, Sosial şəbəkələrin dil öyrənmə prosesindəki zərərləri*

**Key words:** *Social networks, learning skills, language learning process, New technologies, second language learning, Disadvantages of using Social Networks on learning process.*

**Ключевые слова:** *Социальные сети, языковые способности, процесс изучения языков, новые технологии, изучение второго языка, вредное воздействие социальных сетей на процесс изучения языков*

Ümumiyyətlə, internet ikinci dilin təkmilləşdirilməsi üçün əvəzsiz materiallarla zəngindir. Sosial şəbəkələr isə öz növbəsində öyrənəncilərin fikirlərini paylaşması baxımından, yəni internet vasitəsilə xarici dil bacarıqlarının inkişaf etdirilməsində təcrübə rolunu oynayır. Bəzi araşdırmaçılar iddia edirlər ki, onlayn şəbəkə vasitələri (Facebook, Email) tələbələrin dil bacarıqlarını, xüsusilə, yazı bacarıqlarını artırır [6]. İnternet vasitəsilə ikinci bir xarici dilin birbaşa həmin dildə danışan insanlardan öyrənilməsi yaxşı bir haldır. Bu vasitə ilə həmin ölkələrin sosial həyat qanunları haqqında da bilgilər əldə etmiş olurlar [2]. Kompyuter, internet həm cəmiyyətdə, həm də sinif mühitində informasiya vasitəsi olmaqdan daha çox ünsiyyət vasitəsi olmağa çevrilib. İnternetin üstün cəhətlərindən biri də odur ki, öyrənənlər tez və ucuz olaraq bütün dünya ilə hədəf dili virtual olaraq öyrənmiş oluralar. Dünya internet şəbəkəsi vasitəsilə bütün dünyadan olan dil öyrənənlər öz fikirlərini paylaşa bilirlər. Bununla yanaşı kompyuter vasitəsilə olan ünsiyyət bloqlar, forumlar və s. insanların maraqlarını artırır və dil öyrənmə prosesini dəstəkləyir. Elektron lüğətlər də həmçinin tələbələrə yeni söz ehtiyatı artırma və yazı bacarıqlarının artırılmasında kömək edir [1]. Yeni texnologiyalar sinifdən kənarda dil bacarıqlarını artırmaqda köməkçi vasitələrdir. Araşdırmalar müsbət istiqamətdə, yəni ikinci dil bacarıqlarının sosial şəbəkələr vasitəsilə öyrənilməsi prosesi ilə bağlı artmaqdadır. Bu innovativ və yaradıcı yoldur və özünün pis, yaxşı cəhətləri ilə birlikdə tələbələrin də, dil öyrənənlərin də həyatlarının bir parçasıdır. Buna görə də müəllimlər dil öyrənmə prosesində düzgün istifadə üçün tələbələri ruhlandırmalı, müsbət istiqamət verməlidirlər. Şübhə yoxdur ki, sosial şəbəkələr fikir mübadiləsində əhəmiyyətli mühitdir. Dil canlı orqanizm kimidir, biz danışdşqca onun dəyişməyə, inkişaf etməyə ehtiyacı vardır [4]. Ünsiyyət və fikir mübadiləsi çox vacibdir. Digər bir vasitə də, Facebook kimi sosial şəbəkələr vasitəsilə video kliplər, şəkillər, statuslar paylaşmaq öyrənənləri əyləncə vasitəsilə fikir mübadiləsinə, kiçik bir diskussiyaya cəlb etməkdir. Beləliklə də bir tərəfdən dil öyrənməyi hədəfləyənlərin öz güvəni, müstəqil öyrənmə həvəsi artmış olar.

Öyrəncilər sosial şəbəkələr vasitəsilə bilik, bacarıq öyrənməklə yanaşı, müxtəlif ölkələrin mədəniyyətlərini də hədəf dil vasitəsilə öyrənirlər. Dil və mədəniyyət bir-biri ilə əlaqəli olub, biri digərindən ayrılmazdır. Danışarkən sərbəst olmaq ünsiyyətdə mühümdür. İnternetdə çox saytlar vardır ki, dil öyrənənləri qulaq asmağa həvəsləndirir. Digər tərəfdən, internet vasitəsilə bahalı kitabları əldə edə bilirik.

Son zamanlar xarici dili sinifdən kənar öyrənənləri virtual ünsiyyətə cəlb edən müəllimlərin sayı artmaqdadır. Belə bir şəraitdə, xarici dil müəllimləri müxtəlif texnologiyalar vasitəsilə elə tapşırıqlar

seçməlidirlər ki, tələbələrə faydası olsun və həmin tapşırıqlar real həyatdakı ünsiyyəti əks etdirə bilsinlər. Məsələn, müəllimlər tələbələrinə deyə bilər ki, kiçik esselər yazsınlar və onu netə yükləsinlər və digər istifadəçilər də bu esseyə fikir bildirsinlər. Twitter, YouTube kimi sosial şəbəkələr sadəcə onlayn ünsiyyət vasitəsi olmayıb, həmçinin ifadəetmə, qarşılıqlı əlaqə vasitələri funksiyasında əvəzedilməzdir. Digər tərəfdən, Twitter adlı sosial şəbəkədə yalnız 140 hərfdən ibarət fikir yazmaq olur və bu qısa formatda milyonlarla istifadəçinin təxəyyülünün inkişafına səbəb olur. Facebook tələbələrin sosial davranışlarına da təsir edir. Sosial şəbəkələrdə xarici bir dildə olan diskussiya istifadəçilər arasında daha yaxşı fikir bildirmək və ya yaza bilmək rəqabətini yaratmış olur. Sosial şəbəkələr vasitəsilə hər hansı bir xarici ölkəyə getmədən o ölkənin insanları ilə ünsiyyət qura bilmək, mədəniyyət və sosial həyat qanunlarını öyrənmək imkanı olur [ 2]. Həmçinin, sosial şəbəkələr vasitəsilə xarici dilləri daha yaxşı öyrədən proqramlar, lüğətlər təklif edilir.

Sosial şəbəkələrin xarici dil öyrənilməsi prosesinə mənfi təsirləri

Belə ki, internetin həm ünsiyyət, həm öyrənmə və öyrətmə prosesində əvəzedilməz funksiyasına baxmayaraq bu vasitə təklikdə ikinci dilin öyrənilməsi və öyrədilməsi prosesində yetərli deyil. Başqa sözlə desək, internet öyrənmə və öyrətmə fəaliyyətini, real həyatdakı dillərin tədrisi mühitini əvəz edə bilməz [3]. Sosial şəbəkələrin təhsildə müəyyən qədər müsbət rol oynamasına baxmayaraq, onların çatışmazlıqları da çoxdur. Tədqiqatçıların bir qismi iddia edirlər ki, sosial şəbəkələr, xüsusilə, gənc tələbələr üçün faydalı ola bilməz. Sosial şəbəkələrin zərərlərindən biri də odur ki, xarici dil öyrənmə prosesində onlar bəzən ruh düşkünlüyünə səbəb olur. Real həyatda da çox görmək olur ki, yaxınlığımızda olan bir insan telefonu ilə internet üzərindən çox uzaqda olan insanlarla ünsiyyət saxlamağa üstünlük verir, amma yaxınlıqda olan dostu ilə nəinki hər hansı bir xarici dildə, hətta ana dilində də danışmaq istəmir. Bu da sosial fəaliyyətsizliyə səbəb olur [2]. Bundan başqa sosial şəbəkələr insanlarda, xüsusilə, tələbələrdə aludəçilik yaradır, insanlar kompyuter arxasında çox vaxt keçirirlər və real həyatdan uzaq düşürlər. Onlar yalnız lazımlı deyil lazımsız məlumatları da oxuyurlar, yalnız virtual dünyaya diqqət yönətməklə məktəbdə və ya universitetdə, hətda işdə baş verən problemlərə çox diqqət yetirmirlər. Dil öyrənərkən isə bəzən gənclər çox vaxt ingiliscə sözləri qısaldaraq elə bir şəklə salırlar ki, belə sözlər lüğətdə olmur. Sözləri qısaldaraq ixtisarla yazırlar. Məsələn ( laugh out loud – ucadan gülmək) “lol”, (by the way-öz aramızda) “btw”, (at the moment- bu dəqiqə- ) “atm”, (tomorrow sabah) “2morow” şəklində yazırlar.

Sosial şəbəkələrdə sözləri bu cür çox qısaldaraq yazdıqlarından peşəkar ingiliscə danışarkən və ya yazarkən çoxlu problemlərlə qarşılaşırlar [4]. Bəziləri düzgün cümlə qura bilmir, cümlənin mövzusunu tutub söhbət apara bilmirlər. Ona görə də sərbəst şəkildə danışa bilmirlər. Sosial şəbəkələrdə bu cür yazışmaq, həmin dildə danışan insanlarla belə olsa, bu cür qısaltmalar dili korlaya bilər. Dil öyrənənlərin bu qısaltmaları xoşagəlməyən sözlər meydana gətirir. Məsələn “I will come “ “I’ll come” (gələcəyəm sözü “glcm”) şəklində yazılır.

Bu da insanların eyni şəkildə əl yazmalarına da pis təsir edir. Araşdırmalara görə insanlar əl yazılarında da bütün sözləri böyük hərflərlə yazmağa, orijinal uzun cümlələr qurmaq əvəzinə qısa şəkildə ifadələrdən istifadə etməyə meyl göstərirlər [4].

Məktəb vaxtı əksər valideynlər uşaqlarının sosial şəbəkələrdən istifadə etməsinə icazə vermirlər çünki, düşünürlər ki, bu onlar üçün vaxt itkisinə səbəb olur. Sosial şəbəkələrin digər bir mənfi cəhəti də odur ki, əlaqə saxladığın insanları tanımırsan, bu insan pisniyyətli, ən pisi isə cinayətkar belə olabilər.

Əlbəttə ki, əgər xarici dili, o cümlədən, ingilis dilini inkişaf etdirmək istəyirsənsə, doğma dili ingilis dili olan və olmayanlarla çoxlu danışmaq, dil praktikası etmək lazımdır. Sadəcə yazmaq və oxumaq yox, bütün dörd əsas dil bacarıqlarını təkmilləşdirmək lazımdır. Canlı həyatdakı danışıq, dialoqlar dil öyrənmə prosesində əvəzedilməzdir. Yazı vasitələrini artırmaq üçün qısa yox, orijinal, uzun cümlələr qurmaq lazımdır. Bir sözlə, sosial şəbəkələr təklikdə dil öyrənmə vasitəsi kimi mükəmməl bir vasitə hesab oluna bilməz.

**ƏDƏBİYYAT**

1. Baralt M (2011) The use of Social Networking sites for Foreign Language Practice and Learning
2. Chartrand R. (2012) Social Networking for Language Learners
3. Avison David (2010) Technology Enhanced Learning.
4. Geisberger Eva, M.Broy (2015) Living in a Networked world
5. WarschaueMark r, R. Kern (2000), Network-based Language Teaching
6. Anderson (2009) Social Networking.

**ABSTRACT**

**Türkan Ismayilli**

**ADVANTAGES AND DISADVANTAGES OF SOCIAL NETWORKS ON FOREIGN LANGUAGE LEARNING**

This article is about the effects of social networks on foreign language learning process. In the first chapter it dealt with the importance of social networks on language learning process, having lots of materials that language learners can get, learning the culture, social life rules of other countries' by using the target language. Also it dealt with the importance of electronic dictionaries, teachers' tasks that can do for their learners, good affections of their participation in the social networks' forums, blogs that is useful for opinion exchanges. In the second chapter the investigation object is the side effects of social networks on language learning process. By using the abbrevations its destroying the language, learners' addiction to internet and their reading lots of other useless information is stated. It is stated that language learning process in real life will never be replaceble with virtual means.

**РЕЗЮМЕ**

**Туркан Исмаилли**

**ОТРИЦАТЕЛЬНОЕ И ПОЛОЖИТЕЛЬНОЕ ВЛИЯНИЕ СОЦИАЛЬНЫХ СЕТЕЙ НА ПРОЦЕСС ИЗУЧЕНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ**

В статье обсуждается влияние социальных сетей на процесс изучения изучения языка. В первой части статьи рассматриваются преимущества социальных сетей, приобретение каких-либо материалов в процессе изучения языка в Интернете, культура страны, где целевой язык используется через сети, а также важность изучения законов о социальной жизни. Важность электронных словарей, преимущества, которые могут получить учителя в социальных сетях, и положительные эффекты обмена идеями через форумы и блоги.

Во второй части говорится о негативных последствиях социальных сетей в процессе изучения языка. Здесь говорится о языке переписки, написанной сокращениями и искажении рукописей людей, а также о пользовании молодежью социальными сетями не столько ради изучения иностранных языков, сколько больше ради получения другой информации. В статье подчеркивается факт того, что общение в виртуальном мире никогда не будет таким важным и оживленным, как в реальной жизни.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 5 (86)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 5 (86)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 5 (86)**

**ARİF PAŞAYEV**
*Naxçıvan Dövlət Universtiteti*

**UOT: 372.8:811.111**

# ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİ SAHƏSİNDƏ GƏNC KADRLARIN PEŞƏKARLIĞININ İNKİŞAF ETDİRİLMƏSİ PROBLEMLƏRİ

**Açar sözlər:** *müstəqillik, mədəni əlaqə, xarici dilin tədrisi, elmi tədqiqatlar, tədrisin məqsədi, müasir üsullar*

**Key words:** *independence, cultural relation, teaching foreign language, scientific researches, the aim of the teaching, modern methods*

**Ключевые слова:** *независимость, культурные связи, преподавание иностранного языка, научные исследования, цель преподавания, инновационные методы*

Müasir dövrdə ingilis dili dünyanın ən aparıcı dillərindən birinə çevrilmiş, bu dil dövlətlər arası ünsiyyət vasitəsi kimi böyük şöhrət tapmış, eləcə də Azərbaycanın ictimai-siyasi və mədəni həyatına dərindən nüfuz etmişdir. Ona görə də ingilis dilini öyrənmək üçün sanballı əsərlər yazılmış, bir çox dərslik, dərs vəsaitləri,lüğətlər,danışıq kitabçaları hazırlanmış,bu sahəyə dair metodik vəsaitlər çap olunmuşdur.

Son dövrlərdə Azərbaycanın müasir həyatı, daxili və xarici siyasəti, Qarabağ hadisələri, köçkün və qaçqın həyatı keçirən bir milyondan artıq həmvətənlərimizin həyatı və s. ilə bağlı fikirləri vurğulayan biz müəllimlər Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün ingilis dilin öyrənənlərə səy göstərilməliyik.

Respublikamızın müstəqilliyi başqa sahələrdə olduğu kimi, xarici dilin tədrisi sahəsində də müəllimlər qarşısında mühüm vəzifələr qoyur. Gənclərin bütün sahələrdə peşəkarlığını inkişaf etdirmək, ali məktəblərdə onlara müəyyən biliklər vermək və onun təcrübəyə tətbiqini öyrətmək günün vacib məsələsidir.

Xarici ölkələrdə gündən- günə artan siyasi, iqtisadi, mədəni əlaqələr, respublikamıza artan maraq, dünyada böyük dövlətlərin buradakı firma və şirkətləri ölkəmizdəki səfirliklərin təşkili və xarici ölkələrdə müstəqil respublikamızın təmsil olunması kimi faktlar xarici dilin bütün sahələrdə ixtisasından asılı olmayaraq əməli şəkildə öyrədilməsini tələb edir.

Azərbaycanın Avropaya inteqrasiyasından sonra Azərbaycanda da ingilis dilinə tələbat artdı. Hazırda istənilən sahədə çalışan şəxslər, tələbələr bu dili öyrənməyə can atır. Bu dilin ali məktəblərdə səviyyəsi necədir? Tələbələr bu dili necə mənimsəyir və müəllimlər onu necə tədris edir?

İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi dilin müxtəlif ixtisas sahələrinə təsiri nəticəsində meydana gələn yeni dil tədrisidir.İngilis dilini aşağıdakı 3 qrupun birgə səyi nəticəsində asanlıqla öyrənmək və öyrətmək mümkündür:

1) öyrənmək istəyən tələbə
2) təcrübəli müəllim
3) müasir təlim metodu -İKT

İngilis dilini öyrənməyin uzun müddətli və çətin olduğunu bilərək onu öyrənməyə can atan tələbə əzmlə çalışmalıdır. Təcrübəli müəllim elə ilk növbədə tələbəsinə müsbət təsir etməyə müvəffəq olmalıdır. Tələbə yalnız sevdiyi bir müəllimin dərsini usanmadan öyrənir. Tələbəsinə

fənni sevdirməyə cəhd etmədən dili tədris edən müəllim dəmiri qızdırmadan döyən dəmirçi kimi eyni müvəffəqiy-yətsizliyə uğrayacaq.

Müasir dünyada ingilis dilinin rolu istər işgüzar aləmdə istər ünsiyyət vasitəsi kimi danılmaz-dır.Lakin günümüzdə ingilis dilində mükəmməl danışmaq heç kimi təcrübələndirmir. Çünki bu artıq zəruridir.Azərbaycanda inkişaf və tərəqqi göz qabağındadır. Ölkəmiz xarici dövlətlərlə müxtəlif sahələrdə əməkdaşlıq edir,dünya səviyyəli yarış və müsabiqələrin ev sahibidir.Bütün bunlar ölkəmizdə xarici dillərin tədrisinin əhəmiyyətini göstərir. Hər bir müəllim ingilis dilinin tədrisində tələbələrin maraqlarına uyğun olaraq aşağıdakılara diqqət etməlidir:

1) Mövzular müzakirə üçün əsas təşkil edilməlidir.
2) Janr müxtəlifliyi olmalıdır.
3) Mövzular tələbələrin səviyyəsinə uyğun olmalıdır.
4) Həqiqi mənbələrə əsaslanmalıdır.

Bugünki müasir və qloballaşan dünyamızda beynəlmiləl dillərin rolu danılmazdır. Bu dillərdən biri də dünyanın əksər ölkələrində tədris olunan, istifadə edilən ingilis dilidir. Heç də təsadüfü deyil ki, Azərbaycanda da ingilis dilinin tədrisi geniş vüsət almışdır. Orta məktəblərdə, ali məktəblərdə ingilis dilinin tədrisinə geniş yer ayrılır, üniversitetlərdə ixtisasından asılı olmayaraq bakalavr səviyyəsində hüquq üzrə ingilis dili, turizm üzrə ingilis dili, bələdiyyə üzrə ingilis dili, sosial iş üzrə ingilis dili və s. tədris olunur. Unutmamalıyıq ki, maşinist qatarı "təlim" edən kimi biz müəllimlərdə beyinləri təlim edirik. Müasir dövrdə xarici dili tədris edən müəllim ilk növbədə tələbələrin ingilis dilində kommunikativ səriştəsinin formalaşdırılması üçün səmərəli şəraitin yaradılmasını təmin edə bilən və bu istiqamətdə tələbələrinə yardım edən bir şəxs olmalıdır. Biz müəllimlər bilməliyik ki, tələbələrə hər tərəfli yardım edərək, onlara dil sahəsində ən yüksək nailiyyətləri əldə etməyə kömək etməliyik. Müəllim-tələbə münasibətləri xarici dilin tədrisi prosesinin əsas amillərdən biridir. Xarici dil tədrisinin keyfiyyətini yaxşılaşdırmaq məqsədinə nail olmaq üçün aşağıdakı şərtlər nəzərə alınmalıdır:

1) qarşıya qoyulan məqsədlər real olmalıdır
2) innovativ metod və üsullar tədris prosesinə səmərəli tətbiq edilməlidir
3) müəllimin dil öyrənən tələbələrin arzu,maraq və tələbatları haqqında məlumatı olmalıdır
4) müəllim tədris etdiyi fənnə həvəslə yanaşması bu tədris prosesinin uğurlu olmasını təmin edən əsas şərtlərdəndir
5) müəllimin də tələbələrin nəyi və necə hansı məqsədlə öyrənməsini, yeni tədrisin məqsədləri,metod və üsulları,haqqında məlumatı olmalıdır

Müstəqil Azərbaycan Respublikasının dünyaya inteqrasiyası,beynəlxalq münasibətlərin genişlənib möhkəmlənməsi, informasiya axını xarici dillərə olan tələbatı zərurətə çevirmişdir.Bu da öz növbəsində təhsil işçiləri qarşısında təxirə salınmaz vəzifələr qoyur.Respublikamızda tədris proqramlarının, dərsliklərin və dərs vəsaitlərinin dəyişdirilməsi və ya yeniləşdirilərək təkmilləşdirilməsi, yenilənmiş proqramlar əsasında tərtib edilmiş dərsliklər və dərs vəsaitləri ilə işləyəcək ingilis dili ixtisası üzrə müəllim kadrları hazırlayan ali təhsil müəssisələrin öz tədris proqramlarını çağdaş meyarlara uyğun dünya təhsil sisteminə cavab verəcək səviyyədə hazırlamağı tələb edir. Bu baxımdan, ingilis dilinin tədris edəcək müəllimlər üçün beynəlxalq tələblərə uyğun yeni elmi-metodiki proqramın nəşr olunmasına ehtiyac vardır.

"Ali İxtisas Təhsilinin Dövlət Standartları"nda nəzərdə tutulan tələblərə uyğun ingilis dilini tədris edən biz müəllimlər kursun məqsədini, əsas məzmununu, aspektlərini və metodik istiqamətini tədrisdə əks etdirməlidir. İngilis dilinin tədrisi zamanı aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

1.Tələbələrin beynəlxalq standartlara cavab verən peşəkarlıq fəaliyyətləri üçün nəzəri baza yaratmaq;
2.Tələbələrə müasir təlim üsulları, təlim texnologiyalarına yiyələnmələri məqsədi ilə onlara lazımi

bilik, bacarıq və vərdişlər aşılamaq;
3.Tələbələri yenilənmiş dərsliklərlə tanış etmək və müasir təlim texnologiyalarına yiyələnmələri təmin etmək;
4.Tələbələrə milli və ümumbəşəri dəyərlər - demokratiklik, dünyəvilik, sistemlilik, biliyi təcrübəyə tətbiq etmək, tədqiqat aparmaq, cəmiyyətin aparıcı üzvünə çevrilə bilmək kimi keyfiyyətlər aşılamaq və onların hərtərəfli inkişafını təmin etmək.
5. Tələbələrə dərsi müasir texnologiya İKT, Power point ilə tədris etmək.

Tədrisin belə strukturu nəzəri məsələləri konkret praktiki yolla həyata keçirməyə imkan verir. İngilis dilinin tədrisi zamanı prosesinin təşkili, sillabusların tərtibi,dərslərin İKT, Power Point ilə keçirilməsinə, onun mərhələlərinə diqqət verilməlidir. Ali məktəbin bütün pillələri üzrə,eləcə də ingilis dilinin öyrədilməsinin özəllikləri,tələbələrin bilik,bacarıq, vərdişlərinin yoxlanması və qiymətləndirilməsi qaydaları düzgün aparılmalıdır

Təsadüfi deyildir ki, günümüzdə nəinki dövlət orqanlarında və beynəlxalq qurumlarda təmsil olunanlar, eləcə də müxtəlif qeyri-hökumət təşkilatlarında çalışan kadrlar xarici ölkələrin iqtisadiyyatını inkişafını qanun və hüququn ən azı ümumi prinsiplərini öyrənib araşdırmaq öçün ingilis dilini bilmələri çox vacibdir.Ölkəmiz özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra milli kadrların hazırlanmasına verilən tələblər də artmışdır. Bu tələblər içərisində yüksək nəzəri səviyyəyə, milli ruha və azərbaycançılıq ideologiyasına dərindən yiyələnmək, bütün elmlərin ən müxtəlif sahələrinə bələdçilik etmək mühüm əhəmiyyət kəsb edir.

Müstəqil dövlətçilik tariximizin keçən təqribən 25 illik zaman kəsiyində qazanılan təcrübə göstərdi ki, ali təhsili alan kadrlar ölkə konstitusiyası və qanunçuluğu ilə yanaşı xarici ölkələrin qanun və hüququnu da lazımi səviyyədə öyrənməli, bu sahədə müqayisə və qarşılaşdırmalar aparmağı bacarmalıdırlar. Bu istər ölkə daxilində müvafiq sahələrdə çalışan kadrlar üçün, istərsə də müxtəlif qeyri- hökumət təşkilatları və beynəlxalq qurumlarda işləyənlər üçün eyni dərəcədə gərəklidir.

Digər tərəfdən qloballaşan dünyaya inteqrasiya olunan Azərbaycan Respublikası müxtəlif ölkələrlə müxtəlif məzmunlu müqavilələr bağlayır, sazişlər imzalayır, beynəlxalq qurumlara, təşkilatlara və birliklərə üzv olur. Bu iş-lərin səmərəli və işlək olması gözlənilən nəticələri verməsi üçün ilk növbədə həmin ölkələrin dilini bilmək lazım gəlir.

Bu baxımdan ingilis dili fənninin tədrisi gələcək kadrların dövlətçilik haqqında biliklərinin genişlənməsində, nəzəri baxışlarının və təcrübi vərdişlərinin təkmilləşməsində xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. C A Məmmədova, H B Soltanova Beynəlxalq Turizm Bakı, Maarif 2004 20- 212 səh.
2. Verdiyeva Z.H, Axundov Ç.M, Learn English, Maarif, 1993, 310 səh.
3. Rehimova S. H. Dünya Turizmi Bakı, Azərnəşr, 2009, 32- 144 səh.
4. Z Zülfügarov English. Bakı, 2000, 56 səh.
5. C .Məmmədov Turizm Sektoru Bakı, Maarif,1988,383 səh .6)Musayev O, İngilis dilinin qrammatikası, Maarif, 1979, 359 səh.
7. Pedaqoji universitet və institutlarda bakalavr hazırlığı üçün proqram,Pedaqogika nəzəriyyəsi və tarixi, Bakı, 2008, 52 səh.
8. Ofelya Qafarova Məktəblərdə ingilis dilinin metodikas, .2014
9. İnternet materialları – 2016
10. Eyubova Mehriban İngilis dili birinci xarici dildir.2015

**İngilis dilində**

11. James Arnold Commond English, Longman 1999.

12. Charles Goelgner Tourism London,2007
13. Education İn Britain, London, 1989
14. Keep up Your English, Moscow,1975
15. Kozlovskaya M. Everyday English for Beginners, Moscow
16. Oxford University Press,1989.
17. Diane Larsen-Freeman. Techniques and Principles in Language Teaching, Oxford University Press,2000,191 p.
18. The TKT Course, Modules 1,2 and 3.Cambridge University Press 2001,265 p.

## ABSTRACT

**Arif Pashayev**

In the article it is dealt with the teaching of foreign language at the secondary and higher universities, the ways and methods of teaching, the importance of learning English language, how to use modern technology in auditorium. In the article it is shown that how the teachers use IST at the lesson, where the young teachers help their students for speaking English language.

It is necessary to print a new programs, text-books and visual aids for the future students according to the international demands, the teachers must use innovative methods and ways in teaching English language.

## РЕЗЮМЕ

**Ариф Пашаев**

Проблемы развития профессионализма молодых кадров в высшей школе в области английского языка.

В статье рассматривается проблема развития профессионализма кадров английского языка в средних и высших школах. С этой целью применяются инновационные методы и способы при преподавании английского языка.

Автор обосновывает мысль, что преподаватели на занятиях должны широко примеять ИКТ, интернетные ресурсы по изучению иностранного, в том числе английского языка. В статье автор демонстрирует применение эффективных методов, использование которых способствует наилучшему овладеванию студентами английского языка.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**SƏMA MEHDİ**

*Naxçıvan Dövlət Universiteti*

**UOT: 378**

# ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN ÖZÜNÜTƏHSİLİ YENİ TƏHSİL PARADİQMALARI KONTEKSİNDƏ

**Açar sözlər:** *özünütəhsil, mütəxəssis təhsil, ömrü boyu təhsil, qloballaşma, inteqrasiya, ali məktəb tələbələri*

**Keywords:** *self-education, vocational education, lifelong learning, globalization, integration, higher school students*

**Ключевые слова:** *самообразование, профессиональное образование, обучение в течение жизни, глобализация, интеграция, студенты вузов*

Bu gün milli təhsil sistemimiz dinamik modernləşmə prosesi keçirir. Bu bir tərəfdən keçilmiş tarixi yolun, milli ənənələrə söykənən təhsil tariximizin konstruktiv xüsusiyyətləri, mütərəqqi ənənələrinin qorunub saxlanması, digər tərəfdən Baloniya prosesinin əsas prinsiplərinə uyğun olaraq müasir təhsil siyasətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlər sayəsində mümkün olmuşdur. İndiki halda ali məktəblərdə elm və tədris sahəsində modernləşmənin yüksək inkişaf səviyyəsinə çatmasına Azərbaycan hökuməti daima qayğı, diqqətli münasibət göstərir, ölçülüb - biçilmiş yanaşma nümayiş etdirir. Qeyd edək ki, əgər islahatlar prosesində təhsilin təbiətini, onun sistemini düzgün planlaşdırmağa səy göstərməsək, bu istiqamətdə görüləcək işlərin mexanizmini reallaşdırmaq üçün hərəkət planı müəyyənləşdirməsək, ölkənin təhsil və mədəni xüsusiyyətlərini və digər məsələləri hesaba almasaq təhsil islahatları heç bir vaxt uğurla nəticələnə bilməz.

Dünyada gedən qloballaşma və inteqrasiya prosesləri hər bir cəmiyyət üzvünün, xüsusilə ali təhsillə əhatə olunmuş hər bir gəncin ömrü boyu öyrənmə, təhsillənmə işinə qoşulmasını vacib şərt kimi qarşıya qoyur. Respublikamızda ali məktəblərin böyük bir qismi bazar iqtisadiyyatının tələbinə uyğun olaraq bu yuxarıda göstərdiyimiz məsələlərin işığında tələbənin - gələcək mütəxəssisin özünütəhsil bilik və bacarıqlara yiyələnməsinə xüsusi əhəmiyyət verir. Zaman mütəxəssis hazırlığı sisteminin təkmilləşdirilməsini, onu müasr dünyanın, müasr düşüncənin fəal iştirakçısı olmağa təhrik edir. Müasir inkişaf etmiş təhsilin modeli tələbənin təhsil fəaliyyətini özünütəhsil fəaliyyəti kimi qurmağı tələb edir. Çünki, belə bir fakt şübhə doğurmur ki, sosial və iqtisadi uğurlara o zaman nail olmaq olar ki, tələbə, cələcəyn müəyyən ixtisas sahibi həmişə inkişaf etsin, qazandığı ixtisas sahəsi üzrə yüksək səviyyədə bilik, bacarıq və vərdişlərə yiyələnsin və büləliklə də rəqabətəqabil mütəxəssis kimi yetişsin.

İndiki halda bilikləri müstəqil şəkildə mənimsəmə prosesinə fasiləsiz təhsilin çox mühüm komponenti kimi baxılır. Qərb ölkələrində ali təhsil üzrə islahatların təhlili göstərir ki, baloniya prosesi də tələbələrin özünütəhsil hazırlığı üzrə inkişaf səviyyəsinin artırılması qayğısına qalmağı zəruri hesab edir, bu məsələyə şəxsiyyətin hərtərəfli inkişafının formalaşdırılması və gələcəyin rəqabətqabiliyyətli mütəxəssisinin yetişdirilməsi şərti kimi qiymətləndirir. Özünütəhsil üzrə təhlillər aparılması, həmçinin araşdırmaların, ensiklopedik nəşrlərin, pedaqoji lüğətlərin, soraq kitablarının öyrənilməsi belə bir nəticəyə gəlməyə imkan verir ki, özünütəhsil məqsədyönlü, müstəqil, şüurlu, təcrübi - oriyentr fəaliyyət prosesdir. Ali məktəbdə tələbələrin özünütəhsil

fəaliyyəti öz biliklərini genişləndirə bilməsi, müstəqil fəaliyyət nəticəsində yeni biliklər qazanması, elmi biliklərini genişləndirmək üsullarına yiyələnməsi və nəhayət bütün həyatı boyu özünütəkmilləşdirməsi üzrə işlərə hazırlıq mərhələsidir.

Müasir pedaqoji ədəbiyyatda "özünütəhsil" termininin izahında vahid fikir yoxdur. Tədqiqatçılar anlayışa müxtəlif şərhlər verir, onun sərhədlərini bu və ya digər cəhətdən müəyyənləşdirməyə səy göstərirlər. Bir qism tədqiqatçılar belə hesab edirlər ki, özünütəhsil insan həyatının müxtəlif sferaları ilə bağlı olub müstəqil şəkildə biliklərin sistemli öyrənilməsidir. Digərləri özünütəhsilə tədris müəssisələrində dərsdənkənar vaxtlarda həyata keçirilən sistemli təlimin ayrılmaz hissəsi kimi baxır. Digər bir qrupu isə özünütəhsilə insanın yalnız şüurlu fəaliyyəti kimi deyil, həm də onun şəxsi keyfiyyətini və sosial mahiyyəti üzə çıxaran vasitə hesab edirlər.

Belə bir cəhəti də qeyd edək ki, ingilis dilli soraq və ensiklopedik ədəbiyyatda "özünütəhsil" termini birbaşa göstərilmir. Daha dəqiq desək bu anlayışın ifadə etdiyi məna müxtəlif terminlərlə ifadə olunur. Bir çox hallarda anlayışı ifadə edən self-directed learninq, self-education, the autonomous learner terminlərindən istifadə olunur. Digər terminlər isə yalnız özünütəhsil yolu ilə təhsil almağı, öyrənməyi nəzərdə tutur ki, bu zaman heç bir sistemli təhsildən söhbət getmir: self-planned, self-culture, independent study, individual study.

Özünütəhsil bir çox xarici pedaqq - alimlərin təhlil etdiyi predmet sahəsidir. G.R. Brockett, S.Brookfield, P.C. Candy, M. Knovles, N. Sarqant və başqaları özünütəhsil anlayışının mahiyyətininin izahı ilə bir başa məşğul olan tədqiqatçılardır. Bu alimlər anlayışın mahiyyəti, mərhələləri, tələbələrin bu prosesə hazırlığı, özünütəhsil motivləri, iş qabiliyyətləri və onların nəzərə alınması, qloballaşma şəraitində problemə münasibət və yanaşmalar və s. məsələlər haqqında yüksək səviyyədə tədqiqatlar aparmışlar.

Araşdırmalar göstərir ki, "Özünütəhsil" termini ingilis dilinə tərcümədə bir neçə məna verir:

-self-directed learninq - öz təlimini ( öyrənmə məqsədini) idarə etmə: təlim üçün maddi və mənəvi resurslar seçmək, öz məqsədini müəyyən etmək, öz təhsil ehtiyacının diaqnostikasını həyata keçirməkdir ki, bu da təklikdə, yaxud bir neçə şəxslə fərdi təşəbbüs kimi başa düşülür.

- self - education - özünütəhsil anlayışına yaxın mənada olub öz-özünə təlim alma, müstəqil təhsillənmə anlamını verir. Özünütəlim özünüidarə, fərdiləşmə, şəxsi istiqamətlənmə, şəxsiyyətin daxilən dəyişməsi, özünüqiymətləndirmə, planlaşdırdığı işə, öyrənmə aktına, qarşıya qoyduğu məqsəd və nəticələrə yüksək səviyyədə məsuliyyətli yanaşma prosesidir.

- learninq projects - bu anlayış yaşlıların təhsilinin layihələşdirilməsini ifadə edir. Yaşlıların təhsilinin layihələşdirilməsi insanın öz həyat tərzini və yaşayış qaydalarını dəyişmək məqsədilə müəyyən bilik, bacarıq və vərdişlər əldə etmək üçün planlaşdırdığı könüllü seçim prosesidir.

- the autonomous learner - bu anlayış insanın təhsillənmə səylərinə yönəlmiş müstəqil olaraq fəaliyyət göstərmə formasıdır. Bu prosesdə təhsillənmə səylərinə muxtariyyatlıq məxsusi mahiyyət təşkil edir. Ona görə də burada özünənəzarət, öyrənmə vasitələrinə və mövzunun seçiminə şəxsi məsuliyyət əsasdır.

- hiqhly intentional learninq – qabaqcadan planlaşdırılmış, müəyyən məqsədə çatmaq üçün istiqamətlənmiş fəaliyyət, öyrənmə prosesidir. Burada planlaşdırma və müəyyənləşirilmiş məqsəd fərdin özünütəhsil fəaliyyətinin əsas, xarakter əlamətidir. Bu zaman subyektin fəallığı məhz bu şərtlər daxilində müəyyənlik qazanır.

- self - adjustable traininq – bu öyrənmə prosesi pedaqoji rəhbərlik olmadan həyata keçirilir və tələbənin qarşıya qoyduğu məqsədə çatmağa yönəlmiş şüurlu fəaliyyətinin aktivləşdirilməsi və möhkəmləndirilməsini ifadə edir.

" Self - planned", "self - culture", "independent study", "individual study" terminləri də insanın özünütəhsil fəaliyyətinin bu və ya digər fəaliyyət sahələrini özündə ehtiva edən anlayışlardır.

Qeyd edək ki, insanın özünütəhsil fəaliyyətinə müxtəlif ölkələrdə müxtəlif yanaşma və münasibətlər mövcuddur. Alman pedaqogikasında özünütəhsil fəaliyyətinə fasiləsiz təhsilin ayrılmaz hissəsi və şərti kimi baxılır. Amerika alimi Çarlz Xey özünütəhsil prosesini insan həyatının mənası və mənbəyi kimi şərh edir. O, belə bir ideyanı müdafiə və təsdiq edir ki, insan özünütəliminə nəzarət etməyi bacarmalı və özünütəhsil fəaliyyətini həyat, yaşam prioriteti kimi qəbul etməlidir. Digər bir amerika alimlərindən Meriam və Kafella özünütəhsili insanın təlim fəaliyyətini planlaşdırma, yerinə yetirmə və qiymətləndirmə üzrə yüksək məsuliyyət əsasında həyata keçirilən təlim forması kimi şərh edirlər.

Məşhur amerika alimi Malkom Houlz belə hesab edir ki, özünütəhsil fərdin bir başqasının köməyi olmadan özünün təhsillənmə ehtiyacına olan təşəbbüsünün təzahürü, təhsillənmə məqsədi, müəyyən təhsil strategiyasının seçilməsi və tətbiqi və sonda nəticələrin qiymətləndirilməsi prosesidir.

Malkom Houlz belə bir traktovkaya əsaslanaraq özünütəhsil modelinin beş dərəcəsini işləyib hazırlamışdır:

1. Təhsillənmə, öyrənmə ehtiyacının üzə çıxması;
2. Öyrənmə məqsədinin müəyyən edilməsi;
3. Öyrənmə üçün lazım olan maddi təchizatın yaradılması, iş qabiliyyətinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsi;
4. Uyğun təhsil strategiyasının seçilməsi və tətbiqi;
5. Nəticələrin qiymətləndirilməsi.

Xarici ədəbiyyatların təhlili göstərir ki, əksər Avropa ali məktəblərində təhsil prosesi ilk növbədə tələbələrin müstəqil işinə hesablanmışdır. Qərb pedaqogikası hesab edir ki, müəyyən həcmə və məzmuna malik biliklərin uzunmüddətli və keyfiyyətli mənimsənilməsi tələbələrin yalnız özünütəhsil fəaliyyətinin nəticələrindən asılıdır. Biliklərin yoxlanılması və dəqiqləşdirilməsi üzrə hər cür təşəbbüslər tələbənin özü tərəfindən baş verir. Müəllimin vəzifəsi zəruri ədəbiyyatları məsləhət görmək və müəyyən edilmiş günlərdə mürəkkəb məsələləri aydınlaşdırmaq üçün söhbətlər aparmaqdan ibarətdir.

Qərb təhsili tələbədən şəxsi təşəbbüs gözləyir, onun müəllimlə müntəzəm olaraq əlaqə saxlamağa səy göstərməsini vacib sayır, həmçinin özünün fərdi məşğələ qrafikini qurmağa hazır olmasını zəruri hesab edir. Bu məkanda fəaliyyət göstərən bir çox ali məktəblərin öyrənciləri ilk öncə müstəqil işlərlə - fənn kursları və axtarış tələb edən tədqiqatlarla məşğul olmalıdır ki, bu proses müəllimlərlə elmi əlaqə və münasibətlər qurmağa kömək etsin.

Qeyd edək ki, intellektual əməyin vahid kompleksinin çox mühüm həlqəsi kimi özünütəhsil anlayışı sovetlər dönəmində də, indiki şəraitdə də rus dilli pedaqogikada xüsusi diqqət yetirilən problemlərdən olmuşdur. Qərb və rus pedaqoji ədəbiyyatının müqayisəli təhlili göstərir ki, bəhs olunan pedaqoji anlayışın izahında elə bir əhəmiyyyət kəsb etməyən fikirlər yer alsa da, əsaslı fərqli müddəalara təsadüf olunmur. Ötən əsrin 60 - cı illərinə kimi sovet pedaqogikasında tələbələrin müstəqil işlərinə üstünlük verilmişdir. Sonrakı illərdə və indiki şəraitdə tələbələrin özünütəhsil fəaliyyətinə hazırlığı problemi Rusiya  təhsil məkanının pedaqogikasında xüsusi əhəmiyyət qazanmış tədqiqat sahələrindən biridir. Problemin müxtəlif aspektləri A.Y. Ayzenberq, S.İ. Arxangelski, V.P. Bespalko, A.K. Qromseva, İ.L. Naumçenko, B.F. Rayski, Q.N. Serikov,V.P. Prokopyuk, İ.İ.İlyasov, M.M. Levina və başqaları özünütəhsil problemi üzrə tanınmış tədqiqatçılardır. Rusiyada müasir şəraitdə özünütəhsil pedaqogikasına olan tələbata cəmiyyətin bu istiqamətdə ehtiyaclarından irəli gələn şərtlər kimi baxılır. Qərbdə olduğu kimi burada da problemin həllinə fasiləsiz təhsil sisteminin ayrılmaz hissəsi kimi yanaşılır. Problemin təhsillənmə işində xüsusi əhəmiyyətə malik oluğunu öyrənən A.A. Verbitcki, B.S.Qerşunski, A.M.Novikov, O.N. Oleynikov, T.M. Trequbov kimi tədqiqatçılar bir mənalı olaraq qeyd edirlər ki, özünütəhsil insanın

bütün həyatı boyu öyrənməsinin səmərəli təşkilinin heç nə ilə əvəz olunmayan yeganə zəruri şərtidir.

Azərbaycan elmi - pedaqoji fikrində professorlardan N. Kazımov, Y. Talıbov, Ə. Ağayev, A. Abbasov və digərləri müəyyən problemlərə aid tədqiqatlarında tələbələrin özünütəhsil fəaliyyəti məsələsindən də bəhs etmişlər. Tələbələrin özünütəhsil fəaliyyətinə hazırlığı haqqında dissertasiya tədqiqatı da hazırlanmışdır. Buradaca qeyd edək ki, xalq pedaqogikasında da insanın təhsillənməsi, özünütəkmilləşdirmə fəaliyyətinə qoşulmağın əhəmiyyəti haqqında fikirlər vardır. Azərbaycan xalqının müdrikliyinin ifadəsi olan dərin və zəngin folklor nümunələri elm və təhsil almağın vacibliyi və faydalılığı haqqında çağrışlarla doludur.

Müasir şəraitdə bütün həyatı boyu öyrənmə konsepsiyası çərçivəsi daxilində Avropa universitetlərində özünütəhsil üçün geniş imkanlar yaradan açıq təlim sistemi geniş yayılmış, populyarlıq qazanmışdır. Açıq universitetlər mütəxəssis hazırlığı sisteminin inkişafına böyük tövhələr vermişdir. Bu təhsil müəssisələri gəncliyində akademik səviyyədə universitet təhsili, ümumən akademik səviyyədə təhsil alma imkanlarına malik olmayanlara ikinci şans verir. İlk belə açıq ali təhsil müəssisələri Böyük Britaniyada (1969), İspaniyada (1972) və Almaniyada (1975) yaradılmışdır. Özünütəhsil insanın həyatının zəruri hissəsidir və onun mənəvi ehtiyacları kimi təzahür edir. Kim ki, daima inkişaf edir və özünün professional səviyyəsinin yüksəlməsinə səy göstərir o, sosial və iqtisadi uğurlar qazanır, həyat fəaliyyəti zamanı yeni - yeni nailiyyətlərə yiyələnir. Əks halda onun rəqabətəqabilliyindən söhbət açmağa dəyməz.

Beləliklə, göstərməliyik ki, bu gün ali məktəblərin qarşısında zamanın tələblərini ifadə edə biləcək çox mühüm vəzifələr durur ki, bu vəzifələri aşağıdakı kimi ifadə etmək olar:

- gələcək mütəxəssisləri - tələbələri müstəqil şəkildə öz biliklərini təkmilləşdirməyə hazırlamaq;
- gələcək mütəxəssisdə özünütəhsil fəaliyyətinə səylər formalaşdırmaq və bu istiqamətdə hazırlığının sistemini müəyyənləşdirmək;
-tələbələrin özünütəhsil fəaliyyəti üzrə bilik, bacarıq və vərdişlərlə silahlandırılması üçün optimal yol və vasitələrdən istifadə etmək;
- tələbələrin özünütəhsilinin informasiya mənbələri və onlar üzərində işin düzgün təşkilinə nail olmaq;
- tələbə gənclərin özünütəhsil fəaliyyətinin planlaşdırılması və təşkili işnə pedaqoji rəhbərlik və nəzarəti yaxşılaşdırmaq;
- özünütəhsil fəaliyyətinin iki mühüm həlqəni özündə ehtiva etdiyinə əsaslanaraq: a) tələbələrin öz təlim, əmək və istirahətini təşkil edə bilməsinə səylərini formalaşdırmaq, bu işə qabiliyyətlərini inkişaf etdirmək; b) özünütəhsil fəaliyyəti prosesində onların həyatda öz yerini tapmaq və qorumaq bacarıqlarını inkişaf etdirmək.

## ƏDƏBİYYAT


1. Kazımov N. Məktəb pedaqogikası, Bakı, Nurlan, 2008
2. Talıbov Y. Müəllimlərin pedaqogikadan özünütəhsil proqramı, Bakı, Maarif, 1976
3. Həşimova A. Tələbə gənclərin özünütəhsil hazırlığının sistemi, Bakı, Adiloğlu, 2005
4. Наумченко И. Л. Самообразование будущего учителя, Самара, Мордгиз, 1974
5. Сагитова Р.Р. Формирование самообразовательной компетенции студентов вуза в процессеизучения гуманитарных дисциплин: дис. ... канд. пед. наук. Казань, 2011
6. Трегубова Т.М., Масалимова А.Р., Сахиева Р. Г. Исследования зарубежного опыта реформирования профессионального образования в условиях международной образовательной интеграции // Казанский педагогический журнал. 2008. № 8.

## ABSTRACT

**Sema Mehdi**

**SELF-EDUCATION OF SCHOOL STUDENTS IN THE CONTEXT OF THE NEV EDUCATIONAL PARADIGM**

The article is concerned with actualization of the self-education of higher school students in the condi-tions of globalization and integration of education. The author reviews interpretations of the self-education activities in the foreign publications. The role of the self-education in the context of develop-ment of the new educational paradigm "Life Long Learning" is analyzed.



## РЕЗЮМЕ

**Сама Мехти**

**САМООБРАЗОВАНИЕ СТУДЕНТОВ ВУЗОВ В КОНТЕКСТЕ НОВОЙ ПАРАДИГМЫ ОБРАЗОВАНИЕ**

Статья посвящена актуализации процесса само-образования студентов вузов в условиях глобализации и интеграции образования. Представлены различные трактовки самообразовательной деятельности в иностранной литературе. Анализируется роль самообразования в контексте развития новой парадигмы образования "Обучение в течение жизни".



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**AYGÜN RÜSTƏMOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 374**

# TƏLİMƏ ADAPTASİYANIN MAHİYYƏTİ

**Açar sözlər:** *təlim, adaptasiya, uşaq, fəaliyyət, mahiyyət, kiçik məktəbli*
**Key words:** *training, adaptaion,child,activities,essence,little school children*
**Ключевые слова:** *обучение,адаптация,ребенок,деятельность, суть, младшый школьник*

Təlimin məqsədi baş verən dəyişikliyə kiçik məktəblinin harmonik ahəngdarlığı üçün onun şəxsiyyətinin mükəmməl mənəvi inkişafında adaptativ imkanlardan istifadə olunmasıdır. Q.İ.Çareqorodskiy adaptasiya anlayışını ümumi anlayış olaraq görürdü. Uşaqların təlim fəaliyyətinə adaptasiyasının mahiyyəti araşdırılarkən ilk öncə "adaptasiya" anlayışını təhlil etmək lazımdır. Ensiklopedik lüğətdə "adaptasiya" anlayışı dəyişən şəraitə uyğunlaşmanın təşkili kimi verilir və daha çox tibbi-bioloji aspekt kimi xarakterizə olunur (Ensiklopedik lüğət 1995).

Adaptasiya anlayışı XIX əsrlərdə ortaya çıxdı. Bu termin lap qədim latın sözü olan "adaptatio" yəni alışma, uyğunlaşma, düzəltmə mənalarını verən sözlərdən yaranmışdır. Adaptasiya terminini tibb və psixologiya elmində ilk dəfə Q. Aubertom işlətmişdir. Q.Aubertoma görə adaptasiya həssaslığın dəyişməsi təsiri ilə hisslərin analizatoru qıcıqlandırması nəticəsində meydana gəlir. Sonralar bu anlayış daha geniş mənada, yəni orqanizmin mövcud və dəyişən şəraitə uyğunlaşdırılması kimi istifadə olunmağa başlanıldı (S.A.Milaslova)[5,3].

Psixoloq N.V.Jukovoy adaptasiyanı dəyişən, qeyri-adi şəraitdə fəaliyyətin mürəkkəbləşməsinə səbəb olan daxili və xarici amillərin nisbəti kimi xarakterizə edirdi. N.V.Jukovoyun bu qənaətə gəlməsinə klassik prinsiplər, eyni zamanda daxili amillərlə xarici amillərin bir-birini əvəz etməsi səbəb olmuşdur. Uğurlu adaptasiya daxili və xarici amillərin birləşməsi nəticəsində meydana gəlir [3,298].

Təlimə uyğunlaşma prosesi uşağın fərdi və ətraf mühitdə adekvatığı təmin etmək üçün bacarıq və vərdişlərin, keyfiyyətlərin inkişafı ilə müvafiq mexanizmlərin, funksiyaların yenidən qurulmasını təmin edir. Təlimə adaptasiya ikili xüsusiyyət daşıyır. Yeni imkanlar əldə etmək və mövcud olanların yenidən təşkili. Burada effektiv fəaliyyətin qorunub saxlanılması uşağın digər situasiyalara, hallara hazırlığından asılıdır.

Təlimə adaptasiya xüsusi proses kimi fəaliyyət zamanı analizatorların qıcıqlandırıcıya uyğunlaşmasıdır. Bu konsepsiya ümumi anlayışlar baxımından asılı olaraq fərqli mənalarda izah edilir. Ona görə də adaptasiya adətən aşağıdakı mənaları verir.

- Ətraf mühit ilə orqanizmin uyğunlaşması;
- Ətraf mühit ilə orqanizmin arasında harmonik münasibətin yaradılması;
- Proseslərin adaptativ nəticəsi[4,94].

Təlimə adaptasiyanın tənzimləyiciləri aşağıdakılardır.

- Motiv;
- Bacarıq;
- Qabiliyyət;
- Təcrübə;
- Bilik;

- İradə;
- İstedad [2,63].

Təlimə adaptasiya ilk vaxtlarda stresslə müşahidə olunur ki, bu da kiçik məktəblinin bədənin psixofizioloji resurslarının səfərbər olunmasına və çətin şəraitə uyğunlaşmasına şərait yaradı r[3,18].

Təlimə adaptasiya ilə bağlı aparılan araşdırmalar göstərir ki, uğurlu uyğunlaşmanın bütün kateqoriyaları onun onun psixoloji mexanizmləri uşaqların şəxsiyyətinin inkişafına yardım edir.

Təlimə uğurlu adaptasiya uşağın yalnız həmyaşıdları ilə deyil, böyüklərlə, kollektivlə münasibətlərin saxlanılması və ya bərpası, eyni zamanda kənardan müşahidə olunan psixoloji vəziyyətin sağlamlaşdırılması prosesidir. Təlimə adaptasiya kiçik məktəblinin fəaliyyətini həyata keçirməsində öyrənmə mühiti ilə fərdi optimal uyğunluğun yaradılmasıdır. Bu proses kiçik məktəblinin fərdi ehtiyaclarını ödəməklə əlaqədar əhəmiyyəli vəzifələri yerinə yetirir, yəni onun fiziki, psixi sağlamlığını qorumaqla yanaşı, əqli fəaliyyətini inkişaf etdirir, eyni zamanda davranışını mühitinin tələblərinə uyğunlaşdırır. Beləliklə təlimə adaptasiya "uşaqla məktəb" arasında adekvat əlaqələrin yaradılmasında mühüm rol oynayır.

Təlimə adaptasiya adətən uşağın öyrənmə zamanı psixoloji vəziyyətində yaranan problemlərin aradan qaldırılması zamanı qoruyucu mexanizmlərin birləşməsi komponentidir. Təlimə uğurlu adaptasiya kiçik məktəblinin öyrənmə zamanı tələb olunan norma və dəyərlərin mənimsənilməsi zamanı yaranan ziddiyyətlərin aradan qaldırılmasıdır. Uğurlu adaptasiya müvafiq rol və funksiyalardan asılı olaraq təlim fəaliyyətində əlaqə və münasibətlərdə psixoloji uyğunluğun təmin edilməsidir.

Təlimə adaptasiyanın əsas məqsədi uşağın davranışları ilə öyrənmə fəaliyyəti arasında qarşılıqlı münasibətlərin yaradılmasıdır. Bu zaman kiçik məktəblidən hissi idrakın və alışdığı mühitin sərhədlərini aşmaq tələb olunur. Uğurlu adaptasiya uşağın kəşfetməsəviyyəsini daha da inkişaf etdirir. Nəticədə kiçik məktəbli təlimin, öyrənmənin daha dərin qatlarına varid ola bilir. Bu zaman uşaq öz məqsədinə çatmaq üçün daxili imkanlarını səfərbər edir. Adətən təlimə adaptasiya zamanı yaranan problemlər kiçik məktəblinin istəkləri və qabiliyyəti arasında yaranan ziddiyyətlərdən qaynaqlanır. Təlimə uğurlu adaptasiya kiçik məktəblişəxsiyyətinin yeni və əhəmiyyətli strukturlarının formalaşmasına yardım edir. Uğurlu adaptasiya uşağın öyrənmə qabiliyyətinin inkişafı fenomeni kimi qəbul edilə bilər.

Təlimə adaptasiya uşağın qarşısına qoyulan məqsədləöyrənmə fəaliyyəti arasında uyğunluğun yaradılması prosesidir. Uşağın qarşısına qoyulan hədəf və fəaliyyət arasında yaranan ziddiyyət, yəni hər iki tərəfdən olan məqsədlərin üst-üstə düşməməsi nəticəsində adaptasiya problemi yaranır. Təlimə uğurlu adaptasiya uşaq şəxsiyyətinin dinamik inkişafı prinsipidir. Neofreydizm nəzəriyyəsi adaptasiya anlayışını şəxsiyyətin fərdi ictimai fəaliyyəti konteksi baxımından dəyərləndirmişdir.

Təlimə adaptasiya problemi adətən qoruyucu mexanizmlərin kiçik məktəbli ilə mühit arasında yaranan problemlərin qarşısını ala bilmədikdə meydana gəlir. Təlimə adaptasiya dedikdə yalnız uşağın düşdüyü vəziyətə uyğunlaşması deyil, həm də onun bütün psixoloji xüsusiyyətləri, əldə etdiyi adaptativ imkanları nəzərdə tutulur. Məhz bu şərtlər kiçik məktəblinin davranışını və digər insanlarla, həmyaşıdları ilə münasibətlər sistemini təşkil edir.

Təlimə adaptasiyadan bəhs edərkən psixoloqlar ilk öncə kiçik məktəblilərin özlərinin özlərinə daxilən uyğunlaşmasının vacib olduğunu irəli sürürlər. Psixoloqlar qeyd edirlər ki, əgər bu zaman problem yaranarsa kiçik məktəbli şəxsiyyətinin bölünməsi yaranar və bu da fərdi böhranın yaranmasına səbəb olacaqdır. Təlimə uğurlu uadaptasiya uşağın sinir sistemi sayəsində mümkün olur. Belə ki, kiçik məktəblinin içində olduğu mühit onun sinir sisteminin səmərəliliyinə təsir göstərir ki, nəticədə uşaqda adaptasiyanın ilkin mərhələsində yaranan stress, affekt hal, depressiya, frustrasiya, yorğunluq kimi psixoloji halların aradan qalxmasına və psixi proseslərin harmonik və ahəngdar fəaliyyət göstərmələrinə yardımçı olur. Adaptasiya kiçik məktəblilərin təlim materialına bəslədiyi münasibətin mahiyyətinin təzahür formalarını ifadə edir. Uğurlu adaptasiya uşağın təlim fəaliyyətində rastlaşdığı maneələri aradan qaldırılması prosesidir.

Adaptasiya təlim fəaliyyətində uşaqların öyrənmə motivasiyasının artmasına, eyni zamanda intellektual, yaradıcı qabiliyyətinin inkişafına şərait yaradan prosesdir.

Təlimə adaptasiya kiçik məktəbliyəöyrənmə fəaliyyətində uğur qazanmasına, öz yerini düzgün tapa bilməsinə, qabiliyyət və bacarıqlarının inkişafına səbəb olan fəal prosesdir. Yəni kiçik məktəblilərin bilik və bacarıqlarının baş verən dəyişikliyə uyğunlaşmasıdır. Burada əsas məqsəd uşağın fərdi xüsusiyyətlərini nəzərə alaraq onun yaradıcı imkanlarından, qabiliyyətindən, idrak proseslərindən maksimum istifadə etməkdir. Bunun üçün isə uyğunlaşma üçün normal sosial –psixoloji mühit yaradılmalıdır.

Təlimə uğurlu adaptasiya adətən motivasiya ilə sıx bağlıdır. Yəni uğurlu adaptasiyanın baş verməsi təlim zamanı qarşıya qoyulan məqsədə çatmaq üçün uşağın bilik və öyrənmə qabiliyyətinə yiyələnməsini zəruri sayır. Uğurlu motivləşmə uşaqda təlim zamanıbiliyə yiyələnməyə stimul yaradır və effektiv adaptasiyanı təmin edir.

Təlimə adaptasiya ilə bağlı D.A.Andreyeva, B.A.Efimova, L.M.Rostova, N.A.Savotina araşdırmalar aparmışlar. Adaptasiya kiçik məktəblinin təlim fəaliyyəti zamanı baş verən dəyişikliyin şərtlərini daxilən qəbul və ya inkar etməsi ilə bağlı olan aktiv prosesdir. Adaptasiya mürəkkəb və ziddiyyətli proses olub uşağın təlim fəaliyyəti çərçivəsində baş verən dəyişikliyə daxilən və xaricən verdiyi reaksiyasıdır.

Əslində təlimə adaptasiya kommunikativ proses olub, uşaqların bir-birini, təlim tapşırıqlarını və məktəb mühitinin digər müxtəlif struktur elementlərini daxilən qəbul etməsi və yeni şərtlərə uyğunlaşmasıdır. Təlimə uğurlu adaptasiya nəticəsində uşaqda verilmiş tapşırığı anlama, yeni dəyərləri və normaları özündə əks etdirən kollektiv davranış, həmçinin qazanılan və sabitləşən bacarıqların inkişafı, həm də yaşıdları ilə ünsiyyət qabiliyyəti formalaşır.

Psixoloqlar təlimə adaptasiyanı kiçik məktəblilərin sinif kollektivi ilə şəxsiyyətlərarası münasibətlər sistemində uyğunluğun yaradılması prosesi kimi xarakterizə edirlər. Təlimə uğurlu adaptasiya kiçik məktəblilərin dəyişən şəraitdə daxili və xarici amillərin vasitəsi ilə öyrənmə fəaliyyəti üçün zəruri olan ümumi uyğunlaşma standartlarına yiyələnməsidir.

Rus psixoloqu A.B.Qeorqiyevskiy qeyd edir ki, adaptasiya yalnız xarakterlə bağlı deyil, bu proses həm də daxili və xarici amillərin arasında harmonik mühiti yaratmaq üçün bir tendensiya kimi özünü göstərir.

Uğurlu adaptasiya uşağın psixi proseslərinin inkişafına yardım etməklə təlim fəaliyyətinin səmərəli olmasına şərait yaradır. Təlimə adaptasiya kiçik məktəblidə öyrənmə fəaliyyəti zamanı dərketmə və özünəinam kimi funksiyaların yaranmasına səbəb olan geniş prosesdir. Məhz bu funksiyalar uşaqda təlim zamanı məsuliyyət, tənzimləyici, kommunikativ kimi xüsusiyyətlərin formalaşmasına yardım edir.

Beləliklə təlimə adaptasiya universal fenomen kimi dəyişən şəraitə uyğunlaşma prosesində meydana gəlit. Bu proses kiçik məktəblinin yeni mühitdə normal davranış formalarını bərpa edir. Əgər təlimə adaptasiya prosesi baş verməsə yeni fəaliyyətin tənzimlənməsi pozular və nəticədə bir sıra çətinliklər yaranmış olar.

## ƏDƏBİYYAT


1. Андреева Д.А. О понятии адаптация. //Человек и общество: ЛГУ, 1973.-300 с.
2. Александровская Э. М. Социально-психологические критерии адаптации детей к школе // Школа и психическое здоровье. -М.: Медицина, 1997.-123 с.
3. Антропова. М.В /.Хрипкова А.Г - Адаптация организма учащихся к учебной и физиологической нагрузкам [Текст]: Монография для исследователей- физиологов, М.: Педагогика, 1982.- 240с.
4. Балл Г.А. Понятие адаптации и его значение для психологии личности // Вопросы психологии, 1989. № 1.- С. 92-100

5. Битянова М. Р. Адаптация ребенка к школе: диагностика, коррекция, педагогическая поддержка // М., 1967. - 384 с
6. Əlizadə Ə.Ə., Əzimov Q.E., Quliyev .E.M. Məktəblinin psixologiyası. B., 1990, -101

**ABSTRACT**

**Aygun Rustamova**

**THE ESSENCE OF THE TRAINING ADAPTATION**

The psychological, substance of the adaptation is training reflected in the article. Speaking about the merits of learning adaptation of the children of the first time we need to analyze the meat of “adapted”. Noted that the adaptation is a system in ever changing conditions, allowing the existence of a control mechanism.During the training learning to adapt, all parameters to correct the unpleasant consequences that lead to sharp changes in the couplicated process. Adaptation is a complex process that in terms of the training of a younger pupils to constantly adapt psyche. This process is usually depend the child`s integrations consent and depends on the long –term effect of the event compliance reseptor by changes in its activities. Adapted in the training is occurs to the child as a result of the processes taking place in the department of the control analyzer. During this process analyzer viritant to adapt learning activities the small pupils preconditions of success in training activities is an important conditions. This the individual and the environmentadequate. This process to ensure that the skill, abilities qualities,related to the development of to ensure the reconstruction of junction. This process forms small school children to restore normal behavior in a new environment. The adapted is a process that as increase in training activities adapted to children`s learning neotivation, as well as intellectual and creative capacity of the process of creating conditions for the development.

**РЕЗЮМЕ**

**А.А.Рустамова**

**СУТЬ АДАПТАЦИИ ОБУЧЕНИЮ**

В статье нашло свое отражение психологическая суть адаптации обучению. Говоря о сути адаптации детей обучению прежде всего необходима проанализировать понятие “адаптацию”. Отметим, что адаптация –механизм борьбы, позволяющий существованию системы в постаянно меняющичся условиях. Адаптация или соответствие состоит из изменений чувствительности раздражителей.Адаптация обучению – сложный процесс, вызывающий во всех параметрах резкие изменения для исправления нежелаемых результатов. Адаптация- сложный процесс, обеспечивающий активной соответствие психики младшего щкольника неуклонным условиям школьного обучения. Этот процесс обычно зависит от соответствии ребенка условию, от уровня согласий и недовольствий его жизни. Событие соответствия можно обьяснить изменениями, присходящими в его действии во время длительного воздействия раздражателя рецептору. Адаптация обучению наступает в результате процессов, проходящих в центральном подразделении анализатора ребенка. Этот процесс является соответствием анализаторов раздражителю во времяобучения. Преуспеван младшего школьника в обучение является важным условием. Таким образом, этот процесс способствует реконструкцию умений, привычек, правильных механизмов с развитием качеств, функций для обеспечения адекватности в частной и окружающей среде.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**KƏMALƏ İSAYEVA**
*Gəncə Dövlət Universiteti*

**UOT:81**

# SÖZ TƏRKİBİNDƏ DİLARXASI DAMAQ SAİTLƏRİNİN ARDICILLIQ NORMASI

**Açar sözlər**: *saitlər, ardıcıllıq, norma, variantlıq, sıralanma*
**Key words:** *vovels, sequence, norm, dimorphism, formation*
**Ключевые слова**: *гласные, последовательность, норма, вариантность, построение.*

Azərbaycan dilində sait səslər söz tərkibində özünəməxsus ardıcıllıqla sıralanır. Sait səslərin söz tərkibində ardıcıl sıralanması türk dillərinə məxsus əlamətlərdən biri hesab edilir [1,208 − 218; 3,23 − 70; 4,127 − 132]. Samitlərin söz tərkibindəki sırasının mövcudluğu ilə bir qayda olaraq türk dillərinə məxsus aqlütinativ quruluşun mövcudluğu ilə tənzimlənir [5,265 − 273; 7,35; 8,74 − 77]. Ancaq demək lazımdır ki, türk dillərində aqlütinativ quruluşun əlamətlərinin təkmilləşməsinə baxmayaraq bu qrupa daxil olan dillərin bəzilərində saitlərin daimi ardıcıllığının pozulması da müşahidə edilir. Bu pozulma daha çox özbək dilində baş verir. Məsələn, Azərbaycan dilinin özbək dili ilə müqayisəsində nəinki çoxhecalı söz tərkibində, eyni zamanda ikihecalı sözlərin də tərkibində ardıcıllığın pozulması müşahidə edilir. Məsələn, Azərbaycan dilindəki ata, ana kimi sözlər özbək dilində ota, ona kimi işlədilir. Söz tərkibində sait ardıcıllığının pozulması türk dillərində ancaq tariantlıq baş verməsinə səbəb olur. Məsələn, türk dilində sözə indiki zaman şəkilçisi qoşulduqda da sait ardıcıllığı pozulur. Azərbaycan dili ilə müqayisədə bu pozulma daha aydın şəkildə müşahidə edilir. Məsələn, Azərbaycan dilindəki *alıram, gəlirəm* kimi sözlər, özbək dilində *alıyorum, geliyorum* kimi yazılır və səslənir.

Aqlütinativ quruluşlu olmayan dillərdə isə söz tərkibinin dəyişməsi həmişə türk dillərində kimi tariantlığa səbəb olur. Söz tərkibində səslərin dəyişməsi bir kökdən başqa sözlərin əmələ gəlməsinə xidmət edir. Məsələn, rus dilində kəsmək, bölmək mənasında *делить* sözü işlənir. Sözün tərkibindəki *дел* hissəsində daxili *е* samitinin dəyişməsi ilə *дол* kökü yaranır ki, bu kökdən də *hissəcik, payı* mənası bildirən *долька*, sındırmaq mənasında *доломить*, dilim-dilim, kəsik-kəsik mənasında *дольчатый*, şərik, payçı mənasında *дольщик*, pay, hissə mənasında *доля* kimi sözlər yaranmışdır. Həmçinin *дол* kökünə söz önləri *одолеть* (üstün gəlmək), *одолжить* (borc vermək) kimi sözlər formalaşır. İngilis dilindəki *foot* (ayaq) sözündən daxili sait dəyişməsi ilə *feet* (ayaqlar) *man* (insan, adam) sözündən sait dəyişməsi ilə *men* (adamlar) *woman* (qadın) kimi sözlər yaranmışdır. Ərəb dilində *şakir* (təşəkkür edən) sözündən daxili sait dəyişməsi yolu ilə *şükr* (razılıq bildirmə, minnətdarlıq) *zakir* (qeyd edən, xatırladan) sözündən daxili sait dəyişməsi yolu ilə *zikr* (yada salma, söyləmə), *zaid* (artan, əlavə edilən) sözündən daxili sait dəyişməsi yolu ilə *ziyad* (artıq, çox sözləri yaranmışdır).

Müqayisələrdən göründüyü kimi hazırki türk dillərində daxili sait fərqləri ilə yalnız tariantlıq baş verir. Analitik-flektiv dillərdə isə daxili dəyişmələr yolu ilə yeni sözlər formalaşır. Buradan belə nəticəyə gəlmək olur ki, türk dilləri, o cümlədən Azərbaycan dili sözdaxili dəyişmələr yolu ilə yeni sözlər yaranması səciyyəvi deyildir. Ona görə də köklərində sabitlik saxlanılır. Baş verən dəyişmələr isə ancaq fonetik variantlardan ibarət olur. Söz yaratma prosesi Azərbaycan

dilində sözün kök xaricində baş verdiyindən sözün kök hissəsində derivativ dəyişməyə ehtiyac olmur.

Azərbaycan dili son şəkilçisi dil olduğu üçün kökdəki sabitlik şəkilçilərin ardıcıl sıra üzrə düzülməsinin təməlini təşkil edir. Analitik-flektiv dillərdə isə son son şəkilçinin ayrı dillərinə və o cümlədən, Azərbaycan dilinə nisbətən məhdud olduğundan şəkilçilərin sırası və ardıcıllığı da bu dillərdən fərqlənir. Türk dilləri ilə analitik-flektiv dillərdəki söz köklərinə görə müşahidə edilən dəyişikliklər üzrə baş verən dəyişikliklərinə gəlincə isə onu demək lazımdır ki, türk dillərində tariantlıq yaradan daxili dəyişikliklərin ba. Vermə səbəbləri danışıq dilinin şifahi nitqin təsiri ilə bağlı olduğu halda analitik-flektiv dillərdəki dəyişikliklər yeni söz yaradıcılığının tələbləri ilə əlaqədardır.

Azərbaycan dilində saitlərin sözdaxili və sözxarici ardıcıl sıralanması ahəng qanunu $[1{,}208-209; 4{,}127-129; 6{,}38-40]$ adı ilə adlandırılması ona da bu sıralanmanın özündə qanunun özünü təsbit edən tam bir ardıcıllıq mexanizmi mövcud deyildir. Sait sözlərin müəyyən qismində sıralanmanın qanunauyğunluğu normal olduğu halda digər qismində bu sıralanma norma tərkibinə uyğun gəlmir. Məsələn, sıralanma normasının tələblərinə görə sözün ilk hecasında gələn saitdən sonrakı hecalarda ya həmin saitin özü, ya da onun tələffüz şəraitinə uyğun gələn sait işlənməlidir. Bu tələb sait səslərin müəyyən qismində ödənilir. Bəzilərində isə ödənilmir. Dilarxası damaq saitləri sırasında və a saitinin sıralanma norması aşağıdakı kimidir.

a) *a* saiti sözün birinci hecasında işlənilsə sonrakı hecalarda da ardıcıl olaraq həmin saitin işlədilməsi müşahidə edilir: *alacağam, saxlayacağam, yoxlayacağam, baxacağam, dayanacağam, aparacağam.*

Bu sözlərdə köklər *al, bax, dayan,* apar kimi müstəqil vahidlərdən ibarətdir. Onların yazılı və şifahi nitq variantında dəyişmə baş vermir. *Saxla, danla, başla, hamarla, qarala* kimi tərkiblərdə la elementi işlənən sözlərdə isə yazı ilə nitq arasında fərqlənmə baş verir. *Saxlayaram-saxlıyaram,danlayaram-danlıyaram,başlayaram-başlıyaram,hamarla-yaram-hamarlıyaram,qaralayaram-qaralıyaram.* Şifahi nitq daim dil quruluşundakı elementlərin tələffüzdə asanlaşdırıcı olmasına təsir edir. Ona görə də sözlərin müəyyən qismində asanlaşdırıcılıq tələbinə görə söz kökündən sonrakı hecada *a* saitinin *ı* saiti ilə əvəzlənməsi baş verir.

Bu hal dil istifadəçilərinin nitqində ümumi xarakter daşıdığı üçün danışıq dilinin norması kimi işlədilir. Yazı norması isə *a* saitinin dəyişməz olaraq işlədilməsində özünü göstərir.

b) *a* saitinin yazıda ümumi danışıq dilində mühafizə olunan sabit sırasına isə bəzi nitq aralarında fərqlənmələr baş verməsinə təsadüf olunur. Məsələn, alacağam, baxacağam,dayanacağam, aparacağam kimi sözlər azərbaycan dilinin Tovuz işvələrində *alıjam, baxıjam, darıxajam, aparıjam***,** kimi ifadə olunur $[2{,}123-130]$.

Burada da şifahi nitqin asanlaşdırıcı təsiri mövcuddur. Lakin bu variant ümumi xarakterli deyil, lokal səciyyəlidir. Odur ki, belə bir variant ancaq lokal şəraitdə və müəyyən məhdud ərazidə norma sayılır.

*A* saitinin söz tərkibində nitqə görə fel strukturundan fərqlənməsi onu göstərir ki, saitlərə məxsus sıra və ardıcıllıq Azərbaycan dili üçün nə qədər səciyyəvi olsa belə, həmin sıranın nitq vasitəsi ilə pozulması istisna deyildir. Ancaq fel vahidlərinin işlədilmə normalarında sabitliyin qorunması üçün yazı və ya nitq arasında müəyyən tarazlanmaya nail olmaq mümkündür.

Sözün başlanğıc hecasında *a* saiti işləndikdə sonrakı hecalarda *ı* saitinin işlənməsi də ümumi normaya daxil olur. Çünki *a* saiti də *ı* saiti də dilarxası damaq saitlərindən ibarətdir və bunların arasında keçidlərin baş verməsi tamamilə mümkün hadisədir. *A* saitindən sonra söz tərkibində həmçinin, ritmiklik baş verməsini də təmin edir. Həmçinin, söz tərkibində *a-ı* ardıcıllığı məna dəyişməsinə də təsir edir. Bu mənada *saxlayaram* sözü ilə *saxlayıram* sözü felin qeyri-qəti gələcək zamanına aid olduğu halda *saxlayıram* sözü indiki zamanı bildirir. Sözün şəkilçi hissəsində belə keçidin baş verməsi aqlütinativ quruluşlu dillərdə də məna dəyişməsinə baş verən ehtiyacı aləti kimi

ortaya çıxır. Fərq orasındadır ki, keçid analitik-flektiv dillərin söz tərkibində baş verdiyi halda, aqlütinativ quruluşlu feldə bu şəkilçi tərkibində əmələ gəlir. Söz tərkibində *a – ı* sıralanmasına dair *alıram, alacaqdır, artacaqdır, dayandıracaqdır* kimi nümunələri misal göstərmək olar

c) Sözün başlanğıc hecasında a saiti işləndikdə ikinci hecada *o* saitinin işlənməsi də normaya çevrilmişdir. Ancaq *a-o* sırası təkcə ikinci heca məhdudlaşır. Həm də bu sıra intensivləşmir. Yalnız bəzi monolitikalı sözlərdə *a – o* sırasının işlənməsinə rast gəlmək olur: *alov, qaşov, qarov, arov* [9.88] və s.

*A – o* keçidli sırada ikinci hecadakı *o* saitindən sonra *a* saiti işlənə bildiyi halda yenidən sonrakı hecada *o* saitinin işlənməsinə təsadüf edilmir. *O* saitinin ikinci hecada məhdud işlənməsi onu göstərir ki, söz tərkibinin ikinci hecasında *o* saiti ümumişlək norma qazana bilməmişdir. Bunu daha çox onunla izah etmək mümkündür ki, a saiti zaman səsi olduğu üçün intensivdir. *O* saiti isə dodaq saitidir və dilarxası açıq damaq tələffüzündə intensivlik funksiyası *a* saitinin üzərinə düşür. *O* saiti isə dodaq saiti olduğu üçün *a* saitinə kimi intensivləşə bilməmişdir. Odur ki, *o* saiti ikinci hecaya yalnız bəzi monolit sözlərin tərkibində işlənir.

Söz tərkibində a saitindən sonra ikinci hecada *o* saitinin işlənmə səbəbinə gəlincə onu demək lazımdır ki, bu sıranın əslində ardıcıllıq norması yoxdur. Çünki *a* saitinə məxsus ardıcıllıq norması birincisi a saitinin özünə aiddir. *A* saitinidən sonra *ı* saitinin işlənməsi dilarxası damaq əlamətinə görə normadır. Eyni zamanda məsələn, alaram və alıram sözlərinin müqayisəsindən aydın olur ki, *a* saitindən sonra *ı* saitinin işlənməsində məna fərqi müşahidə edilir. Deməli, söz tərkibində a – ı ardıcıllığı eyni zamanda məna fərqləndiriciliyinə xidmət etmişdir. Bu mənada a saitindən sonra o saitinin işlənməsi ardıcıllıq sırasının tələbini yox, məna fərqini yaratmaq tələbini nümayiş etdirir. Ancaq bu cür ardıcıllıq məcbur olduğu üçün məna fərqləndiriciliyi də məcburidir.

d) Sözün başlanğıcı *a* saiti işləndikdə sonrakı hecada u saitinin işlənməsi norma deyildir. Ancaq bəzi sözlərə a saitindən sonra u saitinin işlənməsini müşahidə etmək olur: *arzu, axur, armud. A* saitindən sonra ikinci hecada açıq dodaq səsi olan *o* saiti yalnız bəzi monolit sözlərdən işləndiyi kimi *u* saiti də ancaq monolitləşmiş sözlərdə işlədilir. Çünki ikinci hecada qapalı dodaq saiti açıq damaq saiti *a* saitindən sonra normaya çevrilə bilmir [9.88] .

e) dilarxası damaq *ı* saiti də *a* saiti kimi sözün bütün hecalarında intensiv ahəngdarlıq yarada bilir. Sözün ilk hecasında *ı* saiti işləndikdə sonrakı hecalarda da həmin saitin ardıcıllığı davam edir: *qırılır, yığılır, sığınır, qızdırılır, sızdırılır.* Sonu *a* saiti ilə bitən sözlərdə danışıq nitqinə görə *ı* saitinə keçid baş verdiyi halda, sonu *ı* saiti ilə bitən sözlərdə *ı* saitindən digər saitə keçid müşahidə edilmir: *sırı-sırıdılır, yırtıcı-yırtıcılıq, qırmızı-qırmızılıq* və s. Söz tərkibində *ı* saitinin danışıq nitqinə görə variant dəyişikliyinin baş verməmdiyinin səbəbi ondan ibarətdir ki, dilarxası damaq saitləri içərisində *a* saitinin ı variantı olduğu halda, *ı* saitinin digər variantı yoxdur. *A* saitinin tələffüz asanlığı *ı* saiti ilə təmin olunduğu halda, *ı* saitinin tələffüz asanlığı bu saitinin özünün vasitəsi ilə yerinə yetirilir.

f) dilarxası damaq *ı* saitindən sonra söz tərkibində *a* saitinin işlənməsi normadır. Bu normalılıq hər iki saitin dilarxası və damaq tələffüzlü olması ilə təmin edilir: *yığıncaq, yığılacaq, sığınacaq, sındırılası, yığışdırılası* və s. İlk hecasında *ı* saiti, sonunda *a* saiti iştirak edən sözlərdə a saitinə məxsus olan asanlaşdırıcılıq meylinə görə danışıq nitqində a-ı keçidi baş verir: *xırdala – xırdalayır-xırdalıyır,sığalla-sığallayır-sığallıyır,cırmaqla-cırmaqlayır-cırmaqlıyır.*

g) Söz tərkibinin ilk hecasında ı saiti işləndikdə sonrakı hecada dilarxası dodaq tələffüzlü o saiti də ancaq monolitləşmiş sözlərdə işlədilir və bu ikinci hecadan o biri tərəfə keçmir: *qırov, qıpsov, spirtov.* Səbəb isə ondan ibarətdir ki, *o* saiti ikinci hecada dodaq tələffüzünə məxsus çətinliyə görə intensivlik yarada bilmir. Sözün ikinci hecasında isə dilarxası *u* saitinin işlənməsi norma deyildir. *U* saiti ikinci hecaya qapalı damaq saitindən sonra dodaq tələffüzün daha çox məhdudlaşdırdığı üçün həmin mövqedə işlənə bilmir. Göründüyü kimi dilarxası damaq saitlərinin söz tərkibindəki ardıcıllıq norması birmənalı deyildir. *U* saiti tələffüz aktivliyinə görə daha

intensivdir. *I* saiti qapalı olduğu üçün onun sıra yaratmaq aktivliyi müəyyən dərəcədə zəifdir. Saitlərin söz tərkibində nitqin fəallığına görə üzləşdiyi variantlıq isə həm sözlərdə məna yaratma baxımından, həm də danışıq norması yaratmaq baxımından maraq doğuran hadisədir. Bütün bunları tədqiqi və təhlili nitq mədəniyyəti normalarından müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir.

## ƏDƏBİYYAT


1. Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı, Maarif, 1984.
2. Azərbaycan dilinin qərb qrupu dialikt və işvələri. Bakı, Azərbaycan EA nəşr., 1994
3. Черкасский М.А. Туристский вокализм и сингармонизм. М., Наука, 1965
4. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı, Maarif, 1972
5. Дмитриев Н.К. Фонетические закономерности начала и конца тюркского слова. ИСГТЯ, I фонетика. М., 1955
6. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, Azərtədrisnəşr, 1963.
7. Кононов А.Н. Грамматика современного турецкого литературного языка. М-л.,изд. Аз СССР, 1956
8. Покровская Л.А. Грамматика ... языка. М., 1964
9. Yusifov M. Azərbaycan dili fonetikasının əsasları. Bakı, Elm və təhsil, 2013.



## ABSTRACT

**Kamala Isayeva**

### THE SEQUENTIAL VARIANCE OF THE VOWELS *A* AND *U* IN THE COMPOSITION OF WORDS AS THE SPEAKING FOR PALATINE.

The article refers to the sequential variance of the vowels a and u in the composition of words as the speaking for palatine. It indicates that the vowel a is active due to the intensity and the pronunciation is different from the sequential order of the vowel u in the word. The vowel u is normal after the vowel a . But after the vowel *a* the norms of the vowels *o* and *u* are limited. The vowel o is also limited in the words the initial syllable of which is used (i) ы. But the vowel *a* is not used.

According to the requirements of consistent standards in the next syllable after the vowel in the first syllable should have used or own a vowel or the vowel, which corresponds to its sound state. This requirement is provided to determine the number of vowels and some numbers, and is not provided in other cases.

As part of a word after the vowel ***a*** in the second syllable, saying the reason for the use of the vowel ***ı*** we must say that in this series there are no consistent standards. Because the sequence of norms belonging to the vowel in the first place refers to itself as the vowel ***a***. The use of the vowel ***ı*** after the vowel ***a*** is a normal sign of the use of back lingual palatine.

There is a transition of the order of vowels into the variation in the part of the word and it creates or the difference of meaning, or the difference of the norm of speech, or the local difference.

## РЕЗЮМЕ

**Камала Исаева**

## ПОСЛЕДОВАТЕЛЬНАЯ ВАРИАНТНОСТЬ ГЛАСНЫХ *А* И *Ы* В СОСТАВЕ СЛОВА КАК ЗА ЯЗЫЧНЫХ НЕБНЫХ.

В статье говорится о последовательной вариантности гласных *а* и *ы* в составе слова как за язычных небных. Указывается, что гласная *а* активна из-за интенсивности произношения и отличается от гласной *ы* последовательного порядка в слове. Гласная *ы* является нормой после гласной *а.* Но после гласной *а* норма гласных *о* и *у* ограничена. Гласная *о* также ограничена в словах начальный слог которых начинается на *ы.* А гласная *у* не употребляется.

По требованиям последовательной нормы в слогах последующих после гласной в первом слоге должна употребиться или сама гласная или гласная, которая соответствует его звуковому состоянию. Это требование обеспечивается в определенных числах гласных звуков, а в некоторых числах и не обеспечивается.

В составе слова после гласной ***а*** во втором слоге, говоря о причине употребления гласной ***о*** надо сказать то, что у этого ряда нет последовательной нормы. Потому, что последовательная норма, принадлежащая гласной ***а*** во первых относится к самой гласной ***а***. Употребление гласной ***ы*** после гласной ***а*** является нормой приметы употребления заязычных небных.

В составе слова существует переход порядка гласных в вариантность и это создает или разницу значения, или разницу нормы разговорной речи, или то локальную разницу.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**Günay Kazımova**
*Gəncə Dövlət Universiteti*

**UOT: 373**

# TƏLİM PROSESİNDƏ ŞAGİRDLƏRİN ELMİ DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASININ İNKİŞAFI YOLLARI

**Açar sözlər:** *Elmi dünyagörüş, təlim, böyütmək, tələbə fəaliyyəti, təkmilləşdirmə yolları*
**Key words:** *The scientific world outlook,training,nurture,student activity, ways to improve*
**Ключевые слова:** *Научное мировоззрение, обучение, взрастить, студент деятельность, пути совершенствования*

Elmi dünyagörüşünə yiyələnmiş hər bir insan ilk növbədə əqlinin qüdrətinə arxalanır, həyata gələcəyə, qurub yaratmağa möhkəm etimad bəsləyir, əqidəsi uğrunda fəal mübarizə aparır, cəmiyyətdə yerini müəyyənləşdirə bilir. Məhz ona görə də yetişməkdə olan gənc nəslin ilk gündən elmi dünyagörüşü ruhunda formalaşması bizdən mənəvi cəhətdən pak, əxlaqi cəhətdən təmiz olan, təbiətdə və cəmiyyətdə baş verən hadisələrdən düzgün nəticə çıxarmağa qabil olan yeni insanın tərbiyə olunmasını tələb edir.

Bu gün müstəqil Azərbaycan dövlətinin təşəkkülü zamanı bu ideya bir çox cəhətdən daha böyük aktuallıq kəsb edir. Bu gün cəmiyyətimizdə baş verən həm sosial, və həm də siyasi dəyişikliklərin gənc nəslində tərbiyə edilməsində mühüm əhəmiyyət kəsb edən dünyagörüşünün mahiyyət və məzmununun yeniləşməsi bunu bizdən bir daha tələb edərək zərurətə çevirir [1].

Müasir elmi biliklərin təcrübədə yaradıcılıqla tətbiq olunması, onun dərindən və şüurlu dərkedilməsi və mənimsənilməsi, kiçik məktəbyaşlı uşaqlarda ilk dünyagörüşünün formalaşmasını zərurətə çevirir, çünki bugünki təhsil sistemimiz müasir məktəblinin təlim-tərbiyə səviyyəsinin mürəkkəb prinsiplər üzərində qurulmasını, hər bir məktəblinin təfəkkürünün inkişafını, o cümlədən onlarda əqli əməliyyatın inkişafına nail olmağı tələb edir.

Hazırkı dövrdə gənc nəslin kiçik yaşlarından elmi dünyagörüşü ruhunda tərbiyə olunması onların mənsub olduğu dövlətin, millətin təhlükəsizliyi və çiçəklənməsi üçün məsuliyyət daşımağı, şüurlu dərketməyə istiqamətləndirir.

Kiçik məktəbyaşlı uşaqları elmi dünyagörüşü ruhunda tərbiyə etmək, onların dövlətin cari və perspektiv vəzifələrinin həllində fəal iştiraka, onun işlərinin idarə etməyə, zəhmətsevərlik və sahibkarlıq funksiyasını yerinə yetirməyə şüurlu və aktual istiqamətləndirmək vərdişi yaradır.Bu problem o vaxt yüksək səviyyədə həyata keçirilə bilər ki, ailə bu işdə məktəbin yaxın köməkçisinə çevirilsin.[2] .

Kiçik məktəb yaş dövründə psixoloqlar fəaliyyət və davranış motivlərini iki böyük qrupa ayırır və digər motivlərin onlardan asılı olduğunu qeyd edirlər. Bu motivlər aşağıdakılardan ibarətdir:

- təlim fəaliyyəti və onun məzmunu ilə bağlı olan idrak motivləri;

-kiçik məktəblinin yaşıdları, elecə də yaşlılarla qarşılıqlı münasibət və fəaliyyətini müəyyənləşdirən sosial motivlər.

İdrak motivləri yeni biliklərin qazanılması ilə bağlıdır və kiçik məktəb yaş dövründə demək olar ki, əksər məktəblilər üçün xarakterikdir. Bu, ilk növbədə yeni fəaliyyət növü, məktəb həyatının zahiri atributları, kollektivə adaptasiya olunmaq üçün kollektiv həyatı ilə bağlı yeni biliklərin mənimsənilməsindən irəli gəlir. Bir qayda olaraq, idrak motivlərinin formalaşmasında müəllimlər

daha mühüm rol oynayırlar. Müəllim hələ şagird tərəfindən tam idrak olunmayan idrak motivlərini tədricən möhkəmləndirmədikdə onun bu sahəyə marağı itir, şagirdlər psixi gərginlik keçirirlər. Onların diqqətləri asanlıqla lazım olmayan obyektə yönəlir. Nəticədə şagirdin təlimə marağı azalır.

Sosial motivlər isə kiçik məktəb yaş dövründə, xüsusilə II sinifdə daha kollektivdə mövqe tutmaq, təriflənmək. Yaşıdları və böyüklərin yanında nüfuz sahibi olmaq mahiyyəti kəsb edir. Yaxşı məktəbli mövqeyini qazanmaq şgirdin məktəbə marağını artırır, çalışır ki, həmişə dərslərinə hazır olsun, yüksək qiymətlər alsın, müəllim daim onu tərifləsin və s. lakin kiçik məktəblilərin məktəb həyatı ilə bağlı sosial motivi hələ də formal xarakter daşıyır. Onlar təlim ictimai mahiyyətini tam mənası ilə bilməsələr də böyüklərin tərifini eşitmək üçün ona sosial məzmun verməyə çalışırlar. “Yaxşı oxumaq istəyirəm ki, ata-anamı sevindirim”, “Əlaçı olacağam ki, gələcəkdə instituta daxil olum, yaxşı yerlərdə işləyim”, “Anam istəyir ki, mən böyüyəndə həkim olum, ona görə gərək yaxşı oxuyam” və s.

Təcrübə göstərir ki, təcrübəli müəllimlər şagirdlərin sosial təlim motivlərini səfərbər etmək üçün onların arasında yarış keçirir: “ Kim tez tapşırığı yerinə yetirər?”, “Kim tapşırığı daha səliqəli və tez həll edər?” və s. Bir çox hallarda ayrı-ayrı şagirdlər, xüsusilə “əlaçılar” da birinci olmaq motivi dominantlıq təşkil edir və bu özünü yaşıdları ilə qarşılıqlı münasibətlərdə də əks etdirir. Baxmayaraq ki, belə şagirdlər həmişə təlimdə müvəffəqiyyət qazanırlar, lakin bir qayda olaraq onların yaşıdları ilə münasibətlərində problemlər yaşanır.

İdrak motivləri ilə sosial motivlər qarşılıqlı vəhdətdə olur, biri digərinə təsir göstərir. Onların qarşılıqlı təsirini öyrənmək üçün biz “Tamamlanmamış dərs” metodundan istifadə etdik. Bu metod ondan ibarətdir ki, sinif müəllimi verdiyi tapşırığı şagirdlər başa çatdırmamış bildirir ki, vaxt tamam oldu. Qalan vaxtı kim nə işlə istəyir məşğul olsun. Müəllim isə özünü məşğul kimi göstərir: nə isə yazır və ya kitab oxuyur. Bununla belə o, gözaltı şagirdlərin davranışını müşahidə edir. Şagirdlərin bir çoxu tapşırığı bir kənara qoyub kənar işlərlə məşğul olmağa başlayırlar. Kimi oynayır, kimi şəkil çəkir və s. bu şagirdlərdə həmin fənnə qarşı marağın az olduğu, oyun motivi üstün olduğu özünü göstərir. Digərləri ətrafdakı səs-küyə baxmayaraq verilmiş tapşırığı sona çatdırmağa çalışırlar. Deməк, bu şagirdlərdə həmin fənnə maraq güclüdür. Üçüncü qrup isə tərəddüd içərisində müəllimə nəzər salır, gah oynayır, gah da tapşırığın üzərində işi davam etdirirlər. Bu qrupa aid ola şagirdlərdə isə həm oyun, həm də təlim motivləri eyni dərəcədə özünü göstərir.[6.səh.61]

Biz uşaq və gəncləri ilk gündən cəmiyyətdə və təbiətdə baş verən müxtəlif xarakterli hadisələrin mahiyyətini dərketməyə, ayrı-ayrı vəziyyətlədən səmərəli çıxış yolunu müəyyənləşdirərək, özünü cəmiyyətdəki yerini və həyati məsələləri qiymətləndirib ondan nəticə çıxarmağa istiqamətləndirməklə, onun gələcək həyat yolunu düzgün müəyyənləşdirmiş oluruq. Ölkədə baş verən iqtisadi, siyasi, ideoloji amillərin, ailə münasibətlərinin təhsil sahəsindı aparılan islahatların günü-gündən genişlənməsi, şagirdlərin bilik səviyyəsində qabaqcıl müəllim və valideyinlərin iş təcrübəsinin ümumiləşdirilməsinə olan ehtiyacın zərurətə çevrilməsi şagirdlərin dünyagörüşünün formalaşmasında əsas vəzifəyə çevrilir. Bu kimi vəzifələrin həyata keçirilməsi zərurəti onu birbaşa təsdiq edir ki, kiçik məktəb yaşlı uşaqlarda dünyagörüşünün formalaşması üçün indi daha çox əlverişli mühit yaranmışdır.

Belə ki bu gün övlad tərbiyəsi ilə məşğul olan valideynlərin böyük əksəriyyətinin ali təhsilli olmaqla yanaşı həm də onların böyük həyat təcrübəsi vardır. İctimai faydalı fəaliyyətə qoşulmaqla, onun məna və məzmununu dərk edən uşaqıaq bu prosesdə tapşırıqları birgə yerinə yetirməyi öyrənir, insanlara qayğı ilə yanaşır, bərabərlik, düzgünlük prinsiplərini pozanlara qarşı öz barışmazlıq vəzifə borclarını yerinə yetirirlər.[5]

Gəncə şəhərində bir neçə ibtidai sinif müəllimləri ilə apardığımız anket sorğuları,söhbətlər və həmçinin onların dərslərini dinləməyimiz nəticəsində belə qənaətə gəldik ki,şagirdləri elmi dünyagörüşü ruhunda tərbiyə etməyə qadir olan və bu sahədə müəyyən nailliyyətlər əldə edən müəllimlərimizin sayı çoxdur.

Bunlara nəzər alaraq biz Gəncə şəhərində M.Mehdizadə adına 4 saylı məktəbin ibtidai sinif müəllimi M.Məmmədova ilə əvvəlcə dərsin tərbiyəedici imkanlarından necə istifadə etdiyi mövzusunda

kiçik bir mübahisə apardıq. Müəllimə qeyd etdi ki, dərsdə mövzunun xüsusiyyətindən asılı olaraq şagirdə hansı keyfiyyətləri aşılayacağını öncədən planlaşdırır və qeydlər aparır.....

Müəllimə tərtib etdiyi plan əsasında "Novruz bayramı" mövzusunu keçərkən əvvəlcə uşaqlardan əvvəlki siniflərdə keçdikləri dərslərdə Novruz bayramının hansı əlamətlərini öyrəndiklərini, səməninin nə üçün qoyulmasını, bahar bayramını necə keçirmələrini soruşur və Novruz bayramı haqqında mətni uşaqlara oxutdurur. Bu mətndə onların əvvəllər öyrəndiklərini təkrar etsələr də zəngin əlavə məlumatlar da verilirdi

Müəllim göstərdi ki hər il martın 21-də yaz fəsli gəlir. Həmin gün gecə ilə gündüz bərabərləşir, təbiət oyanır, həyat canlanır. Şagirdlər pyrəndilər ki, Novruz eyni zamanda əmək, əkinçilik, bolluq, xeyir-bərəkət, firavanlıq bayramıdır. Bu bayramda insanlar da mahnılar oxumuş dilək diləmişlər ki, bolluq olsun. Ulu nənələrimiz bayram gəldiyində yun daramış, ip əyirmiş, xalı toxumuş, çöl-bacanı səliqə-səhmana salmağa başlamışlar. Bu adət-ənənə indi də davam edir, hər yerdə ağaclar əkilir, bağ-bağça salınır. Şagirdlər öyrənirlər ki, Novruz bayramında hamı yoxsullara, yaşlı nən-babalara köməklik edirləe, küsülülər barışır, qohumlar, qonşular bir –birinin evinə qonaq gedib gəlirlər. Bayram günləri xalq ouyunları, tapmacalar təşkilir olunur, kəndirbazlar, sehirbazlar öz hünərlərini göstərirlər. Sonra sinif müəllimi Novruz bayramının yaranma tarixi haqqında məlumat verir və onu da qeyd edir ki, 75 il Novruz bayramını keçirmək bizə yasaq edilmişdi. "Dünyanın ilk Novruz günü" türk rəvayətində uşaqlar göy türklərin kim olduğu ilə tanış oldular və onlar arasında güclü birliklərin olması haqqında məlumat aldılar. Şagirdlər öyrəndilər ki, dörd yüz ildən sonra türklərə dədə-baba yurdunu boz qurd tanıdıb. Düşmən yenə hücum edəndə göy türklər qələbə çalıb, şənlik edib: güləşmə yarışı, cəngi, rəqslər.. onlar ağacda boz qurd oynayıb, ona minnətdarlığını bildiriblər.

Belə tarixi hadisələri şagirdlərin anlaq səviyyəsinə uyğun, ondan lazımi nəticə çıxaracağı şəkildə izah etmək müəllimdən xüsusi usatlıq tələb edir. Müəllim nəzərdə tutmalıdır ki, bu siniflərdə şagirdlər nəsihət xarakterli, diqqəti cəlb edən epizodlarsız didaktik söhbətləri maraqla qarşılamır və ondan nəticə çıxara bilmirlər.

İbtidai siniflərin dərsliklərində şəxsiyyətin mənəvi keyfiyyətlərinin formalaşmasına xidmət edən xalq yaradıcılığı nümunələri, o cümlədən müdrik, el kəlamları, atalar sözləri, adət-ənənələrimizlə bağlı fikirlər, nağıl və dastanlar olduqca çoxdur. Onların öyrənilməsi yaradıcı şəkildə aparıldıqda şagirdlərin əxlaqi hisslərini, şüurunu fəaliyyətə gətirməkdə daha yaxşı bəhrə verir. Bu baxımdan M.Ə.Sabir adına 5 Saylı məktəbin sinif müəllimi Cəfərova Gülşən "Oxu" dərsində verilmiş "Dədə Qorqud" dastanını tədris edərkən onun tərbiyəvi imkanlarından bacarıqla istifadə edir. Müəllimə göstərir ki, təlimin tərbiyəedici imkanından yerində istifadə etmək üçün mən sözün emosional gücünə istinad edib, dediklərimin sinfə necə təsir etdiyini diqqətlə yoxlayıram. Şagirdlərin qavrama imkanlarını nəzərə almaqla hər hansı bir surət haqqında danışarkən qəhrəmanın apardığı mübarizənin səbəbini şərh edirəm.

Xalqımızın qiymətli abidəsi olan "Dədə Qorqud" dastanının insanın fiziki, zehni, estetik və mənəvi cəhətdən formalaşmasına müsbət təsir göstərən faydalı məsləhətləri ilə insanı nəcibliyə, böyüklüyə, işıqlı amallara səsləyir. Müsbət qəhrəmanların əxlaqi keyfiyyətlərini uşaqlar həmişə yüksək amal uğrunda apardığı mübarizə barəsində düşünür, fikrən onunla nəfəs alır, onun bu və ya digər cəhətini gözlərində görmək istəyirlər. Odur ki, şagirdin dünyagörüşünun formalaşmasına qayğı göstərən müəllim, onlara düzgün istiqamət verməlidir. Bir sözlə, şagirddə möhkəm əqidə və inamın yaranması müəllimin pedaqoji fəaliyyətinin düzgün təşkilindən çox asılıdır.

Ümumiyyətlə təlim prosesində kiçikyaşlı məktəbliləri elmi dünyagörüşü ruhunda tərbiyə etmək üçün dərs ilinin əvvəlində proqram materiallarını rüblər üzrə planlaşdırarkən hər bir fənnin proqramına müvafiq elmi dünyagörüşü tərbiyəsi üçün xarakterik materialın geniş planı tərtib edilib diqqətlə təhlil edilməlidir. Materiallar seçilərkən şagirdlərin şüur və anlaq səviyyəsi nəzərə alınmalıdır. Şagirdlərin elmi dünyagörüşü ruhunda formalaşdırılması müəllim tərəfindən müntəzəm, sistemli, məqsədyönlü və planlı şəkildə həyata keçirilməlidir

**ƏDƏBİYYAT**

1. Abbasov A.N., Əlizadə Ə.H. Pedaqogika. Bakı, Renessans, 2000
2. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşdırılması problemi. Bakı, Avropa, 2005, 264 s
3. Аьайев Я.Я. Мяктяблилярдя вятяндашлыг боржунун тярбийя едилмяси. Бакы, Маариф, 1975, 70 с.
4. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixolojiəsasları. Bakı, Elm, 2000, 187 s
5. Zeynalov S.M. Təlim və tərbiyə prosesinin aktual məsələləri. Bakı, Maarif,1990, 298 s
6. Kazımova G.S. Kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasinda qarşılıqlı münasibətlərin rolu: Psix. ü.f.d. nam. ... dis, Bakı, 2014, 134 s.

**ABSTRACT**

**G.S. Kazimova**

**THE WAYS OF FORMULATION DEVELOPING LEARNERS' SCIENTIFIC OUT LOOK IN LEARNING PROCEDURE**

At time when Azerbaijan is moving forward with confidence on path of its Independence much important advancement has been done in order to globalize and modernize education in the country.

The achievements in the implementation of education reform, extended education system are the most important and most complicated chain of primary education in a number of tasks;

Substantially it is necessary to raise the level of students' intellectual development, and the simple knowledge on the basics of science, to alight the students' basic knowledge about nature and society to formulate ideas, expand their awareness, their interest to develop comprehension. The teaching qualification, the ability of using teaching methods and principles of pedagogical skills, competency in the teaching, personal quality of a teacher, teacher's behavior and his own example create a basis for upbringing the spirit of scientific outlook in students in learning process

**РЕЗЮМЕ**

**Г.С. Кязимова**

**ПУТИ РАЗВИТИЯ ФОРМИРОВАНИЯ НАУЧНОГО МИРОВОЗРЕНИЯ УЧАЩИХСЯ В ХОДЕ УЧЕБНОГО ПРОЦЕССА**

Убедительно продвигаясь по пути независимости,наша страна проводит важные работы в направлении глоболизации и укрепления образования. Успехи достигнутые в области претворения в жизнь реформы образования, ставит ряд задач перед начальным образованием, которое является самым значимым,ответственным и сложным звеном в системе непрерывной образовательной системы: прежде всего это заключается в повышении необходимого уровня интеллектуального развития учащихся, предоставлении им доступных и простых знаний по основам наук, формировании у учащихся первычного, научного представления о природе и обществе, расширении их сознания, развитии интереса в области усвоения. Степень подготовленности учителя, его способность и умения в использовании методов и принципов образования, педогогическое мастерство, личные качества, манера поведения, его оброзцовые качества создают основу в воспитании учащихся в духе научного мировозрения в образовательном процессе.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**YAQUT ABBASOVA**
*Gəncə Dövlət Universiteti*

**UOT:370**

# TƏHSİL SİSTEMİNDƏ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏNİN KONSEPTUAL ƏSASLARI

**Açar sözlər**: *pedaqoji texnologiya konsepsiyası, kurikulum, fasilitator, pedaqoji səriştələr, təbiqetmə texnologiyası, texnologiyanın prosessuallığı*

**Key words:** *the concept of educational technology, the curriculum, fasilitator,pedagogical incompetent, pursuing technology, process of technology*

**Ключевые слова:** *концепция педагогической технологии, куррикулум, фасилитатор, технология внедрения педагогических навыков и способностей процессуальность технологий*

İnsanların dərketmə prosesləri onların davranışı, fəailiyyəti və ünsiyyəti ilə qarşılıqlı əlaqədə olduğundan, ictimai proseslər fərdlərin həyatına, onlar da öz növbəsində ictimai proseslərə təsir göstərir. Nəticədə dünyagörüşü, qiymətləndirmələr, münasibətlər yeni məzmun alır. Onun özünə, təhsil aldığı mühitə, bu mühitin obyekinə, subyektinə münasibəti dəyişir. Məhz bu baxımdan pedaqogikanın digər ictimai elmlərdən fərqi insan faktoru ilə bağlı olaraq predmetinin daimi dəyişməsi, yeniləşməsidir.

Təhsil eləcə də təlimin təşkili forması, cəmiyyətin və fərdin daha optimal əlaqələr qura biləcəyi bir məkandır. Təhsilin müasirliyi də özünün inkişafetdirici imkan və xüsusiyyətləri ilə müəyyən olunur, çünki təhsil sistemində, sadəcə olaraq yalnız təlim fənlərinin mənimsənilməsi, metod və vasitələrin uyğunlaşdırılması prosesi getmir. Təhsil sistemi, həm də öz qarşısına şəxsiyyət formalaşdırmaq kimi həlli çətin bir vəzifə qoyduğundan bu vəzifənin yerinə yetirilməsi üçün bir çox kriteriyalar, şərtlər, xüsusiyyətlər, amillər araşdırılmalıdır. Bu yolla təhsilin məzmununda, quruluşunda, prinsip və metodlarında əlverişli yollar müəyyənləşdirilməli, ən müasir texnologiyalar işlənib hazırlanmalıdır.

Texnologiya - hər hansı sahədə tətbiq edilən proyomların uyğunluğu, ustalıq, incəsənətdir. “Texnologiya” anlayışı mənşəyinə görə ilk dəfə XIX əsrin sonu, XX əsrin əvvəllərində istehsalatla bağlı olan ağır və yüngül sənayenin, metallurgiya, kimya, toxuculuq, yeyinti məhsullarının istehsalı və d. bu kimi sahələrdə işlədilirdi.

XX əsrin sonunda yeni təlim konsepsiyalarının inkişafı nəticəsində “texnologiya” pedaqogikada əsas anlayışlardan birinə çevrildi. Pedaqogikada texnologiya müxtəlif sahələrdə işlədilir: təhsil texnologiyası, təlim texnologiyası, tərbiyə texnologiyası, öyrənmə və mənimsəmə texnologiyası və s. Bu anlayışın sosial pedaqogikada da müxtəlif variantlarına rast gəlmək olur. Məsələn, kommunikativ, diaqnostik, proqnostik, psixote-rapevtik, profilaktik və reabilitasiya işinin funksiyalarının reallaşdırılması texnologiyası. YUNESKO tərəfindən “pedaqoji texnologiya” anlayışına belə tərif verilir: Pedaqoji texnologiya - texniki və insan resurslarını, onların qarşılıqlı təsirini nəzərə almaqla öz qarşısına təhsil formalarını optimallaşdırmaq vəzifəsi qoyaraq bir sistem, proqram yaratmaq üsuludur”.

B.F.Lixaçevin pedaqoji texnologiyaya verdiyi izah belədir: “Pedaqoji texnologiya - xüsusi nabor əmələ gətirən pedaqoji-psixoloji ustanovkaların, forma, üsul, texnika və təlim metodlarının, tərbiyə vasitələrinin uyğunluğu, pedaqoji prosesin metodiki alətidir” (wiki.tgl.net.ru).

V.M.Monaxov pedaqoji texnologiyanın mahiyyətini daha da aydınlaşdırır: “Pedaqoji texnologiya - layihələşdirilmiş birgə pedaqoji fəaliyyətin bütün detallarının modeli, şagirdlər və müəllim üçün sözün həqiqi mənasında münbit şəraitdə təlim prosesinin təşkili və keçirilməsidir” (3, 14).




*Şəkil 1. Pedaqoji texnologiyalara fəlsəfi-pedaqoji yanaşmalar (Şurkova)*

N.E.Şurkovanın tədqiqatlarında pedaqoji texnologiyanın tarixi-metodoloji məsələləri aydınlaşdırılır. Bu anlayışa fəlsəfi-pedaqoji yanaşmaların mahiyyəti izah edilir (4). Onun təhlilləri əsasında biz həmin yanaşmaların ierarxik sistemini qurduq (şəkil 1.). Tədqiqatçılar (N.F.Talızina, B.T.Lixaçov, Q.K.Selevko, T.S.Nəzərova və b.) hesab edirlər ki, pedaqoji texnologiya özündə bir sıra pedaqoji, psixoloji ustanovkaları, təlimin təşkili formalarını, üsul və vasitələri, priyomları, resursları birləşdirir. Məhz belə qarşılıqlı bağlılığına görədir ki, A.N.Abbasov təlim texnologiyaları anlayışını təlimin priyomları və vasitələri adı altında ümumiləşdirir: “Təlimin vasitələrinə aiddir: müəllimin sözü, dərsliklər, dərs vəsaitləri, kino, radio, televiziya, videomaqnitofon, kompüter, proqramlaşdırılmış təlimin xüsusi vasitələri, öyrədici maşınlar və s.” (5, 161). Müəllifə görə, priyom metodun tərkib hissəsi yaxud onun ayrıca bir tərəfi, metodun detalıdır, başqa sözlə, “metod”un ümumi anlayışına münasibət üzrə xüsusi anlayışdır. Nəql-təlimin metodudursa, plan barədə məlumat - diqqətin fəallaşdırılması priyomu olub, qavrayışın sistemliliyini təmin edir.

N.E.Şurkova pedaqoji texnologiyanı belə səciyyələndirir: “Pedaqoji texnologiya - tətbiqi pedaqoji elmdir. O, pedaqoqun malik olduğu mədəniyyətin köməyi və psixologiyada təsdiqini tapmış incə yolla, “şəxsiyyətə” toxunmaqla şagirdlərin ətraf mühitlə fəal qarşılıqlı əlaqələrinin tənzimlənməsi üçün vacib şərtlərdən birini - pedaqoqun şagirdlərlə birbaşa qarşılıqlı əlaqəsini təmin edir” (4, 12).




*Şəkil 2. Pedaqoji texnologiya aparatının quruluşu (Şurkova)*

N.E.Şurkova pedaqoji texnologiya analyışını bütöv bir aparat adlandıraraq həmin aparatda bir sıra kateqoriyaların yerini müəyyənləşdirir (4, 20): subyekt və obyekt, pedaqoji strategiya, pedaqoji taktika və əməliyyat, situasiya, təsir və qarşılıqlı təsir.

M.V.Çernıx, V.M.Monaxov, S.V.Vasekin və S.A.Muxanov pedaqoji texnologiyadan təhsil təcrübəsində 3 ierarxik səviyyədə istifadə olunduğunu bildirirlər (10, 9):

1) ümumi-pedaqoji (ümumi-didaktik) səviyyə: ümumi-pedaqoji (ümumi-didaktik, ümumi-tərbiyəedici) texnologiya həmin region üçün bütöv təlim prosesini xarakterizə edir. Burada pedaqoji texnologiya pedaqoji sistemə sinonimdir. Ona məqsədlərin uyğunluğu, məzmun, təlimin metod və vasitələri, subyektlərin fəaliyyətinin alqoritmi və prosesin obyekti daxildir;

2) sahələr üzrə metodik (fənlər üzrə) səviyyə: hissəli, fənn üzrə pedaqoji texnologiya, "sahələr üzrə metodika", bir fənn çərçivəsində həyata keçirilən təlim, tərbiyə, reallaşdırılan metod, vasitə, onların tətbiq edildiyi sinif, müəllim (fənnin tədrisi metodikası, əlavə təlim metodikası, müəllimin iş metodikası) nəzərdə tutulur;

3) lokal (modul) səviyyə: lokal səviyyə özündə təlim-tərbiyə prosesinin ayrı-ayrı hssələrinin texnologiyasını, didaktik və tərbiyəvi tapşırıları (ayrı-ayrı fəaliyyət sahələrinin, anlayışların, ayrı-ayrı şəxsiyyət keyfiyyətlərinin formalaşmasını, materialın təkrarı və nəzarət, müstəqil iş texnologiyasını və s.) ifadə edir.

Bununla yanaşı, texnoloji mikroquruluşlar da fərqləndirilir: priyomlar, hissələr, elementlər və s. Onlar məntiqi texnoloji zəncir yaradaraq bütöv bir pedaqoji texnologiyanı (texnoloji prosesi) əmələ gətirirlər.

Pedaqoji texnologiya pedaqoq tərəfindən yerinə yetirəcəyi əməliyyat və hərəkətlərin modelidir. Bu baxımdan biz ona pedaqoqun fəaliyyət modeli kimi də baxa bilərik. Model - "problemlərin təcrübəyə tətbiqinin hansı axarda olmasını təsəvvür etmək üçün istifadə olunan konseptual analoqdur" (7, 25).

Təlim texnologiyalarının bir sıra vacib əlamətləri də vardır:

- Texnologiyanın prosessuallığı;
- obyektin və şəraitin xarakterindən aslı olaraq metodların uyğunlaşdırılması;
- layihə üzrə istiqamətlənmə və səmərəli, təsirli proseslərdən istifadə.

V.P.Bespalko təlim texnologiyasının mahiyyətini belə izah edir (8, 97):

- ehtimallardan uzaqlaşmaq, təxmini layihələşdirməyə keçid;
- şagirdlərin tədris-dəərketmə fəaliyyətinin quruluş və məzmununun işlənilməsi;
- diaqnostik müxtəliflik və şagirdlərin təlim materialını mənimsəmə keyfiyyətinə obyektiv nəzarət, bütövlükdə şəxsiyyətin inkişafı;
- təlim-tərbiyə prosesinin quruluş və məzmun komponentlərinin reallaşdırılması prinsipləri.

B.B.Aysmontas pedaqoji texnologiyasını üç aspekt əsasında təqdim edir (9, 27):

1) elmi: pedaqoji texnologiya pedaqogika elminin tərkibində onun öyrənən və yeni məqsədlər işləyən hissəsi olub, təlimin məzmun və metodlari ilə layihələşdirilən pedaqoji prosesdir;

2) prosessual-təsviri: prosesin təsviri (alqoritm), məqsədin uyğunluğu, məzmun, təlimin planlaşdırılmış nəticələrinə çatmaq üçün metod və vasitələrdir;

3) prosesual-hərəki: texnoloji (pedaqoji) prosesin həyata keçirilməsi, bütün şəxsi, instrumental və metodiki pedaqoji vasitələrin funksiyalaşmasıdır.

Beləliklə, pedaqoji texnologiya elmin keyfiyyətini funksiyalaşdırır, təlimin daha rasional yolunu axtarıb tapır, təlimdə, real pedaqoji prosesdə tətbiq edilən vasitələr, prinsiplər, nizamlayıcılar qismində çıxış edir.

Pedaqoji texnologiya öz quruluşunda bir sıra alt quruluşlara bölünür. "Pedaqoji texnologiya" anlayışı özündə bu proseslə bağlı olan bir sıra altkomponentləri birləşdirir. Həmin komponentləri biz aşağıdakı qaydada sistemləşdirdik. Bu anlayışın təhlili göstərir ki, o daim inkiaşf etdiyindən texnologiya anlayışına yanaşmalar da daim dəyişir. Ona görə də pedaqoji texnologiyaların tədqiqi həmişə aktual problem olaraq qalır. Digər tərəfdən, pedaqoji texnologiyaların tətbiqi təlim prosesinin səmərəliliyini artırdığına görə, onun tədqiqinə həmişə ehtiyac vardır.




*Şəkil 3. Pedaqoji texnologiyaların altkomponentləri*

Göründüyü kimi, onlardan biri də təlim texnologiyasıdır. Təlim texnologiyaları pedaqoji sistemdə tətbiq olunur. Bu sistemin özünü xüsusiyyətləri təlim texnologiyasının müəllifinə müəyyən istiqamət verir. Həmin sistemin başlıca cəhətləri bunlardır (17, 187):

- inteqrativ keyfiyyətlər;
- tərkib hissələri, komponentləri;
- quruluş (hissələr və elementlər arasındakı münasibətlər);
- funksional xarakteristika;
- kommunikativ xassə (ətraf mühitlə əlaqə);
- tarixilik, varislik.

Sistemin əhəmiyyətli xarakteristikası məqsəd, oriyentasiya və nəticədir. Onların əsasında isə yeni bir anlayış - "texnologiya" və "yeni texnologiya" durur. Bu anlayışlar artıq pedaqoji prosesə müəllimin ənənvi yanaşmasını mümkünsüzlüyü, ona yeni təfəkkürlə yanaşmanın zəruriliyi, subyektlərlə qarşılıqlı münasibətlərin yeni məzmunda tənzimlənməsinin qaçılmazlığı, pedaqoji prosesin layihələşdirilməsinin zəruriliyi təəssüratı oyadır.

## ƏDƏBİYYAT


1. Abbasov A.N. Pedaqogika. Bakı, Mütərcim, 2010, 356 s.
2. Айсмонтас Б.Б. Теория обучения: Схемы и тесты. М, Владос-пресс, 2002, 176 с.
3. Беспалько В.П. Слагаемые педагогической технологии. М, Педагогика, 1989, 192 с.
4. Запрудский Н.И. Современные школьные технологии. М, Сэр-Вит, 2003, 288 с.
5. Монахов В.М. Технологические основы проектирования и конструирования учебного процесса. Волгоград: Перемена, 1995, 152 с.
6. Черных М.В., Монахов В.М., Васекин С.В., Муханов С.А. Педагогическая технология в модернизации образования: пять шагов к успеху. М, 2003, 58 с
7. Шадриков В. Д. Деятельность и способности. М, Логос, 1994, 320 с.
8. Щуркова Н.Е. Педагогическая технология. М, Педагогическое общество, 2002, 224 с.
9. http://www.wiki.tgl.net.ru

10. http://www.centr-tvorchestva.ru
11. http://www.kpfu.ru
12. http://www.pedlib.ru

**ABSTRACT**

**Yaqut Abbasova**

**CONCEPTUAL BASIS OF TEACHING TECHNOLOGIES IN THE EDUCATION SYSTEM**

The article is about the conceptual issues of modern educational technologies.The main issue of this process is abaout the attitude of the students to the new sourse of information. From this point of view among the new training facilities in the information technologies prevail.

This, psychological content of teaching technologies is express a mis appropriation process.

**РЕЗЮМЕ**

**Ягут Аббасова**

**КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ ПРИМЕНЕНИЯ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ.**

Статья посвящена концептуальным вопросам современных технологий обучения. Преимущество в этом процессе придается вопросу, о средствах получения учащимися информации и источникам информации.

В этом отношении среди инновационных средств обучения преимущество составляют информационные технологии.

Было выявлено что психологическое содержание включает в себя процесс усвоения.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 5 (86)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 5 (86)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 5 (86)**

**MİRVARİ VERDİYEVA**
**ƏSMƏT İSMAYILXANOVA**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

**UOT:378**

# MAGİSTR DİSSERTASİYASININ İŞLƏNMƏSİ TEXNOLOGİYASI ÜZRƏ TÖVSİYYƏLƏR

**Açar sözlər:** *magistr işi, elmi tədqiqat, elmi fərziyyə, elmi yanaşma*
**Key Words:** *Thesis, scientific research, scientific theory, scientific approach*
**Ключевые слова:** *Тезис, научное исследование, научная теория, научный подход*

Azərbaycan Respublikasının 19 iyun 2009-cu ildə qəbul etdiyi "Təhsil Qanunu" müasir dövrdə dünya standartlarına cavab verən təhsil sistemi yaratmaq məqsədi ilə təhsilin məzmununa və təşkilinə dair müəllimlər qarşısında yeni tələblər qoymuşdur. Belə ki, təlim prosesi elə təşkil olunmalıdır ki, təhsil alanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq və yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmağa imkan versin. Ali təhsil pilləsində isə cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığının həyata keçirilməsini nəzərdə tutur. Elə şəxsiyyət yönümlü kurikulumlar da bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Şəxsiyyətyönümlü kurikuluma görə, insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktik bacarıq və vərdişlər əhatə edilir, onun əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilir. [1]

Azərbaycan Respublikası Təhsil Nazirinin "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə"nin təsdiqi barədə əmrində magistrlik dissertasiyasının qarşısında qoyulmuş iki tələbdən birinə cavab verilməsi əsas götürülür. Belə ki, "magistr işi baxılan müvafiq elmi istiqamət üçün mühüm əhəmiyyəti olan hər hansı məsələnin yaradıcı həllinə və ya mühüm tədbiqi əhəmiyyəti olan texniki, iqtisadi və texnoloji işləmələrin təkmilləşdirilmiş elmi şərhinə" [2] həsr edilməlidir. Qarşıya qoyulmuş bu iki tələbdən hər hansı birini ödəmək üçün seçilmiş mövzular, plan, tədqiqatın istiqaməti, qarşıya qoyulan vəzifələr düzgün seçilməlidir. Magistr gələcəyin ixtisaslaşmış təhsil mütəxəssisidir. Onun mükəmməl yetişdirilməsi gələcəyin ixtisaslaşmış və müasir tələbələrə cavab verən təhsil işçisi ilə təminatı deməkdir. Magistr dissertasiyaları magistrantların elmi potensialını, mövzusuna müvafiq sərbəst tədqiqat aparmaq, müasir metod və yanaşmalardan istifadə etməklə qarşıya çıxan problemi aşkar etmək, onu yaradan səbəbləri müəyyənləşdirmək, problemi aradan qaldırmağa xidmət edən səmərəli metod və üsulları işləyib hazırlamaq, əsaslı arqumentlər gətirməklə, yeni ideya və təkliflər irəli sürmək bacarığını ortaya qoymalıdır. Magistr dissertasiyasının mövzusu magistrantın şəxsi elmi və praktik maraqlarına uyğun olaraq, özü tərəfindən seçilmə hüququna malik olsa da, ona təqdim olunan mövzular ixtisasa uyğun kafedranın əməkdaşları tərəfindən işlənib hazırlanmalıdır. Magistrant özü də mövzu təklif etmək imkanına malikdir. Lakin həmin mövzunun elmi cəhətdən nə dərəcədə aktual olması və elmi-praktik əhəmiyyət kəsb etməsi kafedra tərəfindən müzakirə edilməlidir. Yəni həmin mövzu tədqiq edilməmiş olsun. Hər yeni dissertasiya işi müasir nöqteyi-nəzərdən aktuallığı ilə seçilməli, müəyyən istiqamətdə elmi yenilik, tədqiqat metodikası ilə fərqlənməli, müvafiq model üzərində magistrantın praktik məsələləri həll etmək bacarığını özündə əks etməlidir.

Son dövrlərdə magistrlarla iş apararkən, onlar arasında doğru olmayan iş prinsipinin mövcudluğuna rast gəlinir. Belə ki, dissertasiya işi yazmaq üçün əvvəlcə, fəsillərin yazılması, sonra isə

fəsillərə uyğun plan-perstpektivin, girişin yazılması fikri mövcuddur və magistrlar da bu fikri əsas götürərək, əvvəlcə fəsilləri işləməyə çalışırlar. Lakin bu bir həqiqətdir ki, dissertasiyanın girişini, plan-perspektivini işləmədən, fəsilləri işləmək elmi cəhətdən düzgün düşüncə tərzi deyildir. Çünki, tədqiqatın aparılmasının elmi ardıcıllığı vardır və bu ardıcıllığın pozulması tədqiqatçını düzgün nəticəyə aparıb çıxartmaz. Belə ki, dissertasiya işi aşağıdakı ardıcıllıqla həyata keçirilməlidir:

Pedaqoji universitetlərdə dissertasiya işinin tədqiqinə, magistr, təhsilə aid sənədlərin araşdırılması ilə başlamalıdır. Bu araşdırma imkan verir ki, magistr seçdiyi mövzunun nə dərəcədə **aktual** olduğunu dərk etsin. Çünki sənədlərin araşdırılması təhsilin qarşısında qoyulmuş müasir tələbləri öyrənmək üçün magistra situmul verəcəkdir. Təhsilin təşkili, məzmunu, forması, iş prinsipləri, yeni yanaşmalara aid bilikləri mənimsəyən magistra inkan verəcək ki, təhsil prosesində mövzusuna uyğun problemi asanlıqla "görə" bilsin və onun aradan qaldırılmasının yollarını axtarmağa cəhd etsin. Nəticədə, magistr yeni ideya və fikirlər düşünüb tapır, səmərəli metodlar üzərində çalışır, problemin həlli yollarını müəyyənləşdirir. İşin sonunda mövzusunun nə dərəcədə aktual olduğunu və araşdırmasının müasir tələblər nöqteyi-nəzərindən qarşıya çıxan problemin həllinə yönəldiyini əsaslandırmağı bacarır.

Mövzusunun aktuallığını mövcud tələblər nöqteyi-nəzərindən əsaslandırdıqdan sonra, magistr tədqiq edəcəyi obyekti və predmeti müəyyənləşdirməyi hədəf seçməlidir. Tədqiq edəcəyi obyekti və predmeti müəyyən etmədən tədqiqatın ardıcıllığına-alqoritminə əməl edə bilməz. Ona görə də tədqiqatçı obyektini və predmetini təyin etməlidir. **Obyekt** yalnız konkret elm üçün səciyyəvi olub, həmin elmə məxsus nəzəriyyə ilə ona xas olan nöqteyi-nəzərindən araşdırılan konkret istinad sahəsidir. **Predmet** isə konkret elm tərəfindən öyrənilən, dəqiq sərhədlərə malik olan obyektdir. Bu səbəbdən tədqiqatçı magistr tədqiq edəcəyi obyekti və predmeti yüksək dərəcədə dəqiqliklə təyin etməyi bacarmalıdır. Belə ki, təhsilin keyfiyyətinin yüksəlməsinə mane olan problem araşdırılmağa eytiyacı olan konkret obyekt, mövcud problemin yaratdığı və şəxsiyyətin formalaşmasına mane olan amillər isə tədqiqatın predmeti olacaqdır. Magistr da asanlıqla seçdiyi mövzu üzrə araşdırmalı olduğu konkret obyekti və predmeti çətinlik çəkmədən müəyyən etməyi bacaracaqdır.

Tədqiq edəcəyi konkret obyektini və predmetini müəyyən edən magistr qarşısına hansı məqsədi qoymalı olduğunu təyin edəcəkdir. Çünki, obyekt və predmetin müəyyən edilməsi özlüyündə hansı məqsədə nail olunacağını düşünməyə imkan verir. Tədqiqatçı araşdırma aparmaqla nəyə nail olmağa can atdığını daha aydın dərk edir və **tədqiqatın məqsədini** müəyyənləşdirir. Tədqiqatın məqsədi magistrın mövzusu baxımında təhsilin qarşısında yaranmış konkret problemin aradan qaldırılmasını hədəfləyir. Problemə yanaşma tərzi araşdırılır. Əgər problem dialektik yanaşmanı tələb edirsə, yəni, biliyin mənimsənilməsinə, bacarığın qazanılmasına və şəxsiyyətin formalaşmasına səbəb olursa, araşdırma kompleks xarakter alır. Belə olan təqdirdə tədqiqatçı dialektik yanaşmanı tətbiq edir. Problem tarixi dövrlərdə müxtəlif formada təzahür edibsə, tədqiqatçı tarixi yanaşmaya üstünlük verir. Yəni problemə yanaşma tərzi müxtəlif ola bilər. Bu səbəbdən tədqiqatçı qarşısına məqsəd qoyarkən problemə **yanaşma tərzini** də təyin etməlidir.

Tədqiqatın məqsədini müəyyən edən tədqiqatçı, məqsədinə nail olmaq üçün görəcəyi işləri planlaşdırmağa başlayır. İşini planlaşdırarkən öz qarşısına yerinə yetirməli olduğu vəzifələri qoymağa cəhd edir. Anlayır ki, görəcəyi işləri müəyyən bir ardıcıllıqla yerinə yetirməlidir. Bu ardıcıllığın biri-digəri ilə sıx bağlı olub, kompleks elmi araşdırmanı yaradır. Bu səbəbdən də qarşısına qoyduğu vəzifələri lazım gələn elmi ardıcıllıqla sıralayır və nəticədə **tədqiqatın vəzifələrini** müəyyən etmiş olur. Vəzifələrin birincisi təhsilə aid dövlət sənədləri və elmi ədəbiyyatların araşdırılması olmalıdır. Tədqiqatçı bu araşdırmalarda təhsilə aid sənədlərin məzmununu öyrənir və müasir dövrdə təhsil sahəsində təhsilalanlarla, təhsil verənlərin qarşısında duran vəzifələrin nədən ibarət olduğunu görə bilir. Bu vəzifələrin yerinə yetirilməsini həyata keçirərkən, yaranmış problemin aradan qaldırılması üçün öz tədqiqat işində hansı vəzifələri yerinə yetirməli olduğunu müəyyən edir. Elmi ədəbiyyatları araşdırarkən isə, ona qədər tədqiqat aparmış elm adamlarının araşdırdığı məsələləri öyrənir. Araşdırdığı məsələyə aid olan elmi-nəzəri müddəaları müasir vəziyyətlə müqayisə edir, tutuşdurur, problemin yaranma səbəblərini

öyrənir. Müasir şəraitdə dəyişən dünyada, ölkəmizin təhsil sisteminin dünya təhsilinə inteqrasiya olunması nöqteyi-nəzərindən, problemə qlobal yanaşaraq, həlli yollarını araşdırmaq üçün yeni vəzifələrin yerinə yetirilməli olduğunu təyin edir. Nəticədə yerinə yetirilməsi lazım olan bütün vəzifələrini müəyyən etmiş olur.

Yuxarıda göstərilən işləri ardıcıl gördükdən sonra, tədqiqatçı araşdırmaları nəticəsində elmə nə kimi tövhələr verə biləcəyini dəqiqləşdirir. Əgər elmə yenilik gətirə bilmirsə, deməli, araşdırmanın mənası yoxdur. Lakin tədqiqatçı elmə yenilik gətirə biləcəyini öncədən görməyi bacarmalıdır. Belə ki, elmi tədqiqat–obyektin görünməyən qanunauyğunluqlarının, elementlərinin, komponenetlərinin qarşılıqlı əlaqələrini öyrənərək, səmərəli yeni elmi nəticələrə nail olmaq üçün göstərilən fəaliyyətdir. Tədqiqatçı da öz fəaliyyəti nəticəsində mövcud vəziyyəti araşdırmaqla, yaranmış problemi asanlıqla müəyəyn edə bilir. Problemin həlli yollarını araşdırarkən yeni-müasir baxış nöqteyi-nəzərindən yanaşır. Müasir dövrdə müasir şəxsiyyətin yetişdirilməsi üçün yenilik yaratmağın vacibliyini dərk edir. Nəticədə, araşdırmalarının-tədqiqatın **elmi yeniliyini** ortaya qoyur.

Elmi tədqiqatın əsasən iki tərəfi mövcuddur:

**1.** Tədqiq ediləcək obyekt haqqında nəzəri müddəalar irəli sürmək-yəni tədqiqatçı elmi işinə əvvəlcədən proqnoz verir. Fərziyyələr irəli sürür, yeni və mütərəqqi ideyalar təklif edir, müasir mövcud problemin həlli yollarını göstərir. Proqnoz verir ki, onun təklif etdiyi yeni metodları, ideyaları tətbiq etməklə, problemin müsbət həllinə nail olmaq mümkündür.

**2.** Tədqiqatın aparılmasını həyata keçirmək üçün müəyyən edilmiş metodları müəyyənləşdirmək-yəni elmi araşdırmaları həyata keçirmək üçün tədqiqatçı lazım gələn metodları göstərir. Tətbiq üçün elə metodlar seçir ki, problemin yaranma səbəblərini aşkar edə bilsin, eyni zamanda problemin aradan qaldırılması mümkün olsun. **Tədqiqatın metodlarını** müəyyən edərkən tədqiqatçı məqsədini, qarşısına qoymuş olduğu vəzifələri, yanaşma tərzini, araşdırma istiqamətlərini, fərziyyələrini, problemin həlli yollarını nəzərə almalıdır.

Tədqiqatın metodları adətən **nəzəri təhlillə** başlayır. Çünki, tədqiqatçı təhsilə aid sənədləri, arxiv materiallarını, elmi ədəbiyyatı araşdırmadan, problemə yanaşma tərzini müəyyən edib, səbəblərini aşkara çıxara bilməz. İnformasiya mənbələri üzərində tədqiqatın başlanmasının əsas məqsədi ondan ibarətdir ki, tədqiqatın obyekti barədə mövcud olan elmi məlumatı mənimsəsin. Burada obyekt haqqında müxtəlif mənbələrdə müxtəlif informasiyalar mövcud ola bilər. Tədqiqatçı informasiya mənbələrinə müraciət edərkən əsas işi, məlumatla tanış olmaq deyil, eyni zamanda əldə etdiyi məlumatın lazım olan qiymətli faktlarını seçib qeyd etməkdən ibarətdir. İnformasiyaları əldə etdikdən sonra tədqiqatçının növbəti işi faktiki məlumatları təhlil etməkdir. Ola bilər ki, müxtəlif mənbələrdə obyekt haqqında müxtəlif fikirlər olsun. Bu olduqca təbii haldır. Çünki fakt müəlliflərinin bilik səviyyəsi, yaşadığı tarixi şərait, düşüncə tərzi, obyektə yanaşma tərzi, sosial-iqtisadi rejim, obyektin inkişaf və ya yerləşmə şəraiti müxtəlif olur. Bu səbəbdən də eyni obyekt haqqında fərqli fikirlər meydana çıxır. Tədqiqatçının məharəti ondan ibarətdir ki, obyektə kompleks yanaşmaqla, faktiki materialların da kompleks təhlilini aparmağı bacarsın və müasir şəraitə uyğun, tələblər baxımından öz sözünü deməyi bacarsın.

Problemi öyrənmək və həlli yollarını müəyyən etmək üçün tədqiqatçı mütləq müşahidə metodunu tətbiq etməlidir. Çünki prosesi müşahidə etmədən, qarşıya çıxan problemin yaranma səbəblərini dəqiq təyin etmək olmaz. **Müşahidə metodu** problemi görməyə, yaranma səbəblərini aşkar etməyə imkan verən ən dəyərli metoddur. Buna görə də müşahidəsiz keçinmək olmaz.

Problemin yaranma səbbələrinin kompleks öyrənilməsi müsahibə metodunun istifadəsini tələb edir. **Müsahibə metodu** təhsilverənin, təhsilalanın və valideyinlərin, məktəb rəhbərliyinin fikirlərini öyrənməyə əlverişli şərait yaradır. Nəticədə, problemin yaranmasının nədən qaynaqlandığını asanlıqla aşkar etmək olar.

Nəzəri təhlil, müşahidə və müqayisə metodlarının nəticələri tədqiqatçıya imkan verir ki, əvvəlki dövrlərlə müasir dövr arasında müqayisə apara bilsin. **Müqayisə metodunun** tətbiq edilməsi vacib olduğundan, tədqiqatçı müqayisələr aparmağa, tutuşdurmağa məcbur olur. Müqayisələr nəticəsində

problemin yaranma səbəblərini aşkar edir və həlli yollarını müəyyən etmək asanlaşır. Müqayisələr nəticəsində mövcud problemin müasir dövrlə əvvəlki dövrlərdəki oxşar və fərqli xüsusiyyətlərinin tədqiqatçı tərəfindən aşkar edilməsi üçün əlverişli şərait yaranır. Bu səbbədən də tədqiqatçı **tipoloji yanaşma metodunu** tətbiq etməyə sövq edilir. Problemin yaranma səbəblərinin oxşar və fərqli xüsusiyyələrinin öyrənilməsi onun aradan qaldırılması yollarını düşünməyi asanlaşdırır. Eyni zamanda **induktiv** və **deduktiv** tədqiqat metodlarından da istifadə edilir.

Araşdırmaların sonunda tədqiqatçı təqdim etdiyi yeni sistemin-**tədqiqatın nəzəri əhəmiyyətini** qeyd etməlidir. Göstərməlidir ki, bir tədqiqatçı kimi elmə gətirdiyi bu yenilik həmin elm sahəsində böyük dəyərə malikdir və elmin inkişafına dəyərli bir tövhədir. Eyni zamanda **tədqiqatın praktik əhəmiyyətini** də göstərməklə, öz əsərindən təhsilin hansı sahələrində istifadə olunacağını və kimlər tərəfindən tətbiq ediləcəyini əvvəlcədən müəyyənləşdirməlidir.

Tədqiqatçının apardığı elmi araşdırmalarının sonunda əldə etdiyi **nəticələr** və verdiyi **tövsiyyələr** öz əksini tapır.

Yuxarıda göstərilən istiqamətlərdə fəaliyyət göstərmədən magistr işini yazmaq mümkün deyildir. Bu səbbədən də magistr tədqiqatına başlayan hər bir tədqiqatçı mütləq dissertasiya işinin plan-perspektivini işlədikdən sonra fəsillərin mətni üzərində çalışmalar aparmalıdır. Plan-perspektivin işlənməsi dissertasiyanın mətninin yazılmasını asanlaşdırar və uğurlu bir tədqiqat işi ortaya qoyula bilər.

## ƏDƏBİYYAT


1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 2009.
2. "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasna-mə"nin təsdiqi barədə Azərbaycan Respublikası Təhsil Nazirinin əmri, 20.04.1998, № 202.


## ABSTRACT


**M.I.Verdiyeva**
**A.I.Ismayilkhanova**


**RECOMMENDATIONS ON MASTER'S THESIS TECHNOLOGY DEVELOPMENT**


The article provides rules for the thesis preporation. The importance of compliance with sequence-algorithm of scientific research has been particularly indicated. In order to help to the Magisters, scientific explanation for each algorithm and methodological recommendations have been given in the article.


## РЕЗЮМЕ


**М. И. Вердиева**
**А.И.Исмаилханова**


**РЕКОМЕНДАЦИИ ПО РАЗРАБОТКЕ ТЕХНОЛОГИИ МАГИСТЕРСКОЙ ДИССЕРТАЦИИ**


В статье приведены правила для подготовки диссертации. Было особенно указано важность соблюдения последовательности-алгоритма научного исследования. С целью помочь магистрам, в статье были даны научное объяснение для каждого алгоритма и методические рекомендации.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

# SƏNƏTŞUNASLIQ

**QADİR ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
**HEYDƏR ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 72.03**

## OĞLANQALA TİKİNTİ NÖVLƏRİ

**Açar sözlər:** *"Siklop" tikinti, Fort divarları, müdafiə qurğuları, memarlıq forması, abidə*
**Keywords:** *"Siklop" construction, Fort walls, defence constructions, architectural form, monument*
**Ключевые слова:** *строительство "сиклоп", крепостные стены, оборонные сооружения, архитектурная форма, памятник*

Vətən torpağının doğma güşələrindən biri olan, Şərqi Qərblə, Şimali Cənubla birləşdirən, ucsuz-bucaqsız yolların qovşağında yerləşən, dəfələrlə işğala məruz qalan doğma vətənimiz Naxçıvanın zaman-zaman daşı daş üstündə qalmayıb, babalarımızın ağır zəhmət bahasına qurduğu şəhərlər, kəndlər, memarlıq abidələri yerlə yeksan olub.Lakin dövran keçib, zaman dəyişib, xarabazara çevrilmiş olan Naxçıvan yenidən dirçəlib, əvvəlki görkəminə qaytarılıb, hətta əvvəlkindən da möhtəşəm olub."Orta əsrlər dünyasını köklü surətdə dəyişdirən iki taleyüklü hadisə - Ərəb işğalı ilə Monqol işğalı arasında qalan böyük dövr bütöv Azərbaycan, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixində silinməz izlər qoymuşdur". [6. s. 6 ].

VII əsrin ortalarında ərəblər Azərbaycana gəldikdən sonra özünün əlverişli, geosiyasi və strateji mövqeyinə görə ərəb ordusunun dayaq məntəqələrindən biri olan Naxçıvan sonrakı dövrdə siyasi-iqtisadi və mədəni mərkəz kimi əhəmiyyətini artırmış,yüzillərdən bəri fəaliyyət göstərən Böyük İpək yolunun şaxələri vasitəsi ilə o vaxtkı dünyanın məhşur ölkə və şəhərləri ilə əlaqə saxlamışdır.

Antik dövrdən Orta əsrlər dövrünə qədər Azərbaycan hökmdarları hər şeydən əvvəl sərkərdə və hərbiçilər olduqları üçün xalqın əmin-amanlığını saxlamaq və karvan yollarının təhlükəsizliyini təmin etmək məqsədi ilə müdafiə qurğularının tikintisinə böyük önəm verirdilər. Azərbaycan müdafiə tikililəri yüzlərlə möhkəm qala kimi istər Azərbaycanın, istərsə də ən Yaxın Şərq regionunun müxtəlif hakim sülalələrinin təhlükəsizliyini müdafiə qurğuları ilə təmin etmişdir.

Son illərdə muxtar respublika ərazisində aparılmış arxeoloji qazıntılar, müxtəlif yazılı mənbələr göstərir ki, bu ərazi hələ 5 min il bundan əvvəl ilkin şəhər mədəniyyətinin formalaşdığı qədim yaşayış məskəni olmuşdur. Bizim dövrə qədər gəlib çatmış bir sıra memarlıq abidələri, onların inşaat sənətinin inkişaf xüsusiyyətlərini və eləcə də inşaat sənət tarixini öyrənməyə imkan verən qiymətli mənbələrdir. Eyni zamanda Azərbaycanın qədim və orta əsr inşaat sənətinin problemləri zəif işıqlandırılmış və bu sahədə olduqca az tədqiqat işləri aparılmışdır. Qədim inşaat konstruksiya və materiallarına aid mövcud elmi mənbələr məhdud olmaqla bərabər qədim Azərabaycan inşaat sənət tarixi mərhələlərini ardıcıl surətdə izləməyə imkan vermir. Bununla belə arxeoloji tədqiqatlar nəticəsində Azərbaycan, o cümlədən Naxçıvanın inşaat sənəti tarixini tədqiq etmək və onun ayrı-ayrı inkişaf mərhələlərinin xarakteristikasını izləmək mümkün olmuşdur. " Qədim memarlıq abidələrini, bu abidələri meydana gətirən cəmiyyəti, abidələrin inşaat materiallarını, qədim yaşayış məskənlərinin inşaat sənət tarixini tədqiq etmək və onun ayrı-ayrı

inkişaf məhələlərini xarakteristikasına dair az da olsa material toplamaq mümkün olmaşdur ” [2. s. 149].

Məqsədimiz Naxçıvan MR ərazisindəki siklop tikililərin araşdırılması olduğu üçün bu quruluşun mahiyyətini aydınlaşdırmaq gərəkdir“. Siklop tikililərin əhəmiyyəti haqqında arxioloqlar arasında müxtəlif fikirlər var. Bəziləri siklop tikililərin dini məqsədlər, bəziləri isə yaşayış məskəni kimi istifadə edildiyini söyləyir. Bu tikililərin orta əsrlərin qəsrləri - qalaları olması haqqında fikir söyləyənlər də vardır ”[1. s. 24].

Tarixi mənbələrdən aydındır ki, siklop tikililərin əksəriyyəti tunc dövrünə aid olub köçəri sənətə xidmət etmişdir. Maldarlıqla məşğul olan köçərilər heyvanları saxlamaq üçün sığınacaqlar düzəldirdilər. Elə indi də yaylaqlarda heyvanları saxlamaq üçün bu cür sığınacaqlardan istifadə edilir. Eyni zamanda tayfalar arasında gedən çəkişmələr zamanı bu tikililərdən bir sığınacaq kimi istifadə edilmişdir. Siklop tikililərin xarakteri haqqında mədəniyyət və incəcənət nəzəriyyəçilərinin müxtəlif fikirlər var. Lakin onların əksəriyyəti bu tikililərin Orta Əsrlərin qəsr - qalaları olması fikrini irəli sürürlər [2. s. 57].

Siklop tikililəri xarakterizə edən İ. N. Meşşaninov yazırdı: “Azərbaycanda e. ə. I minilliyə aid məskənlər haqqında hələlik əlimizdə dəqiq məlumat yoxdur. Lakin Azərbaycanın dağlıq rayonlarında həmin dövrə məxsus müdafiə məqsədi ilə tikilmiş və inşaat sənətinə görə siklop qəsrlər adlanan xeyli miqdarda nəhəng tikililər mövcuddur ” [4. s. 65]

Siklop tikililərin hörgü quruluşu dövrünün memarlığı üçün səciyyəvidir. Azərbaycan ərazisində siklop tikililərin daha çox zəngin olan ərazisi Naxçıvan Muxtar Respublikasıdır. Bu səbəbsiz deyil.

Çünki qədimdən muxtar respublikanın ərazisində yaşayan xalqların təhlükəsizliyinin təmin olunması üçün müdafiə tikililərinin inşa edilməsi zəruri idi. Eradan əvvəlki minilliklərdə muxtar respublikanın ərazisindəki mülki memarlığa gəldikdə isə əldə olan materialların həddən artıq azlığı hətta yaşayış binalarının və ictimai tikililərin memarlıq planlaşma məsələləri haqqında belə təsəvvür yaratmağa imkan vermir. Lakin bir şey aydındır ki, böyük bir ərazidə bir sistem halında olan istehkam tikililərin olması həmin dövrlərdə bu ərazilərdə böyük yaşayış məskənlərinin olmasından xəbər verir.

“Məlumdur ki, nəhəng müdafiə istehkamları konstruktiv cəhətdən sadədir, onların tikintisində çoxlu miqdarda mütəxəssis olmayan işçi qüvvəsi iştirak etməlidir. Lakin iri yaşayış yerlərinin müdafiəsi üçün inşa edilən belə istehkamların tikintisində relyefin mürəkkəbliyini, ağırlığı bir neçə tona çatan, emalı çətin olan iri ölçülü təbii daş materiallarının tikinti sahəsinə gətirilməsini, quraşdırılma texnologiyasının çətinliyini, konstruktiv quruluşunun mürəkkəbliyini nəzərə alsaq burada yüksək ixtisaslı ustaların, mühəndis texniki işçilərin çalışdığını isbat etmiş oluruq. Bu da eradan əvvəlki minilliklərdə - hələ tunc dövründə Muxtar Respublikanın ərazisində yaşayan xalqların böyük bir mədəniyyətə sahib olmalarından xəbər verir ” [5. S. 149].

Muxtar Respublika ərazisində ən görkəmli müdafiə tikililərindən biri də Naxçıvan MR Şərur rayonunda e. ə. 2-ci minilliyə aid Arpaçay sahilində Qaratəpə dağında yerləşən Oğlanqala yaşayış yeridir (şəkil 1).



*Şəkil 1. Oğlanqala yaşayış yeri*

Siklop tikililərdən ibarət olan, “ Yonulmuş nəhəng daşlardan tikilmiş bu hörgülər dağın zirvəsində yerləşən istinadgahı əhatə edən, dairəvi şəkildə yerləşmiş qala divarlarından ibarətdir. Qala divarları iri daşlardan quru, yəni məhlulsuz hörgü üsulu ilə düzəldilmişdir. Daşların hündürlüyü 1, uzunluğu isə 1,4 m- ə çatır. Hörgü cərgələri Kiçik Qafqazın dağlıq yerlərində əyri-üyrü daşlardan səliqəsiz hörülmüş nəhəng tekililərdən (hündürlüyü 3m-ə qadər olan) fərqlənir ” [1. S. 24].

Şəkil 2-də Oğlanqala müdafiə tikililərinin bərpa layihəsi göstərilib. Bərpa layihəsinə əsasən müdafiə tikilisini aşağıdakı hissələrə ayırmaq olar:




*Şəkil 2.Oğlanqala müdafiə tikililəri. Bərpa layihəsi*

*Qala divarları ətrafında istehkam tikililərinin qalıqları (Şəkil 2-də 1 saylı hissə. şəkil 3)*



*Şəkil 3. Oğlanqala müdafiə tikililəri. Qala divarları ətrafında istehkam tikililərinin qalıqları.*



*Şəkil 4. Oğlanqala müdafiə tikililəri. Qala divarlar*

Qala divarlar. (Şəkil 2-də 2 saylı hissə. şəkil 4)

Kobud yonulmuş nəhəng daşlardan tikilmiş qala divarlarının qalınlığı 1m.dən çoxdur.“Siklop tikililərə aid edilən qala divarlarının qalıqlarından bəzi yerlərdə üst-üstə qoyulmuş 4 cərgə daş qalmışdır “[5. s. 386].(Şəkil 1-də 2 saylı hissə. şəkil 4).



*Şəkil 5. Oğlanqala müdafiə tikililəri. Qala divarlar*

Oğlanqalanın mərkəzindəki düz meydançada sahəsi 70 x 100m. olan Narınqala inşa edilmişdir (Şəkil 2-də 3 saylı hissə. şəkil 5).



*Şəkil 5. Oğlanqala müdafiə tikililəri. Narınqal hissədə yaşayış yerlərinin qalıqları*

Narınqalada aparılan qazıntılar zamanı sütunlarla əhatə olunan sarayın qalıqları aşkar olmuşdur. Aşkar olunmuş arxioloji materialların əksəriyyəti boz və çəhrayı rəngli saxsı materiallarından ibarətdir. Əlverişli təbii-coğrafi mövqedə yerləşən Oğlanqaladan uzun müddət müdafiə istehkamı kimi istifadə olunduğunu göstərir. Tədqiqatlar nəticəsində Oğlanqalanın əsas fəaliyyət dövrünün e. ə. IX-IV əsrlər olduğu aydınlaşdırılır. Yaşayış yerinin müasir dövrə qədər qalıqları e. ə. II minilliyin əvvəllərində tikilmiş və antik dövrə qədər istifadə olunmuşdur.

Aparılan tədqiqat göstərir ki, eradan əvvəl II-I minilliklərdə Muxtar Respublikanın demək olar ki, hər yerində böyük şəhər mədəniyyəti formalaşmış, siklop tikililər isə bu şəhərlərin müdafiəsini təmin etmişdir. Siklop tikililər təkcə müdafiə məqsədini daşımır, həm də eradan əvvəlki dövrlərdən başlayaraq bu ərazidə mühəndis texniki işləri aparan mühəndislərin və güclü texnikanın olmasından xəbər verir. Çünki, Oğlanqala abidələrində qala divarların tikintisi üçün ağır daşların qaldırılması zamanı mütləq güclü inşaat texnikası lazım idi. Ən iri inşaat materialı olan daşlar isə qala divarlarında istifadə olunmuşdur. Narınqalada isə həm də yonulmuş daş materialında istifadə olunmuşdur.

## ƏDƏBİYYAT

1. K. M. Məmmədzadə. Azərbaycanda inşaat sənəti. Bakı, 1978, 207 s.
2. C. Ə. Xəlilov. Qərbi Azərbaycanın Tunc dövrünün axırı və dəmir dövrünün əvvəllərinə aid abidələri. Bakı, 1959

3. Naxçıvan: İlk yaşayış və şəhərsalma yeri kimi. Naxçıvan 2012. 397s.
4. Мешшанинов. История Азербайджана по археологическим памятникам. Изв. АзФАН СССР, 1944. №7
5. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: 2008. 519 s.
6. Nailə Vəlixanlı. Naxçıvan- Ərəblərdən Monqollaradək. Bakı 2005, 151s

## ABSTRACT

**Gadir Aliyev**
**Haydar Ahmedov**

### OGHLANGALA ARCHITECTURAL STRUCTURES

Preislamik times there remained a qreat need for the stronq defense sistem whish kould guarantee the security of the cities. A special attention was paid tu the defence of the inner cities Shahristan, they were surrounded by the deep entrenchments and fortified walls.

The territory that Nakhchivan AR located is rich with ancient defence constructions. One of them is Oghlangala which is located at the Sharur district of the Nakhchivan AR. The architectural characteristics of the fort walls of this ancient construction has still not been researched, though there are rich archeological materials which are procured as the consequence of archeological studies at the field. In this article, architectural structure of defence constructions are analyzed which were built using of "siklop" method. It is clarified that Oghlangala has surrounded by double defence mechanisms which belongs to BC nineth-fourth centuries. Naringala has rich architectural structure which its remains can be seen even today. Naringala is located at the central part of Oghlangala.

## РЕЗЮМЕ

**Кадир Алиев**
**Гейдар Ахмедов**

### АРХИТЕКТУРНЫЕ СООРУЖЕНИЯ ОГЛАНГАЛА

Доисламский период существовало острейшая необходимость в создании мошной оборонительной системы для обеспечения безопосности городов. Особое внимание уделяется защитие цитадели и шахристана, они окружалис рвами, мощными крепостными стенами и башниями.

Территория, на которой расположена Нахчыванская АР, богата древними защитными сооружениями. Один из них - Оглангала, который расположен в районе Шарур Нахчыванской АР. Архитектурные особенности крепостных стен этого древнего строительства еще не исследованы, хотя есть богатые археологические материалы, которые закупаются в результате археологических исследований на поле. В этой статье анализируется архитектурная структура оборонных конструкций, которые были построены с использованием метода "сиклоп". Проясняется, что Оглангала окружен двойными защитными механизмами, которые принадлежат к XIX-IV векам. Наринкала имеет богатую архитектурную структуру, ее останки можно увидеть и сегодня. Наринкала находится в центральной части Оглангалы.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

**HƏBİBƏ ALLAHVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT : 792**

# NAXÇIVANDA SƏHNƏQRAFİYANIN İNKİŞAFINDA BƏDİİ TƏRTİBAT OBRAZ-ATRİBUT KİMİ

**Açar sözlər:** *Naxçıvan dram teatrı, səhnə tərtibatı, üslub müxtəlifliyi, teatr rəssamılığı*
**Key words:** *Nakhchivan drama theater, stage design, stylistic diversity, theater artist*
**Ключевые слова:** *Нахчыванское драма театре, сценография, разнообразие стилей театральные художники*

Tamaşanın ideya məzmununun açılmasında mühüm rol oynayan rəssam işi tarixən realizm səpkidə yaranıb inkişaf edərək, müxtəlif forma axtarışları, ifadə vasitələri ilə formalaşab daha çox müasir dövrümüzdə səhnəyə qoyulan tamaşaların tərtibatlarında obraz-atribut kimi özünü göstərmişdir. Bu Azərbaycan mədəniyyətində mühüm yerlərdən birini tutan Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulmuş tamaşalara tərtibat verən teatr rəssamlardan Yuran Məmmədovun, Hüseynqulu Əliyevin, Səyyad Bayramovun, Əbülfəz Axundovun yaradıcılığında əksini tapmışdır. Y.Məmmədovun yaradıcılığında C.Məmmədquluzadənin "Dəli yığıncağı", "Ölülər", C.Cabbarlının "Oqtay Eloğlu", Avqsenti Saqarellinin "Tiflis yengələri", H.Əliyevin yaradıcılığında H.Cavidin "Afət", Əli Əmirlinin "Şah Qacar", S.Bayramovun yaradıcılığında H.Cavidin "Topal Teymur", Əbülfəz Axundovun yaradıcılığında isə N.Nərimanovun "Nadir şah", N.Həsənzadənin "Atabəylər", H.Cavidin "İblis", "Siyavuş", H.E.Lessinqin "Müdrik Natan", Ç.Aytmatovun "Manqurt", H.İbsenin "Kuklalar evi" əsərlərinə verilən səhnə tərtibatlar forma və kolorotində xarakterizə olunmuşdur. Teatrla əməkdaşlıq etmiş rəssamlardan isə Əyyub Əliyevin tərtibat verdiyi Paolo Messina "Sükut divarı", Mir Cəlil Seyidovun tərtibatında H.Cavidin "Şeyx sənan", Sabir Qədimovun tərtibatında Orxan Kamalın "Yad qızı", Elçin Məmmədovun tərtibatında Sfokolun "Elekra", İlham Mirzəyevin tərtibatında Əziz Nesinin "Ölən adam" əsərləri və başqa rəssamların yaratdığı səhnə tərtibatında rast gəlinir.

Zamanın yüksək tələbini duyan rəssam yaratdığı səhnə tərtibatı mahiyyətcə müasir olub, tamaşaçıların tamaşaya duyduğu mənəvi ehtiyacını ödənilməsi, onların bədii estetik tərbiyyəsində, zövq və dünyagörüşünə uyğun, tamaşanın daha təsirli, məzmunlu olmasını təmin edən yeni bir ifadə tərzi formalaşırdı. Yeni üslub vasitəsində səhnədə əlavə detallara yer verilmir, daha çox sadəlik, sadə olduğu qədər də dah böyük fikir söyləyən bir kompazisiya quruluşu əsas yer tuturdu. Bir forma ilə böyük fəlsəfi fikri daşıyan tərtibat rəssamdan böyük təcrübə və istedad tələb edirdi. Naxçıvan Dövlət Musiqili Dram teatrında səhnəqrafiyanın keçdiyi müasir təkamül yoluna nəzər saldıqda bu formada yeni ifadə tərzinin ilkin ruşeyimləri lirik-psixoloji üslubun ilə yaranıb inkişaf etdiyinin deyə bilərik. 70-80-cı illərdə səhnəyə qoyulan tamaşalara verilən bədii tərtibat obraz-atribut kimi özünü müasir dövr səhnəqrafiyasında olduğu kimi tam təsdiq etməmişdir. Bu da özünü bir tərəfdən kadr çatışmamazlığı, rəssam işi ilə bağlı idisə, digər tərəfdən maddi texniki bazanın zəifliyi ilə bağlı idi.

Bu illərdə tamaşaya qoyulan əsərlərin tərtibat xüsusiyyətlərində artıq əsərdə qoyulan ideyaların bir-başa çatdırılması, səhnədə mümkün qədər artıq detalları istifadəsinə yer ayırmamaq kimi xüsusiyyətlər diqqət mərkəzindədir. 1976-cı ildə Yuran Məmmədovun tərtibatında "Tiflis yengələri" tamaşası səhnəyə qoyulur. Avksenti Saqqrelinin "Xanuma" adlı komedyası Naxçıvan

Teatrında Vəli Babayevin rejissorluğu ilə "Tiflis yengələri" adı ilə tamaşaçılara təqdim olunmuşdur. Tamaşanın quruluşçu rəssamı tamaşanın ideyasını göstərməklə yanaşı, səhnədə gürcü məişətini əks etdirməyə nail olmuşdur. Bədii tərtibatının yığcamlığı, bütövlüyü səhnənin genişliyi, fikrin açıqlığına dəlalət edir. Tamaşada rəssam və rejissor işinin vəhdəti hiss olunur. Tamaşada əsas ideyanın forma, rəng və müasir teatr tapıntıları ilə səhnədə uğurlu işin alınmasına nail olunmuşdur. Tamaşada əsas ideya olan "Yeniliyin köhnəlik üzərindəki qələbəsi rejissor işinin əsas istiqamətverici xəttidir."(4)

Naxçıvan teatrı ilk dəfə olaraq 1986-cı ilin əvvəllərində ilk dəfə olaraq qədim yunan dramaturgiyasına müraciət etdi. Qədim yunan dramaturqu Sfoklun (b.e.ə 495-406) "Elektra" faciəsini tamaşaya qoydu. Quruluşçu rejissoru Vaqif Əsədov, quruluşçu rəssamı Elçin Məmmədov olan bu tamaşa yüksək qiymətləndirilərək respublika müsabiqəsinin birinci dərəcəli mükafatına layiq görülmüşdür. 1987-ci ilin mayında Tiblisidə keçirilən Ümumittifaq Teatr Festivalında Azərbaycan teatrını bu tamaşa ilə Naxçıvan Teatrı təmsil edirdi. Bu tamaşada tərtibatın bitkinliyi, obrazın ifadəliliyi əsas xüsusiyyətlərdən biri kimi ilk növbədə diqqəti cəlb edir. Festifalda tamaşadan sonra Gürcüstanlı tənqidçi Vaxtanq Vartveli̇şvili belə fikir bildirmişdir. "Rejissor və rəssam dueti bir-birini tamamlayır, fikir aydınlığı yaradır. Mizanlar dolğun və zəngin, xor səhnələri maraqlıdır..."(6)

90-cı illərə, müstəqillik dövrünə nəzər salaq. Bildiyimiz kimi ölkəmizdə baş verən ictimai-siyasi, mədəni proseslər bütün sənət sahələrində müstəqillik əldə ediləndən sonra yeni inkişaf mərhələsinə qədəm qoydu. Baxmayaraq ki, müstəqilliyin ilk illərində Naxçıvan teatrı həm ixtisaslı kadr baxımından həm də təchizat baxımından acınacaqlı günlər yaşayırdı. İstər repertuarın düzgün seçilməməsi, səhnə texnikasının, işıq sisteminin primitiv vəziyyətdə olması, əlbəsələrin çatışmamazlığı və s. bütün bunlar rəssam işini çətinləşdirir, səhnə tərtibatının rəssamın düşündüyü kimi alınmasına mənfi təsir göstərir, bu da öz növbəsində tamaşanın uğur qazanmasına mane olur. Lakin ümummilli liderimiz Heydər Əliyevin xarici və daxili siyasəti nəticəsində Azərbaycan inkişaf etdikcə dövlət rəhbərliyi tərəfindən teatr haqqında verilən sərəncamlar, qayğılar, göstərişlər sayəsində və teatrın yaradıcı kollektivinin öz işinə olan həvəsi, istedadı, göstərdikləri səyləri nəticəsində Naxçıvan teatrı öz inkişaf yolu ilə surətlə irəliləməyə başlayır.

90-cı illərdən sonrakı dövrdə səhnəqrafiya da əvvəlki illərə nisbətən əsərin ideyasının bədii həllinə fərqli yanaşma tərzi daha aydın hiss olunurdu. Teatr rəssamı tamaşaçını düşündürən, onda böyük fikirlər, bəşəri hisslər oyadan, tamaşa haqqında daha böyük təəssürat yaradan, əsərin fəlsəfi mənasını bədii şəkildə açan səhnə tərtibatı yaratmağa çalışırdılar. Təkcə bir forma, bir neçə rəngdən istifadə edərək böyük bir ideyanın açılması səhnə tərtibatında istifadə olunan ifadə vasitəsi kimi bu dövr üçün daha çox rast gəlinirdi. Müstəqillik dövründə isə Naxçıvan Dövlət Musiqili Dram Teatrında verilən tamaşaların tərtibatı Azərbaycan Respublikasnın Xalq rəssamı Hüseynqulu Əliyevin, Naxçıvan MR Əməkdar rəssamı Səyyad Bayramovun, Naxçıvan MR Əməkdar rəssamı Əbülfəz Axundovun adı ilə bağlıdır.

Əbülfəz Axundovun tərtibatı ilə otuz səkkiz illik fasilədən sonra 1997-ci ildə səhnəyə qoyulan "Nadir şah" tamaşasında rəng koloritinin zənginliyi, geyim formalarının tarixilik, rəng və forma baxımından maraqlı tərtibat hesab etmək olar. Uğur qazanan tamaşalardan olan Nəriman Nərimanovun "Nadir şah" tarixi faciəsinin yeni səhnə quruluşunda hakimiyyət ideyalarının qabardılması, mübarizlik, cəsurluq, vətənpərvərlik ideyaları rəssamın bədii tərtibatı ilə birgə səsləşməklə tamaşanın müvəffəqiyyət qazanmasında rol oynamışdır. Tamaşada XVIII əsrin birinci yarısında İranda Səfəvilər sülaləsindən sonra xalqın və ordunun köməyi ilə hakimiyyətə gələn, 11 il hakimiyyətdə olan Nadir şahın ailəsinin faciəvi talehi, acı həyatı, tarixi şəxsiyyət kimi hökümranlıq faliyyəti canlandırılır. Xalqın içərisindən çıxmış, mübariz ruhlu şahın ölkəyə gətirdiyi yeniliklər təsvir olunmuşdu. Sarı, narıncı koloritin üstünlük təşkil etdiyi mənzərə təsviri olunmuş tərtibatda dağ təsviri verilmişdir. Mərkəzdə uca, qarlı dağın təsviri ilə sanki tamaşanın əsas obrazını

yaratmışdır. Səhnədə böyük ölçüdə çəkilmiş dağın qüdrətli, əzəmətli görünüşü Nadir şahın obrazı ilə eyniyyət təşkil edir. Rəssamın təcrübəsini bir daha təsdiq edən tərtibatda istifadə etdiyi bir-birinə mane olmayan, açıcı, tonlarda verilməsi, rəng harmoniyasının gözoxşayan olmasını, səma təsvirində istifadə olunan rəng keçidləri səma dərinliyini, perspektivanı hiss etdirir. Geyimlərdəki müxtəliflik obrazlara, dövrə, xarakterlərə uyğun şəkildə seçilmişdir. Ümumiyyətlə, "quruluşçu rəssam Əbülfəz Axundovun tamaşaya verdiyi tərtibat əsərin məzmun və qayəsinə uyğun idi"(2.)

Naxçıvan MR-in yaradılmasının 75 illiyi münasibəti ilə 1999-cu il 10 may tarixində Nəriman Həsənzadənin "Atabəylər" əsəri tamaşaya qoyulur. Tamaşanın quruluşçu rejissoru Azərbaycan Milli Akademik Dram Teatrının rejissoru Mərahim Fərzəlibəyov, rejissoru Kamran Quliyev, quruluşuçu rəssamı Əbülfəz Axundov olmuşdur. Bu monumental tarixi pyesdə xalqımızın qəhrəmanlıq salnaməsi, yadellilərə qarşı mübarizəsi, yüksək dərəcədə tərənnüm olunurdu. Məhz bu ideyalar tamaşanın bədii tərtibatında Əbülfəz Axundovun özünəməxsus uslub xüsusiyyətləri, texnikası, rəng tempri ilə daha güclü səsləşməsinə nail olmuşdur. Tamaşada ilk növbədə rəssamın perspektiva ilə təsvir etdiyi Atabəylər türbəsi və giriş qapıları tamaşanın movzusu, ideyası haqqında artıq öz sözünü demişdir. Təsvirlərin qara fonda abidələrin daha yaxşı baxılmasına səbəb olmuşdur. Yuxarıdan asılmış ox ucluqları, nizələr əsərin ideyasında simvolik məna daşıyır. Tamaşanın geyim eskizlərində isə dövrə, obraza, xarakterə uyğunluq istər onların formalarında, istərsə də rəng kolaritində öz əksini tapmışdır. Geyimlərdə, həm də dekorlarda daha çox istifadə etdiyi qırmızı rəng kolariti tamaşanın əsas ideyası olan mübarizliyin, qəhrəmanlığın, əyilməzliyin simvolu kimi xarakterizə olunur və tamaşada bu ideyaların daha təsirli olmasına dəlalət edir. Tamaşada belə güclü bədii tərtibatın verilməsi, tanınmış rejissorun rəssam haqqında dediyi sözlərdə də təsdiqini tapmışdır. Tamaşadan sonra Mərahim Fərzəlibəyov "Şərq qapısı" qəzetinə verdiyi müsahibəsində teatrın quruluşçu rəssamı Ə.Axundov haqqında öz fikirlərini belə bildirirdi: "...Tamaşanın quruluşçu rəssamı Əbülfəz Axundovdur. Bu başdan deyim ki, bu rəssam olduqca istedadlı, səhnəni, səhnəqrafiyanı gözəl bilən bir yaradıcıdır. Əbülfəzdə olan yaradıcı fantazya mənim çox xoşuma gəldi. O, olduqca zövqlü və genişyaradıcı təxəyyülə malik teatr rəssamıdır... Əgər mən Naxçıvan teatrında yenidən tamaşa qoysam tərəddüd etmədən gözəl teatr rəssamı Əbülfəz Axundovla birgə işlərdim"(7). Tamaşanın tərtibatı tamaşanın ideyasını, bədii vüsətini, ictimai-siyasi mahiyyəti daha da qabardılmasına dəlalət edib. Tamaşanın ideya fəlsəfəsi haqqında akademik İsa Həbibbəyli belə qeyd etmişdir: "Şair-dramaturq Nəriman Həsənzadənin tanınmış rejissor, əməkdar incəsənət xadimi, xalq artisti Mərahim Fərzəlibəyov tərəfindən son illərdə Naxçıvan teatrında tamaşaya qoyulan "Atabəylər" tamaşası milli-tarixi özünüdərk prosesinin dərinləşməsinə kömək edir, mənlik və müstəqillik düşüncəsini daha da qüvvətləndirir. (5)Tarixi keçmişimizə ictimai marağın daha da aratırılması, onun daha dəqiq və lazımınca işıqlandırılması, tarixi prosesləri olduğu kimi xalqa çatdırılması baxımından da əhəmiyyətli olan "Topal Teymur" tamaşası 2000-ilin repertuarına salınmışdır. H.Cavid tarixçi soyuqqanlılığı ilə Teymur obrazında onu bir fateh kimi yüksək qiymətləndirməklə yanaşı, bir şair kimi onun hərbçi olaraq axıdılan qanlara görə günahlandırmışdır. Kamran Quliyevin quruluşunda H.Cavid ideyalarını əks etdirən bu tamaşa çox uğurla tamaşaçılara təqdim olundu. Bu tamaşanın səhnə tərtibatını Səyyad Bayramov işləmişdir. Naxçıvan Dövlət Musiqili Dram teatrı səhnəsində yer alan H.Cavidin tarixi dram janrında yazdığı "Topal Teymur" əsərinin mövzusu XIV əsrin iki böyük hökümdarı teymurilər imperyasının banisi, Orta Asiya hökümdarı Əmir Teymurun və Türkiyə sultanı Yıldırım Bəyazidin 1402-ci ildə apardıqları sonuncu qanlı müharibədən ibarətdir. Səyyad Bayramovun bədii tərtibatında bu əsərin ideya yükünü, dramaturq qayəsini özünəməxsus yaradıcılıq dəstixətti ilə ümumiləşdirilmiş fəlsəfi, estetik formalarla, əsərin ruhuna uyğun rəng kolariti ilə göstərmişdir. 30 dekabrda teatrın quruluşçu rəssamı S.Bayramov, quruluşçu rejissor Kamran Quliyev, bəstəkar Şəmsəddin Qasımov, aktyorlar, teatrın digər yaradıcı kollektivinin birgə işi sayəsində mükəmməl bir tamaşa nümayiş etdirilmişdir.

2003-cü ildə yenə də H.Cavidin bədii irsinə müraciət olunaraq onun çox sevilən, maraqlı və aktual mənzum faciəsi olan "İblis" əsəri səhnəyə qoyulur. Teatrın uğurlu tamaşaları sırasında olan bu tamaşanın bədii tərtibatı da forma rəng və kompazisiya baxımından çox təsirli və yaddaqalan idi. Əsərin bədii ruhu, fəlsəfi ideyası tamaşanın rəssamı Əbülfəz Axundovun verdiyi maraqlı tərtibatda daha aydın şəkildə əks olunur. İctimai qəzəb və ehtiraz hissləri ilə müharibə ideyaları ilə yaşayanlara qarşı yönələn "İblis" faciəsində insanları əzab və iztirablara salan, min bir dona girərək riyakarlığı və böhtanları ilə həzz alan İblisin təbiəti ilə müasir dünyanı fəlakətə sürükləyənlərin törətdikləri mənfur oyunlar, rəzalətlər arasındakı eyniliyi, bununla belə işıqlı və bəşəri fikirlər sorağında gəzən insanların mənəvi böyüklük uğrunda çarpışmaları tamaşanın bədii tərtibatında da bədii və fəlsəfi duyumları ilə öz əksini tapmışdır. Tamaşada İblisin xislətini onun geyiminin forması və rəngləri ilə da aydın görmək mümkündür. Belə ki, rəssam əzəmətli və qorxunc, şər və qisas mücəssiməsi olan İblisin qirimi sadə versə də onun geyimi üçün seçdiyi forma və qırmızı astarlı qara plaşı qırmızı işıq effektləri ilə daha da heyrətamiz və qorxunc görünməsinə səbəb olmuş, insanların əzablı, iztirablı görməkdən həzz alan, fəlakətlər törədən hiyləgər bir obrazın yaranmasına nail olmuşdur. Tamaşanın bədii tərtibatı müxtəlif vasitələr-işıq, rəng, forma, kompazisiya məsələlərinə düzgün diqqət yetirməklə əsərin bədi ruhunu, ideyasını tamaşaçıya çatdırılmasna yardımçı olmuş, onlarda hiylə və riyakarlığa nifrət etməsinə, ülviyyətə, mənəvi paklığa səsləyişi diqqətə çatdırılmışdır. Səhnə qurluşundakı mizanların sadə və kompazisiya tamlığı diqqəti cəlb edir. Səhnənin mərkəzində İblisin daha çox dayandığı qırmızı lövhənin hər iki tərəfində ağ tüllə tam örtülməyən pillələri, yuxarıdan asılan ucu halqalanmış bir neçə kəndirlər görürük. Sonrakı səhnədə İblisin monoloqu və acı qəh-qəhələri ilə tülün və pillələrin qalxması, digər bir fərqli səhnə görünüşünün yaranması, yeni məna kəsb etməsinə nail olunduğunun şahidi oluruq. İşıq effektlərindən düzgün istifadə edilməsi, İblisin görünüşündəki dəyişiklik, sujetə və ideyaya uyğun fonun rəng koloritinin verilməsi tamaşanın daha təsirli alınmasına təsir göstərmişdir.

2005-ci ildə səhnəyə qoyulan H.Cavidin hələ İstanbulda təhsil aldığı müddətdə qələmə aldığı, 1917-1920-ci illərdə üzərində yenidən işlədiyi "Afət" əsəri səhnəyə qoyulur. Əsərin mövzusu, ideyası və ruhu baxımından "Uçurum" tamaşasına yaxın olan bu pyesdə ictimai-siyasi vəziyyət, əxlaq normaları ön plana çəkilmişdir. Burada Fransız asistokrakiyasının kor-koranə təqlidi, fransız əxlaq normalarının türk gəncliyinə vurduğu zərbələr və yeni təsvir vastələrilə zənginləşdirilmiş müxtəlif xarakterli obrazları timsalında yaradılmış əsərin bədii tərtibatında da bu kimi ideyalar rəssamlıq yönündə də rənglər, forma və kompazisyasında öz bədii həllini tapmışdır. Tamaşanın bədii tərtibatını işləyən Xalq rəssamı H.Əliyev bu inikası ümumiləşdirilmiş bir obraz şəklində verməklə əsərin bədii ruhunu açmışdır. Teatrın baş rəssamı həm də tamaşalarında verdiyi geyim eskizləri də tamaşada hadisələrin baş verdiyi dövrü, insanları əhatə edən mühiti, onların dünyagörüşünü, yaşayış tərzini və xarakter xüsusiyyətlərini əks olunması, tamaşaçıda dəqiq təsəvvür yaranması, baxımından da uğurlu idi.

2007-ci ildə isə Naxçıvan Dövlət Musiqili Dram Teatrında H.Cavidin "Səyavuş" əsəri yeni tərtibatla səhnəyə qoyulmuşdur. Belə ki, ümumilli liderimizin ideyalarının uğurla davam etdirən İlham Əliyevin görkəmli dramaturq Hüseyn Cavidin 125 illik yubileyi keçirilməsi ilə bağlı 2007-ci ilin aprelində imzaladığı sərəncama əsasən "Səyavuş" mənzum faciəsi yeni tərtibatla tamaşaçılara təqdim olunmuşdur. Rejissoru Kamran Quliyev olan bu tamaşanın rəssamı Əbülfəz Axundov, geyim rəssamı isə teatrın baş rəssamı Hüseynqulu Əliyev olmuşdur. H.Əliyevin hazırladığı geyim eskizləri tamaşada hadisənin baş verdiyi dövrə, obrazların xarakterlərinə uyğun olaraq seçilmişdir. Geyimlərin rəng koloriti Ə.Axundovun hazırladığı səhnə tərtibatının sadə, qara fonunda fonunda daha da baxımlı olmuşdur. 24 səhnəyə qoyulan bu tamaşa yaradıcılığında insanları yeni imidlərlə sabaha səsləyən romantikası, acı fəryadı və arzuları ilə həmişə diqqətdə olan ölməz dramaturqumuz Cavidin ədəbi irsinə dərin ehtiram və sədaqətin bir nümunəsi idi. Əməkdar rəssamı Əbülfəz Axundovun tərcümə əsərlərindən "Müdrik Natan" tamaşasına verdiyi tərtibat əsərdəki ideya-fəlsəfi

fikirin ümumiləşdirilmiş obraz şəklində verməsi ilə xarakterizə olunur. 2010-cu ildə Kamran Quliyevin rejissorluğu ilə səhnəyə qoyulan bu tamaşa alman ədəbiyyatının banisi Qotholt Efraim Lesinqin eyniadlı əsəri əsasında, yazıçı-dramaturq, flologiya elmlər doktoru Həmid Arzulunun tərcüməsi ilə hazırlanmışdır. Əsərdəki hadisələr XII əsrdə səlib yürüşləri zamanı baş vermişdir. Tamaşada əsas ideya heç bir dinin bir-birindən üstün olmadığını göstərməkdir. Əsərdə üç din, üç nəfərin vasitəsilə göstərilir.

Kamran Quliyevin rejissorluğu ilə Kamran Quliyevin səhnəyə qoyulan Nazim Hikmətin "Kəllə" əsərinə Əbülfəz Axundovun verdiyi tərtibat həm əsərin məzmununun ümumiləşmiş formada göstərilməsi, həm də sadə və maraqlı formada verdiyi quruluş vasitəsilə tamaşaçıların maraq-diqqətinin cəlb olunması, düşündürməsi baxımında əhəmiyyətlidir.





Qara fonda verilən böyük ölçüdə olan kəllə təsviri "...alim-doktor Dalbenezonun haçalanmış fikirlərinin..."(3) göstərilməsi kimi ikiyə ayrılmış formada təsvir olunmuşdur. Göz oyuqlarının içərisində yanan işıqlar, kəllənin ortasında keçən qırmızı xətt ideya baxımından, həm də rəng kontrası kimi əsərin tərtibatını daha maraqlı etmişdir.

Əbülfəz Axundovun yaradıcılığında "Manqurt" tamaşasının bədii tərtibatında obraz-atribut kimi xarakterizə olunur. Dünya şöhrətli qırğız yazıçısı Çingiz Ayitmatovun "Gün var, əsrə bərabər" motivləri əsasında hazırlanmış "Manqurt" tamaşası Tofiq Seyidovun rejissorluğu ilə 2013-cü ildə tamaşaçılara təqdim olunmuşdur. Tamaşada təsvir olunan hadisələr XX əsrin sonlarında Orta Asiya çöllərində Sarı-Özək səhralarında kiçik dəmiryol stansiyalarında Boranlıda baş verir. Yazıçı türk, altay, qırğız əfsanələri bəhrələnərək qələmə aldığı müasir dünyamızın problemləri, əxlaqi-mənəvi aşınmaları ilə yaxından səsləşən əsərdə, tarixini, adət-ənənələri, milli dəyərlərini, soykökünü unudub manqurtlaşan insanların təhlükəyə çevrildiyini göstərməsi, tamaşada yaradıcı kollektivin birgə fəaliyyəti nəticəsində uğurlu alınmışdır. Tamaşanın tərtibatı olduqca sadə və yığcamdı. Rəssam bu tərtibatında əsasən rənglər və formalardakı simvolikaya üstünlük vermişdir. Səhnənin mərkəzində, qara fonda simvolik olaraq ağ ipəkdən olan çadır verilmişdir. Sərhəd dirəklərinin, məftillərin qırmızı rəngdə verilməsi də bu qəbildəndir"...ideyanın açılması üçün rəssam mümkün vasitələrdən istifadə edərək, tamaşanın uğuruna öz imzasını ata bilmişdir."(4)Tərtibatda düzgün tapılmış, qırğız milli koloritinə uyğun geyimlər diqqətəlayiqdir.



2014-cü ildə "Şah Qacar" əsəri səhnələşdirilmişdir. Tarixi dram əsasında 2005-ci ildə Əli Əmirli tərəfindən

yazılan iki hissəli "Ağa Məhəmməd şah Qacar" əsəri tərtibatını Xalq rəssamı Hüseynqulu Əliyev hazırlamışdır. Səhnədə qaranlıq fonda şah iqamətgahını görürük.

Lakin bu böyük ölçüyə malik tac formasıdır. Burada hakimiyyəti təmsil edən tac ümumilikdə səhnəni əhatə edir. Bütün hadisələr obraz-atribut kimi verilmiş tacın daxilində baş verir. Rəssam tərtibatı elə bütöv, əhatəli, düşünülşmüş şəkildə verib ki, tamaşanın digər səhnələrində tacın yuxarı hissəsindən də istifadə etmək mümkün olsun. Bu da həm əsrin ideyası baxımında, həm də aktyorların hərəkətləri baxımından əlverişli olmuşdur. İşıq-kölgənin, rənglərin harmonyasında hadisələrin mahiyyətinin aydınlaşması ilə bərabər tamaşaçıda tarixi hadisələrin axarı ilə, tamaşanın sehrinə qapılır. H.Əliyev tərtibatda obraz-atribut kimi işlədiyi tacın, yəni hadisələrin cərəyan etdiyi şah sarayının kiçik detallarına da diqqət etmişdir. İşlədiyi ornamentlər, simvolik təsvirlər, asılmış məşəllər və s. işıq effektləri vasitəsilə məkanı daha baxımlı etmişdir. Rəssam verdiyi geyim eskizləri ilə, dekorlarla tamaşaçıda XVIII əsrin saray mühitinin ab-havasını, obrazların xarakterini. göstərmiş olur. Tamaşada qüdrətli, bacarıqlı, bir o qədərdə bədbəxt və tənha Qacar obrazı, ağıllı, tərbiyyəli, tədbirli bir türk xatunu kimi cəngavər ruhlu Ceyran xanım və başqa obrazların xarakterinə görə seçilmiş geyim formaları, rəngləri əsərin məzmunu ilə səsləşmişdir.

2016-cı ildə "Nadir şah" əsəri yeni quruluşda Naxçıvan Dövlət Musiqili Dram Teatrında Tofiq Seyidovun rejissorluğu ilə səhnəyə qoyulmuşdur. Tamaşanın bədii tərtibatını Səyyad Bayramov hazırlamışdır. Əvvəlki quruluşlardan fərqli olaraq S.Bayramovun tamaşa üçün hazırladığı tərtibatlarda maraqlı səhnələrin şahidi oluruq. İstər otağın interyerin təsvirindəki dekorlar, istərsə də digər səhnələrdə uzaqdan görünən qalanın təsvirindəki mənzərə realist səpkidə işlənsə də, sonuncu səhnədə verilmiş müxtəlif həndəsi fiqurların içərisində çəkilmiş göz təsviri burada əsas obraz olan Nadir şah obrazını ifadə edir. Sarayın arkalarının forması, sütunları olan səhnə forması, çox parlaq və iti baxışlı gözlər sanki dəbilqə geymiş insan üzünü xatırladır. Qırmızı rəngli pərdələrin fonunda gözlər daha maraqlı və cazıbəli görünür. Sanki bu gözlər səhnə başlayan vaxtdan tamaşanı izləyirmiş kimi canlı təsir bağışlayır. Gözlər parlaqlığı ilə nə qədər qəddar görünsə də sanki dərində bir kədər, yalnızlıq hiss olunur. Mərkəzdə dairənin içərisindəki göz isə tamaşanın sonunda qırmızı işıq vasitəsi ilə aydınlandırılır. Bu təsvirdən aşağıda qılınc qalxan və şah fərmanını verilmişdir. Dairədən baxan tək gözdən, fərman kimi göstərilən kağıza axan qan gözün şahın faciəvi həyatı kimi mənalandırılmışdır. Tamaşada geyim təsvirləri də dövrə və xarakterlərə uyğun formada verilmişdir. Tamaşada əsərin ideya məzmunu olan Nadir şahın hakimiyyəti dövründə göstərdiyi fəaliyyəti, verdiyi islahatlar daha çox qabardılıb ki, bu da tamaşanın tərtibatında öz əksini tapmışdır.

Bu kimi tərtibatlardan da göründüyü kimi, tamaşaların tərtibatında daha yığcam, konkret və ya simvolik məna kəsb edən bütövləşmiş bir forma ilə tamaşanın ümumi məzmunun əhatə edilməsi, səhnədə bədii tərtibatın obraz-atribut kimi təcəssüm tapmışdır. Əsərdəki fəlsəfi fikirin həm də forma ilə deyil rənglərin dili, simvolik mənası baxımından əksi ilə də verilməsi belə tərtibatlar üçün səciyyəvidir. Bunu həm də səhnədə rəssam peşəkarlığından, təcrübəsindən irəli gələn texniki vasitələrin köməyi, fırlanan səhnələrin, işıq effektlərindən yerində istifadə etməklə nail olunmuşdur.

## ƏDƏBİYYAT


1. Cəlil Vəzirov. Afiq Haqverdiyev."Tiflis yengələri.-Şərq qapısı, 2 noyabr1976
2. Ə.Qəhrəmanov və başqaları "Naxçıvan teatrının salnaməsi (1883-2008)", Naxçıvan, Əcəmi . 20-10.səh.735
3. Ələkbər Qasımov."Nazim Hikmətin əsərləri NDMDT səhnəsində". Kültür Evreni, 2015, sayı24
4. Ə.Qasımov.-"İnsanlığı səsləyən tamaşa".-525-ci qəzet",-2014,-28 aprel,-S.8)
5. İsa Həbibbəyli. Naxçıvan ədəbi-ictimai mühitdə Şərq və Qərb.AMEA-nın Xəbərləri,Hümanitar elmlər seryası, 2004, N3-4, s.10.

6. "Sovet Naxçıvanı "qəzeti, 19 may 1987-ci il.
7. "Şərq qapısı"qəzeti, 22 may1999

**ABSTRACT**

**Habiba Allahverdiyeva**

**ARTISTIC DESIGN AS A CHARACTER-ATTRIBUTE IN THE EVOLUTION OF SCENOGRAPHY IN NAKHCHIVAN**

The artist' work that plays an important role in revealing the content and the idea of the performance has shown itself as a character-attribute in designs of plays staged mostly in our modern period. Historically, it was formed in the realist manner and developed through different form searches and means of expression. The stage design created by an artist who feels high demand of his time was modern in its essence and it formed a new style of expression that makes the performance more effective and original and meets spiritual need of the audience, and matches their artistic-aesthetic education, taste and outlook. For such designs expression of the philosophic thought in the work is typical not only by means of the form, but also through the language of the colors and symbolic meaning. It was also achieved by technical means, that's by using the rotating scenes and lighting effects in the right place depending on the professionalism and experience of the artist on the stage. This has found its reflection in creativity of the theatre artists Yuran Mammadov, Huseyn Aliyev, Sayyad Bayramov, A. Akhundov who designed the plays in Nakhchivan State Musical Drama Theatre.

**РЕЗЮМЕ**

**Габиба Аллахвердиева**

**СЦЕНИЧЕСКАЯ ОФОРМЛЕНИЯ КАК ОБРАЗ-АТРИБУТ В ЭВОЛЮЦИИ СЦЕНОГРАФИИ В НАХЧЫВАНЕ**

Сыграв важную роль в открытии идейного содержания спектакля, работа художника, которая создана и развивалась стиле реализме, формируясь разными формами поиска, способами выражений, больше всего показала себя как образ-атрибут в сценических оформлениях поставленных спектаклях в современном периоде.

Созданное художественное оформление художником, который чувствует высокое требование времени, в сущности современное и удовлетворяется моральная нужда зрителей, которые ощущают к спектаклю. При этом создан новый стиль выражения, обеспечивающий еще влиятельный и содержательный спектакль, соответствующий художественно-эстетическому вкусу мировоззрению зрителя.

Для таких оформлений свойствен выражения философского мысля произведения не только с формой, но и отражением с точки зрения значения языка, символики красок. Художник достигает этому пользовавший уместно техническими способами – с помощью сценического круга, световых эффектов, которых диктует ему профессиональность, практика.

Это отражено в творчестве театральных художников Ю.Мамедова, Г.Алиева, А.Ахундова, С.Байрамова, оформляющие спектакли поставленных в Нахчыванском госмуздрамтеатре.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**AMİL ƏSGƏROV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 78**

# NAXÇIVANDA MUSİQİŞÜNASLIQ ELMİNİN TƏŞƏKKÜLÜ VƏ FƏALİYYƏTİ

**Açar sözlər:** *Naxçıvanda MR-də musiqi həyatı, müasir musiqişünaslığın yaranması, Naxçıvanın musiqi mədəniyyətinə dair tədqiqatlar*

**Keywords:** *development of musical life in Nakhichevan Autonomous Republic, the formation of modern musicology, musicological studies about musical culture of Nakhichevan*

**Ключевые слова:** *развитие музыкальной жизни в Нахичеванской Автономной Республике, становление современного музыковедения, исследовательские работы о музыкальной культуре Нахичевани*

Naxçıvan Muxtar Respublikasında müasir musiqişünaslıq elminin təşəkkülü və fəaliyyətə başlaması XX əsrin ikinci yarısına təsadüf edir. Bu proses regionda musiqi incəsənətinin və mədəniyyətinin dinamik axarında baş vermişdir. Belə ki, XX əsrin ilk onilliklərindən etibarən Naxçıvanın musiqi mədəniyyətində yeni tarixi mərhələ başlamışdır. 1930-cu illərdən etibarən ilk musiqi məktəbləri, xalq-özfəaliyyət kollektivləri, musiqili teatr dərnəkləri, peşəkar not ifaçılığı, ansambllar, professional konsert həyatı meydana gəlmişdir. Kütləvi mədəni tədbirlər, xalq adət-ənənələri də musiqi mədəniyyətinin inkişafını təmin etmişdir.

XX əsrin 70-ci illərindən başlayaraq, Naxçıvanın sosial, iqtisadi, mədəni sahələrdə davamlı inkişafı bu regionda elm, təhsil, incəsənət və bədii yaradıcılıq sahərinin tərəqqisinə güclü təkan verdi. Konkret olaraq həyata keçirilən miqyaslı tədbirlər – AMEA Naxçıvan bölməsinin, Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan Təşkilyatının, Dövlət Musiqi Texnikumunun, Dövlət Filarmoniyasının, NDU nəzdində musiqi fakultəsinin, konservatoriyanın, musiqi və incəsənət məktəblərinin, Dövlət Musiqili Teatrın, peşəkar musiqi kollektivlərinin, müasir mədəniyyət klublarının və yeni xalq özfəliyyətinin yaradılması və inkişaf etdirilməsi, eyni zamanda musiqi irsinin və ənənələrin qorunması və saxlanması nəticəsində müasir musiqişünaslıq elminin fəaliyyətə başlamasına real zəmin meydana gəldi.

Beləliklə, ilk tədqiqatlara başlanıldı və nailiyyətlərə imza atdı. Xüsusilə, 1978-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının yerli təşkilatının yaradılmasından sonra Naxçıvanda peşəkar musiqiçilərin, musiqi müəllimlərinin yaradıcılıq fəaliyyəti məqsədyönlü şəkildə səfərbər olundu. Regionun mahnı və rəqs folklorunun, mərasim nəğmələrinin toplanımasında, nota yazılmasında, nəşrində ilk addımlar atıldı. Plenumlar, hesabat konsertləri keçirildi. [13].

Yerli təşkilatın üzvü olan yaradıcı musiqiçilərin mahnıları, romansları, kamera-instrumental və xor əsərləri, teatr üçün bəstələnən musiqi nümunələri daha fəal bir şəkildə konsert həyatına daxil olundu. Bəstəkar yaradıcılığı, konsert həyatı və onların araşdırılması tədricən geniş vüsət aldı.

Naxçıvan musiqişünaslığının əsas məsələlərindən biri elmi problemlər və mövzu istiqamətləridir. Azərbaycan musiqi mədəniyyətinə, incəsənətinə, bəstəkar yaradıcılığına, orkestr musiqisinə, xalq musiqisinə, milli alətlərə, teatr musiqisinə dair tədqiqatlar yazılmışdır və hal-hazırda da bu istiqamətdə araşdırmalar davam etdirilir. Ən əsası isə Naxçıvanın musiqi mədəniyyətinə dair tədqiqatların aparılmasıdır. Bu sahədə fə müəyyən uğurlar əldə olunmuşdur. Hələ XX əsrin 60-cı illərində Naxçıvan yallıları yalnız konservatoriyanın məzunlarını diplom

mövzusu kimi maraqlandırırdısa, ötən illərdə yallı mövzusuna elmi maraq daha da böyümüş, bu mövzuya dair samballı işlər görülmüşdür. Xüsusilə, Bayram Hüseynlinin, Məmməd Ələkbərovun, Əkrəm Məmmədlinin, Səyavuş Əlizadənin, Əqidə Ələkbərovanın yallılara dair toplama, sistemləşdirmə, təhlil, nəşr işlərini qeyd etməliyik. Son illər isə Naxçıvan yallıları Türkiyənin, Azərbaycanın rəqs mədəniyyəti, rəqsin tarixi genezisi aspektlərində tədqiqatlara cəlb olunmuşdur.

Naxçıvan musiqişünası Səyavuş Əlizadənin Azərbaycan Dövlət Konservatoriyasının məzunu kimi 1971-cı ildə yazdığı **"Naxçıvan yallıları"** adlı diplom işi (elmi rəhbər -Bayram Hüseynli) yallılara həsr olunan ilk musiqişünaslıq araşdırmalarından biridir. [5]. Sonrakı illərdə Naxçıvanda elmi-pedaqoji fəaliyyətini davam etdirən bu musiqişünas araşdırma mövzularını da genişləndirmişdir.

Naxçıvanın professional musiqi mühitinin yetirməsi olan Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əqidə xanım Ələkbərova da öz diplom işini və namizədlik dissertasiyasını məhz Naxçıvan yallılarına həsr etmişdir. Ə.Ələkbərova 1980-1990-cı illərdə elmi konfranslarda yallılara dair maraqlı çıxışlar etmiş, məqalələr yazmışdır. [2; 3; 4]. Nəhayət, Naxçıvan yallıları haqqında ilk musiqişünaslıq dissertasiyası da Ə.Ələkbərovaya məxsusdur. Onun 1970-1990-cı illərdə yallı rəqsləri üzərində apardığı tədqiqatlar uğurla nəticələnmiş, 1994-cü ildə dissertasiya müdafiə etmişdir: **"Naxçıvan bölgəsinin yallı xorovod rəqsləri".** Dissertasiyanın girişində Naxçıvan yallılarına dair görülən işlərin xülasəsi və qiymətləndirilməsi, işin elmi yeniliyi və metodoloji oriyentiri, tədqiqatın müasirliyi və aktuallığı yer almışdır. Dissertasiyanın fəsillərində Naxçıvan yallılarının geniş təsnifatı aparılmış, yallıların ifaçılıq baxımından növləri müəyyən edilmiş, bu janrın dünya xalqlarının qədim rəqs sənəti ilə, Türkiyə yallıları ilə müqayisəsi aparılmışdır. Ə.Ələkbərova yallıların ritm, melodiya, məqam xüsusiyyətlərini təhlil etmiş, yallının lokal dialektlərini nəzəri cəhətdən araşdırmış və bu rəqslərin Naxçıvanın tarixi mədəniyyəti olduğunu sübuta yetirmişdir. Əqidə xanım Ələkbərova dissertasiyada yallı janrının Naxçıvanda yayım arealını və xəritəsini də tərtib etmişdir ki, bu metod Azərbaycan etnomusiqişünaslığında yallılara yeni elmi münasibət kimi təqdirə layiqdir.

Naxçıvanın istedadlı bəstəkarları haqqında dissertasiya, monoqrafiya və məqalələrin yazılması da aktual vəzifə kimi musiqişünaslığın qarşısında dayanır. Naxçıvan Bəstəkarlar İttifaqının yaşı 40 ilə yaxın müddəti əhatə etsə də, Muxtar Respublikada bəstəkarlıq fəaliyyətinin yaşı bundan daha çoxdur. Xüsusilə ali və orta ixtisas təhsil olan peşəkar ifaçıların, dirijorların və təcrübəli müəllimlərin bir bəstəkar kimi fəaliyyəti sayəsində Naxçıvanda mahnı, romans janrının gözəl nümunələri yaranmış, dram əsərlərinə musiqi bəstələnmiş, yeni musiqili-teatr əsərləri meydana gəlmişdir. Belə dəyərli fəaliyyət haqqında məqalələr, broşürlər yazılsa da, Naxçıvanda xüsusi olaraq mahnı janrının təkamülünə və inkişafına dair hələ indiyəcən tədqiqatlar aparılmamış, dissertasiya və monoqrafiyalar yazılmamışdır.

Naxçıvanın musiqi tarixinə, aşıq musiqisinə, muğam ifaçılığına həsr olunan musiqişünaslıq işləri say etibarilə çox olmasa da, bu istiqamətdə müəyyən addımlar atılmışdır. Nazim Quliyev pedaqoq və bəstəkar kimi fəaliyyət göstərməklə barəbər, tədqiqat yönümlü işlər də yazmışdır. Məsələn, onun **"Naxçıvanın musiqi tarixindən"**, "**Bəstəkar Məmməd Məmmədov"** kitabları, Naxçıvan musiqisinə və musiqi xadimlərinə dair bir sıra məqalələri oxucular tərəfindən maraqla qaşılanmışdır. Müəllifin bu sahədə yaradıcılığı musiqişünaslıqda Naxçıvan tematikasını zənginləşdirmişdir. Musiqişünaslardan Yeganə Əsədovanın və Bənövşə Rzayevanın tədqiqatları şifahi ənənəli musiqinin janrlarına həsr olunmuşdur.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamovanın **"Naxçıvan Muxtar Respublikasının bəstəkarlar təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu"** monoqrafiyasında bu təşkilatın yaranma tarixçəsi və yaradıcılıq nailiyyətləri araşdırılmışdır. [8]. Kitab iki fəsildən ibarətdir. Birinci fəsil "Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı dünən, bu gün" adlanır. Bu fəsildə Naxçıvan musiqi tarixinə, musiqi sənətinin XX əsrdəki inkişaf yollarına, Azərbaycan

Bəstəkarlar İttifaqının Naxçıvandakı tədbirlərinə, qurultaylara, hesabat konsertlərinə, yaradıcılıq ünsiyyətinə ətraflı nəzər salınır. [8, 4-80].

Müəllif 1975-ci ildə Naxçıvan musiqi texnikumunun, 1978-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan Təşkilatının, 1983-cü ildə Naxçıvan Dövlət Filarmoniyasının, 1988-ci ildə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetində "Musiqi və təsviri incəsənət" kafedrasının və 1996-cı ildə bu kafedra bazasında Naxçıvan Dövlət Konservatoriyasının, bəzi musiqi kollektivlərinin yaradıldığını qeyd edir. Kitabın bu fəslində həmin qurumların fəaliyyəti, musiqiçilərin bu qurumlarda işləməsi haqqında maraqlı məlumatlar yer alır.

İkinci fəsil "Naxçıvan MR bəstəkarlar təşkilatı üzvlərinin yaradıcılığında bir baxış" adlanır. Bu fəsli müəllif təşkilatın yaradıcılıq uğurlarına, 30 il ərzində bəstəkarların yazdıqları əsərlərə, təşkilatın qurultay, konfrans və hesabat konsertlərinə həsr etmişdir. Rəşid Məmmədovun, Məmməd Ələkbərovun, Məmməd Məmmədovun, Səfər Rəcəblinin, Əkrəm Məmmədovun, Vahid Axundovun Şəmsəddin Qasımovun, Səidə Məmmədovanın, Nazim Quliyevin, Yaşar Xəlilovun, Kamal Əhmədovun, Günay Məmmədovanın və gənc bəstəkarların əsərlərindən bəhs olunmuş, yaradıcılıq yolları işıqlandırılmış, konsertlərdə səslənən əsərləri qeyd olunmuşdur. Təşkilatın üzvü olan musiqişünaslar Əqidə Ələkbərovanın, Sevda Əliyevanın, Yeganə Əsədovanın, Bənövşə Rzayevanın da yaradıcılığı haqqında məlumat verilmişdir. [8, 82-131]. Naxçıvan Bəstəkarlar Təşkilatının 30 illik fəaliyyətinə, yaradıcılıq yoluna və nailiyyətlərinə həsr olunan bu elmi monoqrafiyada faktik sənədlərin, fotoların, proqramların yer alması onun elmi əhəmiyyətini daha da artırır.

J.Qulamovanın daha bir monoqrafiyası Naxçıvan Dövlət Musiqili Dram Teatrında qoyulan tamaşaların musiqisinə həsr olunmuşdur: "**Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı tamaşalarında musiqisinin rolu və əhəmiyyəti".** [7].

Kitab girişdən, üç fəsildən, nəticədən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Fəsillər Naxçıvan musiqi teatrının yaranma və inkişaf tarixinə [7, 16-86]; teatrla yaradıcılıq ünsiyyətində olan bəstəkar və dramaturqların yaradıcılıq portretlərinə [7, 87-126]; səhnə təcəssümünü tapmış musiqi əsərlərinin təhlilinə [7, 127-184] həsr olunmuşdur. Müəllif "Nəticə" bölümündə yazır: "Monoqrafiyada təhlil etdiyimiz əsərlər onu göstərir ki, Naxçıvan teatrında müxtəlif janrlı, rəngarəng məzmunlu pyeslər tamaşaya qoyulmuşdur... Təhlil olunan dram tamaşalarının musiqisindən belə nəticə çıxarmaq olar ki, dram tamaşalarının musiqi tərtibatını işləyən bəstəkarlar qarşısında iki mühüm problem durur: musiqi nömrələri dramın əsas ideyasının açılmasında fəal iştirak etməli, eyni zamanda onun dramaturji-səhnə "zonasına" müdaxiləsi minimal olmalıdır. Beləliklə, musiqi ilə teatr dramaturgiyasının münasibətlərində mütləq orta səviyyə tapılmalıdır. Bəstəkarlar bir çox hallarda ifadə vasitələrindən təsiredici illüstrativ aspektdə istifafadə etmişlər. Adətən belə musiqi nömrələri səhnə əsərində mühüm dramatik anları qabartmaq, onların təsir gücünü artırmaq üçün istifadə etmişlər." [7, 185]. Kitabın müsbət məziyyətlərindən biri 1960-1980-ci illərdə teatrın repertuarını, aktyor, rejissor işini, dramatur və bəstəkarların birgə yaradıcı əməyin araşdırmaqdan, teatr ilə işləyən Naxçıvan bəstəkarlarının bu sahədə fəaliyyəti, musiqinin bədii xüsusiyyətləri və teatrlılığı tədqiq etməkdən, bu sənət məbədinin regionun mədəni həyatında və teatr incəsənətinin inkişafında rolunu açıqlamaqdan ibarətdir. Naxçıvanın musiqili teatrı haqqında yazılan ilk musiqişünaslıq tədqiqatı kimi bu dissertasiyanın və monoqrafiyanın elmi əhəmiyyətini xüsusilə qeyd etmək istəyirik.

J.Qulamovanın və teatrşünas C.Vəzirovun **"Sözlü, nəğməli Naxçıvan"** kitabı məqalə toplusu kimi 2003-cü ildə oxuculara təqdim olunmuşdur. Bu topluda Naxçıvanın teatr və musiqi həyatı, sənət adamlarının həyat və yaradıcılığına dair müxtəlif illərin məqalələri toplanmışdır. [15].

Musiqişünaslıq işlərindən daha birini də şərh etmək istəyirik. Günay Məmmədovanın **"Naxçıvan musiqi folkloru"** monoqrafiyası son illər musiqişünaslıq sahəsində ən dəyərli elmi işlərdəndir. [11].

Naxçıvanda elmi-pedaqoji və yaradıcılıq fəaliyyəti ilə tanınan gənc mütəxəssis G.Məmmədova **"Naxçıvan bölgəsinin musiqi folklorunun janr xüsusiyyətləri"** mövzusunda maraqlı dissertasiya yazaraq, 2012-ci ildə uğurla müdafiə etmişdir. [12]. Dissertasiya əsasında monoqrafiyanın nəşri isə regionun musiqi folklorunun tədqiqi istiqamətində müəllifin də, Naxçıvanşünaslığın da əldə elmi nailiyyətlərin davamı olmuşdur.

"Naxçıvan musiqi folkloru" monoqrafiyası girişdən, iki fəsildən, nəticədən, istifadə olunmuş ədəbiyyat siyahısından və notoqrafiyadan ibarətdir. Fəsillərlə tanış olduqda, müəllifin musiqi folkoristikasına dair elmi ədəbiyyatlara, etnomusiqişünaslığa, bölgənin musiqi irsinə, toplama və təhlil metodikasına dərindən bələdliliyi məlum olur. Monoqrafiyada I fəsil Naxçıvan musiqi folklorunun istiqamətlərinə, onların təsvirinə və bölgülərinə, yerli ifa və janr xüsusiyyətlərinə həsr olunmuşdur: **"Naxçıvan folklorunda musiqinin təcəssümü"** [11, 9-41]; **"Naxçıvanın qədim mövsüm nəğmələri"** [11, 42-51]; **"Mərasim nəğmələri"** [11, 52-67]; **"Rəqs musiqi janrları"** [11, 68-79 ]; **"Xalq mahnıları"** [11, 80-99 ].

Monoqrafiyanın II fəsli isə Naxçıvan musiqi folklorunun daha bir mühüm nəzəri probleminə - melodiya, lad-intonasiya, ritm, forma xüsusiyyətlərinin təhlilinə və aşkar olunmasına həsr edilmişdir. [11, 100-166]. Maraqlı cəhətlərdən biri kitabın sonunda folklor mətnlərinin cəmlənməsidir. [11, 175-200]. Ümumiyyətlə, bu dissertasiya və monoqrafiya Naxçıvanın mərasim və mahnı folklorunun musiqişünaslıq aspektlərinin öyrənilməsi istiqamətində ilk və qiymətli tədqiqat işi hesab oluna bilər.

Naxçıvan musiqi mədəniyyətinin öyrənilməsində gənc tədqiqatçı Aynurə Quliyevanın əməyini xüsusilə qeyd etmək istəyirik. Sənətşünaslıq elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün 2011-ci ildə müdafiə etdiyi **"Türk aləmində Naxçıvan musiqi mədəniyyəti"** dissertasiyası öz elmi-nəzəri, tarixi müddəalarına, maraqlı təhlillərinə və nəticələrinə görə son illərin Azərbaycan musiqişünaslığında mühüm nailiyyətlərdən hesab oluna bilər. [10].

Dissertasiya girişdən, 5 fəsildən, nəticədən, ədəbiyyat siyahısından və əlavədən ibarətdir. Tədqiqatın mühüm yeniliklərindən biri də budur ki, I fəsil "Heydər Əliyev və musiqi türkologiyası", II fəsil "Türk aləmində Naxçıvan musiqi mədəniyyətinin tədqiqat aspektləri" problemlərinə həsr olunmuşdur və bu kimi vacib elmi-türkoloji məsələlərin metodoloji aspektləri müəyyən olunmuşdur.

Musiqi türkologiyasının problemləri, nəzəri metodologiyası, vəzifələri müstəvisində Naxçıvanın musiqi mədəniyyətinin araşdırılması, əlbəttə, gənc tədqiqatçının Naxçıvanşünaslığa və türkologiyaya layiqli elmi töhfəsidir. Məlumdur ki, Naxçıvanın tarixinə, etnoqrafiyasına, tarixi çoğrafiyasına, ədəbiyyatına və folkloruna, mədəniyyət abidələrinə, toponomiyasına dair xeyli sayda samballı tədqiqatlar yazılmışdır. Xüsusilə, Naxçıvan tarixinin, etnoqrafiyasının, abidələrinin, folklorunun və dialektlərinin türk tarixi və mədəniyyəti çevrəsində araşdırılması nəticəsində müasir türkologiyanın, tarix elminin, Naxçıvanşünaslığın elmi informasiya hüdudları və nailiyyətləri xeyli dərəcədə genişlənmişdir. Eləcə də bəzi musiqişünaslar yallı rəqslərindən bəhs edərkən, onları türk xalqlarının rəqs sənəti ilə müqayisə etmişlər. Lakin A.Quliyeva Naxçıvan musiqi mədəniyyətinin türk musiqisi ilə əlaqələrinin tarixi, musiqi-etnoqrafik və musiqi-nəzəri paralellərini aşkara çıxarmışdır. Müəllif haqlı olaraq, müqayisəli təhlillərində ənənəvi musiqi materiallarına əsaslanmışdır. Çünki həm ortaq türk musiqi dəyərlərinə, həm türk xalqlarının musiqi təfəkküründə ümumi və oxşar cəhətlərin aşkar olunmasına, Naxçıvan musiqi mədəniyyətinin etno-milli köklərinin türk əsilli olmasına dair obyektiv elmi-nəzəri nəticələrin əldə olunması üçün gənc tədqiqatçının qarşıya qoyduğu mövzunun və vəzifənin həllinə düzgün yanaşmışdır.

Təhsili, pedaqoji, ifaçılıq, elmi fəaliyyəti Naxçıvan ilə bağlı olan musiqişünaslardan S.Əlizadənin, Ə.Ələkbərovanın, G.İsmayıovanın, J.Qulamovanın, A.Quliyevanın, G.Məmmədovanın, R.Hüseynovanın, M.Əsgərovanın, bəstəkarlardan M.Ələkbərovun, N.Quliyevin, ifaçılardan Ə.Məmmədlinin, dirijorlardan S.Məmmədovanın Naxçıvanın musiqi folkloruna, yallı

rəqslərinə, musiqi tarixinə, ifaçılıq sənətinə, xalq musiqiçilərinə, teatr musiqisinə, Naxçıvan bəstəkarlarının yaradıcılığına həsr olunan məqalə, dissertasiya və monoqrafiyaları Naxçıvan musiqişünaslığının əldə etdiyi nailiyyətlər sırasındadır. Naxçıvan musiqi mühitinin yetirdiyi görkəmli bəstəkarlar – Nəriman Məmmədov və Ramiz Mirişli haqqında yazılan tədqiqatlar da qeyd olunmalıdır.

Naxçıvanda musiqişünaslığın nəzəri-praktik inkişafında və nailiyyətlərin genişlənməsində mütəxəssislər bundan sonra da fəal rol oynayacaqlar.

## ƏDƏBİYYAT


1. Azərbaycanda elmin inkişafı və regional problemlər: AMEA-nın 60 illiyinə həsr olunmuş elmi konfransın materialları. - B., Nurlan, 2005.- 632 s.
2. Ələkbərova Ə. Yallıların musiqi yozumu. //Elm və həyat - 1995, N 12.
3. Ələkbərova Ə. Yallı sənəti və onun Gəmiqaya rəsmləri ilə bağlılığı // Qobustan - 1999, N 2.
4. Ələkbərova Ə. Musiqi türkologiyasının zəfər yürüşü Naxçıvandan başladı //Musiqi dünyası - 2003, N 4.
5. Əlizadə S. Naxçıvan yallıları: Diplom işi. /Elmi rəhbər B.X.Hüseynli. – B., ADK, 1971.
6. Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası - 90: Quruculuq salnaməsi. – Naxçıvan, "Əcəmi" nəşriyyatı, 2014. – 184 s.
7. Qulamova J. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı tamaşalarında musiqisinin rolu və əhəmiyyəti.– B.: Mars-print, 2011. – 200 s.
8. Qulamova J. Naxçıvan Muxtar Respublikası bəstəkarlar təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu. – B.: Mars-print, 2010. – 134 s.
9. Quliyev N. Naxçıvan musiqi mədəniyyəti tarixindən. – B., Elm, 1999, 140 s.
10. Quliyeva A.A. Türk aləmində Naxçıvan musiqi mədəniyyəti: Sənətşünaslıq üzrə f.d....dissertasiya. – Naxçıvan, 2011, 169 s.
11. Məmmədova G. Naxçıvan musiqi folkloru – B.: ADPU-nin nəşriyyatı, 2012 - 235 s.
12. Məmmədova G. Naxçıvan bölgəsinin musiqi folklorunun janr xüsusiyyətləri: Sənətşünaslıq üzrə f.d...dis.avtoreferatı. – Naxçıvan, 2012.
13. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı – 30 (1978-2008): buklet. – Naxçıvan, 2008.
14. Rzayeva B. Naxçıvan musiqi mədəniyyətinin inkişafında Hacıbəyovlar nəslinin xidmətləri // Musiqi dünyası – 2006.
15. Vəzirov C., Qulamova J. Sözlü, nəğməli Naxçıvan: məqalələr toplusu. – B.. Sabah, 2003.
16. Алекперова А. Хороводные танцы яллы Нахичеванской зоны: автореф. … дис. кандидата иск. – Баку, 1994.


## ABSTRACT


**A.Asgerov**


## NAKHCHIVAN'S MUSIC TRAINING PROFESSIONAL ACTIVITY


The article is devoted to the formation of modern musicology in Nakhichevan Autonomous Republic in second half of $20^{th}$ century. This theme is studied in context of the dynamic development of musical life in this region. The opening of the regional deportment of Azerbaijan National Academy of Sciences, of the Composers Organization, of the State Conservatorie, of the

Musical Sectore in Nakhichevan State Universitety significantly influenced the further functioning and successful development of musicology.

In this article reveals the problems and themes of musicological studies. In these studies a particular place is occupied by the actual problems of Nakhichevani musical culture. Problems of musical history, traditional music, performing culture, musical theater of Nakhichevan are traced in the works of musicologists of this region, for example, A.Alekperova, S.Alizade, N.Guliyev, J.Gilamova, Y.Asadova, B.Rzayeva, G.Mamedova, A.Guliyeva, etc.


**РЕЗЮМЕ**

**А.Асгеров**

**ПРОФЕССИОНАЛЬНАЯ ДЕЯТЕЛЬНОСТЬ МУЗЫКАЛЬНОЙ МУЗЫКИ НАЧИХВАНА**

Статья посвящена вопросам становления современного музыковедения в Нахичеванской Автономной Республике во второй половине 20-го века. Эта тема рассматривается в контексте динамичного развития музыкальной жизни данного региона. Отмечается, что создание Нахичеванского отделения Национальной Академии Наук Азербайджана, Композиторской Организации, Государственной консерватории, филармонии, оказало значительное влияние на развитие музыковедения. Важную роль в этом процессе сыграли также композиторское творчество и исполнительское искусство.

В статье раскрывается проблематика и тематика музыковедческих исследований. Ведущее место в этих исследованиях занимают проблемы нахичеванской музыкальной культуры. Вопросы музыкальной истории, композиторского творчества, традиционной музыки, песенного и танцевального фольклора, исполнительской культуры, музыкального театра Нахичевани исследуются в работах А.Алекперовой, С.Ализаде, Н.Кулиева, Ж.Гуламовой, Б.Рзаевой, Е. Асадовой, Г.Мамедовой, А.Гулиевой и др.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**MÜBARİZ ƏSGƏROV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:78**

# NAXÇIVANDA VOKAL SƏNƏTİNİN TƏDRİSİ

**Açar sözlər:** *vokal, opera, artist, musiqi məktəbi, təhsil, konservatoriya*
**Key words***: vocal, opera, artist, musical, school, education, conservatoire*
**Ключевые слова:** *вокал, опера, артист, музыкальная школа, учеба, консерватория*

XII əsrdə milli ədəbiyyatımızın və incəsənətimizin intibahı, çiçəklənməsi Azərbaycanın bütün bölgələrində xüsusi vüsət aldığından ulu Naxçıvan torpağında da sənətin müxtəlif növlərilə yanaşı, musiqi mədəniyyətinin də təşəkkülü başlamışdır. Qədim diyarda elə o zamanlardan başlayaraq musiqinin müxtəlif formaları üzrə sənətkarlar – çeşidli çalğı alətlərinin ifaçıları, xanəndələr, aşıqlar öz fəaliyyətlərini genişləndirməklə sənətlərini də inkişaf etdirməklə onu gələcək nəsillərə ərməğan edirdilər. Naxçıvan diyarının musiqi sənəti əsrdən-əsrə onun hüdudlarını aşaraq məşhurlaşmış, şöhrətlənmiş və püxtələşmiş formada XIX əsrin sonlarınadək gəlib çatmışdır.

Elə bu təməllər əsasında XX əsrin əvvəllərinə qədəm qoyan Naxçıvan və ümumilikdə Azərbaycan musiqi sənəti Şərqdə ilk operanın yaranmasına vəsilə olmaqla onu daha da şöhrətləndirdi. XX əsrin əvvəlində dahi Üzeyir Hacıbəyovun sayəsində milli professional musiqimiz yarandı. Dünyaşöhrətli bəstəkarımızın ilk böyük əsəri olan "Leyli və Məcnun" operasının Bakıda, 1908-ci il yanvar ayının 21-də premyerası oldu. Məhz bu operada böyük bəstəkarın yazdığı vokal partiyalar – ariyalar, ariozalar, duetlər və xor səhnələrilə milli vocal ifaçılığının əsası qoyuldu.

Bütün dünyaya səs salan, Şərqin ilk operası "Leyli və Məcnun"un premyerası peşəkar aktyorların, opera müğənnilərin, xüsusi təhsil almış vokalçıların iştirakı ilə deyil, teatr və sənət fədailərinin, həvəskar xanəndələrin və musiqiçilərin cəsarəti, vətənpərvərliyi, yanarlığı. Yorulmaz və gərgin zəhmətləri hesabına ərsəyə gəlmişdi.

Azərbaycanda 1930-cu illərədək vokal ifaçısı hazırlayan heç bir təhsil müəssisəsi olmamışdır. Qədim Odlar yurdunun vokal sənəti öz təşəkkülünü sovet hakimiyyəti illərində tapmış və həmin illərdə formalaşaraq inkişaf yoluna qədəm qoymuşdur. 1950-ci illərdən başlayaraq respublikada bu sənətin tərəqqi dövrü başlamış, 60-cı illərdə artıq keçmiş SSRİ məkanında özünəməxsus yeri olmuşdur.

1970-80-ci illərisə Azərbaycanda vokal sənətinin intibah dövrü adlandırmaq lazımdır. 1969-cu ildə ulu öndərimiz Heydər Əliyevin respublikamıza rəhbər seçilməsilə bütün sahələrdə, o cümlədən mədəniyyətdə bir dirçəlişin baş verməsilə vokal sənətində də bir oyanış hiss olundu. Bu sənətin daha da püxtələşməsi naminə hərtərəfli şərait yaradıldı. Onun tədrisinə və təbliğinə xüsusi diqqət yetirildi və qayğı artırıldı. Məhz bütün bunların nəticəsində indi Bakı Musiqi Akademiyası adlanan Azərbaycan Dövlət Konservatoriyasında vokal ixtisasına tələbə qəbulunun sayı artırılmış, indi Dövlət Mədəniyyət və İncəsənət Universiteti adlanan Azərbaycan Dövlət İncəsənət İnstitutunda vokalı da tədris edən musiqili komediya aktyorluğu fakültəsi açılmış, respuçlikanın gənc vokalçılarının Sovet İttifaqının bu sahə üzrə aparıcı təhsil müəssisələrində və məşhur opera teatrlarında yaradıcılıq mübadilələri və təcrübə keçmələri, ümumittifaq və beynəlxalq müsabiqələrdə iştirak etmələri üçün münbit şərait yaradılmışdır.

Azərbaycanın müstəqilliyi bərpa edildikdən və xüsusən də ümummilli liderimizin ölkə rəhbərliyinə qayıdışından sonra bu ənənə yeni vüsətlə davam etdirilmiş, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının bir neçə aparıcı solisti olan vokalçılar İtaliyaya, dünyaşöhrətli La Skala Teatrına təkmilləşmə ezamiyyətinə göndərilmişlər.

1990-cı illərin ortalarında üzü bəri görkəmli vokal ustalarının təntənəli şəkildə yubileyləri qeyd olunmuş, hesabat konsertləri təşkil olunmuş, gənc vokalçılar da daxil olmaqla neçə-neçə görkəmli sənətkar müstəqil Azərbaycan Respublikasının ən yüksək ordenləri, fəxri adları, medalları ilə təltif olunmuş, Prezident təqaüdünə və mükafatına layiq görülmüşdür.

"…Naxçıvan musiqi mədəniyyəti bir çox görkəmli ifaçılar yetirmişdir. Naxçıvan Azərbaycanın qədim, təkraredilməz təbii gözəlliyinə malik olan bir güşəsi olduğu kimi. Naxçıvan musiqi mədəniyyəti, eləcə də ifaçılıq sənəti Azərbaycan musiqi kitabəsinin ayrılmaz, maraqla oxunan tərkib hissəsidir" (2, s. 65).

Muxtar respublikanın 75 illik yubiley tədbirlərində iştirak etmək üçün 1999-cu ildə doğma Naxçıvana növbəti səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev təntənəli yığıncaqdan sonra yubiley konsertinə baxdıqdan sonra gənc vokalçılar olan ADMİU-nun məzunu Samir Cəfərovun və NDU-nun tələbəsi Tural Nəcəfovun ifalarını çox bəyənmiş və hər ikisinin Bakı Musiqi Akademiyasında təhsillərini davam etdirmələrini tövsiyə edərək bu barədə müvafiq rəsmi şəxslərə xüsusi tapşırıq vermişdir.

Bakıda ali ixtisas təhsillərini tamamlayan hər iki gənc vokalçı öz sənət yollarını müvəffəqiyyətlə davam etdirmişdir. Samir Cəfərov sonradan İtaliyada və Rusiyada təkmilləşdirmə kursu keçmiş, məşhur müğənni kimi tanınmışdır. Hazırda respublikanın xalq artisti, Prezident mükafatçısı olan S.Cəfərov Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir.

Tural Nəcəfov isə Bakı Musiqi Akademiyasının məzunu kimi doğma şəhərinə qayıtmış və bugünədək Naxçıvan Dövlət Filarmoniyasının solisti kimi sənət yolunu uğurla davam etdirməkdədir. T.Nəcəfov hazırda Azərbaycan Respublikasının Əməkdar artistidir.

Heç şübhəsiz ki, istər S.Cəfərovun. istərsə də T.Nəcəfovun vokal sənətində püxtələşmələrində və məşhurlaşmalarında Naxçıvan musiqi mühitinin və ilkin sənət dərslərinin əhəmiyyətli rolu olmuşdur.

"Gənc vokal ifaçılarının səhnəyə gəlişi uğurun bir hissəsi idisə, onların vokal ifaçısı kimi püxtələşməsi. Səhnədə möhkəmlənməsi və bu sahədə mükəmməl təhsil almaları qarşıda duran əsas vəzifələrdən biri idi" (1,s. 85).

Yeri gəlmişkən qeyd olunmalıdır ki, muxtar respublikanın bu gün aparıcı və məşhur vokal ifaçılarından sayılan Naxçıvan Dövlət Universitetinin məzunu və hazırda elə burada pedaqoji fəaliyyət göstərən. Azərbaycan Respublikasının Əməkdar artisti Gülyanaq Fərzəliyeva, Naxçıvan MR Əməkdar artistləri Azər Cəfərli və Elçin Nağıyev ali təhsilli sənətkarlar kimi Samir Cəfərovun ustad dərslərində də iştirak etməklə öz yaradıcılıq imkanlarını xeyli genişləndirmiş və hazırda NDU-da tələbə-vokalçılara bu sənətin sirlərini öyrətməklə məşğuldurlar.

Araşdırmalar və qazanılmış təcrübə göstərir ki, ilbəil təkmilləşən vokal ifaçılığı sənətinin Naxçıvanda ustad dərslərinə hər zaman və ciddi ehtiyacı vardır. Bu məqsədlə gənc vokalçıların paytaxta və ya xarici ölkələrə göndərilmələrinə də hələlik heç bir ehtiyac yoxdur. Tanınmış milli vokal sənətkarlarının vaxtaşırı muxtar respublikaya dəvət olunması və onların iştirakı ilə NDU incəsənət fakültəsində, həmçinin Naxçıvan Dövlət Filarmoniyasında iki-üç həftə ərzində ustad dərsləri aparmalarını təmin etmək məqsədəmüvafiq olar. Qeyd olunduğu kimi xalq artisti Samir Cəfərovun 2014-cü ildə muxtar respublika rəhbərliyi səviyyəsində Naxçıvana dəvət olunması və NDU-da, həmçinin filarmoniyada ustad dərslərini yüksək səviyyədə aparması buna əyani sübutdur.

Vokal ifaçılığını özünə sənət yolu seçmək istəyənlərin uşaqlıqdan, yəni orta məktəb şagirdliyi dövründən parallel olaraq uşaq musiqi məktəblərinə daxil olmaları və bu sənətlə həmin vaxtdan tanış olaraq burada ilk addımlarını atmaları məqsədəmüvafiq olar. İlk dəfə muxtar

respublikada məhz Naxçıvan şəhərində, 2006-cı ildə belə bir təşəbbüs irəli sürülməklə şəhərdəki Məmməd Məmmədov adına 1 №-li Uşaq Musiqi Məktəbində bu məqalənin müəllifi tərəfindən vokal dərsləri təşkil olunmuş və ilk sinifdə lazımi səviyyədə tədris edilmişdir.

Bu gün də həmin məktəbdə bu sənətin tədrisi səmərəli davam edir ki, bu da öz nəticələrini göstərməkdədir. Bu uşaq musiqi məktəbinin məzunları indi NDU-nun incəsənət fakültəsindəki və Naxçıvan Musiqi Kollecində olan müvafiq ixtisaslara qəbul imtahanlarını vokal sənətinin, eləcə də opera-kamera müğənniliyinin əlifbasını tam mənimsəmiş halda verə bilirlər.

Naxçıvan Şəhər 1 №-li Uşaq Musiqi Məktəbinin qürur duyulası belə məzunlarıdan bir neçəsinin adını göstərmək yerinə düşər. Kəmalə Əzimova, Hüseyn Qasımov, İlkin Abdullayev, Rahim Əsgərzadə, Qadir Qəmbərov. Bu məzunlar müxtəlif baxış-müsabiqələrdə yüksək yerlər əldə etməklə, dövlət tədbirləri və konsertlərində də uğurla çıxışlar etmişlər. Naxçıvanda keçirilən “Türkdilli dövlət başçılarının IV zirvə toplantısı” münasibətilə verilən konsertdə Kəmalə Əzimova və Rahim Əsgərzadənin ifaları rəğbətlə qarşılanmışdır.

Böyük fərəh hissilə qeyd olunmalıdır ki, 2012-ci ildən NDU-nun incəsənət fakültəsində yaradılan solooxuma şöbəsinin bu gün ilk məzunlarından bir neçəsi pedaqoji fəaliyyətlə məşğuldur. Bu şöbənin ilk müəllimləri G.Fərzəliyeva, M.Əsgərov və T.Nəcəfov olmuşlar. Məhz bu şöbənin açılması muxtar respublikada vokal ifaçılarının daha peşəkar yetişməsinə öz töhfəsini vermişdir. Solooxuma şöbəsinin məzunları, həmçinin tələbələri nəinki təkcə Naxçıvanda deyil, Türkiyə respublikasının da bir neçə universitetində keçirilən tədbirlərdə, konsertlərdə iştirak etmişlər. Həmin şöbənin ilk məzunlarından B.Quliyev, N.İbrahimova və R.Əsgərzadə hazırda magistratura pilləsində təhsillərini davam etdirməkdədirlər.

Əvvəllər universitetdaxili tamaşalarda, operettalardan parçalarda qeyri-peşəkar vokalçı-aktyorlardan istifadə olunurdusa, bu gün solooxuma şöbəsinin məzunları ilə yanaşı tələbələri də əsas rolların ifaçıları olurlar. Təhsil müddətində tədris planına uyğun olaraq tələbələr digər oxşar və ixtisasauyğun dərsləri də (nitq mədəniyyəti, mahnı və romans, səhnə mədəniyyəti) mənimsəyirlər. Bu da onların tamaşalarda sərbəst ifalarına çox kömək etmiş olur.

Bu gün iftixar hissilə deyə bilərik ki, Naxçıvanda mərhələli vokal tədrisi bərqərar olmuşdur. Belə ki, uşaq musiqi məktəbindən başlayan ibtidai tədris, sonradan musiqi kollecində müəyyən edilmiş kursla davam etdirilir və nəhayət, NDU incəsənət fakültəsinin solooxuma şöbəsində püxtələşməklə yüksək ali təhsillə yekunlaşır. Məhz bu məqamı Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbov 2017-ci il sentyabrin 18-də - Milli Musiqi Gününə həsr olunmuş konsert iştirakçıları ilə səhnədə görüşərkən xüsusi vurğulamışdır: “...Naxçıvanda bütün pillələr üzrə musiqi təhsili almaq üçün imkan və şərait var” (4).

“Qəribədir ki. alimlər, yazıçılar, memarlar… yetirən qədim Naxçıvan torpağının nədənsə müğənnisi az olub… Öz yolu, öz sənət izi olan müğənnilər daim yaşayır. Yaddaşlara köç edir. Sənətin gözəlliyi də məhz burasındadır. Belə bir söz var: əsl sənət heç bir zaman yamaq götürmür, əksinə, get-gedə daha da kamilləşir, təravətləşir, ətrafa xoş təranələr səpələyir” (3, ss. 70; 119).

Sonda ümidvarlıq hissilə bidirmək lazımdır ki, uşaq musiqi məktəblərində bundan sonra daha da genişləndiriləcək ibtidai təhsil gənc vokalçıların yetişməsində və püxtələşməsində zəruri vasitə rolunu oynayacaq, muxtar respublikada bu sənətin çiçəklənməsinə öz layiqli töhfəsini vermiş olacaqdır.

## ƏDƏBİYYAT


1. Kərimov R. Naxçıvan musiqi mədəniyyəti tarixindən – vokal ifaçılıq sənəti. Bakı, Azərnəşr, 2006, 96 səh.
2. Quliyev N. Naxçıvan musiqi mədəniyyəti tarixindən – XX əsr. Bakı, Elm, 1999, 137 səh.
3. Vəzirov C., Əliyeva J. Sözlü, nəğməli Naxçıvan. Bakı, Sabah, 2003, 140 səh.
4. “Şərq qapısı” qəzeti, 19 sentyabr 2017-ci il.

## ABSTRACT

**Mubariz Asgerov**

**TEACHİNG OF VOCAL ART İN NAKHCHIVAN**

In the article, information is given about emergence and prosperity of the art of vocal in Azerbaijan. The teaching of primary education of the art of vocal, mainly in Children's musical school is focused on and its necessity and significance are particularly researched. Here the emergence, formulation, evolution and progression of the art of vocal an Nakhchivan are researched and analyzed, as well. Simultaneously information is given about popularization and maturing of the undergraduates of Children's Musical school №1 in Nakhchivan city, as well as, the art faculty of NSU in the filed of vocal art. Their performances and achievements outside the borders of Autonomous Republic, as well as, in some cities of the Republic of Turkey are mentioned. Here with in Nakhchivan where the art of vocal singing improves year by year, pressing need for masters lessons, specially for students and graduates is particularly emphasized in the article. For this reason, invitation of prominent vocalist masters to Nakhchivan permanently is recommended.



## РЕЗЮМЕ

**Мубариз Аскеров**

**ПРЕПОДАВАНИЕ ВОКАЛЬНОГО ИСКУССТВА В НАХЧЫВАНЕ**

В статье дается информация о происхождении и процветании вокальной профессии в Азербайджане. Особенно подчеркивается важность преподавания этой профессии в детских музыкальных школах. Далее рассказывается о выпускников Нахчыванской Городской Музыкальной Школы № 1, Нахчыванского Государственного Университета, с годами ставшими популярными вокалистами. Отмечается их выступления и успехи за пределами автономной республики, в том числе в нескольких городах Турецкой Республики. Рядом с этим в статье особенно отмечается усовершенствования из года в год искусства вокального исполнения, серьезная нужда мастер классам отдельно для студентов и выпускников в Нахчыване. Для этого рекомендуется периодически пригласить в Нахчыван известных мастеров-вокалистов.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**ÜLKƏR HƏSƏNZADƏ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 069**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN YERİ VƏ ROLU

**Açar sözlər:** *Turizm, abidə, Gəmiqaya, Əlincəqala, Naxçıvan, muzey*
**Keywords:** *Tourism, monuments, Gamigaya, Alinja tower, Nakhchivan, museum*
**Ключевые слова:** *туризм, памятники, Гемигая, Алинджакала, Нахчыван, музей*

Hər hansı bir ölkənin turizm potensialından danışdıqda ilk növbədə tarixi-mədəni irs ön plana çəkilir. Azərbaycanın tarixində xüsusi yeri olan Naxçıvan qədim abidələrlə zəngindir. Bu diyarda hər daşın, hər qayanın altında Azərbaycan xalqının zəngin keçmişini, mədəniyyətini, adət-ənənələrini özündə yaşadan abidələr yatır. Məmləkətimizin ayrılmaz bir parçası olan bu diyarda ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, möhtəşəm qala divarlarına, qayaüstü rəsmlərə, ən mükəmməl memarlıq incilərinə rast gəlmək olar.

Nuh peyğəmbərin məzarüstü türbəsi, Möminə Xatın və Yusif Küseyr oğlu türbələri, Naxçıvanqala abidəsi, Qarabağlar Memarlıq Kompleksi, "Xanəgah" Abidə Kompleksi, adı Nuh peyğəmbərin gəmisi ilə əlaqələndirilən Gəmiqaya ərazisindəki qayaüstü rəsmlər, əfsanəvi Haçadağ, abidələrlə zəngin olan "Ordubad" Tarix-Memarlıq Qoruğu, haqqında müqəddəs Qurani-Kərimdə bəhs edilən "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, 5000 ildən çox yaşı olan Naxçıvan şəhər mədəniyyəti, qədim tikililər, qalalar, yaşayış yerləri və nekropollar, xalq sənətkarlarının günümüzə qədər qorunub saxlanılmış sənətkarlıq nümunələri və s. turistlər üçün cəlbedicidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən 700-ə yaxını dünya və ölkə əhəmiyyətli abidə olmaqla, ümumilikdə 1202 daşınmaz tarix və mədəniyyət abidəsi qeydə alınmışdır. Daşınar tarix-mədəniyyət abidələrinin qorunub saxlanıldığı muzeylər turistlər üçün böyük maraq kəsb edir. Naxçıvan Muxtar Respublikasında 28 muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir.. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi də onun zəngin tarixə və mədəniyyətə malik olmasından qaynaqlanır.

Son illər Möminə xatın türbəsi, Qarabağlar Memarlıq Kompleksi konservasiya edilmiş, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış, Yusif Küseyiroğlu və Nuh türbələri, Naxçıvan şəhərindəki və Şərur rayonundakı imamzadələr, muxtar respublika ərazisindəki Buzxana abidələri, "Came" məscidi, Zaviyyə mədrəsəsi, İsmayılxan hamamı, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Naxçıvanqala və digər tarixi abidələr əsaslı bərpa olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında", "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında", "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında sərəncamları tarixi-mədəni irsimizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

Nuh Türbəsi Naxçıvan şəhərinin cənub tərəfində Köhnəqala adlanan ərazidə VIII-XII əsrlərə aid memarlıq abidəsidir. K.A.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində Həzrəti Nuh Peyğəmbərin buradakı məzarı və türbəsi aşağıdakı kimi təsvir olunmuşdur: "Nuhun qəbri Naxçıvan şəhərinin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi 8-ci yüzillikdə bərpa edilmişdir. Indiki görkəmdə məzar yerdən qalxan,

çox da böyük olmayan türbəni xatırladır. əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkanlarla aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş, sərdabə tipindədir. Rəvayətə görə həmin dirəyin altında Nuhun cənazəsi yerləşir. Sərdabədə obrazların və bəzəklərin təsviri yoxdur. Sərdabənin divarları ağardılmış, səyyahların vıə ibadətə gələn zəvvarların müxtəlif dillərdə olan adları ilə yazılıb doldurulmuşdur". V.M.Sısoyev əsərində "Nuhun türbəsi" haqqında məlumat verərkən sərdabənin tərəflərin 2,5 metr olan səkkizguşəli prizma şəklində olduğunu qeyd etmişdir. Azərbaycan realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərli (1892-1922) XX əsrin əvvəllərində yağlı boya ilə Naxçıvan şəhərindəki Nuhun türbəsini naturadan şəklini çəkmişdir. Əsərdə Nuh peyğəmbərin türbəsi ilə yanaşı türbənin yerləşdiyi ərazi də təsvir edilmişdir.

Naxçıvanda Nuhun qəbri ilə bağlı xeyli əfsanələr var. Əfsanəyə görə dünya tufanı zamanı Həzrəti Nuh peyğəmbərin gəmisi Naxçıvan ərazisindəki İlandağa toxunmuş, Qapıcıq zirvəsinə yaxın dağ ətəyində lövbər salmışdır. Həmin yerin Gəmiqaya adlandırılması, bu frazidə Nəbi yurdu adlanan yaylaq yerinin və yaxınlıqda Nuhdaban adlanan qədim yaşayış məskəninin mövcud olması əfsanədə öz əksini tapan mətləblərin gerçəkliyə uyğunluğunu ehtimal etməyə əsas verir. Həzrəti Nuh peyğəmbərlə bağlı rəvayətlərdə hətta onun özünün və bacısının məzarlarının Naxçıvan şəhərində olması barədə məlumatlar öz əksini tapmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 2006-cı il 28 iyun tarixli Sərəncamı əsasında 2007-2008-ci illərdə qədim abidə tarixi mənbələr nəzərə alınmaqla yenidən bərpa olunmuş, ərazidə geniş abadlıq və yenidən qurma işləri aparılmışdır.

Gözəl memarlıq nümunəsi - Möminə xatun türbəsi 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tanınmış memar Əcəmi Abubəkir oğlu Naxçıvani tərəfindən tikilib. Türbə Azərbaycanın Atabəylər dövlətinin banisi Eldənizin göstərişi ilə həyat yoldaşı Möminə xatunun məzarı üzərində ucaldılıb. Abidənin üzərində bu sözlər yazılıb: "Biz gedirik, amma arzularımız qalır. Biz ölürük, amma təməlimiz qalır". 2003-cü ilə türbə əsaslı təmir olunub. Ümumi hündürlüyü 34 m olmuş, sonralar 8 m hündürlüyündə olan xarici örtüyü dağılmışdır. Türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir. Sərdabə hissəsi planda onbucaqlıdır. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun arvadı Möminə xatın və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunmuşdur. Sərdabə orijinal quruluşlu olub, zəngin tərtibata malikdir. Mərkəzdə yerləşmiş sütun onbucaqlının hər küncləri ilə tağşəkilli formada birləşir. Sərdabənin bu quruluşu sonralar Qərbdə, qotika memarlığında tətbiq edilmişdir. Türbənin yerüstü hissəsi xaricdən onüzlü (bütün tərəfləri kufi kitabələrlə haşiyələnmişdir), daxildən isə dairəvidir. Günbəzinin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon var. Türbənin küncləründəki çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uz. 500 m-ə çatır. Türbənin səthi quruluşu həndəsi ornamentlərin kompozisiyasından ibarət firuzəyi kaşılarla daha da zənginləşdirilmişdir. Türbənin q. hissəsi işlənmə xüsusiyyətinə görə fərqlənir. Burada səth iki yerə bölünmüş, aşağı hissəsində giriş qapısı baştağ şəklində həll edilmiş, yuxarı hissəsində isə ornamental bəzəklər verilmişdir. Memarın adını və abidənin inşa tarixini göstərən kitabələr baştağdan yuxarıda həkk edilmişdir.

Naxçıvanın qədimliyini əks etdirən tarixi-mədəni abidələrdən biri də Əlincəqaladır. Əlincəqalanın tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Tarixi qaynaqlara əsaslanan tədqiqatçılar qalanı I-VI əsrlərə aid edirlər. Qalanın xatırlandığı ən qədim mənbə "Kitabi-Dədə Qorqud" dastanıdır. Dastanda Əlincəqala möhkəm istehkam kimi təsvir olunur. XIV əsrin 80-90-cı illərində Əlincəqalanın Azərbaycan xalqının Əmir Teymura qarşı mübarizəsinin əsas istinadgahına çevrilməsi və 14 il mərdliklə müdafiə ol unması tariximizin şanlı səhifələrindən biridir.

Azərbaycan Atabəyləri – Eldənizlərin hökmranlığı dövründə Əlincəqalanın əhəmiyyəti xüsusilə artmış, mühüm hərbi istehkam olan qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacağa çevrilmişdir. Məhz Naxçıvan hakimi Zahidə Xatının iqamətgahı Əlincəqalada yerləşmişdir.

Əlincəqalanın tarixinin öyrənilməsi baxımından arxeoloji qazıntılar zamanı aşkar olunmuş sikkələrin mühüm əhəmiyyəti vardır. Əlincəqalada aşkar olunan ən qədim sikkə VII əsrə aiddir. Sikkənin Daşkənd şəhərində kəsilməsi Əlincəqalanın Mərkəzi Asiya ölkələri ilə ticarət əlaqələrinin olduğunu təsdiq edir. Üzərində hökmdar obrazı zərb edilən, "draxma" adlanan bu tip sikkələr hələ I-IV əsrlərdə müasir Buxara şəhəri və ətrafında zərb edilərək dövriyyəyə buraxılmışdır. Araşdırmalar göstərir ki, "Turan sikkələri" adlanan qrupa aid belə sikkələr eramızın I əsrindən etibarən Böyük İpək Yolunun təsiri ilə əlaqədar olaraq zərbetmə üsulu ilə hazırlanmış, müxtəlif dövlətlərlə ticarət münasibətlərində və əmtəə-pul münasibətlərinin inkişafında tədavül vasitəsi kimi istifadədə olmuşdur.

"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamı ilə yaradılmışdır.

Muzey ekspozisiya zalından və 2 iş otağından ibarətdir. Muzeyin fondunda ümumilikdə 250 eksponat vardır ki, bunlardan da 167-si muzeyin ekspozisiyasında sərgilənir. Muzeyin ekspozisiyasında gümüş kəmər nümunələri də nümayiş olunur ki, bunlar muzeyin ən qiymətli eksponatları sırasındadır.

Bərpa zamanı qalanın tarixiliyi qorunub saxlanılıb. Qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerlərinin ilkin forması saxlanılıb. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. Bərpa işləri zamanı qalanın zirvəsinə doğru yol çəkilib, qala ərazisində, eləcə də yol boyunca işıqlandırma sistemləri quraşdırılıb, oturacaqlar qoyulub və ətrafda yaşıllıqlar salınıbdır. Turistlərin rahat gedişi və abidənin tanıdılması üçün "Naxçıvan-Əlincəqala" turist marşrutu hazırlanıb. Həmçinin Naxçıvan Turizm İnformasiya Mərkəzinin 3 dildə fəaliyyət göstərən internet saytında da Əlincəqala haqqında məlumat yerləşdirilib.

Gəmiqaya abidəsi Naxçıvanın ilkin yaşayış məskəni olmasını elmi əsaslarla təsdiq etməklə yanaşı, həm də Azərbaycanın ən qədim dövr incəsənətinin, mənəvi və maddi-mədəniyyətinin ensiklopediyası kimi öz əhəmiyyətini qoruyub saxlayır. Gəmiqaya daşları üzərində həkk olunmuş müxtəlif kompozisiyalı təsvirlər, həndəsi işarələr, piktoqrafik yazılar insan təfəkkürünün, dünyagörüşünün və təsəvvürlərinin tariximizin minilliklərindən bu günə çatdırılması baxımından əvəzsiz mənbələrdir. Dünyanın ən qədim insan məskənlərindən biri olan Gəmiqaya Ordubad rayonu ərazisində, Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıqda yerləşir. Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Naxçıvanın gözəl təbii abidələri var. Gəmiqaya dünyada məşhur bir yerdir... O, bizim böyük sərvətimizdir. Orada insanın qoyduğu izlər var. Bu, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixidir. Bunlarla məşğul olmaq lazımdır".

"Gəmiqaya" Tarix-Bədii Qoruğu yaradılmış və muzey üçün bina tikilmişdir. Bildirilmişdir ki, 2 yardımçı otaqdan və ekspozisiya zalından ibarət olan muzeyin fondunda 184 eksponat vardır. Hazırda onlardan 106-sı ekspozisiya zalında nümayiş etdirilir. Muzeyə üzərində rəsmlər olan qaya daşları, Gəmiqayada aparılan tədqiqat işlərinə aid müxtəlif kitablar, qəzetlər, fotoşəkillər, qayaüstü rəsmlərin fotoşəkilləri, eləcə də Naxçıvanın 5 minillik tarixinə aid elmi simpoziumların materialları toplanmışdır. qrafiyası və arxeologiyası üçün mühüm əhəmiyyətə malik olan, bəşər tarixinin ilkin təkamül çağlarından xəbər verən Gəmiqaya abidəsi qədim insanların dini, ideoloji, mifoloji, siyasi görüşlərini əks etdirən qayaüstü rəsmlər toplusudur. Süjet və kompozisiyası ilə fərqlənən bu rəsmlərin mövzusu əcdadlarımızın inancına və əmək fəaliyyətinə həsr olunmuşdur. Ona görə də xalqımızın həyat tərzi, qədim adət-ənənələri ilə əlaqədar yaranmış Gəmiqaya rəsmləri qiymətli tarixi və təsviri sənət nümunələri kimi bundan sonra da tariximizin və mədəniyyətimizin ilkin inkişaf mərhələlərini xronoloji ardıcıllıqla izləməyə və öyrənməyə imkan verəcəkdir.

Əshabi-kəhf ərəb dilində "mağara adamları" deməkdir. Eyniadlı yerin Kiçik Asiya və ya Fələstin ərazisində olması haqqında qədim dini ədəbiyyatlarda, o cümlədən Quranda məlumat var. Quranın "Kəhf" ("Mağara") surəsində əksini tapmış əfsanəyə görə isə, Allaha inanan gənclər təqiblərdən yaxa qurtarmaq üçün bir itlə birlikdə mağarada gizlənmişdilər. Allah onları yatırtmış, bir neçə yüz ildən sonra oyatmış,

lakin gənclər özlərinə yad dünyanı görüb, yenidən əbədi yuxuya getmişlər. Naxçıvan ərazisində yayılmış əfsanə də təqribən eyni məzmunludur. Azərbaycan Respublikasının Prezident Heydər Əliyevin tapşırığı və himayəsi ilə Əshabi-Kəhfdə abadlıq-bərpa işləri aparılmış, zəvvarlar üçün şərait yaradılmış, 13 km məsafədə rahat yol salınmış, məscid tikilmiş, kitabə qoyulmuşdur. Bu gün "Əshabi-Kəhf ziyarətgahı" dini-mədəni abidə kompleksi Azərbaycanda tanınmış dini turizm obyektidir. Ziyarətgahın ərazisində "Qonaq Evi", "Bələdçi otağı" və hədiyyələr mağazası da fəaliyyət göstərir. Azərbaycanın bölgələrindən və müxtəlif müsəlman ölkələrindən bu dini ocağa gələn zəvvarların sayı ildən-ilə artır. Kompleks bu gün zəvvarlıq mərkəzinə çevrilib.

Hər bir xalqın qədimliyi, ululuğu onun abidələrində yaşayır. Abidələr xalqı, xalq isə abidələri yaşadır. Ona görə də tariximizin əks-sədası olan abidələrimizi öyrənmək və qorumaq hər kəsin vətəndaşlıq amalına çevrilməlidir.

## ƏDƏBİYYAT

1. "Əlincəqala". Naxçıvan Muxtar Respublikası . Əcəmi. 2016
2. Fərzəli Əjdər. Gəmiqaya-Qobustan mədəniyyəti. Bakı, Nurlan,2008, 328 səh.
3. www.sərqqapısı.az
4. www. Nakhchivan.az

## ABSTRACT

**Ulkar Hasanzade**

Nakhchivan Autonomous Republic has a rich history. Here are samples of material culture from the territory of Nakhchivan since the Stone Age settlements is one of the first civilization proves the monuments of Azerbaijan, as well as highly developed cultural centers of the Middle East, relations with Nakhchivan has revealed.

Ancient Nakhchivan land is a cave with ancient, medieval and modern period of material culture and historical monuments, ancient settlements, ancient city culture, magnificent castle walls, rock paintings, stone sculptures, tombstones with the most perfect examples of memorial architecture, other history Rich in monuments. These monuments are a valuable resource for learning the features, social and spiritual life, traditions and art of our ancestors.

## РЕЗЮМЕ

**Улькар Хасанзаде**

НАР имеет богатую историю. Здесь представлены образцы материальной культуры с территории Нахчывана, поскольку поселения каменного века, является одним из первой цивилизации доказывают памятники Азербайджана, а также высоко развитые культурные центры Ближнего Востока, отношения с Нахчываном показывали.

Древний Нахчыван земля древних, средневековых и современных артефактов и исторических памятников первых людей жили в пещерах, древних поселений, ранней городской культуры, великолепные стены замка, петроглифы, каменные изваяния баранов, мемориальной архитектуры из самых совершенных примеров гробниц и другая историческая богат памятниками. Эти памятники наших предков экономическая, социальная и культурная жизнь, традиция и искусство является ценным источником для изучения.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 5 (86)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 5 (86)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 5 (86)**

**ZENFİRA SEYİDOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 069**

# C.MƏMMƏDQULUZADƏ ADINA NAXÇIVAN MR ƏDƏBİYYAT MUZEYİ VƏ GÖRKƏMLİ ŞAİR VƏ YAZIÇILARIMIZIN MƏNZİL VƏ XATİRƏ MUZEYLƏRİ

**Açar sözlər:** *Mədəniyyət, xatirə, memorial, ədib, şair, ekspozisiya, incəsənət, muzey, portret*
**Key words:** *Culture, memorial, memorial, writer, poet, exposition, art, museum, portrait*
**Ключевые слова:** *культура, мемориал, мемориал, писатель, поэт, экспозиция, искусство, музей, портрет*

Azərbaycan dövləti mədəniyyətin ayrı-ayrı sahələrinə hərtərəfli dəstək göstərir və bu sahənin inkişafına böyük təkan verir. Muzeylər xalqın, dövlətin, tarixi şəxsiyyətlərin, elm-mədəniyyət adamlarının irsinin qorunduğu etibarlı bir ocaqdır. Muzeylərdə mədəniyyətimizin bütün qollarının nümunələri yaşayır. Bəlli olduğu kimi, arxeoloji qazıntılar zamanı üzə çıxarılan, alimlərin aşkarladığı maddi sərvətlərlə yanaşı, evlərdə, tayfalarda saxlanan bir sıra nümunələr də muzeylərə təhvil verilib.

Muzeylər Azərbaycan torpağının havasını, ruhunu özündə qoruyur və təbliğ edir.

Azərbaycanda muzey işinə dövlət tərəfindən xüsusi diqqət yetirilir. Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 mart 2007-ci il tarixində "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqnda" sərəncam imzalayıb.

Sənəddə qeyd edilir ki, xalqımızın ən qədim zamanlarından müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır: "Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malik olaraq respublikamızın bütün bölgələrini əhatə edir" (2 səh.22).

Ədəbiyyat profilli muzeylərin yarandığı gündən materialların toplanması, şair və yazıçılarımızın həyat və yaradıcılığının ekspozisiyada eksponatlar vasitəsilə təbliği mühüm yer tutur.

Muzeylərin fəaliyyətə başladığı illərdə Azərbaycan ədəbiyyatını əks etdirən ekspozisiyaların qurulması, ədəbiyyatımızın öyrənilməsi və təbliği sahəsində müvafiq addımlarını atmışdır. Ədəbiyyat profilli muzeylərdə muzey eksponatlarının nümayiş etdirilməsi, ekskursiyaların təşkili, mühazirələr, kütləvi tədbirlər, səyyar sərgilər vasitəsilə, muzey elmi biliklər yolu ilə təbliğ etməklə həyata keçirir.

Muxtar respublikada ədəbiyyat profilli muzeylərin yaranması, yenidən qurulması, təkmilləşdirilməsi işində muxtar respublika rəhbərliyinin yaxından köməyi olmuş, mövzu ekspozisiya planlarına əsasən ekspozisiyalar yenidən qurulmuşdur.

C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyi mürəkkəb və məzmunlu yol keçmişdir.

Azərbaycan ədəbiyyatı Azərbaycan xalqınım tarixi yaddaşı olmuş və olaraq qalır. Azərbaycan ədəbiyyatı Azərbaycan xalqının həyat tərzini, bəşər mədəniyyəti tarixindəki rolunu əks etdirən salnamə olmuş və olmaqdadır. Muzey həmişə özünün yüksək humanizmi, nikbinliyi, ictimai

fəallığı, beynəlmiləlçilik pafosu, ümuminsani meylləri ilə fərqlənən Azərbaycan xalqının qürurunun və vicdanının, ləyaqətinin və namusunun ifadəsidir.

Böyük demokrat yazıçı C.Məmmədquluzadənin adını daşıyan muzeyimiz də belə ədəbiyyat muzeylərindəndir.

Muzeyin vəzifəsi Azərbaycan ədəbiyyatı tarixini təqdim etmək, yazıçı və alimlərin xatirə əşyalarının yığılması və qorunması, milli ədəbiyyatın təbliği, müasir dövrdə nailiyyətləri ilə geniş kütlələri tanış etməkdir.

Muzeyin daimi ekspozisiyası iki mərtəbədə yerləşən, 3 zalda nümayiş etdirilir. Bu, əslində Azərbaycan ədəbiyyatı tarixinin əyani təqdimidir. Ekspozisiyada şifahi xalq yaradıcılığı, dünya miqyaslı şedevrlər "Kitabi-Dədə Qorqud" və "Koroğlu" kimi eposlar, XII-XVI əsrlər Azərbaycan ədəbiyyatı və onun parlaq zirvələri olan N.Gəncəvi, Nəsimi, Füzuli, zəngin aşıq poeziyası, son orta əsrlərin ədəbi həyatı, yeni milli ədəbiyyatın inkişafında görkəmli rol oynayan M.F.Axundov, A.Bakıxanov, M.Ş.Vazeh, X.Natəvan, N.Nərimanov, H.Cavid, C.Məmmədquluzadə və başqa yazıçılarımızın həyat və yaradıcılığı öz əksini tapmışdır.

Azərbaycan yeni dövr ədəbiyyatının Ə.Əbülhəsən, S.Rəhimov, R.Rza, M.Müşfiq, Naxçıvanlı şair və yazıçıları, dramaturqları, tənqidçiləri müasir ədəbi prosesdə fəal iştirak edən bir çox yazıçılarımız muzeyin ekspozisiyasına daxil olmuşdur.

Muxtar respublikamızdakı hər bir muzeyin öz tarixi, özünün səciyyəvi xüsusiyyətləri, öz siması vardır. Bütün bunlar muzeyin yerləşdiyi binanın, həm də şəxsiyyətin dövrünün təsviri ilə bağlıdır. Xatirə muzeyləri mümkün olduqca görkəmli şəxsiyyətin yaşadığı ərazidə həmin şəxsin evində təşkil edilməli, xüsusən ekspozisiyanın təşkilində sənətkarın yaradıcılığının hər hansı bir cəhətini açdığı üçün mənzilin quruluşu, interyeri saxlanmalıdır. (4 səh.80).

Xalqımızın ümummilli lideri, müasir Azərbaycan Respublikamızın və dövlətimizim qurucusu və memarı Heydər Əlirza oğlu Əliyev Azərbaycanımızın ayrılmaz tərkib hissəsi qədim Naxçıvan diyarının yetişdirdiyi görkəmli şəxsiyyətlər haqqında demişdir:

"Naxçıvan böyük şəxsiyyətlər yetirmiş bir torpaqdır. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər, alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri olmuşlar. Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur." Xalqımızın ümummilli lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi, qayğı və göstərişləri sayəsində Naxçıvanda görkəmli şəxsiyyətlərin adlarının əbədiləşdirilməsi məqsədilə xatirə muzeyləri, ev-mənzil muzeyləri, xatirə ansamblları və kompleksləri yaradılmışdır (1. səh.9).

Böyük Mirzə Cəlilin irsinin toplanması, öyrənilməsi, təbliği məqsədilə Naxçıvan şəhərində C.Məmmədquluzadənin ev muzeyi, Cəlilkənddə və Nehrəm kəndində C.Məmmədquluzadənin xatirə muzeyi yaradılmışdır.

Naxçıvanda C.Məmmədquluzadənin ev muzeyi də ekspozisiya rəngarəngliyi ilə seçilir. Muzeyin ekspozisiyasında böyük ədibin həyat və yaradıcılığının əsas dövrləri, Naxçıvan teatrında onun iştirakı ilə tamaşaya qoyulan tamaşalar haqqında sənədlər, materiallar, Azərbaycan demokratik maarifçiliyindən bəhs edən bir çox foto-sənədlər, "Molla Nəsrəddin" jurnalının nüsxələri və digər eksponatlar vitrinlərdə, guşələrdə nümayiş olunur.

Cəlilkənddə C.Məmmədquluzadə xatirə muzeyində ədibə aid çox qiymətli əşya və eksponatlar toplanmışdır. Bu muzeylər Mirzə Cəlilə həsr olunsa da ekspozisiyanın quruluşu baxımından çox yüksək şəkildə qurulmuşdur. Yəni tamaşaçı bu muzeylərdə çox maraqlı, fərqli ekspozisiya quruluşları ilə rastlaşır ki, bu da muzey işçilərinin yüksək peşəkarlığını təsdiq edir.

C.Məmmədquluzadənin həyatı və yaradıcılığı, nəsil şəcərəsi, pedaqoji fəaliyyəti və s. zəngin materiallar əsasında bədii tərtibatla əks olunur.

C.Məmmədquluzadənin tədqiqatçıları Əli Nazim, Mirzə İbrahimov, Əziz Şərif, Abbas Zamanov, Əziz Mirəhmədov, İsa Həbibbəyli və başqalarının da fotoloarı ekspozisiyada öz əksini tapmışdır.

Nehrəm kəndində C.Məmmədquluzadə xatirə muzeyinin ekspozisiyası ədibin pedaqoji fəaliyyəti, həyat və yaradıcılığının əsas dövrləri, kənddə maarifçilik və təhsil illərinə, ailə həyatına aid zəngin materiallarla tərtib edilmişdir. Muzeydə 1000-dək eksponat mühafizə olunaraq ekspozisiyalar vasitəsilə nümayiş etdirilir.

"Memorial" sözünün əsasını təşkil edən "memoria" latın sözüdür. Azərbaycan dilində "xatirə" sözünə uyğun gəlir. Xatirə muzeyinin əşyaları da, təbii ki, həmin şəxsiyyətin həyatı və fəaliyyəti ilə bağlı olur. Buraya ilk növbədə muzeyin yaradıldığı yer (ev, mənzil, malikanə, iş otağı və s.) daxildir. Təcrübə göstərir ki, yaşadığı müddətdən asılı olmayaraq həmin yerdə xatirə muzeyi yaradılır və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. Ona görə ki, mənsub olduğu xalqa başucalığı gətirən, öz xalqının tarixində və taleyində önəmli rol oynayan, elminin və mədəniyyətinin inkişafına dəyərli töhfələr verən şəxsiyyətlərin adı ilə bağlı hər bir məkan müqəddəs tutulur. Buraya gələn hər bir tamaşaçıda xoş hisslər, duyğular yaranır, şəxsiyyətin xatirəsi böyük ehtiramla yad edilir.

Belə ədəbiyyat profilli muzeylərdən biri də dahi Azərbaycan şairi, görkəmli dramaturq, ədəbiyyat və mədəniyyət xadimi Hüseyn Cavidin ev muzeyidir. Şairin anadan olmasının 100 illiyi haqqında 1981-ci ildə xüsusi qərar imzalanmışdır. Həmin qərarda Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidə heykəl-abidələr ucadılması, xatirə-ev muzeylərinin yaradılması və digər tədbirlərin həyata keçirilməsi öz əksini tapmışdır. (1. səh.17)

1984-cü ildə Naxçıvanda Hüseyn Cavidin ev muzeyinin təntənəli açılışı oldu. Muzey açıldığı gündən müvəffəqiyyətlə fəaliyyət göstərir və ekspozisiyası zənginləşdirilir.

Ekspozisiyanın tərtib prinsiplərindən danışarkən qeyd etmək lazımdır ki, şairin fəaliyyəti xronoloji ardıcıllığı, müəyyən mövzular üzrə ayrı-ayrı bölmələrdə əyaniləşdirilmişdir.

Həmin bölmələrin əyaniləşdirilməsində orijinal fotolardan, Hüseyn Cavidin şəxsiyyəti və yaradıcılığı haqqında görkəmli alim və sənətşünasların mülahizələrindən, əsərlərindən götürülmüş bədii parçalardan, təsviri və tətbiqi sənət nümunələrindən yerli-yerində istifadə olunduğundan, şairin həyat və yaradıcılığı dolğunluqla göz önündə canlanır.

Hüseyn Cavidin dərin mənalı, hikmətli əsərələri ilə ətraflı tanış olan tamaşaçı, həm də onun sələfləri, müəllimləri, qələm yoldaşları, sənət dostları, həmçinin dövrünün mühüm hadisələri haqqında ətraflı məlumat alır.

İstedadlı, qüdrətli qələmi və ardıcıl ictimai fəaliyyəti ilə yarım əsrdən artıq bir dövrdə xalqımızın azadlığı, səadəti, tərəqqisi yolunda çalışan Ordubadinin adı yaddaşlarda əbədi həkk olunmuşdur.

M.S.Ordubadinin yaradıcılığı son dərəcə zəngin, müxtəlif və rəngarəngdir. Ordubadi şairdir, publisistdir, tərçüməçidir, libretto və ədəbi-tənqidi məqalələr müəllifidir. O, Azərbaycan ədəbiyyatı tarixinə ilk növbədə tarixi roman janrının banisi, cəmiyyətimizin keçdiyi bütöv bir ictimai inkişaf dövrünü epik lövhələrlə canlandıran monumental romanların müəllifi kimi daxil olmuşdur.

M.S.Ordubadinin xatirə muzeyi 1972-ci ildə Ordubadda yaradılmışdır. Muzey M.S.Ordubadinin yaradıcılıq irsini mühafizə edir.

Muzey M.S.Ordubadinin həyat və yaradıcılığını dərindən öyrənir, tematik və səyyar sərgilər təşkil edir, elmi-kütləvi iş aparır.

Tarixi dövrlərdə baş verən hadisələri əks etdirən nümunə və məlumatlar, faktlar, incəsənətin müxtəlif növləri, ədəbiyyat, musiqi, təsviri incəsnət, dekorativ-tətbiqi sənət nümunələrinin əyani illüstrativ vasitələrlə təbliği çox güclü hisslərin yaramnasına, biliklərin təsdiqinə, bacarıqların inkişafına, formalaşmasına səbəb olur. (3 səh.284).

Xatirə muzeyləri bir tərəfdən görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirir, digər tərəfdən ideoloji-siyasi müəssisə kimi gənc nəslin vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyə edilməsində xüsusi rol oynayır. Belə mədəniyyət ocaqlarından biri Ordubadda M.T.Sidqinin və Şahbuz rayonunun Nursu kəndində yeni yaradılmış xalq şairi M.Arazın ev muzeyləridir.

Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Məhəmməd Tağı Sidqinin ev muzeyinin yaradılması haqqında" 2014-cü il 17 sentyabr tarixli sərəncamına əsasən yaradılmışdır. Bu muzeyin yaradılması görkəmli pedaqoqun xatirəsinin əbədiləşdirilməsinə, yaradıcılığının daha dərindən öyrənilməsinə və təbliğinə xidmət edir.

Muzey girişdən, 3 ekspozisiya və 3 iş otağından ibarətdir. Ümummilli lider Heydər Əliyev Məhəmməd Tağı Sidqinin təhsil və mədəniyyətin inkişafındakı xidmətlərini yüksək qiymətləndirmişdir. Muzeyin ekspozisiyası ümummilli liderin bu fikirləri ilə başlayır: "Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur.

Ekspozisiyada M.T.Sidqinin yaratdığı "Əxtər" və "Tərbiyə" məktəblərinin fotoşəkilləri, bu böyük maarifçinin məktəb haqqında fikirləri nümayiş olunur.

M.T.Sidqinin məktəb və şagirdlər haqqında yazdığı hekayə və şerlərdən nümunələrdən də məlumat verilir. Onu da qeyd edək ki, M.T.Sidqinin açdığı məktəblər böyük ziyalı nəsli yetişdirmişdir. Burada M.T.Sidqinin yetirmələri H.Cavid, Ə.Şərif. Ə.Qəmküsar, R.Təhmasib, M.S.Ordubadi, İ.Əbilov kimi görkəmli şəxsiyyətlərin fotoşəkilləri nümayiş olunur. Bəli bütün eksponatlar M.T.Sidqi yaradıcılığını göz önündə canlandırır.

Beləliklə, xatirə muzeylərinin yaranması bir daha göstərir ki, Azərbaycan xalqı özünün mədəni keçmişinə böyük qayğı ilə yanaşır, ən yaxşı, ən qabaqcıl ənənələrini qoruyub saxlayır.

Xatirə muzeyləri doğrudan da mədəniyyətimizi, görkəmli şəxsiyyətlərimizin həyat və yaradıcılığını nümayiş etdirən mühüm təbliğat vasitəsi, təbliğat ocağıdır.

## ƏDƏBİYYAT


1. S.Kəngərli. Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır. Naxçıvan 2003
2. A.Bayramov. Heydər Əliyev və muzeylərimiz. Jur Bakı, 1999
3. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyinin əsərləri VI cild. Bakı, Elm,1992
4. C.Məmməquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyinin, C.Məmmədquluzadənin ev muzeyinin, Nehrəm və Cəlilkənddəki C.Məmmədquluzadənin xatirə muzeylərinin, H.Cavid, M.S.Ordubadinin ev muzeylərinin, M.T.Sidqinin ekspozisiya materiallarından.



## ABSTRACT

**Zenfira Seyidova**

**"NAKHCHIVAN AR LITERATURE MUSEUM NAMED AFTER JALIL MAMMADGULUZADE AND MEMORIAL MUSEUMS OF OUTSTANDING POETS AND WRITERS"**

The government of Azerbaijan provides comprehensive support to different spheres of culture and gives a great impetus to the development of this sphere. Museums are a safe place for the protection of the heritage of the people, state, historical personalities, scientists and cultures. Museums have examples of all the branches of our culture. As is well known, some examples of archaeological excavations discovered by scholars, along with the material wealth discovered by scientists and those preserved at homes and tribes have been handed over to museums. Each museum in the Autonomous Republic has its own history, its own characteristics, its own image. All this is related to the description of the building where the museum is located, as well as the period of identity. Memorial museums should be organized in the area where the most prominent personalities live, in the house of that person, especially in the organization of the exposition, because of the creation of the artist's creativity, the structure of the apartment should be preserved.

## РЕЗЮМЕ

**Зенфира Сейидова**

**“МУЗЕЙ ЛИТЕРАТУРЫ НАХЧЫВАНСКОЙ АР ИМЕНИ ДЖАЛИЛЯ МАМЕДГУЛУЗАДЕ И МЕМОРИАЛЬНЫЕ МУЗЕИ ВЫДАЮЩИХСЯ ПОЭТОВ И ПИСАТЕЛЕЙ”**

Азербайджанское государство оказывает всестороннюю поддержку различным сферам культуры и придает большой импульс развитию этой сферы. Музеи - это безопасное место для защиты наследия народа, государства, исторических личностей, ученых и культур. В музеях хранятся экспозиции всех отраслей нашей культуры.

Как известно, некоторые экспозиции археологических раскопок, обнаруженных учеными, наряду с материальным богатством, обнаруженным в домах, были переданы в музеи. Каждый музей в Автономной Республике имеет свою историю, свои особенности, свой имидж. Все это связано с расположением здания, в котором находится музей, а также с описанием периода, в котором жил та или иная личность. Мемориальные музеи должны быть организованы в районе, где жили наиболее известные личности, в доме этого человека, особенно в организации экспозиции, для раскрытия какой либо детали творчества этой личности, структура и интерьер здания должны быть сохранены.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**СЕВДА ГУСЕЙНОВА**

*Нахчыванский Государственный Университет*

**UOT: 78**

# НОВАТОРСКИЕ ОСОБЕННОСТИ В ТВОРЧЕСТВЕ ВЕЛИКОГО КОМПОЗИТОРА ПЕТРА ЧАЙКОВСКОГО

**Açar sözlər:** *novator xüsusiyyətləri, Pyotr Çaykovski, musiqi, "İolanta" operası, süita, "Şelkunçik", Altıncı simfoniya, opera, milli ruh, bəstəkar, "Sonalar gölü", "Yatmış gözəl"*

**Keywords:** *innovative features, Peter Tchaikovsky, the music, the opera of "Iolanta", suite, "The Nutcracker", sixth symphony, the opera, the national spirit, the composer, "Swan Lake", "Sleeping Beauty"*

**Ключевые слова:** *новаторские особенности, Петр Чайковский, музыка, опера "Иоланта", сюита, "Щелкунчик", Шестая симфония, опера, народный дух, композитор, "Лебединое озеро", "Спящая красавица"*

Петр Ильич Чайковский родился 7 мая 1840 года в Вятской губернии в семье горного инженера и талантливой пианистки французского происхождения. Рос он болезненным и крайне чувствительным ребенком, эта черта обострилась после смерти матери, когда Чайковскому было 14 лет. Первое свое музыкальное произведение – романс на итальянский текст Чайковский опубликовал в 21 год. После путешествия по Европе он окончательно решил посвятить всего себя музыке. В 1862 г. Чайковский поступил в только открывшуюся Петербургскую консерваторию и в следующем году навсегда оставил службу. За время обучения композиции и оркестровке у Антона Рубинштейна, Чайковский написал увертюру по пьесе А.Н. Островского "Гроза" и кантату "К радости" на стихи Шиллера [1].

Начало пути композитора было тернистым. В 1866 году он сочиняет свою первую симфонию "Зимние грезы" и первую оперу "Воевода". Сразу после премьеры опера "Воевода" уничтожена автором и восстановлена только много лет спустя, уже после его смерти. Уничтожил Чайковский и вторую оперу – "Ундину". Но часть ее музыки вошла затем в балет "Лебединое озеро". Критика в пух и прах разделала оркестровую увертюру "Ромео и Джульетта", однако композитор дважды тщательно переделывал ее, и впоследствии это произведение заняло ведущее место в его наследии. Только в первой половине 1870-х годов, когда свет увидели Вторая и Третья симфонии, три струнных квартета, великолепный Первый фортепианный концерт си-бемоль минор, а затем оркестровая фантазия "Франческа да Римини" и "Вариации на тему рококо для виолончели с оркестром", Чайковский почувствовал наконец, что обретает почву под ногами. Он пишет еще две оперы, вторая из них "Кузнец Вакула" занимает первое место на конкурсе Императорского музыкального общества. А в 1877 году поставлен первый из всемирно известных шедевров композитора – балет "Лебединое озеро". В 1877 году в Швейцарии и Италии Чайковский заканчивает работу над двумя шедеврами – Четвертой симфонией и оперой "Евгений Онегин" [2-5].

С середины 1880-х годов Чайковский возобновляет музыкально-общественную деятельность. С премьеры оперы "Черевички" в 1887 году он дирижирует исполнением собственных сочинений. Его творчество получает высокую оценку в Берлине, Праге, Париже и Лондоне. Это чрезвычайно плодотворный период творчества Чайковского. В 1888 году он

пишет Пятую симфонию ми минор и увертюру-фантазию “Гамлет”, в 1889 году завершает работу над балетом “Спящая красавица”. В 1890 году публикует свою самую яркую и, наверное, лучшую оперу, написанную, как “Мазепа” и “Евгений Онегин”, по мотивам пушкинского произведения – “Пиковую даму”.

В 1891 году он пишет одноактную оперу “Иоланта” и сюиту “Щелкунчик”. Оба произведения были поставлены в том же году, но встречены так прохладно, что композитор прервал работу над почти законченной Шестой симфонией ми бемоль мажор, и она осталась незавершенной. Части этой партитуры стали затем Третьим фортепианным концертом, также незаконченным, опубликованным после смерти композитора его учеником С.И. Танеевым как отдельные произведения.

В начале 1893 года Чайковский начал работу над Шестой симфонией си минор и накануне премьеры дал название “Патетическая”, была исполнена в Петербурге под управлением автора.

Одно из высших достижений русской и мировой культуры, музыка Чайковского сравнима по значению с вкладом Пушкина и Толстого в литературу. Охватывая темы жизни и смерти, детства и юности, любви светлой и трагической, природы, она связана с русской и мировой литературной классикой тысячью нитей.

Как и ведущие представители объединения “Могучая кучка”, он стал продолжателем лучших традиций М.И. Глинки, синтезировав на основе городской и крестьянской песни, бытового романса, богатейшего интонационного словаря романтической эпохи и наследия великих композиторов прошлого свой неповторимый мелодический язык, в равной степени способный выразить тончайшие движения души и масштабные идеи. Симфонию Чайковский считал “исповедью души” и самой лиричной из всех музыкальных форм. В первых четырех симфониях, “Буре”, увертюре “1812 год”, серенаде для струнного оркестра (1880) он использует фольклорный, песенный материал. В дальнейшем многие “разноголосые” элементы оркестровой музыки раннего Чайковского сливаются в единый стиль, истоки которого – в глубокой психологической драме, пережитой композитором 1870-е годы. Нарастающий трагизм судьбы – лейтмотив второй половины творчества Чайковского, и кульминацией его стала Шестая симфония.

От раннего “Воеводы” и “Кузнеца Вакулы” до “Мазепы” и “Чародейки” музыка опер Чайковского проникнута народным духом. Русские интонации отмечены даже в “Орлеанской деве”, что мало вяжется с историей Жанны д'Арк. Многие современные Чайковскому и нынешние его критики упрекают композитора в слабой драматургии его сценических произведений. Если это отчасти и справедливо, то касается опер, поскольку в балетах Чайковский выступил серьезным новатором, небывало насытив их симфоническим развитием (“Лебединое озеро”, “Спящая красавица”, “Щелкунчик”). Характерно, что в операх на исторические сюжеты (“Орлеанская дева”, “Мазепа”) композитора прежде всего интересует внутренняя драма героев. А такие произведения, как “Евгений Онегин” и “Пиковая дама”, стали и остаются столь любимы слушателем не только в России, но и во всем мире, потому что в этих камерных, глубоко лиричных операх благодаря необыкновенной экспрессивности музыки тонко, без штампов и шаблонов раскрыты переживания героев, с которыми легко может отождествить себя аудитория.

Вряд ли найдется другой композитор, в творчестве которого природа сыграла бы такую важную и благую роль [6, 7]. Обострение, почти религиозное ощущение природы было в творчестве Чайковского образующим началом. По словам самого композитора, даже искусство не способно было дать ему таких “мгновений святого восторга”, какие давала природа. Религиозно-эстетические взгляды Чайковского проявились в его стремлении внести практический вклад в национальную церковную музыку. В основе сочинения и исполнения

церковной музыки, по его мнению, должны быть ясность, искренность и сдержанность выражения, рождающие благоговейное восприятие. По мнению православного богослова и композитора митрополита Илариона, Чайковский одним из первых в числе великих русских музыкальных деятелей под впечатлением собственных религиозно-художественных настроений и по ощущению назревших в этой сфере реформ в последней четверти XIX века обратился к написанию церковной музыки. Для церковно-певческого дела в России, как в практике исполнения, так и в сочинительстве, до конца 1870 годов был характерен утвердившийся на рубеже XVIII−XIX веков концертный “западно-итальянский” хоровой стиль [8, 9]. В храмах было распространено европеизированное церковное пение, а вкусы православных прихожан формировались произведениями Дмитрия Бортнянского и других композиторов, сочинявших русскую церковную музыку в итальянской или немецкой традиции. Написанный Чайковским и изданный в 1875 году “Краткий учебник гармонии, приспособленный к чтению духовно-музыкальных сочинений в России” в 1881 году, был одобрен в качестве учебного пособия для изучения церковного пения в духовных семинариях и училищах.

Чайковский − ярчайший представитель музыкального романтизма в России XIX века. Чайковский воспринял всю систему жанров, практиковавшихся в современной ему Европе − симфонию, симфоническую поэму, струнный квартет, сольный инструментальный концерт, сонату, сюиту и пр. Чайковский испытал влияние типичных композиционных принципов и техник западноевропейского романтизма − программной музыки, лейтмотивной системы, тональной гармонии (с использованием типичных для романтиков модализмов и секвенций), акцентной метрики, музыкальной формы, контрапункта, оркестровки [10]. Вместе с тем музыка Чайковского обладает ярко выраженной спецификой, безошибочно схватываемой на слух. Точное определение этой интуитивно схватываемой специфики составляет научную проблему. Обычно исследователи выделяют два основных творческих вектора Чайковского: вектор национальной характерности и вектор “общеромантической” западноевропейской стилистики.

Чайковский оказал сильное влияние на несколько поколений российских композиторов. Такие композиторы, как Александр Глазунов и Сергей Рахманинов, могут быть названы прямыми наследниками и продолжателями Чайковского. Глубоко он повлиял также на творчество новатора русской музыки XX века Игоря Стравинского, в значительной степени определившего развитие современного музыкального языка.

Шедевры Чайковского: оперы – “Евгений Онегин” (1878), “Мазепа” (1883), Черевички (1885, 2-я редакция оперы 1874 г. Кузнец Вакула), “Пиковая дама” (1890), “Иоланта” (1891); балеты – “Лебединое озеро” (1876), “Спящая красавица” (1889), “Щелкунчик” (1892); произведения для оркестра – увертюра-фантазия “Ромео и Джульетта” (1869-1880), фантазия “Буря” (1873), 3 концерта для фортепьяно с оркестром, из них 1-й b-moll (1875), 12 “характеристических картин” “Времена года” (1876), 6 симфоний (1866-1893), из них 6-я h-moll (1893).

## ЛИТЕРАТУРА


1. Дневники: биография (Автобиография) под ред. Т. Чугунова. Чайковский Пётр Ильич. М.: Наш дом, 2000, 297 с.
2. О программной музыке: Избранные отрывки из писем и статей. Сост., ред. и комм. И. Ф. Кунина. Чайковский Пётр Ильич. М.-Л.: Музгиз, 1952, 112 с.
3. Соколов В.С. Письма П.И. Чайковского без купюр: Неизвестные страницы эпистолярии // Забытое и новое: Альманах. Сост. П. Е. Вайдман и Г. И. Белонович. Вып. 1, М.: ИИФ “Мир и культура”, 1995, стр. 118-134

4. Чайковский М.И. Жизнь Петра Ильича Чайковского. В 3-х томах. М.: Алгоритм, 1997, т. 3, 613 с.
5. Айнбиндер А.Г. Личная библиотека Чайковского, как источник изучения его творческой биографии // Вестник РАМ им. Гнесиных. М., 2007, № 2
6. Кайгородов Дм. Чайковский П.И. и природа. СПб.: Типография А. Суворина, 1907, 46 с.
7. Коптяев А.П. Чайковский П.И. // История новой русской музыки в характеристиках. СПб., 1913, вып. 1
8. Полоцкая Е.Е. Петр Ильич Чайковский как учитель. Монография. – Екатеринбург: Изд-во АМБ, 2007, 388 с.
9. Полоцкая Е.Е. Теория гармонии эпохи Просвещения у истоков гармонических концепций романтизма // Музыка в системе культуры: сб. ст./Урал. гос. консерватория им. М.П. Мусоргского. Екатеринбург, 2008, вып. 3: Теоретические и исторические проблемы музыкознания, стр. 30–41
10. Полоцкая Е.Е. Об условиях становления высшего музыкального образования в России // Старинная музыка, 2009, № 4, стр. 28–32

## XÜLASƏ

**Sevda Hüseynova**

## DAHİ BƏSTƏKAR PYOTR ÇAYKOVSKİNİN YARADICILIĞINDA NOVATOR XÜSUSİYYƏTLƏRİ

Məqalədə dahi bəstəkar Pyotr Çaykovskinin yaradıcılığının novator xüsusiyyətlərindən bəhs olunur. Çaykovskinin musiqisi bədii realizmin yüksək nailiyyətlərindəndir. O, “Qüdrətli dəstə” üzvləri ilə birlikdə Qlinka ənənələrini davam etdirən rus musiqi klassikləri dəstəsinə mənsubdur. Çaykovskinin yaradıcılıq prinsipləri XIX əsrin 60−70-ci illərində Rusiyada baş verən demokratik ictimai hərəkatın təsiri altında formalaşmışdır. İnsanın öz səadəti uğrunda mübarizəsi Çaykovski yaradıcılığının başlıca mövzusudur. Çaykovski insanın daxili aləminə dərindən nüfuz edə bilmiş, dünya musiqi klassikasından, onun tükənməz ifadə vasitələrindən bacarıqla səmərələnmiş və böyük novator kimi də çıxış etmişdir. Onun zəngin melodiyalı musiqi dilinin əsasını rus xalq mahnıları və rus məişət romansı təşkil edir. Bəstəkarın əsərləri üçün vokal və instrumental janrların qarşılıqlı zənginləşməsi səciyyəvidir. Onun balet musiqisi sahəsindəki fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. O, ənənəvi klassik baletdə islahat aparmış, baleti simfonikləşdirmişdir. XIX əsrin ikinci yarısı Çaykovski yaradıcılığının çiçəklənmə dövrüdür. 3 simfoniya, bir neçə proqramlı orkestr əsəri, o cümlədən “Romeo və Cülyetta” uvertüra-fantaziyası, “Fırtına” və “Françeska da Rimini” simfonik fantaziyaları, “Sonalar gölü” və “Şelkunçik” baletləri, “İolanta” və “Qara toxmaq qadın” operaları onun məşhur əsərlərindəndir. Çaykovskinin humanist sənəti XIX əsrin sonu − XX əsrin bir çox bəstəkarlarının yaradıcılığına səmərəli təsir göstərmişdir.

## ABSTRACT

**Sevda Huseynova**

## INNOVATIVE FEATURES THE WORK OF THE GREAT COMPOSER PYOTR TCHAIKOVSKY

In article is about the characteristics of the innovative features of the great composer Pyotr Tchaikovsky. Tchaikovsky's music of the highest artistic achievements of realism. He is “Powerful group” continues the tradition of Glinka, along with members of the group belong to the classics of

Russian music. Tchaikovsky's creative principles 60-70s of the XIX century in Russia was formed under the influence of a democratic social movement. The main theme of Tchaikovsky's creations of struggle for one's own happiness. Tchaikovsky was able to penetrate deeply into the inner world of man, the world music classics, its inexhaustible expression of ably benefit and has acted as a great innovator. His rich the melodic musical language is based on the Russian folk songs and Russian domestic romance. For composer vocal and instrumental genres of the typical mutual enrichment. His ballet music is very important activity in the area. He took the traditional classical ballet reform, the symphonylation of ballet. The second half of the XIX century, Tchaikovsky's creative flowering period. The 3 symphonies, orchestral works on several programs, including “Romeo and Juliet” overture-fantasy, “Storm” and “Francesca da Rimini” symphonic fantasies, “Swan Lake” and “Nutcracker” ballets, “Iolanta” and “Black mallet woman” operas of his famous works. Tchaikovsky humanist art of the late XIX - early XX century, influenced many composers creativity effectively.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).
Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**SOLMAZ AXUNDOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 78**

# QARA QARAYEVİN 12 FUQASI

**Açar sözlər :** *fuqa, musiqi, texnika, tembr, polifoniya*
**Key worlds :** *fugue, music, technique, timbre, polyphony*
**Ключевые слова :** *фуга, музыка, техника, тембр, полифония*

Qara Qarayev məşhur bəstəkar, pedaqoq və ictimai xadimdir. Onun orijinal sənəti bütün dünyada məşhurdur. Əsərlərində həmişə aktual olan Qarayevin yaradıcılığında mövzu və obrazlar genişdir.

Bəstəkar yalnız tarixi hadisələrə müraciət etmir, öz əsərləri üçün xalq əfsanələrindən, bütün dövrlərin şair və yazıçılarının yaradıcılığından sujet alır. N.Gəncəvi, A.S.Puşkin,V.Şekspir, M.Servantes, Ö.Xəyyam, A.Barbur və başqalarının əsərlərinə müraciət edən bəstəkarın musiqisində hisslər, obrazlar, dramatizm, fantastika, qəhrəmanlıq pafosu, obrazlı emosional məzmunun son dərəcə zənginliyi buradan irəli gəlir. Q.Qarayev Azərbaycan musiqisinin janrlarını zənginləşdirmişdir.

Simfonik musiqi, balet, kamera –instrumental, vokal musiqisi, kinofilmlərə və tamaşalara yazılmış musiqilərin inkişafında onun xidməti böyükdür. Klassiklərdən sevdiyi bəstəkarlar - İ.S.Bax, I. V. Betxoven, P.İ.Çaykovski ilə yanaşı sovet bəstəkarları S.Prokofyevin və D.Şostakoviçin də onun yaradıcılığına təsiri olmuşdur.

Qarayev gözəl melodistdir. Onun melodiyası həmişə yeni və təbiidir. Öz yaradıcılığında proqramlılıq prinsipini inkişaf etdirən bəstəkar, yaradıcılığında təsadüf edilən proqram musiqisinin əsas növü özünün başqa janrlarda yaratdığı əsərlərinin materialı əsasında yazdığı süitalarıdır. Polifoniya onun musiqisində böyük rol oynayır. Bu musiqinin metro-ritmik cəhəti də orijinaldır.

Q.Qarayevin f-no üçün yazdığı əsərlərinin sayı o qədər çox olmasada janrlara görə rəngarəngdir. Əsasən simfonik yaradıcılığa, teatr və kino musiqisinə yer ayıran bəstəkar, fortepiano musiqisində də əvvəl proqramlı pyeslər yazır : "Matəm prelyudiyası" və "Sarskoye selo heykəli" pyeslərini sonra Azərbaycan rapsodiyasını davam etdirir. Daha sonra Q.Qarayev sonata janrına müraciət edir.Üç hissəli sonatina, uşaq pyesləri,24 prelüd bəstəkarın həmişə əhatə etdiyi janrlar sırasına daxildir.Eyni zamanda simfoniya, balet, kantata və oratoriya janrlarına dəfələrlə müraciət edir.

12 fuqa bəstəkarın fortepiano üçün yazdığı son əsərdir. Bu mövzuya müraciət edən bəstəkar əlbəttə ki, ilk növbədə İ.S.Baxın "Düzgün Temperasiya olunmuş klavir " lərindən bəhrələnir. Sovet bəstəkarları Dmitriy Şostakoviç və Rodion Şedrinin yazdığı 24 prelüd və fuqa Qarayevi bu janrda yazmağa sövq edir. Lakin Q.Qarayev 12 fuqa ilə kifayətlənir. Bu yanaşma bizə Paul Xindemitin "Ludus tonalis" polifonik məcmüəsini xatırladır. Bu müəllifin fikrincə tonallıq ancaq tonikanın yüksəkliyinə görə təyin olunurdu və major və minoru özündə birləşdirirdi. Ona görə də onda yalnız 12 müxtəlif tonallıqlar alınırdı. Q.Qararyevin 12 fuqası ilə bu məcmüə arasında əsas oxşar cəhətlər fuqaların sayı, tonallığın sərbəst traktofkası və ona görə də açar işarələrinin olmaması - əslində hər fuqanın öz yüksək mövqeyi var.

Sözsüz Qarayev bu sahədə özünü Xindemitdən sərbəst hiss edir və fuqaların çoxusunu eyni tonika ilə bitirmir.

Qarayevin məcmüəsində təmiz polifonik fuqalardan başqa heçnə yoxdur. Daha maraqlı bir şey var ki,bu məcmüə o qədər əhatəli,o qədər özünə məxsus müxtəlif xarakterli, eyni temadan yaranan variasiyalardan ibarətdir.

Qarşımızda monotematik məcmüə durur. Bu da bizə Baxın son əsərlərini xatırladır – "Музыкальное приношение" və "Искусство фуги".Q.Qarayevin 12 fuqasında açıq hiss olunan milli xarakter nəzərə çarpır. Məcmüənin əsasını professional Avropa musiqisinin Azərbaycan xalq musiqisi ilə sintezi təşkil edir.

12 fuqanın yaridan çoxu üçsəslidir. Başlanğıc fuqa 4 səsli, sonrakı isə 2 səslidir. On fuqadan heç biri səviyyəni aşağı salmır. VI və VIII - dördsəsli, X- beşsəsli, son ikisi – üçsəslidir.

Həcmcə fuqalar böyük deyil, quruluşları müxtəlifdir. Elə fuqalar var adi quruluşda: ekspozisiya, orta hissə və repriza, III və X fuqa isə fuqettanı xatırladır.

Bu əsərda Qarayev yüksək dərəcəli ustad - polifonist kimi özünü təsdiqləyir. Onun istifadə etdiyi polifonik texnikanın üsulları, mürəkkəb məsələlərin həlli öz sadəliyi ilə həllini tapır. Fuqaların ifası hər bir pianistin qarşısında spesifik məsələlər qoyur.

Polifonik musiqinin ifası həmişə müzakirə mənbəyi olub.Yada salmaq lazımdır ki, polifoniyanın çoxsəsliliyi ifaçıdan səslərin fərdi tembrlərini göstərməyi tələb edir. Hər bir səsin özünəməxsus rəngi, çaları, o biri səslərlə əlaqəsi, hansı anda hansı səsin qabarıq verilməsi vacibdir.

İfaçı qarşısında duran məsələlərdən biri də ifa olunan fuqanın xarakterini düzgün tapmaqdır. Bəstəkar yalnız tempi metranomla göstərir. Musiqiyə lirik, kantilen və ya oynaq xarakter vermək, bu və ya başqa səsi qabartmaq ifaçının öhdəsinə buraxılır. Eyni tema üzərində qurulmuş səslərin fərdi tembrini, müxtəlif rəngarəng variantlarda təqdim olunan, eşidilməsi vacib olan temanı mütləq ifaya qulaq asanlara çatdırmaq lazımdır.

İndi texniki çətinliklər barədə danışmaq olar.

I. Fuqada mürəkkəb applikaturaya rast gəlmək olur.

II. Fuqa narın barmaq texnikası ilə duqqəti cəlb edir.

III. Fuqa mürəkkəb ştrixləri ilə, ritmik şəkillərin zəngin çoxsəsliliyini tam saxlamaq şərti ilə özünəməxsusdur.

IV. Fuqa lirik, yumşaq və zərif rəqsdir.

V. Fuqa enerjisi, texniki mürəkkəbliyi ilə ifaçı qarşısında məsələlər qoyur.

VI. Fuqa texniki cəhətdən o qədər mürəkkəb olmasa da, səslərin ifadəli və rəngarəng oxunması əsasdır.

12 fuqanı I yarısının nümunələrindən aydın oldu ki, bu əsər ifaçı qarşısında nə qədər məsələlər qoyur. Belə nəticəyə gəlmək olar ki, 12 fuqanı Q.Qarayev tək özü üçün yox, bütün fortepiano ədəbiyyatı üçün ustalıqlara yazmış polifonik bir məcmüədir.

## ƏDƏBİYYAT


1. T.Seyidov . Q.Qarayevin 12 fuqası
2. Solmaz Qasımova . Nazim Bağırov . Azərbaycan sovet musiqi ədəbiyyatı.


## ABSTRACT


**Solmaz Axundova**


**12 FUGUE OF KARA KARAEV**


The article is about the 12 fugues . Composed by Gara Garayev and richness with its text of music and its becoming like polyphonic collection written masterfully. In the journal each fugue differs from the other by its complicated applicature, different tembers . The fugues not being large according do the volume also differ from one another from the

character point of view. This play puts great matters in front of the player. Qarayevs 12 fugues enter the literature of fortepiano like polyphonic collection.


**РЕЗЮМЕ**

**Солмаз Аксундова**

**12 ФУГА КАРА КАРАЕВА**

В статье говориться о том, что Двенадцать фуг Кара Караева - сочинение богатейший в своем музыкальном содержании и мастерски выполненный полифонический цикл. . В цикле каждая фуга отличается от другой аппликатурой, разными темпами . Небольшие по обьему фуги отличаються друг от друга по характеру . Это произведение ставит перед исполнителем многие задачи . 12 фуг Караева входят в фортепианную литературу как полифонический цикл.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**ЛЯМАН МАМЕДОВА**
*Нахчыванский Государственный Университет*
*gunelmamadova@yahoo.com*

**УДК 75**

# ЖИВОПИСЬ МАСЛОМ

*Последние 400 лет масляные краски были излюбленным художественным средством великих мастеров. Многие художники выработали индивидуальный стиль благодаря пластичности, стойкости и богатству возможностей масла. Масляная живопись, вид живописи художественными масляными красками, которые готовят растиранием неорганических пигментов в отбеленном льняном масле (иногда с добавлением орехового и подсолнечного). Масляную живопись отличают выразительность и динамика письма; в большей степени, чем когда-либо другая техника живопись, она позволяет достичь на плоскости зрительной иллюзии объема и пространства, богатых цветовых эффектов и глубины тона.*

**Açar sözlər:** *yağlı boya, yağlı boya rəngkarlığı, incəsənət, tempera, rəngkar, palitra, rəngkarlıq texnikası, piqment, kətan, rəng, kolorit, impasto, alla prima.*

**Keywords:** *oil paints, oil painting art, tempera, painter, palette, technique painting, pigment, canvas, colour, color, impasto, alla prima.*

**Ключевые слова:** *масляные краски, масляная живопись, искусство, темпера, живописец, палитра, техника живописи, пигмент, холст, цвет, колорит, импасто, алла прима.* В живописи используются пигменты, получаемые из натуральных и искусственных красителей. Измельченные в порошок пигменты смешивают с водой, яйцом и маслом. Свойства связующего вещества во многом определяют художественные эффекты, доступные живописцам. Масляные краски изготовляют путем смешивания толченых сухих пигментов с маслом. Обычно используется льняное масло, реже-маковое или ореховое [1, 2].

Древнейшие европейские техники живописи - это фрески (от итал. fresco - свежий) и темпера (от итал. tempera - смешивать) [3]. Фресковая живопись – это стенная роспись по сырой штукатурке красками, разведенными в воде. После высыхания роспись остается на стене. Для фрески применяются краски, не вступающие в химические соединения с известью. Палитра фрески довольно сдержанна; употребляются главным образом натуральные земляные пигменты (охры, умбры), а также марсы, синий и зеленый кобальт и т.д., реже краски медного происхождения (голубец и др.). Растительные краски (индиго и баканы), киноварь, синие, а иногда и черные краски наносят на уже просохшую штукатурку с помощью клея. Фреска позволяет пользоваться тонами в их полную силу, но при высыхании краски сильно бледнеют. Важную роль во фреске играют лессировки, но при большом количестве красочных слоев цвет ослабевает и бледнеет. Кроме собственно фрески с глубокой древности известна роспись по сухой штукатурке – а секко (итал. a secco – по сухому) [5]. В отличие от фрески, живопись а секко выполнялись по высохшей штукатурке красками, растертыми на растительном клее, яйце или (реже) смешанными с известью. Темперу изготовляют путем смешения пигментов с яйцом; ею расписывали деревянные поверхности, а до появления книгопечатания с ее помощью создавали также миниатюры в

манускриптах. Средневековые живописцы писали темперой на загрунтованных досках и покрывали красочный слой олифой или масляным лаком. Темпера использовалась античными и средневековыми художниками и утратила популярность лишь с появлением различных техник живописи маслом. С конца XIX века темпера вновь широко применяется для произведений станкового и декоративно – прикладного искусства. Современные картины, написанные темперой, не покрывают лаком, поэтому они имеют бархатистую матовую фактуру. Цвет и тон в произведениях, написанных темперой, проявляют несравненно большую стойкость к внешним воздействиям и дольше сохраняют первоначальную свежесть по сравнению с масляной живописью.

**Появление масляных красок.** В 1430-х гг. в тогдашней Фландрии, принадлежавшей герцогу Бургундскому (нынешние Бельгия и Нидерланды), начал развиваться совершенно новый стиль живописи [8]. Пигменты начали смешивать с маслом давно, но скачок в развитии масляной живописи произошел именно в XV веке во Фландрии. Считается, что это случилось благодаря смене типа масла или улучшению его качества. Подобно Италии, Фландрия была краем процветающих городов. Именно этому факту многие приписывают реалистичный, лишенный подчеркнутого аристократизма стиль местного искусства. И так же, как в Италии, расцвету фламандской живописи способствовало важнейшее техническое нововведение – масляные краски. Растертые с растительным маслом пигменты значительно превосходили по яркости преобладавшую тогда в живописи темперу, основой которой служил быстро сохнущий яичный желток. И если писать темперой и создавать фрески надо было быстро, не вдаваясь в мелкие детали, то масляные краски можно было накладывать слой за слоем, добиваясь удивительных живописных эффектов. С тех пор любой художник, стремившийся к совершенству, неизменно отдавал предпочтение масляной живописи. Первым великим мастером масляной живописи считается Ян ван Эйк [4, 8]. Яркий колорит и тонко прописанные детали его работ стали признаками фламандской школы живописи. С помощью масляных красок он добивался великолепной передачи игры света и тени на различных предметах. Вершина творчества ван Эйка – монументальные алтарные композиции («Мадонна канцлера Ролена»). В композициях ван Эйка существенную и равнозначную роль играют портретные изображения, пейзаж, интерьер, натюрморт. Чрезвычайная тщательность и вместе с тем смелая обобщенность живописи выявляют особенности и красоту каждого предмета, обретающего реальный вес и объем, характерную фактуру поверхности. Детали и целое находятся в органической взаимосвязи: архитектурные детали, предметы обстановки, цветущие растения, драгоценные камни и ткани, украшающие одежду. Искусство ван Эйка проникнуто глубоким пониманием логической закономерности всего существующего, выражением чего является строгое, продуманное и вместе с тем жизненно естественное построение композиции, полное тонкого ощущения пространственной соразмерности. Решение поставленных ван Эйком творческих проблем требовало разработки новых художественных средств. Ван Эйк одним из первых освоил пластические и выразительные возможности масляной живописи, используя тонкие прозрачные слои краски, положенные один на поверх другого (т. н. фламандская манера многослойного прозрачного письма). Этот живописный метод позволил ван Эйку достигнуть исключительной глубины, богатства и светотени цвета, а также тонкости светотеневых и красочных переходов. Звучные, интенсивные, чистые тона красок в картинах ван Эйка как бы пронизаны воздухом и светом и объединены в единое гармоничное красочное целое. Живописные открытия ван Эйка сыграли важную роль в истории мировой живописи.

Затем масляные краски появились в арсенале итальянцев эпохи Возрождения – Леонардо да Винчи, Джорджоне и Тициана. Эти художники открыли способность масла передавать неуловимые изменения оттенков и глубину пространства. В полотне Тициана

«Тарквиний и Лукреция» виден неповторимый стиль итальянского мастера. По тщательно прорисованным драпировкам можно понять, почему Тициана считали первым художником, открывшим возможности масла в передаче разнообразных текстур.

Вскоре возникла станковая живопись, которая со временем заняла в западном искусстве более важное место, чем фрески и алтарное панно [6]. К XVII веку среди художников вошел в моду лаконичный стиль, письма по тонированной основе (имприматуре), которая служила средними тонами. Светлые части писали кроющими красками, а для теней использовали тонкие лессировочные слои красок. Такие совершенно разные по стилю художники, как Караваджо и Веласкес (XVI-XVII), применяли имприматуры, чтобы подчеркнуть особо контрастные участки и добиться впечатляющих эффектов освещения. Одновременно масляные краски, используемые в станковой живописи, утвердились в качестве основного материала. С XVII по XX век художники создавали ими лучшие работы.

Вначале маслом писали также на деревянных досках, но вскоре им на смену пришел холст, натянутый на деревянный подрамник и загрунтованный, чтобы снизить его поглощающую способность и предохранить ткань от разрушающего действия масла.

Старые мастера (художники до XIX века) покрывали холст плотным слоем белого грунта [7]. Наносились контуры композиции, прописываемые монохромно (одним цветовым тоном или оттенками одного тона) до мельчайших деталей. Затем поочередно наносились слои красок. Именно здесь проявлялись преимущества масла: в отличие от быстросохнущей темперы масло сохнет долго, позволяя художнику дорабатывать картину, разнообразить оттенки и исправлять ошибки. Можно было творить с полной уверенностью в результате, поскольку масло в отличие от других красок не меняет оттенок после высыхания.

Ван Эйк и другие художники наносили тонкие слои полупрозрачной масляной краски на уже просохший слой, что создавало эффект глубины [8]. Старые мастера также покрывали готовую работу лаком, чтобы защитить краски от разрушения и обогатить колорит. Спустя столетия лак тускнел и утрачивал свои свойства, поэтому появилось ложное убеждение, что в классической живописи преобладают темные тона. С помощью современных методов реставрации было обнаружено, что большинство полотен старых мастеров были яркими и красочными.

Техника живописи старых мастеров была трудоемкой, но благодаря ей создавались тщательно прописанные шедевры. Другие великие художники использовали более смелые и быстрые техники, подчеркивающие текстуру масла. На их полотнах отчетливо видны следы кисти – длинные, «рваные» или узорчатые мазки, придающие композиции динамизм. Характер мазка позволяет определять авторов по индивидуальному живописному стилю. Техника живописи, при которой мазок настолько объемный, что выступает над поверхностью холста, называется «импасто». Ван Гог создал выдающиеся полотна, применяя эту технику («Коровы», «Морской вид в Сен-Мари») [5]. Техникой импасто пользовались многие импрессионисты, чему способствовали краски в металлических тюбиках, появившиеся впервые в 1840-м году [9−11]. Краска в тюбиках была гуще, чем прежде, что позволяло выдавливать ее прямо на холст, не опасаясь, что она расплывется. Кроме того, такая краска, смешанная не вручную, а машинным способом (еще одно нововведение), отличалась большей однородностью, что также помогало работать в технике импасто. Другой эффект достигается с помощью лессировки: на холст, предварительно покрытый полупрозрачным слоем лака, наносят краски так, чтобы проступал нижележащий слой. Тициан и Тернер (английский живописец XIX века) были настолько увлечены фактурой, что наносили краску пальцами и добавляли в нее, например, песок, чтобы изменить, усилить или ослабить цветовые тона, обогатить колорит, добиться его единства и гармонии [12].

Техника «алла прима» состоит в нанесении красок быстрыми смелыми мазками на только загрунтованный холст и завершении работы за один сеанс, до высыхания красок. До XIX века она использовалась лишь для эскизов, но обрела популярность благодаря французским импрессионистам – они творили на открытом воздухе и должны были успеть передать мимолетную игру света и изменения воздушной среды. Изобретение тюбиков значительно ускорило работу живописца. Техника импрессионистов – нанесение на холст чистых цветов отдельными мазками в расчете на их оптическое смешение в глазу зрителя, - получила развитие в художественных изобразительных стилях XX – XXI вв.

## ЛИТЕРАТУРА


1. Бергер Э. История развития техники масляной живописи. Москва, 1991
2. Орлова О.В., Фомичева Т.Н. Технология лаков и красок: учебник для техникумов. «Химия», Москва, 1990
3. Фромантен Э. Старые мастера. (пер. с франц.), Москва, 1966
4. Егорова К. С. Ян ван Эйк. Москва, 1965
5. Художественная галерея. Ван Гог. Выпуск 1, «Де Агостини», Москва, 2007
6. Популярная Художественная Энциклопедия, в 2-х томах, "Сов. Энциклопедия ", Москва, 1986
7. Jaxtheimer B. Die Ölmalerei. W. – Münch., 1971
8. Papofsry E. Early Netherlandish painting, v. 1 – 2, Camb. (Mass.)
9. Azərbaycan Sovet Ensiklopediyası, II cild, Bakı, 1978
10. Azərbaycan Sovet Ensiklopediyası, V cild, Bakı, 1981
11. Azərbaycan Sovet Ensiklopediyası, IX cild, Bakı, 1986
12. Verdiyev Ə. Dəzgah rəngkarlığı. "İşıq", Bakı, 1988



## XÜLASƏ

**Ləman Məmmədova**

## YAĞLI BOYA RƏNGKARLIĞI

Məqalədə rəssamlıq sənətində yağlı boyaların meydana gəlməsi, yayılması və texniki üsullarının rəngkarlıqda əhəmiyyəti araşdırılmışdır. Yağlı boyakarlıq – rəngkarlıq növüdür. Yağlı boyakarlıqda əsərlər yağlı boyalarla işlənir. Rəssamlıq yaglı boyaları, piqmenti təmizlənmiş kətan yağında əzməklə hazırlanır. Piqmentlər 2 cür, açıq (şəffaf) və tünd (qeyri şəffaf) olurlar. Orta əsrlərdə əsasən açıq piqmentli boyalara üstünlük verirdilər. İmpressionistlər isə əksinə ultramarindən başqa tünd piqmentli boyalardan istifadə edirdilər. Tərkibi maksimal qatılıqlı bir piqmentə malik olanlar yaxşı boyalar hesab edilirdi. Yağlı boyakarlıqda rəsm, əsasən kətan üzərində, eləcə də karton, ağac, metal səthində, suvanmış divar və tavanda çəkilirdi. Yağlı boyakarlıqda texniki üsulları müxtəlifdir: tabloda rənglər nazik, qalın, sönük, parlaq, qabarıq, tutqun, şəffaf və s. ola bilər. Yağlı boyakarlıq haqqında yazılı məlumatlara antik dövr və orta əsrlərə aid əlyazmalarında təsadüf edilir ("De diversibus artibus"). Yağlı boyakarlıq XV əsrin əvvəllərində niderland rəssamı Yan van Eyk tərəfindən təkmilləşdirildikdən sonra geniş yayılmışdır ("Çalmalı adam portreti"). XVI əsrdə Piter Paul Rubens tərəfindən yağlı boya rəngkarlğı tempera texnikası ilə kombinə edilir. Tempera – suda həll oluna bilən yapışdırıcı maddəli rəngli piqmentlərdən ibarət olan davamlı, tez quruyan rəssamlıq texnikasıdır. Tempera ilə işlənmiş tabloların rəngi və tonu yağlı boya ilə çəkilən əsərlərə nisbətən ətraf mühiyin təsirinə daha çox davanlı olur, ilkin təravətini uzun müddət saxlayır.

Məqalədə boyakarlığın texniki üsullarından olan freska, a sekko, tempera, sfumato, impasto, alla prima və s. təhlil edilmişdir.


## ABSTRACT

**Laman Mamadova**

**OIL PAINTING ART**

İn this article is said about the appearance, development, distribution of the oil paint, and investigate the valua of technique painting. Oil paint is a type of slow – drying paint that consists of particles of pigment suspended in a drying oil, commonly linseed oil. Oil paints have been used in Europe since the 12th century for simple decoration, but were not widely adopted as an artistic medium until the early 15th century. The technical history of the introduction and development of oil paint, and the date of introduction of various additives is still. İn the 13th century, oil was used to detail tempera paintings. The slow – drying properties of organic oils were commonly known to early painters. However, the difficulty in acquiring and working the materials meant that they were rarely used. As public preference for naturalism increased, the quick – drying tempera paints became insufficient to achieve the very detailed and precise effects that oil could achieve. The Early Netherlandish painting of the $15^{th}$ century saw the rise of the panel painting purely in oils, or oil painting, or works combing tempera and oil painting. Yan van Eyck "invented" oil painting is not correct but has cast a long shadow, but van Eyck"s use of oil paint achieved novel results in terms of precise detail and mixing colours wet – on – wet with a skill hardly equaled since.

The article also considers technology art painting as fresco, a secco, tempera, sfumato, alla prima.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 5 (86)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 5 (86)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 5 (86)**

**ƏLƏKBƏR QASIMOV**
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 791.43**

# “KOROĞLU” DASTANI TEATR SƏHNƏSİNDƏ VƏ KİNODA

**Açar sözlər:** *Koroğlu, opera, teatr, orkestr, rejissor, film*
**Key words**: *Koroglu, opera, theatre, orchestra, producer, film*
**Ключевые слова:** *Кероглу, опера, театр, оркестр, режиссер, фильм*

Azərbaycanın xalq qəhrəmanı Koroğlu ilk dəfə milli folklorumuzda özünəməxsus yer tutan “Koroğlu” dastanı ilə tanınmışdır. Şərqdə ilk operanın müəllifi. Azərbaycan professional musiqisinin banisi Üzeyir bəy Hacıbəyov bu dastandan ruhlanaraq 1932-1936-cı illər ərzində eyniadlı, möhtəşəm bir opera ərsəyə gətirmişdir. Bu, opera sənətinə məxsus bütün xüsusiyyətləri birləşdirən, milli musiqidən qidalanaraq yaradılan dünyəvi bir sənət əsəridir. Bəstəkarın şah əsəri sayılan “Koroğlu” operası 1937-ci ildə ilk dəfə olaraq Azərbaycan Dövlət (indi akademik) Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Premyerası aprel ayının 30-da olan tamaşanın quruluşçu rejissoru İsmayıl Hidayətzadə, quruluşçu rəssamı Rüstəm Mustafayev, dirijoru Əşrəf Həsənov omuşdur. Baş rolu ilk dəfə səhnədə canlandıran Bülbül 20 ildən artıq bir müddətdə Koroğlu kimi səhnəyə çıxmışdır. İlk tamaşada digər əsas rollarda G.İskəndərova (Nigar), M.Bağırov (Həsən xan), K.Hüseynov (Həmzə bəy), E.Zülalov (Ehsan paşa) çıxış etmişlər. Həmin gün böyük rəğbət və coşqu ilə qarşılanan, dəfələrlə sürəkli alqışlanan “Koroğlu” operası bu günədək Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının repertuarında möhkəm və daimi yer tutmaqdadır.

1938-ci ildə Moskvada keçirilən “Azərbaycan incəsənəti ongünlüyü”ndə “Koroğlu” operası da Bolşoy Teatrın səhnəsində böyük müvəffəqiyyətlə göstərilmiş və yüksək qiymətləndirilmişdir. Bu möhtəşəm tədbirin təltif olunan iştirakçıları arasında Ü,Hacıbəyov, Bülbül və İ.Hidayətzadə də var idi.

Mehdi Məmmədovun yazdığı kimi ““Koroğlu” operası dinlənilməkdən başqa baxmaq üçün də əlverişlidir. O hər cəhətdən kamil və bitkin əsər olduğu üçün onun təsir gücü də dərindir. “Koroğlu” Azərbaycan opera sənətinin yeni mərhələsi və yüksək yaradıcılıq zirvəsidir. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyü Azərbaycan opera teatrının... qazandığı nailiyyətləri nümayiş etdirdi. Ongünlük milli mədəniyyətimizin böyük təntənəsinə çevrildi... “Koroğlu” müəllifin fikrinə uyğun monumental üslublu, xalq hərəkatını bütün əzəmətilə göstərə bilən realist bir tamaşa kimi canlandı. Xüsusilə rejissor İ.Hidayətzadənin işi və baş rolda Bülbülün məharətlə çıxış etməsi bu tamaşanın şöhrətini bütün ölkəmizə (SSRİ-yə Ə.Q.) yaydı (2, s. 28-29).

Bundan sonra “Koroğlu” operası 1939-cu ildə türkmən dilində Aşqabadda, 1942-ci ildə erməni dilinde İrəvanda, 1950-ci ildə özbək dilində Daşkənddə səhnəyə qoyuldu. Şöhrətli və dəyərrli operasına görə 1941-ci ildə Üzeyir bəy Hacıbəyov “Stalin mükafatı”na (sonralar SSRİ Dövlət mükafatı adlandırıldı) layiq görüldü.

“Koroğlu” Bakıda, ADOB Teatrında 1943-cü ildə rus dilində, 1959-cu ildə isə yeni quruluşda Azərbaycan dilində səhnəyə qoyuldu. Bu yeni tamaşanın rejissoru Mehdi Memmədov, dirijoru Niyazi oldu. 1959-cu ildə Koroğlunu Niyazinin tövsiyəsi, Bülbülün xeyir-duası ilə Azərbaycan DAOB Teatrında ilk dəfə səhnəyə çıxan Lütfiyar İmanov oynadı və çox böyük uğur

qazandı. Hər üç sənətkar – Mehdi Məmmədov, Niyazi ve Lütfiyar İmanov sonralar SSRİ Xalq artisti kimi ən yüksək fəxri ada layiq görüldülər.

1975-ci ildə ADAOB Teatrı yeniden "Koroğlu"ya müraciət etdi. Bu dəfə quruluşçu rejissor Firudin Səfərov, quruluşçu rəssam Tahir Salahov, dirijor Rauf Abdullayev idi. Koroğlu yenə də əvəzolunmaz Lütfiyar İmanov, Nigar – Fidan Qasımova, Həmzə bəy – Firudin Mehdiyev idi. Bu yeni tamaşa Leninqradda da (indiki Sankt-Peterburqda) göstərildi ve Azərbaycan sənətkarları alqışlarla qarşılandılar.

Ümumiyyətlə, Azərbaycan Dövlət Opera və Balet Teatrı "Koroğlu" ile Təbrizdə, Tbilisidə, Kiyevdə də olmuşdur. 1952-ci ildə və 1970-ci ildə "Köroğlu" operasının klaviatura və partituralı kitabları nəşr olunmuş, 1966-cı ildə Sovet İttifaqının poçt markası buraxılmış, 1976-cı ildə isə Moskvanın "Melodiya" Firması tərəfindən Azərbaycan dilinde albom-valı buraxılmışdır.

"1990-cı illərdə İstanbulda, Dövlət Opera və Balet Teatrında, İzmirde, "9 Eylül" ("9 Sentyabr") Universitetinin Konservatoriyasında işləyərək 1997-ci ildə Bakıya dönən Lütfiyar İmanov ən son olaraq Koroğlu kimi ADAOB Teatrının səhnəsine 75 yaşında çıxdı və ən sevimli obrazının öhdəsindən həmişəki kimi bacarıqla gəldi" (3, ss. 216-224).

2000-ci ildən bu tərəfə Aazərbaycan Dövlət Akademik Opera və Balet teatrında səhnəyə üç gənc Koroğlu – Samir Cəfərov, Ülvi Qılınc ve Ramil Qasımov çıxaraq tamaşaçı alqışı və rəğbətini qazana bilmişlər.

2009-cu ilin avqust ayında TÜRKSOYun dəstəyilə bu təşkilata üzv ölkələrin sənətkarları tərəfindən Bişkekdə, sentyabr ayında isə Almatıda, daha sonra Ankarada və Bakıda "Koroğlu" operası oynanıldı.

2011-ci ildə Üzeyir Hacıbəyovun 125 illiyi münasibətilə TÜRKSOY tərəfindən Ankarada Əflatun Nemətzadənin "Altın çağın incisi – Köroğlu" ("Qızıl dövrün incisi – Koroğlu") kitabı nəşr olundu. Türkiyədə yaşayan Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, "Qazi" Universitetinin professoru Ə.Nemətzadənin bu kitabı TÜRKSOYun baş katibi Düseyn Kaseinovun ön sözü ilə açılır. Daha sonrakı ilk səhifələrdə Türkiyə ve Azərbaycan prezidentləri Abdullah Gülün və İlham Əliyevin nitqləri yer almışdır.

Türk ve ingilis dillərində nəşr olunan bu kitabda TÜRKSOYun dəstəyilə türk respublikalarında hazırlanan "Koroğlu" operasının tamaşaları haqqında məqalələr və onların foto-şəkilləri də verilmişdir. Kitabın həmin il noyabrın 23-də Bakıda, Ü.Hacıbəyovun Ev-Muzeyində dahi bəstəkarın vəfat etməsinin 63-cü ildönümü münasibətilə təqdimat mərasimi keçirilmişdir.

2012-ci ildə Naxçıvan Dövlət Universiteti incəsənət fakültəsinin müəllim və tələbələrinin iştirakı ilə "Koroğlu" operasından ayrı-ayrı səhnələr hazırlanıb Naxçıvan Dövlət Musiqili Dram Teatrınında göstərildi. Tamaşanı Naxçıvan Dövlət Filarmoniyasnın birləşmiş orkestri müşayiət etdi. Koroğlunu Mübariz Əsgərov, Nigarı Gülyanaq Fərzəliyeva (hər ikisi indi AR Əməkdar artisti), Həsən xanı Əli Davudi, Həmzə bəyi Elçin Nağıyev canlandıraraq alqışlarla qarşılandılar.

"Koroğlu" dastanı öz mövzusu ilə Azərbaycan kino sənətkarlarının da diqqətini çəkmiş və 1960-cı ildə "Azərbaycanfilm" Kinostudiyasında eyniadlı film çəkilmişdir. Bu film Azərbaycan kinosu tarixinde ilk genişekranlı film sayılır.

Filmin ssenari müəllifi Sabit Rəhman,quruluşçu rejissoru Hüseyn Seyidzadədir. Koroğlu – Əfrasiyab Məmmədov, Nigar – Leyla Bədirbəyli, Həsən xan- Ağadadaş Qurbanov, vəzir – İsmayıl Dağıstanlı, dayə – Mərziyə Davudova, Alı kişi və aşıq Cünun – Əli Qurbanov, Alagöz – Tamilla Ağamirova, keçəl Həmzə – Möhsün Sənani, Dəli Həsən – Atamoğlan Rzayev, Kosa Səfər – Məmmədsadıq Nuriyev, Ərəb Reyhan – Salman Dadaşov, Bolu bəy – Məlik Dadaşov, Dəmirçioğlu – Muxtar Maniyev, Gürcüoğlu – Givi Toxadze filmde çok böyük uğur əldə etmişlər.

Azərbaycanın görkəmli bəstəkarı Cahangir Cahangirov bu filmə gözel musiqi və mahnılar yazmışdı ki, onları da Şövkət Ələkbərova, Lütfiyar İmanov, Əlibaba Məmmədov və Anatollu Qəniyev səsləndirmişlər.

Bu film bir neçə sənətkarın – geyim rəssamı Bədurə Əfqanlının, operator Şərif Şərifovun, aktyor Ələddin Abbasovun (səfir) kinoda ilk işi oldu.

Filmin ilk kütləvi nümayişi 1965-ci ildə Finlandiyada həyata keçirildikdən sonra Sovet İttifaqının dörd bir yanında ekranlara çıxmışdır. "Film H.Seyidzadəyə və bütün yaradıcı qrupa uğur qazandırdı. Axı oxucular və tamaşaçılar Koroğlunu ekranda görmək arzusunda idilər... Müəlliflər filmdə düzgün olaraq, lirik xəttin əvəzinə qəhrəmanlıq xəttinə üstünlük vermişlər. Çünki Koroğlu hər şeydən əvvəl xalq kütlələrinin başçısıdır... Film tamaşaçılara uzaq keçmişin qəhrəmanlığını, Azərbaycan xalqının azadlıqsevərliyini, əyilməzliyini, onun nəsildən-nəslə ötürülən məğrurluğunu çatdırır" (1, s. 53).

Sovet filmləri festivalı ilə əlaqədar olaraq "1962-ci il 10 dekabr tarixli "Pravda" qəzeti xəbər verirdi ki, filmlər İranda böyük uğurla nümayiş etdirilir. "Koroğlu" filmi ikinci həftədir ki, Tehranın ən iri kinoteatrlarının ağzınacan dolu zallarında nümayiş etdirilir. Bu film Azərbaycan xalq eposunun kino həvəskarları arasında təbliğ olunmasına və populyarlaşmasına kömək edir" (4, s. 32).

Azərbaycanda "Koroğlu" adlı ikinci bir film 2003-cü ildə "Azərbaycantelefilm" Yaradıcılık Birliyində lentə alınmışdır. Bu, dastan əsasında musiqili televiziya filmi oldu. Ssenari Aydın Qurbanoğluna, quruluş rejissor Rövşən Almuradlıya, rəssam işi Nabat Səmədovaya, musiqi Sərdar Fərəcə məxsus olmaqla Koroğlunu Zöhrab Məmmədli, Nigarı Zülfiyye Aşıqlı, Aşık Cünunu Salam İsmayıl oynamışlar.

"Koroğlu" bu gün də Azərbaycanın teatr səhnələrində və televiziya kanallarında sevilə-sevilə izlənməkdədir.

## ƏDƏBİYYAT


1. Kazımzadə A. Azərbaycan kinematoqrafçıları. Bakı, Mütərcim, 2002, 224 səh.
2. Məmmədov M. Teatr düşüncələri. Bakı, İşıq, 1977, 231 səh.
3. Qasımov Ə. Lütfiyar İmanov və Naxçıvan. AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i (ictimai və humanitar elmlər seriyası), № 1, 2013.
4. Гурбанов М., Гулубеков Э. Кино Советского Азербайджана. Баку, Азгиз, 1969, 74 стр.
5. İnternet: uzeyir.musigi-dunya.az/az/artikle10.html


## ABSTRACT


**Alakbar Gasimov**


## "KOROGLU" EPOS IS ON THE STAGES OF THEATRE AND CINEMA


Koroglu who is famous all over the turkish world as a great hero has been introduced in Azerbaijan folklore with "Koroglu" epos. In article the author widely speaks about "Koroglu" opera which was written in 1937 by famous composer Uzeyir Hajibayli who is the first opera writer in the East and the proud of turkish people.

The first spectacle of "Koroglu" opera was on had been showed on the stage of Azerbaijan State Theatre of Opera and Ballet on the 30th of April in 1937. "Koroglu" opera had been showed on the stage of "Bolshoy Theatre" in Moscow in 1938 by Azerbaijan State Theatre of Opera and Ballet on the days of "Azerbaijan art ten days" and had been got an excellent mark.

The "Koroglu" epos had been involved the attention of Azerbaijan cinema craftsmen for its topic and in1960 "Azerbaijanfilm" Cinema studio had made the same name film. This film entered

the Azerbaijan cinema history as the first coloured film. This was showed for the first time in Finland in 1965. after it that was showed majority territories of the Soviet Union.

The film by name "Koroglu" received to the ribbon for the second time in 2003 by "Azerbaijantelefilm" unity of creative work. That was the first musical film on basis of the epos.

Nowadays "Koroglu" is watched with great pleasure on the stages of the cinemas and the theatres by Azerbaijani spectators.


**РЕЗЮМЕ**

**Алекбер Гасымов**

**ЭПОС "КЕРОГЛУ" НА ТЕАТРАЛЬНОЙ СЦЕНЕ И В КИНО**

В статье рассказывается о появления интереса в Азербайджане рядом с учеными – специалистами фольклора, композиторов, мастеров театра и кино к эпосу "Кероглу" и к личности Кероглу начиная с 30-х годов XX века.

Здесь привлекается внимание на создании оперы "Кероглу" в 1937-ом году автором первой оперы на Востоке, гениальном композитором Азербайджана Узеиром Гаджибековым, вдохновившись и воспользовавшиеся от этого эпоса, премьера которая состоялось 30-ого апреля того же года на сцене Азербайджанского государственного театра оперы и балета, и до наших дней крепко и вечно обосновавшийся в репертуаре, и неоднократно с успехом продемонстрированной как в столице и центральных городов СССР, так и в союзных республиках этой оперы.

Исследовано также интерес деятелей кино Азербайджана к эпосу "Кероглу", как в 1960-ом году снималось одноименный фильм в киностудии "Азербайджанфильм". Который считается первым широкоэкранном фильмом в истории национального кино и о демонстрации этого фильма, премьера которой состоялось во Финляндии, в 1965-ом году, а потом во всех уголках Советского Союза.

Изыскано и снятия второго фильма с именем "Кероглу", который создан в Творческом Объединении "Азербайджантелефильм", в 2003-ем году, на основе этого эпоса как музыкальный телевизионный фильм.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**SƏYYARƏ SADIXOVA**
*Naxçıvan Dövlət Universiteti*
*Seyyare.sadiqova@mail.ru*

**UOT: 78**

# HÜSEYN ƏLİYEVİN YARADICILIĞINDA NATÜRMORT JANRI

**Açar sözlər:** *natürmort, ölü heyanlar, faktura, kompozisiya*
**Key words:** *still life, dead animals, facture, composition*
**Ключевые слова**: *натюрморт, мертвые животники, фактура, композиция*

Natürmort, əsasən, cansız əşyaları təsvir etmək üçün istifadə olunan boyakarlıq janrıdır. Burada əşyalar ya təbii (yemək, güllər, ölü heyvanlar, bitkilər, qayalar və s.) ya da insan əli istehsalı (içki şüşələri, kitablar, vazalar, cəvahiratlar, sikkələr, müştüklər və s.) ola bilər [2, s.6].

Natürmort rəsmləri çox vaxt qədim Misir sərdabələrinin daxilini bəzəyirdi. Misirlilər bu sərdabələrə qoyulmuş yeməklər və digər əşyaların axirətdə həqiqi olacağına və orada təsvir olunanların ölü tərəfindən istifadəsinin mümkünlüyünə inanırdılar.

İntibah dövründə Cotto və şagirdləri tərəfindən inkişaf etdirilən natürmort 1900-cü ilə qədər təsvir olunan dini divar rəsmlərində məişət əşyalarını canlandırırdı [1].

Natürmort 16-cı əsrin son rübündə kasıb ölkələrdə müstəqil bir janr kimi inkişaf etdi. İngilis termini olan “still life” holland sözü olan “stilleven” sözündən yarandığı halda, yunan, polşa, rus və türk dillərində bu “cansız təbiət” termini kimi işlənmişdir [5].

Görkəmli rus sənətşünası N.M.Miklaşevskaya Azərbaycan natürmortlarından bəhs edən kitab da dərc etdirmişdir [3]. Miklaşevskayanın məlumatına görə, XIX əsrdə Azərbaycanda natürmort, yalnız xan sarayı divar rəsmlərində deyil, eyni zamanda, Şuşa, Lahıç, Qubadakı evlərdə də geniş yayılmışdır. XIX əsr rəssamlarının əsərlərində natürmort bu dövrün məişəti haqqında bədii təsəvvürün yaradılmasında önəmli rol oynamışdır [4].

Bir çox rəssamlar yaradıcılığa natürmortla qədəm qoyurlar, çünki natürmort vasitəsilə fakturanı öyrəndikdən sonra daha mürəkkəb janrlarda işləmək asan olur. Azərbaycanın xalq rəssamı Hüseyn Əliyev rəssamlıq fəaliyyətinə mənzərə ilə başlasa da, yaradıcılığında natürmort əsərləri də kifayət qədərdir.



Hüseyn Əliyevin ilk natürmortu 1932-ci ildə sulu boya ilə işlənmişdir. [şək.1] 21 yaşlı rəssam üçün fakturanın bu qədər dərk edilməsi və təsvir etmə bacarığı onun gələcəkdə necə böyük sənətkar olacağından xəbər verirdi. Gənc rəssam adi əşyalardan belə gözəl sənət əsərləri təqdim edə bilmişdir. Bu ilk natürmortunda o, ağ parça üzərində yeyinti məhsullarını fırçaya alaraq şəffaf stəkanın və suyun effektini böyük ustalıqla tamaşaçıya çatdıra bilmişdir

Şəkil 1. Natürmort, 1932 (sulu boya)

Hüseyn Əliyev yaradıcılığının sonrakı mərhələlərində də natürmort janrına müraciət etmişdir. Belə əsərlərindən biri də 1965-ci ildə sulu boya ilə işlədiyi “Royalın üstündə alma” adlı natürmortdur [şək.2]. Bu tabloya sadəcə natürmort kimi baxmaq olmaz. Çünki rəssam burada mükəmməl fantaziyasını ortaya qoymuşdur. Belə ki, əsərdə təsvir olunan predmet ilk baxışda



hansısa səma cismini xatırladır. Diqqətlə izləndikdən sonra bu predmetin parlaq səth üzərinə əksi düşmüş alma olduğu anlaşılır. Əsərin adından da göründüyü kimi rəssam qırmızı planet olan Marsa bənzəyən almanı royalın üzərində təsvir etmişdir. Almanın üzərindəki ləkələr və , bəlkə də, su damlaları Ayın və yaxud Mars planetinin üzərində görünən kraterlərə oxşayır. Əslində, bu əsərlə rəssam tamaşaçılarına sanki bir mesaj göndərmişdir; hər hansı bir predmetə və yaxud həyat hadisəsinə təkcə baxmaq kifayət deyil, onu görmək əsas şərtdir.

Şəkil 2. “Royalın üstündə alma”, 1965 (sulu boya)



Hal-hazırda bu tipli sənət əsərləri müxtəlif texnikalarda, xüsusilə də kompüter qrafikası ilə yaradılaraq KİV-də tez-tez yayımlanır. Qürurla deyə bilərik ki, Azərbaycanın xalq rəssamı Hüseyn Əliyev belə əsərlər yaratmağa hələ XX əsrin 60-cı illərində nail olmuşdur.

Xalq rəssamının oxşar kompozisiyaya malik olan əsərlərindən biri də “Yaşıl alma” natürmortudur (1982) [şək.3]. Bu əsərdə də eyni konsepsiya özünü göstərir.

Şəkil 3. “Yaşıl alma”, 1982 (sulu boya)



Növbəti natürmortda isə rəssam alma və armud təsvirini, sanki sualtı görünüşdə təqdim edir [şək.4]. Görkəmli fırça ustasının sürətli və cəsarətli yaxıları natürmorta xüsusi dinamika bəxş etmişdir. Sulu boya ilə çəkdiyi bu natürmorta özünəməxsus işləmə tərzi ilə monotip effekti vermişdir.

Şəkil.4. Natürmort”, 1970 (sulu boya)



1972-ci ildə sulu boya ilə işlənmiş natürmortda isə rəssam tərəfindən fonun və ətrafın neytral həlli yalnız meyvələrin təsvirini önə çıxarmışdır [şək.5].Görüntü baxımından tamaşaçıya yaxınlaşdırılmış şəkildə fırçaya alınmış bu meyvələrin əlvan və isti rəngi tamaşaçıya xoş ovqat bəxş edir.

Şəkil 5.“Natürmort”, 1977 (kətan, yağlı boya)



Hüseyn Əliyev adətən, natürmort əsərlərini sulu boya ilə işləsə də, onların arasında kətan üzərində yağlı boya ilə çəkdiyi natürmorta da rast gəlinir [şək.6]. 1977-ci ildə boşqabda təsvir etdiyi meyvələr natürmortu bu qəbildəndir. Tünd fonda verdiyi meyvələrin ümumi koloritində qırmızı və sarı rəngin vəhdəti və kontrastı əsərdə xüsusi harmoniya yaradır. Bu rənglərin qarşılıqlı münasibətindən Hüseyn Əliyev natürmortlarında tez-tez istifadə etmişdir.

Şəkil 6.“Natürmort”, 1977 (kətan, yağlı boya)

1979-cu ildə fırçaya alınmış “Natürmort” adlı əsərdə kompozisiyanın mərkəzindəki güldanda kala, qərənfil və qızılgüllər olmaqla masanın üstündəki meyvələr baxış bucağının ikinci planında yerləşdirilmişdir [şək.7]. Açıq mavi və boz fonda güllərin əlvan rəngi tamaşaçıya baharın təravətini hiss etdirir. Rəssam predmetləri sağ tərəfdən işıqlandırmışdır. Bunu meyvələrin və güldanın hamar səthi üzərində işığın əksi ilə izah etmək olar. Haqqında bəhs edilən bu natürmortda Hüseyn Əliyev olduqca düzgün işlədiyi işıq perspektivi vasitəsilə predmetlərin işıq mənbəyinə nə qədər yaxın və ya uzaqda olmasını dəqiq çatdıra bilmişdir.



Şəkil 7. “Natürmort”, 1979 (sulu boya)

1983-cü ildə rəssam natürmort janrına yenidən müraciət etmişdir [şək.8]. Sulu boya ilə işlədiyi bu natürmortda H.Əliyev masa üstündəki boşqabda müxtəlif meyvələri təsvir etmişdir. Əsərdə iri və sürətli yaxılardan istifadə olunsa da, ümumi formalarda, rəng uyumunda və işlənmə tərzində peşəkar dəsti-xətt sezilir.



Şəkil 8.“Natürmort”, 1983 (sulu boya)

Janr seçimi baxımından Hüseyn Əliyevin “Lalələr” adlı əsəri xüsusilə maraqlıdır [şək.9]. Belə ki, o, eyni zamanda tabloya həm natürmortun, həm də mənzərə janrının əlamətlərini vermişdir; ön planda və kompozisiyanın mərkəzində al-qırmızı lalələri fırçaya alaraq onları güldanda deyil, təbiətin özündə təsvir etmişdir.



Şəkil 9. “Lalələr”, 1977 (sulu boya)

Güllərin əlvanlığı, incə işlənməsi şair ruhlu rəssamın zərif duyğularından xəbər verir.

Xalq rəssamı Hüseyn Əliyev əsərlərini işləyərkən yaşadığı təəssüratları tamaşaçıya da yaşatmağa qadir olan .böyük sənətkar kimi Azərbaycan təsviri sənətində əvəzolunmaz mövqeyini həmişə saxlayacaqdır.

## ƏDƏBİYYAT


1. Elbert Schifferer, Sybille, Still Life: A History, Harry, N.Abrams, New York, 1998
2. Longmuir, Erica, Still Life, 2001, National Gallery (London)
3. Миклашевская Н.М. Развитие натюрморта в азербайджанской живописи. сб. «ИскусствоАзербайджана» выпуск 9, Баку.,1963.
4. Наджафов М. «Азим Азимзаде и его место в развитии азербайджанского искусства» Автореферат доктора искусств. Баку 1968
5. Slive, Seymour, Dutch Painting, 1600-1800. Yale University Press, 1995

## ABSTRACT

**Seyyare Sadiqova**

### STILL LIFE GENRE IN HUSSEIN ALIYEV'S CREATIVE ACTIVITY

Paintings covering Hussein Aliyev's still life genre have been depicted and analyzed in the article.The history of still life genre has been mentioned here briefly. It has been noted that though the first still life paintings are met on the walls of Egyptian tombs, as an independent genre still life began to emerge in 16th century. Hussein Aliyev's 9 still life works have been highlighted and analyzed in the article. There are still life paintings painted both in watercolor and oil here. The paintings of fruits and flowers prevail among the still life works painted by the painter.



## РЕЗЮМЕ

**Садыхова Саяра**

### ЖАНР НАТЮРМОРТА В ТВОРЧЕСТВЕ ГУСЕЙНА АЛИЕВА

В статье описываются и анализируются работы Гусейна Алиева, относящиеся к жанру натюрморта. Здесь дан краткий обзор истории жанра натюрморта. Было отмечено, что первые натюморты были найдены на стенах египетских склепов, но натюрморт как самостоятельный жанр начал формироваться в XVI веке. В статье освещаются и анализируются 9 натюрмортов Гусейна Алиева. Они относятся как к акварели, так и масляной живописи. Среди реалистичных артефактов художника преобладают натюрморты с фруктами и цветами.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**ƏLİ QƏHRƏMANOV**
AMEA Naxçıvan Bölməsi

**UOT: 792**

# BAKILI AKTYORLAR NAXÇIVAN SƏHNƏSİNDƏ

**Açar sözlər:** *Naxçıvan, Bakı, aktyor, rejissor işi, tamaşa*
**Key words:** *Nakhchivan, Baki, actor, producer`s work, spectacles*
**Ключевые слова:** *Нахчыван, Баку, актер, режиссерская работа, спектакль*

1904-cu ildən etibarən Bakıda, Zaqafqaziyanın başqa şəhərlərində mədəni hərəkat günü-gündən gücləndiyi bir dövrdə qabaqcıl fikirli adamların köməyi ilə yeni məktəblər açılır, qəzet və jurnallar nəşr edilirdi. Teatr həvəskarları da yeni imkanlar əldə edirdilər. Rusiyada, Zaqafqaziyanın bir çox şəhərlərində olduğu kimi, Naxçıvanda da imperialist mübarizəsi əleyhinə fəhlə və kəndlərin etirazları baş verirdi.

Müharibənin Zaqafqaziya cəbhəsində şiddətləndiyi bir zamanda Naxçıvan və Şərur qəzalarında cəbhə üçün çoxlu işçi qüvvəsi, at, mal, araba, hərbi hissələrə ərzaq yığılırdı. Qars, Sarıqamış əməliyyatı zamanı qırılan minlərlə əsgər və hərbi sursat daşıyanlar arasında yüzlərlə Naxçıvan, Şərur-Dərələyəz qəzasının əhalisi var idi. Müharibədə ağır zərbələr alan əhali arasında başlanan narazılıq genişlənərək açıq ixtilaflara çevrilirdi. Şərur qəzasında Zeyvə, Düdəngə, Qıvraq, Püsyan, Naxçıvan qəzasında Cəhri, Nehrəm, Yaycı və s. kəndlərdə açıq çıxışlar olur, mülkədarlara biyar və bəhrə verilməsindən imtina edirdilər (1, s. 6).

Naxçıvanda imperialist müharibəsinə qarşı aparılan təbliğat işinə "Hümmət" qrupu rəhbərlik edirdi. Naxçıvanda və Culfada "Hümmət" qrupunun başında Mirzəlibəy Bəktaşov, Nəcəfqulu Nəcəfov, Məmməd Əhməd Əzimov, Mirheydərzadə, Nəsrullah Şeyxov dururdular (21, v. 3-7).

"Hümmət"çilər vəziyyətdən, genişlənən narazılıqdan öz ideyalarını həyata keçirmək üçün istifadə edirdilər. Polis məlumatlarının birində göstərilir: "Hümmət" qrupunun üzvləri tatar (Azərbaycan-Ə.Q) dilində qəzet oxuyur, müxtəlif siyasi mövzularda söhbətlər aparır, fəqət qəbul edilən tədbirlərdə heç bir şey aşkara çıxarmaq mümkün olmur, çünki iclaslar çay içməklə gizlədilir, polis məmurları gələn kimi heç bir əhəmiyyəti olmayan söhbətə keçirlər. Buna görə də polislər bu və ya digər qiymətli məlumatları əldə etmək imkanına malik ola bilmir və agent məlumatlarına əsaslanmalı olur" (20, v. 219).

Naxçıvan "Hümmət" qrupunun üzvləri Mirzəlibəy Bəktaşov və Mirheydərzadə başda olmaqla 1916-cı ilin 25 sentyabrında 31 nəfər həbsə alınır, 1917-ci ilə kimi İrəvan quberniya həbsxanasında saxlanılır (1, s. 6-7).

Birinci Dünya Müharibəsi dövründə "Naxçıvan Müsəlman İncəsənəti və Dram Cəmiyyəti" tərkibində olan ziyalılar dövrün siyasi hadisələrindən kanarda qala bilmirdilər. Onlar dövrün ictimai-siyasi zövqünə uyğun əsərləri tamaşaya qoyub xalqın nəzər-diqqətini həmin məsələlərə cəlb edirdilər. Həmin illərdə tamaşaya qoyulan pyeslər əsasən "Döymə qapımı, döyərlər qapını", "Ac həriflər", "Pul, yoxsa allah", "Pulsuzluq", "Nadanlıq", "Bizim kirayəşin özünü öldürdü" və başqa əsərlərdən ibarət idi (6, s. 116). Bu əsərlər Əli Xəlilovun, Pza Təhmasibin, Həsən Səfərlinin fəal iştirakı ilə oynanılırdı. Tamaşadan toplanan vəsait müharibə cəbhələrinə gedən və daha çox xəsarət alan şəxslərin ailələrinə verilirdi.

Araşdırmalardan məlum olur ki, 1907-ci ildən başlayaraq Naxçıvanda teatr işi daha da təkmilləşir və yeni-yeni əsərlər nümayiş etdirilirdi. Bu işdə Bakı teatr cəmiyyətinin rolu böyük idi.

1909-cu ilin iyun ayında Azərbaycanın böyük aktyorlarından olan Hüseyn Ərəblinski 12 nəfər artistlə Naxçıvana gəlir (9, s. 90). O, Naxçıvanla yanaşı Ordubadda da olur (10, s. 98). O, burada yerli dram dərnəyinin üzvləri ilə birlikdə Ə.Haqverdiyevin "Bəxtsiz cavan" əsərinin tamaşasını göstərir. H.Ərəblinski Naxçıvanda olduğu müddətdə yerli aktyorlarla, dram dərnəyinin üzvləri ilə söhbətlər aparır və onlara aktyorluq sənətinin rəngarəng sirlərini öyrədir. Onun böyük aktyorluq sənətinin (məktəbinin) təsiri altında Rza Təhmasib, Əli Xəlilov, Əliqulu Qəmküsar, Həsən Səfərli, Rza İsfəndiyarlı, Mirhəsən Mirişli və bir çox başqaları həmişəlik həyatlarını teatra bağlayırlar. R.İsfəndiyarlı səhnəyə gəlişini xatırlayaraq deyirdi ki, o vaxt "Bəxtsiz cavan" pyesi tamaşaya qoyulmuşdu. Mən bir həvəskar kimi ilk dəfə kəndli rolunu oynadım.

Hüseyn Ərəblinskinin İrəvan və Naxçıvana ilk qastrolu teatr tarixinə aid bir neçə əsərdə öz həllini tapır. Lətif Hüseynzadə (4, s. 17-18), Əli Xəlilov (5, s. 23) Hüseyn Ərəblinskinin Naxçıvana ilk gəlişini 1906-cı ilə aid edirlər. Habelə Sabir Rzayev əsərində Ərəblinskinin ilk qastrolundan bəhs edərkən Yunis Nurinin bir xatirəsinə əsaslanaraq yazır: "1906-cı ilin yayında Ərəblinski truppasının qastrolu İrəvanda yaşayan azərbaycanlıların teatr həyatında yeni dövr açdı" (11, s. 34). Araşdırmalar təsdiq edir ki, 1906-cı ilin noyabr ayınadək Azərbaycan səhnəsində Ərəblinski təxəlüsü ilə çıxış edən aktyor olmamışdır. Aktyor o vaxtlar Hüseyn Xələfov adı ilə çıxış edirdi. Ərəblinski təxəlüsünü isə həmin ilin payızında, Dərbənd qastrolundan qayıtdıqdan sonra qəbul etmişdir.

Birinci rus inqilabından sonra Azərbaycanın başqa yerlərində olduğu kimi Naxçıvanda da ədəbi qüvvələrin və teatr həvəskarlarının fəaliyyəti genişlənir. Həmin illərdə şair Əliqulu Qəmküsar (Nəcəfov), istedadlı artist, professor Rza Təhmasib, görkəmli rejissor kimi tanınmış şəhər hakimi Böyükxan Naxçıvanski Naxçıvan teatrının inkişaf etdirilməsi üçün ciddi səy göstərirlər.

1909-cu ilin axırlarında Azərbaycanın görkəmli aktyoru Sidqi Ruhulla Cənubi Azərbaycana ilk qastrolundan sonra Naxçıvana gəlir. Həmin müddətdə Böyükxan Naxçıvanskinin xidməti işlərə başı qarışdığına görə məşğələlər müntəzəm keçmirdi. Həvəskarlar bu vəziyyətdən çıxmaq üçün müəyyən yollar axtarırdılar. Sidqinin Naxçıvana gəlişi yaranmış çətinliyi aradan qaldırır. O, Naxçıvanda olduğu müddətdə yerli teatr həvəskarlarının fəaliyyətlərinə istiqamət verərək bu işi yenidən canlandırır.

Sidqi Ruhulla milli dramaturgiyamızı geniş təbliğ edən fəal incəsənət xadimlərindən, Azərbaycan teatrının yetirdiyi görkəmli sənətkarlardandır. Sidqi Ruhulla həyatını Azərbaycan teatrının inkişafına həsr etmişdir. O, Azərbaycan teatrı tarixində ilk teatr həvəskarları cəmiyyətinin təşkilatçısı olmaqla, görkəmli səhnə ustası kimi məşhurdur. Fəaliyyəti Naxçıvan və Ordubad teatrları ilə bağlı olan Sidqi Ruhulla Naxçıvan teatrının inkişafında və səhnə xadimlərinin yetişməsində əvəzsiz xidmətlər göstərmişdir. S.Ruhulla 1910-ci ildə Naxçıvana gələrkən uzun müddət burada qalır, "Bəxtsiz cavan", "Pəhləvanani zəmanə", "Pulsuzluq" əsərlərini tamaşaya qoyur və yerli istedadlı gənc həvəskarları teatra cəlb edir **(7).**

S.Ruhulla 1911-ci ildə Naxçıvanda olarkən avqust ayının 12-də öz iştirakı ilə "Kimdir müqəssir", "Dursunəli və ballıbadı", "Bəxtsiz cavan", avqust ayının 24-dən sentyabr ayının 24-dək (bir ay müddətində) Culfada Karnaulov teatrında "Adəm və Həvva", "Nadir şah" (son pərdə), "Dursunəli və ballıbadı", "Zoran təbib", "Bəxtsiz cavan" əsərlərini tamaşaya qoyur (8, s. 258-259).

S.Ruhulla Ordubad teatrının təməlini qoyan sənətkardır. O, bu barədə yazır: "1912-ci ildə Ordubada gedib birinci teatr tamaşası təşkil etdim. Burada tamaşa verməyə yer olmadığından əvvəl Nəcəfbəyin tövləsində, sonra isə Mehdi xanın zalında, Ərbab Rzayevin ipək fabrikasının dalanında səhnə düzəldib tamaşa verirdik. Yaxşı yadımdadır bir dəfə tamaşaya xor lazım idi. Bir çayçı dükanında gecə saat 12-dən sonra icazə alıb xor məşq edirdik. Şeyx Qafar ağa tar səsini eşidən kimi gəlib bizi hədələdi, tarı alıb sındırdı və bizi qovaladı" (19).

Bütün bu hücumlara və hədələrə baxmayaraq görkəmli sənətkar teatrın inkişafı uğurunda yorulmadan mübarizə aparmışdır. Sidqi 1913-cü ilin dekabr ayında da Naxçıvana gəlir. O, iki aya

yaxın burada qalır. 1914-cü ilin yanvar ayının 7-də yerli teatr həvəskarlarının iştirakı ilə "Ağa Məhəmməd şah Qacar" (son pərdə) və "Leyli və Məcnun" (son pərdə), fevral ayının əvvəllərində isə "Cəhalət", "Qaranlıqda işıqlar", "Mən ölmüşəm", "Pulsuzluq", "O olmasın, bu olsun" əsərlərini tamaşaya qoyur.

S.Ruhullanın rəhbərliyi və Böyükxan Naxçıvanskinin müavinəti ilə Naxçıvan teatr həvəskarları 1915-ci ilin avqust ayının 1-də N.Vəzirovun "Pəhləvanani zəmanə" və ruscadan tərcümə edilmiş "Bizim kirayəşin özünü öldürdü" əsərlərini tamaşaya qoyurlar.

S.Ruhulla Ordubadda olarkən yuxarı sinif şagirdlərini cəlb etməklə ilk dəfə həvəskar aktyor kollektivi yaradır. Həmin məktəblilərə bir neçə bir pərdəli pyes məşq etdirərək əhaliyə göstərir. Ordubad əhalisinin xeyli hissəsi teatrla həmin həvəskarların tamaşalarında tanış olurlar. Bundan sonra həmin şagirdlərdən çoxları səhnə sənətinə rəğbət bəsləməyə başlayırlar. Bu rəğbət və maraq o qədər güclü olur ki, Sidqi gedəndən sonra da həvəskarlar yeni tamaşalar hazırlamaqda və göstərməkdə davam edirlər. Şəhərin qabaqcıl ziyalıları gənc artistlərə hərtərəfli köməklik göstərirlər. İki ildən sonra yenidən Ordubada gələn Sidqi Ruhulla həvəskarların işini görüb heyrətlənir. Bu müddətdə həvəskarlar səhnə sənətinə o dərəcədə yiyələnirlər ki, S.Ruhulla bu dəfə "Dağılan tifaq" və "Pəri cadu" kimi ciddi pyesləri tamaşaya qoymaq imkanı əldə edir.

Professor A.S.Fərəcov yazır: "Ordubad məktəbinin şagirdləri arasında çoxlu istedadlı şagirdlər aşkara çıxaran Sidqi Ruhulla xor təşkil etdi və onlara çoxlu vətəni tərənnüm edən mahnılar, "Molla Nəsrəddin" jurnalından götürülmüş məzmunlu şeirlər öyrətdi. Xorun Ordubad səhnəsində çıxışı həmişə dinləyicilərdə güclü təəssürat yaradırdı. Sonralar bu xor xeyli genişləndirildi və onun repertuarı yeni mahnılarla zənginləşdirildi" (2, s. 108-109).

Sidqi Ruhulla ömrü boyu Naxçıvan teatrı ilə əlaqəsini qırmamış və 1931-1933-cü illərdə burada çalışmış və Vilyam Şekspirin "Otello", "Hamlet", Fridrix Şillerin "Qaçaqlar", Nikolay Qoqolun "Müfəttiş", Nəriman Nərimanovun "Nadir şah", Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "Od gəlini", "Sevil", "1905-ci ildə" və başqa əsərlərə quruluş vermişdir. Naxçıvan teatrının unudulmaz sənətkarları İsa Musayev, Səməd Mövləvi, Əyyub Haqverdiyev, Rza İsfəndiyarlı və digərləri vaxtilə onları böyük sənət qələbələrinə ruhlandıran Sidqi Ruhullanı həmişə böyük iftixar və minnətdarlıq hissi ilə xatırlayırdılar.

"Naxçıvan Müsəlman İncəsənəti və Dram Cəmiyyəti" tərəfindən 1910-cu ilin fevralında Cəfərqulu xanın evində R.Əfəndizadənin "Qan ocağı", mayında isə M.F.Axundovun "Müsyö-Jordan və Dərviş Məstəli şah", Ə.Haqverdiyevin "Millət dostları" əsərləri tamaşaya qoyulur. Məstəli şah surətini Böyükxan Naxçıvanski, Müsyö-Jordan surətini isə Mirzə Qulam Qasımbəyov oynayırlar. Xeyriyyə məqsədi ilə verilən tamaşalarda yaxşı iştirak etdiyi üçün iki sinifli qız məktəbinin müdiri Kərimova tamaşanın rejissoru və təşkilatçısı Məmmədəli Səfərova öz minnətdarlığını bildirir (8, s. 210).

Həvəskar gənclər həmin ilin may və iyun aylarında Ə.Haqverdiyevin "Kimdir müqəssir", S.M.Qənizadənin "Axşam səbri xeyir olar", "Dursunəli və ballıbadı" əsərlərini tamaşaya qoyurlar. Mahmud rolunu Məmmədəli xan, Ağacavad rolunu İsmayıl ağa Sultanov, Dursunəli rolunu Böyükxan Naxçıvanski məharətlə oynayır (8, s. 219).

İyirminci yüzilliyin ilk illərində Naxçıvanda teatr o qədər şöhrətlənir ki, 1910-cu ildən etibarən Culfada da tamaşalar geniş şəkildə göstərilməyə başlayır. "Molla Nəsrəddin" jurnalında tez-tez teatr haqqında yazılar verilir. 1911-ci ildə "Molla Nəsrəddin" jurnalı yazırdı: "Bu yaxınlarda Culfada Qurbanəli Şərifzadənin vasitəsilə xəstə şair Sabirin nəfinə bir teatr tamaşası verilib. Hasil olan 25 manat şairə göndərilmişdir" (12, s. 29).

Naxçıvan teatrının tarixində diqqətəlayiq cəhətlərdən biri də burada opera tamaşalarının göstərilməsi idi. Dünya teatrlarının bəzəyi olan Üzeyir Hacıbəyovun əsərləri hələ inqilabdan xeyli əvvəl Naxçıvan teatrında tamaşaya qoyulmuşdur. 1911-ci ildə Zülfüqar Hacıbəyov, Mirzəağa Əliyev və Göyərçin xanım İrəvanda qastrollarını müvəffəqiyyətlə başa vuraraq Naxçıvana gəlirlər.

Onlar burada bir neçə tamaşa verməyi nəzərdə tuturlar. Bu münasibətlə "Kaspi" qəzeti yazırdı: "Naxçıvana Z.Hacıbəyovun başçılığı altında operetta truppası gəlmişdir. Truppa Göyərçin xanımın və məxsusən, "O olmasın, bu olsun" tamaşasında iştirak etmək üçün dəvət olunmuş Bakı artisti M.A.Əliyevin iştirakı ilə bir neçə operetta tamaşaya qoyulacaq" (18). Həqiqətən Naxçıvanda Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" əsəri tamaşaya qoyulur. Tamaşanın səhnə tərtibatı üçün lazım olan əşyalar evlərdən gətirilir. Tamaşanın rejissoru M.A.Əliyev, dirijoru Zülfüqar Hacıbəyov idi. Tamaşada şəhər məktəbinin müəllimlərindən Mirzə Ələkbər Süleymanov, Rza Təhmasib və başqaları iştirak edirlər. Tamaşa Hüseyn xanın binasında yerləşən məktəbin salonunda nümayiş etdirilir. Tamaşa çox böyük maraqla keçir və yerli əhalidə opera əsərlərinə maraq yaradılmasında ilk başlanğıc olur. Truppanın Naxçıvan səfərinin uğurla keçməsi haqqında "Baku" qəzetində məlumat verilir: "...Naxçıvan müxbirimiz xəbər verir ki, Mirzəağa Əliyev və Göyərçin xanımın iştirakı ilə bir neçə tamaşa Naxçıvanda böyük uğurla oynanılmışdır" (14).

Mədəniyyətimizin ən görkəmli nümayəndələri arasında Üzeyir Hacıbəyovun adı çox haqlı olaraq birinc sırada dayanır. Görkəmli bəstəkar, Azərbaycan professional musiqisinin banisi, məşhur ictimai xadim olan Ü.Hacıbəyov dünya incəsənətinin xəzinəsinə misilsiz töhfələr vermişdir. Onun qüdrətli, ecazkar sənəti, məlahətli musiqisi uzun illərdən bəri ürəkləri fəth edir. Üzeyir sənətinə məftun olmayan, ona bütün varlığı ilə bağlanmayan adam tapmaq mümkünsüzdür. Azərbaycan xalqının bu böyük oğlunun yaradıcılığı geniş ictimai-siyasi məna kəsb edir.

O, dövrünün, xalqının zəkalı bir övladı kimi maarifin, teatr və mədəniyyətin inkişafını böyük hadisə hesab edirdi. 1908-ci ildə yazdığı "Leyli və Məcnun" operası ilə o, Azərbaycan milli opera sənətinin əsasını qoydu. Ölməz Füzulinin şah əsərini mövzu seçməsi Üzeyir bəyin klassik mədəni irsə, Füzuli sənətinə münasibətini parlaq şəkildə nümayiş etdirdi. Bundan sonra o bir-birinin ardınca "Şeyx Sənan" (1909), "Ər və arvad" (1909), "Rüstəm və Söhrab" (1910), "O olmasın, bu olsun" yaxud "Məşədi Ibad" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Arşın mal alan" (1913), "Leyla və Harun" (1915), "Koroğlu" (1937) kimi məşhur əsərlərini yazdı. Bu əsərlər öz müəllifini dahi bəstəkar və əsərləri mənalı gülüşlə zəngin olan bir komediyanəfis kimi tanıtdı. Onun əsərlərində məhəbbət, xalqlar dostluğu və tarixi qəhrəmanlıq motivləri əks olunurdu. O, istər yazılı, istərsə də şifahi ədəbiyyatdan aldığı mövzulara eyni dərəcədə müvəffəq olur, könülləri fəth edən klassik musiqi əsərləri yaradırdı. Odur ki, böyük bəstəkar hələ sağlığında dünya şöhrəti qazanmışdır.

Ü.Hacıbəyov istedadlı jurnalist, alovlu publisist, yorulmaz pedaqoq və görkəmli dramaturq kimi də mənsub olduğu doğma xalqının ictimai fikir tarixində xüsusi yer tutur. Üzeyir bəy "Koroğlu" operası istisna olunmaqla, bütün opera və operettalarının mətnini özü yazmışdır.

XX əsrin kəşməkəşli illərini yaşayan, "Molla Nəsrəddin"in fəaliyyətini ürəkdən bəyənən, satirik ədəbiyyatın, gülüşün mahiyyətini dərindən dərk edən Üzeyir bəy Azərbaycan milli mədəniyyətinin inkişafı uğrunda yorulmadan mübarizə aparırdı. Böyük bəstəkar musiqili komediyanın cəmiyyətin həyatında islahedici, tərbiyəvi əhəmiyyətini gözəl bilirdi. O, publisist məqalələri ilə də bu məqsədə xidmət edirdi. Bəzi məqalələrində isə Üzeyir bəy inqilabi dəyişiklərin zəruri olduğunu da açıq bildirirdi. Hacıbəyov yenilik əleyhidarlarına, irticaçılara, ictimai və mədəni tərəqqinin düşmənlərinə qarşı amansız idi. O, xalqla birlikdə hər hansı bir maneəni dəf edəcəyini bilən sənətkar uzaqgörənliyi və əzmi ilə çalışmaqla, Azərbaycanda yeni musiqi mədəniyyətini yaranması işinə var qüvvəsi ilə girişdi və professional musiqimizin təməlini qoydu. Naxçıvanda Musiqi məktəbinin açılmasına nail oldu. Üzeyir bəyə görə artıq elə bir vaxt gəlib çamışdı ki, musiqi sənəti haqqında köhnə, çürük və yanlış əqidələr pozulub, əvəzində yeni, tərəqqipərvər və milli fikirlər hakim olmalı idi. Deməli, musiqi sənətinin tərəqqi və təkamül yolu açıldı. Bunu bəstəkarın ayrı-ayrı əsərlərində görmək olar. "Arşın mal alan" musiqili komediyasında bəstəkar özünü istedadlı satirik kimi göstərmişdir. Yenilik uğurlarına görə əleyhidarları ona qarşı hücuma keçmələrinə baxmayaraq o, qabaqcıl ideyalar uğrunda yorulmadan mübarizə aparır, irticanın

müqavimətini dəf edirdi. Ü.Hacıbəyov yüksək vətənpərvərliyi, zəngin yaradıcılığı ilə ölkəmizdə və eləcə də ölkəmizdən xeyli uzaqlarda məşhurdur. Hazırda Ü.Hacıbəyovun digər əsərləri kimi, "Arşın mal alan" musiqili komediyası da milyonların səltənətinə çevrilmişdir. Bu əsər dünyanın bir çox şəhərlərində – Parisdə, Berlində, Nyu-Yorkda, Qahirədə, Moskvada, Ankarada, İstanbulda, ümumiyyətlə dünyanın altmışdan çox ölkəsində böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Bu birbaşa Üzeyir sənətinə, qabaqcıl incəsənətin beynəlmiləl əhəmiyyətinə parlaq misaldır. Onun fəaliyyətinin genişliyi heyran doğurur. O, yalnız görkəmli bəstəkar deyildir, həm də məşhur pedaqoq, ictimai xadim, dərin zəkalı alim və mütəfəkkir idi. İllər, yüzilliklər ötdükcə Üzeyir sənəti inkişaf edir, pərəstişkarları artır, onun sənətindən nəsillər bir örnək kimi istifadə edirlər.

Görkəmli sənətkar Zülfüqar Hacıbəyov 1912-ci ilin əvvələrində "Evliykən subay" operettasını Naxçıvanda tamamlayır. Senzuradan keçirmək üçün mətbuat işləri üzrə Tiflis komitəsinə 15 fevral 1912-ci il tarixdə təqdim edir. Rəsmi icazə isə bir ildən artıq vaxt keçdikdən sonra, yəni 1913-cü ilin noyabrın 7-də verilir (22, v. 235-236). Əldə olan sənədlərdən belə məlum olur ki, Zülfüqar Hacıbəyovun "Evliykən subay" operettası mətbuat işləri üzrə Tiflis komitəsinin rəsmi icazəsi olmadan 1913-cü ilin fevral ayının 11-də Bakıda tamaşaya qoyulmuşdur.

1917-ci ildə yenidən Naxçıvana gələn Zülfüqar Hacıbəyov burada bir ilə yaxın yaşayır. Naxçıvanda olduğu müddətdə Üzeyir Hacıbəyovun "Məşədi İbad", "Ər və arvad" və özünün "50 yaşında cavan" əsərlərini tamaşaya qoyur.

Naxçıvanlıların teatr və opera tamaşalarına çox böyük maraq göstərdiklərini hiss edən görkəmli səhnə xadimləri Naxçıvana tez-tez qastrollar təşkil edirdilər. Bu haqda SSRI xalq artisti M.A.Əliyev belə yazırdı: "1911-ci ilin yay fəsli idi. Zülfüqar Hacıbəyovla bir qruppa düzəldib İrəvan, Naxçıvan şəhərlərinə qastrola getdik. Qruppamız 6 nəfər aktyor, 4 nəfər də aktrisadan ibarət idi. Naxçıvanda yerli həvəskarlar bizə kömək edirdilər. Qadınlar üçün ilk dəfə gündüz tamaşası verdik. Bu iş məni çox sevindirdi. Çünki o zaman Azərbaycanın heç bir şəhərində qadınların kollektiv surətdə teatra gəlmələrini görməmişdim. Naxçıvanda tamaşa verdik deyəndə elə güman etməyin ki, həqiqətən, o zaman Naxçıvan şəhərində teatr binası var imiş. Xeyr, bizim Naxçıvan şəhərində göstərdiyimiz tamaşalarımız Qasım ağanın tövləsində olurdu. Mən Naxçıvanda teatr həvəskarlarından Əliqulu Qəmküsarla tanış oldum. Onun evində Culfada 15 günə kimi qonaq qaldım. O bizim teatr işlərimizə böyük köməklik edir, həmişə bizimlə səhnədə qadın rollarında çıxış edirdi..." (15).

Mətbuat 1913-cu ildə İrəvan, Naxçıvan, Culfa, Qars, Aleksandopol (Gümrü), Qarakilsə, Dilcan, Nuxa (Şəki) və başqa yerlərdə Tərlan xanımın və Kirmanşahlının iştirakı ilə göstərilən tamaşaların ancaq yüksək bədii dəyərindən idraki-tərbiyəvi əhəmiyyətdən, aktyorların hərtərəfli peşəkarlığa malik olmasından, qastrol tamaşalarının tələb və ehtiyacı ödəyə bilməsindən söhbət açmışdır (3, s. 69).

Görkəmli ədib Ə.Haqverdiyevin əsərlərinə Naçıvan teatr həvəskarları ötən illərdə olduğu kimi 1912-ci ildə də müraciət edirlər. Ədibin "Dağılan tifaq" faciəsi 1912-ci ilin mart ayının 7-də çox böyük müvəffəqiyyətlə tamaşaya qoyulur. Tamaşanın oynanılması haqqında "İqbal" qəzetində məlumat verilir: "Mart ayının 7-də Hüseynxan Naxçıvanskinin damında səhnəpərəst Böyükxan Naxçıvanskinin təhti nəzarətində həvəskarlar tərəfindən "Dağılan tifaq" tamaşaya qoyuldu. Nəcəfbəy rolunda Böyükxan cənabları, Səlim bəy-Yaqub paşa, Həmzə bəy-Aslan bəy, Sona xanım-Mirzə Cəlil Mirzəyev və digər rollarda başqaları çıxış etmişlər" (16).

1913-cü ilin iyun ayının 19-da Naxçıvan teatrının səhnəsində Rəşid bəy Əfəndiyevin "Qonşu-qonşu olsa, kor qız ərə gedər" komediyası tamaşaya qoyulur. Bu tamaşa haqqında Əlirza Rasizadə (H.Cavidin qardaşı) "İqbal" qəzetində "Naxçıvan məişətindən" adlı məqaləsində yazır: "İyul ayının 19-da Xan Naxçıvanskinin (Böyükxan Naxçıvanski nəzərdə tutulur-Ə.Q) nəzarəti altında Rəşid bəy Əfəndiyevin "Qonşu-qonşu olsa, kor qız ərə gedər" komediyası oynanıldı. Teatrda tamaşaçı əlindən tərpənmək olmurdu. Rollarda: Xoca Kəsbər-Ələkbər Namazov, Qaçay

bəy-Rzaqulu Təhmasibbəyov (R.Təhmasib-Ə.Q), Mələk xala-Qurbanəli Abbasov, Çiçi xanım-Süleyman Süleymanov idilər. Tamaşaya Hüseyn Cavid və müəllimlərdən Cəmil Mirzəyev baxmış və çox bəyənmişdir. Əli Səbri Qasımov qonaqlara yer göstərib, biletlərə baxırdı… (17).

XX əsrin ilk onilliklərində Naxçıvan teatrı özünün yüksək inkişafı ilə diqqəti cəlb edirdi. Qeyd edək ki, Naxçıvanda teatr ənənələrinin formalaşmasında, gənc istedadların üzə çıxmasında Bakıdan Naxçıvana qastrola gələn məşhur aktyorların böyük və əvəzsis xidmətləri olmuşdur.

## ƏDƏBİYYAT


1. Əliyev Ə. Naxçıvanda Sovet hakimiyyəti qurulması və möhkəmlənməsi uğrunda mübarizə. Bakı: 1960, 47 s.
2. Fərəcov A. Ordubad. Bakı: Azərnəşr, 1970, 152 s.
3. Hacıyev A. Tiflis Azərbaycan teatrı. Bakı: İşıq, 1984, 160 s.
4. Hüseynzadə L. Naxçıvan teatr tarixindən. Bakı: Araz, 2002, 63 s.
5. Xəlilov Ə. Naxçıvan teatrının tarixi. ATC, Bakı: ATC, 1963, 93 s.
6. Kərimov İ. XIX və XX əsr Azərbaycan teatrının yaranma və inkişaf tarixi. B.: Elm, 1991, 286 s.
7. Qəhrəmanov Ə. Sidqi Ruhullanın Naxçıvan teatrı ilə yaradıcılıq əlaqələri. “Elm” qəzeti, 22 iyun 2004.
8. Məmmədli Q. Azərbaycan teatrının salnaməsi, 2 c-də. I c. Bakı: Azərnəşr, 1975, 583 s.
9. Məmmədli Q. Hüseyn Ərəblinski. Aktyorun həyat və fəaliyyətinə dair sənədlər məcmuəsi. Bakı: 1967, 290 s.
10. Rəhimli İ. Akademik Milli Dram Teatrı, 2 c –də. I c. Bakı: “QAPP-Poliqraf”, 2002, 440 s.
11. Rzayev S. Azərbaycan teatrı Ermənistanda / rusca /. Azərbaycan teatr cəmiyyəti. Bakı: 1963, 109 s.
12. Şərif Ə. Keçmiş günlərdən. Bakı: Azərnəşr, 1983, 614 s.
13. “Molla Nəsrəddin” jurnalı, 1911, 8 may, № 17.
14. “Bakı” qəzeti, 1911, 29 oktyabr.
15. “Ədəbiyyat və incəsənət” qəzeti, 1949, 23 iyul.
16. “İqbal” qəzeti, 1912, 10 mart.
17. “İqbal” qəzeti, 1913, 28 iyun.
18. “Kaspi” qəzeti, 1911, 25 oktyabr.
19. “Şərq qapısı” qəzeti, 1956, 26 oktaybr.
20. Ermənistan MDTA, f. -115. siy.-2. iş-32.
21. Gürcüstan Respublikasının MDA, f. -2, siy.1, iş -654.
22. Gürcüstan Respublikasının MDTA, f. -480, siy.-2. iş -913.



## ABSTRACT

**Ali Gahramanov**

**ACTORS FROM BAKI ON NAKHCHIVAN STAGE**

In the article the author deals with the social, political processes in the South Caucasia in the first ten years of the XX century, also the problems on education, theatre and other fields. It is noted that some improvements are observing from 1907-1908 years, after the 1905 years revolution. During that period with the helping of the actors and producers came from Baki and local actors some works had been done, many spectacles were prepared and showed on the stage of Nakhchivan theatre. Huseyn Arablinski`s visit to Nakhchivan with 12 actors, preparing the spectacle of A.Hagverdiyev`s “Bakhtsiz javan (Unfortunate young)” play in Nakhchivan theatre had been influenced to Nakhchivani actors` activities.

In the years of 1909 and 1912 Sidgi Ruhulla`s visits to Nakhchivan, consisting many spectacles together with local actors and intellectuals helped the forming and establishment of Nakhchivan theatre. It was valued an important event by the author. Under the leadership of Sidgi Ruhulla spectacles prepared on the line of "Nakhchivan Art and Drama Society" played an important role in the establishment and forming of Nakchivan theatre. Along his life Sidgi Ruhulla had a relation with Nakhchivan the spectacles as N.Vazirov`s "Pahlavani zamana", W.Shekspir`s "Otello", "Hamlet", Shiller`s "Gachaglar", N.Narimanov`s "Nadir shah", J.Mammadguluzada`s "Olular", J.Jabbarli`s "Od galini", "Sevil", "in 1905$^{th}$ year" etc. met with great interest by the spectators.

The actors came from Baki played an important role in forming establishment of Nakhchivan theatre, forming of its repertoire, development of this theatre. The theater built his activity according to these ways and result it has got many successes.


**РЕЗЮМЕ**

**Али Гахраманов**

**БАКИНСКИЕ АКТЕРЫ НА НАХЧЫВАНСКОЙ СЦЕНЕ**

В статье рассматривается общественно-политические события происходящие в Закавказье впервые десятилетия XX века, всесторонне рассказывается о проблемах в просветительной, театральной сфере и в других областях его новизны. Отмечается, что начиная с 1907-1908 годах наблюдаются некоторые продвижения под влиянием революции 1905 года.

И в Нахчыване в этой области было сделано немало, так как по инициативу и напряженному труду актерско-режиссерского состава приехавшего из Баку и с помощью местной интеллигенции было сделано многое для развития Нахчыванского театра, подготовлены культурно-массовые мероприятия, организованы театральные спектакли.

1909 году прибытие Гусейна Араблинского в Нахчыван, а в этом же году и в 1912 году подготовленные спектакли здесь с местными актерами и интеллигенцией под руководством Сидги Рухуллы, было оценено как важное событие в формировании Нахчыванского театра. Сидги Рухулла всю свою жизнь сдержал крепкий связь с Нахчыванским театром и во время работы в Нахчыване (1931-1933) под его руководством составлен репертуары "Пахливанани замане" Н.Везирова, "Надир шах" Н.Нариманова, "Мертвецы" Д.Мамедкулузаде, "Од гялины", "Севил", "1905 годы" Д.Джаббарлы, "Отелло" и "Гамлет" В.Шекспира, "Качаглар" ("Беженцы") Ф.Шиллера. Кроме этих, в исследовании дана широкая информация о театральных критиков, также напечатаны рецензии об этих спектаклях в прессе.

Актеры прибывшие из Баку сыграли важнейшую роль в развитии Нахчыванского театра, в создании богатейшего репертуара, в формировании актерского поколения, и театр с годами добивался новых успехов в этом направлении.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**ELFANƏ QASIMOVA**

*Azərbaycan Dövlət İqtisad Universiteti*

**UOT: 747**

# DİZAYN AZƏRBAYCAN CƏMİYYƏTİNİN SOSİO-MƏDƏNİ DƏYƏRİ KİMİ

**Açar sözlər**: *dizayn, cəmiyyət, sosiomədəni dəyər, həyat tərzi, estetik tələblər*

**Key words**: *design, society, socio-cultural values, lifestyle, aesthetic requirements*

**Ключевые слова**: *дизайн, общество социокультурная ценность, образ жизни, эстетические требования*

Reallıq belədir ki, öz peşəsinin mahiyyətinə görə dizayner gözəlliyi yaratmalı və özünü estetik-bədii mədəniyyəti ilə reallaşdırmalıdır. İnsan üçün həyatda maraqlı nə varsa, insanı düşündürən hər bir gözəlliy – bunlar dizaynerin diqqət mərkəzində durmalıdır. Cəmiyyətin hər bir üzvü hansı ixtisas sahibi olmasına baxmyaraq ilk növbədə ictimai insandır və o, zəruri olaraq onu əhatə edən gerçəkliyə, faktlara və hadisələrə münasibətini bildirməlidir. Deməli, biz cəmiyyətdə insanı əhatə edən dəyərlərə münasibətimizi nümayiş etdiririk.

Müasir dünyada dizayn mədəniyyətində mühüm yerlərdən birini dəyərlər tutur. Öncə qeyd edək ki, deyək İbtidai icma quruluşunda elm olmadığından onun dəyərləri də olmamışdır. Orta əsrlərdə dini dünyagörüşün hakim mövqe tutduğu bir şəraitdə ilahi ideyası və müqəddəs kitabların insanlara aşıladığı ehkamlar insanların düşüncəsinə hakim kəsilmişdi. Elmi əsərlər və risalələr cəmiyyət üçün təhlükəli hesab olunur, onların müəllifləri isə inkvizisiyanın təqiblərinə məruz qalırdılar. Bu o deməkdir ki, dəyərlər aləmini həmişə konkret olaraq nəzərdən keçirmək lazımdır, çünki dəyər obyektlərinin özünəməxsus tarixi hüdudları mövcuddur və bu hüdudları müəyyənləşdirmək müəyyən çətinliklərlə bağlıdır. Elə bu səbəbdən də bu günün özündə dəyərlərin təsnifatı ciddi elmi problem kimi qalmaqdadır. Hər halda real fakt budur ki, bu problemin həlli üçün vahid yanaşma yoxdur. Hazırda bunu demək mümkündür ki, dəyərlərin ən ümumi təsnifatının əsasları bu sahərlərdir: ictimai həyat, dəyərlərin daşıyıcıları, dəyərlərin iyerarxiyası. İctimai həyatda üç qrup dəyərlər əsas götürülür: maddi, sosial-siyasi və mənəvi dəyərlər. (1)

Maddi dəyərlər – təbiət obyektlərinin və predmet dəyərlərinin, yəni əmək alətləri və əşyalar, başqa sözlə, bilavasitə insanın tələbatlarını ödəyən predmetlərin dəyər əhəmiyyəti nəzərdə tutulur. Təbii dəyərlər təbiət sərvətlərində öz yeri olan təbii nemətdir. Predmet dəyərlərinə insanın yaratdığı dəyərlər aiddir - əmək məhsullarının istehlak dəyəri, keçmişin mədəni irsi, müasirlərin predmet sərvətləri və dini etiqad predmetləri.

Sosial-siyasi dəyərlər – sosial və siyasi hadisələrin, təzahürlərin, siyasi aktların və hərəkətlərin dəyər əhəmiyyətidir. Belə halda dəyər əhəmiyyətinin meyarları kimi ictimai nemət, siyasi iradə, qardaşlıq, sülh və s. çıxış edir.

Mənəvi (subyektiv) dəyərlər – ictimai şüurun normativ, tövsiyə - qiymətləndirmə təzahürləri, bunlar müvafiq formalar vasitəsilə ifadə olunurlar, insanın sosial və təbii reallıqda yönümünün normativ forması kimi xidmət edir. Məlumdur ki, bu ideyalar, baxışlar həqiqi, əsl və yalan ola bilərlər, lakin bununla dəyər olaraq qalırlar. Dəyərlər sahəsində bütün ideyalar insanların bu və digər münasibətlərini tənzimləmə funksiyanı yerinə yetirərək şəxsiyyətin fəaliyyətinin vasitələri və obyektləri kimi çıxış edirlər.

Belə dəyərlər sahəsində inteqral xarakterə malik mədəniyyət xüsusi yer tutur. Birincisi, ona görə ki, insanların öz tələbatlarının ödənilməsi üçün yaratdıqları maddi, sosial-siyasi və mənəvi dəyərləri birləşdirir. İkincisi, mədəniyyət yalnız yaradılmış dəyərlərin məcmusu deyil, həm də dəyərlərin yaradılması və mənimsənilməsi vasitəsidir, yəni insanın maddi və mənəvi fəaliyyəti çərçivəsində yaradıcı potensialının reallaşdırılması vasitəsidir. (2)

Başqa sözlə, mədəniyyət yalnız predmetlərin və dəyərlərin cəmi deyil, insanın istedadının və başqalarının bacarıqlarının aşkarlanması prosesidir, onun müvafiq dəyər yönümlərinin formalaşdırılmasıdır. Mədəniyyətin özü bir dəyər kimi insanın, onun humanizminin, alicənablığının və yaradıcılıq qabiliyyətinin inkişafına, iradəsinin artmasına, onun təbiət, ictimai münasibətlər və özü üzərində hakimliyinin artmasına kömək edən dəyərdir.

Dizayn yaradıcılığı baxımından mühüm cəhət budur ki, cəmiyyət həyatında dəyişiliklərin baş verməsilə dəyərlərin bir növdən başqa bir əhəmiyyət kəsb edən növə çevrilməsi nəzərə alınmalıdır, bu obyektiv faktordur. Cəmiyyət inkişaf etdikcə yeni dəyərlər meydana çıxır və ya əksinə digər dəyərlər əhəmiyyətini itirir, yaxud da həyatdan gedir.

Hər bir nəsil toplanmış təcrübədən istifadə edir, keçmişin nəaliyyətlərini mənimsəyir və yeni dəyərlərin yaradılmasına doğru daha irəli gedir.

Dizayn yaradıcılığında da cəmiyyətin mədəni həyatında olduğu kimi üç növ dəyərlər olur: "dəyərlər – ideallar"; "dəyərlər-ideallar"la qarşılıqlı təsir nəticəsində aşkar edilmiş "şeylər"in xüsusiyyətləri – dəyərlər; dəyər xüsusiyyətlərinə malik "dəyərlər-şeylər". Dəyərlərin daşıyıcıları baxımından, bir qayda olaraq, bunları fərqləndirirlər: fərdi, qrup, yaxud kollektiv, ümumxalq və bəşəri dəyərlər, Şəxsi, yaxud fərdi dəyərlər – bu konkret insan üçün predmetin, hadisənin, ideyaların dəyər əhəmiyyəti. Şəxsi dəyərlər fərdin həyatında mühüm rol oynayır, buna baxmayaraq şəxsiyyətin dəyər yönümünü bunlar müəyyən etmir, ona görə ki, insanın mahiyyəti onun ictimai münasibətlərin məcmusundan ibarətdir. İnkişaf prosesində insanların tələbatları dəyişdikcə onların dəyərlərə münasibəti də dəyişir.

Şəxsi dəyərlərin dizaynerin tərəfindən dərk edilməsi insanın "Bu məhsul mənim üçündürmü?" sualına cavab tapmağa kömək edir. İstehlakçı tərəfindən hansı məhsula üstünlük verilməsi barədə qərarın qəbul edilməsi prosesində tələbatların dərk edilməsi üçün dəyərlər xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, dəyərlər həmçinin qiymətləndirmə meyarlarının müəyyən edilməsinə təsir göstərir. Başqa sözlə, dizayn predmetinin onun üçün nə qədər gərəkli olması barədə meyarlarına təsir göstərir. Dəyərlər kommunikasiya proqramlarının səmərəliliyinə də təsir göstərir, çünki istehlakçı özünə belə bir sual verə bilər: "Reklamda göstərilən vəziyyətdə olmaq istərdinmi?". Dəyərlər insanın öz həyatında nail olduğu davamlı motivlər, məqsədlərdir. Müəyyən mənada dizayn yaradıcılığı bu məqsədlərə nail olmaq vasitələrini təqdim edir.

Bu gün Azərbaycan cəmiyyəti müstəqillik illərində özünün yeni formasiyasını yaşayır. Belə bir tarixi şəraitdə cəmiyyətimizdə istər milli, istərsə də bəşəri dəyərlərin şəffaf təzahürü üçün geniş imkanlar açılır. Azərbaycan cəmiyyətində insaların həyat tərzinin öyrənilməsinin aktuallığı, hər şeydən əvvəl, sosiumda baş verən məqsədyönlü sosiomədəni dəyişiliklərlə bağlıdır. Ümumiyyətlə hər bir cəmiyyətdə tədricən təşəkkül prosesi, sonra isə onun faydalı məzmun kəsb etməsi üçün spesifik formaların inkişafı baş verir. Bunun sayəsində insanalrın iqtisadi, siyasi, mədəni həyatı üçün vacib olan şərait yaranır. Cəmiyyət üzvlərinin şəraitinin dəyişilməsi onun təşkilinin vasitələrinin dəyişməsinə, yeni həyat tərzinin dəyişməsinə gətirib çıxarır. Başqa sözlə, burada hər bir cəmiyyət üçün spesifik olan həyat tərzinin əlamətləri və xüsusiyyətlərinin formalaşmasından söhbət gedir.

Hazırda məlum olur ki, Azərbaycanda müstəqillik illərində ictimai proseslərin sürətlənməsi, iqtisadiyyatın struktur komponentlərinin dəyişməsi insanların həyat fəaliyyətinin keyfiyyət, məzmun xarakteristikalarının dinamikasını şərtləndirmişdir, şəxsiyyətin inkişaf prosesi kütləvi şəkildə genişlənmişdir. Sosiomədəni mühitdə baş verən bu dəyişiliklər, obyektiv olaraq insanların yemək, yaşayış yerlərinə, geyimə münasibətdə artan tələbatalrını ödəyən yeni texniki vasitələrin də dəyişməsinə gətirib

çıxarmışdır. Öz növbəsində məişət predmetlərinə artan tələbatlar qiymətləndirmə meyarlarında da dəyişiliklər yaratmışdır. Əhalinin rifahının artmaqda olan göstəricilərinin diferensiasiyası, insanların övqatının, onların məşğuliyyətlərinin məzmununun diferensasiyası cəmiyyətdə həyat keyfiyyətində bərbaərsizliyi dərinləşdirmişdir.

Sosiomədəni həyatın dinamikasına artan maraq təbii olaraq "həyat tərzi" anlayışına müraciət edilməsini şərtləndirmişdir. Marağın artmasının bir səbəbi də budur ki, son iyirmi il ərzində müxtəlif ictimai və humanitar elmlər (sosiologiya, sosial psixologiya, psixologiya, linqvistika, tarix, etnoqrafiya, sənətşünaslıq və s.) çərçivəsində insanların həyat fəaliyyətilə, onları əhatə edən sosial, mədəni mühitlə bağlı xeyli emprik faktlar və nəzəri ümumiləşmələr toplanmışdır. Məsələn, insanın ətraf mühitlə fəal əlaqəsini ifadə edən "şəxsiyyət", "fəaliyyət", "tələbatlar", "maraqlar", "dəyər yönümləri", "ünsiyyət" və s. anlayış və kateqoriyaların nəzəri-praktik baxımdan işlənilməsinə maraq xeyli artmış və bu proseslərlə bağlı dəyərli əsərlər və məzmunlu tədqiqatlar bu gün işıq üzü görməkdədir.

Bununla yanaşı ictimai həyatın öyrənilməsi prosesində bəzi xüsusi anlayışlar, məsələn "sosial struktur", "sosial institutlar", "sosiomədəni və predmet-məkan mühiti", "sivilizasiya", "mədəniyyət obyektlərinin mənası və əhəmiyyəti" kimi anlayışlar tədqiqatlarda geniş yer almış, məna və məzmunca dəqiqləşdirilmişdir. Müəyyən mənada demək mümkündür ki, bir növ problemlərin araşdırılması prosesində nəzəri-metodoloji canlanma baş vermişdir.

Bu dəyişiliklərin fonunda "həyat tərzi" kateqoriyasının tərifi işlənib hazırlanarkən diferensiasiyalı sosiomədəni reallıqla insanların həyat yolunun şəxsiyyət spesifikası xüsusilə vurğulanmalıdır. Qeyd edək ki, insanların öz müxtəlif rəngarəng həyat təzahürlərinin təşkilinə təbiət, sosial, mədəni şəraiti fundamental formayaratma təsiri göstərir. Bunlar şəxsiyyətin sosiomədəni həyatda özünüreallaşdırma formalarını seçməyin konkret-tarixi imkanlarını təmin edir və ya məhdudlaşdırır.

Buna görə də insanalrın həyat tərzini təhlil edərkən onların həyat fəaliyyətinin şəraitini öyrənmək bu gün tədqiqatalrın zəruri aspektidir. Lakin bu şərait anlayışın özünə daxil edilmir, əksinə bir növ insanların öz həyat fəaliyyətini, həyat tərzini təşkili forma və proseslərinin "sosiomədəni determinantları kimi nəzərdən keçirirlər. "Həyat tərzi" anlayışı insanların öz gündəlik həyatının təşkili vasitələri üzərində diqqəti cəmləşdirmir.

Bu anlayış həmçinin müxtəlif sosiomədəni qrupların öz həyat tərzi, başqalarının yaşayış tərzinin qiymətləndirilməsinin sosiomədəni əhəmiyyətinin aşkarlanması ilə bağlıdır. Bununla ümumiyyətlə ictimai və mədəni həyatın cari vəziyyətini öyrənmək mümkündür.

Bunu da qeyd edək ki, həyat tərzi kateqoriyası "həyat ukladı", "həyat səviyyəsi", "həyat keyfiyyəti", "həyat üslubu", "həyat standartı" anlayışlarına nəzərn inteqrativ xarakter daşıyır. Bu anlayışların köməkliyi ilə tədqiqatçılar sosiodinamikanın müxtəlif səviyyələrdə təhlili zamanı "həyat tərzi" kateqoriyasının məzmununu açır və konkretləşdirir, bu anlayışları "həyat tərzi" anlayışının struktur elementləri kimi araşdırırlar.

Demək mümkündür ki, "həyat tərzi" kateqoriyası mədəniyyətin müxtəlif sahələrinin dinamikasının ümumi qanunauyğunluqları ilə və insanların birgəyaşayışı və fəaliyyəti gedişində yaratdıqları konkret hadisələr arasında aralıq vəziyyətdə olan hadisələr sahəsini təsvir edir. Bu, "həyat tərzi" anlayışına "sosial struktur", "sosiomədəni institutlar", "etnos" və s. anlayışlara münasibətdə spesifik və əvəzolunmaz kateqoriya statusunu verir.

İnsanların həyat tərzinin strukturu onların iştirak etdikləri mühitlərin və fəaliyyət növlərinin zamana görə uyğunlaşması nisbi sabit xarakter daşıdığını bildirir. Həmin "mühitlər" və fəaliyyət növləri həyat tərzinin struktur elementləri kimi şəxsiyyət üçün ona həyat şəraitində öz fərdi təcrübəsinin sosial və mədəni əhəmiyyətli bütövlük kimi yaşamasına imkan verən təşkiledici əsas təşkilati zəmin kimi yaşamaq imkanı verir.

Bu struktur ona adekvat şəkildə bir sosial əhəmiyyətli vəziyyətdən başqa vəziyyətə adekvat keçməyə, bu situasiyada başqaları tərəfindən tanınmağa, başqaları içərisində öz yerini tapmağa imkan yaradır.

Yuxarıdakı düşüncələr fonunda qeyd etmək istərdik ki, insanın özü tərəfindən həyata gətirdiyi sosiomədəni dəyişiliklər bu və ya digər dərəcədə dizaynın məhsullarıdır. Bu yalnız bizi əhatə edən predmet aləminə deyil, həmçinin həyatın müxtəlif sosial sahələrinin inkişafına da aiddir. Demək düzgün olmazdı ki, dizaynerlər, bütün dizayn yalnız insanların məişət tələblərinin ödənilməsinə yönəlmişdir. Bu gün dizaynın predmeti daha geniş müstəvidə başa düşülür.

Hazırda yeni dizayn – sosial kontekstin dizaynı yaranmışdır. Dizayn mühit dizaynı və insan təcrübəsinin dizaynı, sosial kontekstli dizayn olmuşdur. Dizaynın predmeti hadisənin layihələndirilməsinə, həyat üslublarının konstruksiya edilməsinə qədər genişlənmişdir.(3, s. 99) Müasir dünyada dizayner yalnız islahatçı və sosiomədəni dəyişiliklərin daşıyıcısı deyil, həmçinin həmin transformasiya prosesinin özünəməxsus nəzarətçisidir.

Müasir Azərbaycan cəmiyyətində dizaynın sosial-mədəni dəyişiliklərin bilavasitə iştirakçısı kimi olmaqla yanaşı, onun özünün bir sosiomədəni dəyər kimi rolu danılmazdır. Praktikadan məlumdur ki, məhz dizayner ideyanın meydana gəlməsi ərəfəsində öz niyyətinə savadlı nəzarət etmək qabiliyyətinə malikdir. Belə bir nəticəyə gəlmək olar ki, dizayn müasir dünyada hər şeydən əvvəl, öz sənətinin əhəmiyyətini və məsuliyyətini dərk edən peşəkarların fəaliyyətidir, cəmiyyətin sosiomədəni həyatına yeni ideyalar gətirən həyat mövqeyidir. Bu gün demək mümkündür ki, dizayn özü həyat tərzidir (4), özünütəkmilləşdirmə, dolğun yaradıcılıq sahəsidir.

Dəyişiliklər həyatımızın ayrılmaz hissəsidir. Texniki tərəqqi sosial və fərdi tərəqqinin tərkib hissəsinə çevrilmişdir. Bu hal isə yeni problemlərin meydana çıxmasının səbəbi olur. İnsan dizaynerdən özünə fərdi yanaşmanı tələb edir, insanlar, aydındır ki, müxtəlifdirlər, şəxsiyyətin fərdi hissiyatı müxtəlif amillərlə müəyyən edilir: yaş dərəcəsi, cinsi, təhsillə, məşğuliyyətilə və digər şəxsiyyət keyfiyyətlərilə.

Bu gün dizaynerlə istehlakçının əməkdaşlığının effektivliyindən geniş bəhs edilir və bu məqsədlə "partisipasion" layihələndirmə ideyasından istifadə olunması təklif edilir. Hələ 1996-cı illərin sonundan geniş müzakirə olunan "partisipian dizayn" anlayışı çoxlarının nəzərini cəlb etmişdir, birgə iştirak metodu isə layihəçilər qruplarının – memarların və sənaye dizaynerlərinin işinin təşkilində tətbiq edilmişdir.

Layihə praktikası sahəsində qərarların qəbul edilməsində ictimaiyyətin birgəiştirakı metodu əhalinin müxtəlif təbəqələrinin rəyinin başa düşülməsinə ciddi yanaşmağı tələb edirdi. (3, s. 132) Ədəbiyyatda layihəçi ilə istehlakçının birgə iştirakının bir sıra formaları təklif olunur. Bunların içərisində Alternativ iştirak forması daha məqbul sayıla bilər. Bu metoda görə, dizaynerlə istehlakçının birbaşa ünsiyyəti nəzərdə tutulur.

Belə halda dizayner özünün layihə təkliflərinin qeyri-peşəkarlara aydın başa düşülən şəkildə çatdırmağa çalışır, özünün professional ideyalarını təkliflərini vizuallaşma (plan, çertyoj və s.) formasında bildirir. Onu da qeyd edək ki, alternativ birgəiştirak forması yalnız layihəçi ilə istehlakmının bir-birlərini şəxsən tanıdıqları təqdirdə mümkündür. Son nəticədə isə, dizaynın da iştirak etdiyi sosiomədəni dəyişikliklərin məqsədi insanı gözəllik aləmilə, harmonik həyat keyfiyyətləri və peşəkar dizaynla yaxınlaşdırmaqdır.

Bu kontekstdə cəmiyyətin sosiomədəni həyatında "insan-şey" əlaqələrini tənzimləmək müasir dizayn yaradıcılığının başlıca funksiyasıdır. Bizcə, müasir Azərbaycan cəmiyyətinin sosiomədəni dəyərlərinin daha keyfiyyətli dərk edilməsində dizayner və onun müasir estetik tələblərə söykənən professional yaradıcılığı mühüm rol oynamalıdır. "Dizayner üslub və həyat tərzi" kimi deviz sosiomədəni həyatımızın ayrılmaz hissəsi olmalıdır.

Biz elə bir dinamik inkişaf dövründə yaşayırıq ki, hər bir vətəndaş kimi dizayner də Azərbaycan cəmiyyətinin sosio-mədəni dəyərlərini dərindən öyrənməli, onun elementlərindən yaradıcılıqla istifadə etməlidir. Dizayner bir yaradıcı şəxsiyyət kimi dərk etməlidir ki, biz ideologiya əsrində yaşayırıq, ona görə də dövlətin və millətin həmrəyliyinin təmin olunduğu cəmiyyətdə sosiomədəni həyatın daim təkmilləşdirilməsi zərurəti qalacaqdır, dizaynerin başlıca funksiyası estetik prinsipləri rəhbər tutaraq cəmiyyətin mədəni həyatını, cəmiyyətin hər bir üzvünün estetik dünyagörüşünü, onun sosiomədəni

baxışlarını inkişaf etdirmək üçün yaradıcılığının bütün resurslarından bacarıqla istifadə etməli, cəmiyyətimizin sosiomədəni məkanını gözəllik qanunlarına uyğun zənginləşdirməlidir.

## ƏDƏBİYYAT


1. Чижиков В.В. Дизайн в системе культурных ценностей. Автореферат на соискание ученой степени доктора философских наук. М., 2006
2. Человеческий потенциал как совокупность духовного, образовательного, интеллектуального, творческого и трудового потенциала. studio-pedia.ru
3. Мосоров А.М., Мосорова Н.Н. Теория дизайна. Екатеринбург: Печатный дом Солярис, 2004, 412с.
4. Р.Арсеньв. Дизайн как образ жизни. http: // www.youtube.com


## ABSTRACT


**Gasimova Elfana**


### DESIGN AS A SOCIO-CULTURAL VALUE OF THE AZERBAIJANI SOCIETY


Along with the direct involvment of design in the socio-cultural changes of the modern Azerbaijani society, its role as a socio-cultural value is undeniable. We know from the experience that namely the designer is able to control his intentions educatedly before the formation of a design idea. Such conclusion can be made that in the modern world, the design is, above all, the activity of the professionals who are able to perceive the importance and responsibility of their professional activities, a life position bringing out new ideas to the socio-cultural life of the society. Today it is possible to say that the design itself is a way of life, the area of self-improvement and rich creativity. In more qualitative perception of the socio-cultural values of the Azerbaijan society, the designer and his professional creativity that is based on the modern aesthetic requirements should play an important role. The cultural motto such as "Designer style and way of life" should be an integral part of our socio-cultural life.


## РЕЗЮМЕ


**Касумова Эльфана**


### ДИЗАЙН КАК СОЦИОКУЛЬТУРНАЯ ЦЕННОСТЬ АЗЕРБАЙДЖАНСКОГО ОБЩЕСТВА


На ряду с непосредственным участием дизайна в социокультурных переменах современного азербайджанского общества, неоспорима и роль самого дизайна в качестве социокультурной ценности. Практика показывает, что накануне формирования идеи именно дизайнер обладает умением грамотно направить свой замысел. Таким образом можно сделать вывод, что дизайн в современном мире прежде всего сфера деятельности профессионалов, осознающих важность и ответственность своей работы, а также является жизненной позицией с новыми идеями для социокультурной жизни общества. Сегодня мы можем сказать, что дизайн является образом жизни, самосовершенствующей и полноценной сферой деятельности. Для более качественного восприятия социокультурных ценностей азербайджанского общества не маловажную роль должен играть сам дизайнер и его профессиональная деятельность, опирающаяся на современные эстетические требования. Девиз "Дизайнер, стиль и образ жизни" должен стать неотъемлемой частью нашей социокультурной жизни.



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**MƏLƏK KƏRİMOVA**
*Xəzər Universiteti*

**UOT: 792**

# SƏNƏTKAR ŞƏXSİYYƏTİ

***Açar sözlər:*** *incəsənət, yaradıcılıq, sənət əsəri, psixoloji simptomlar*
***Key Words:*** *art, creativity, psychological disorders*
***Ключевые слова****: искусство, творчества, психологические симптомы*

İncəsənət– obyektiv varlığın bədii surətlərdə yaradıcı şəkildə əks olunmasına deyilir. İncəsənət eyni zamanda obyektiv varlıqla insanın qurduğu estetik əlaqə kimi də qiymətləndirilməkdədir. Bədii nümunə yaradılan zaman sənətkar onun üzərində xüsusi incəliklə işləməklə yanaşı, məcazi mənada desək emosional və fiziki olaraq sanki başqa bir dünyada öz varlığını davam etdirir. Bəzən xalq arasında incəsənətin istənilən sahəsi ilə məşğul olan şəxslər yaradıcılıqlarını "ilham pərisi gəldi" ifadəsi ilə ifadə etməkdədirlər. Sənət əsərini digər əsərlərdən fərqi nədir? Sənətkarı digər insanlardan fərqli edən xüsusiyyətlər nədir? Sənət əsərini ortaya qoyan sənətkarın düşüncə və emosional xüsusiyyətləri nədir? Bu kimi oxşar suallar insanları çox vaxt düşündürmüşdür. İncəsənətlə məşğul olan şəxs nəinki öz daxili dünyasını ifadə etməkdə, eyni zamanda yaşadığı dövrün əsas cəhətlərini, həyat təcrübələrini, müşahidələrini də öz əsərlərində əks etdirir. Bildiyimiz kimi, incəsənət dünyanın ayrı-ayrı aspektlərdə deyil, bütövlükdə qavranılmasına "təminat" yaradır. Sənətkar üçün bu bütovlüyü əks etdirmək heç də asan bir proses olmamaqdadır. İstər yazıçı, istər bəstəkar, istər şair və.s olsun hər sənətkar öz əsərini körpə kimi əzizləyir, bir başqa sözlə əsərinə həyat verir. Verilən həyatın dəyəri bəzən illər sonra, bəzən də yarandığı gündən etibarən ortaya çıxır. Məşhur rus psixoloqu L.S. Vıqotski qeyd edir ki, hər cür bədii əsər-təmsil, novella, faciə-insanda hökmən bir-birinə zidd və əks təsirdə olan hisslər və duyğular doğurur ki, onlar da qısa qapanmada olduğu kimi, bir-birini yox etməyə gətirir. Bunu isə bədii əsərin həqiqi təsiri adlandırmaq olar. Hisslər istər incəsənətdə, istərsə də psixologiyada önəmli yer tutur. Hər bir sənət məhz insan hisslərinə toxunduğu zaman daha çox dəyər qazanır. Leonardo Da Vinçinin "Mona Liza" əsəri bunun bariz nümunələrindən biridir. Əsərin müasir dövrümüzdə saatda 1500 insan tərəfindən izlənilməsi, xüsusi olaraq Parisin Louvre müzeyində ən çox baxılan əsərlərdən olması maraqlı faktlardan biridir. Təbii ki, bu əsəri ortaya qoyan rəssamın da digər insanlardan hansı şəxsi xüsusiyyətlərinin də fərqləndiyi də sual yaradır. Bildiyimiz kimi, insanın gündəlik real həyatında keçirdiyi psixoloji hisslərlə estetik hisslər arasında ciddi fərq vardır. Bunu L.S. Vıqotski daha ətraflı şəkildə aydınlatmağa çalışmışdır.

L.S. Vıqotski dəfələrlə qeyd edirdi ki, hər hansı bir hissin əsasını təşkil edən əsəb enerjisinin boşalması adi həyatda olduğuna nisbətən incəsənətdə (ədəbiyyatda) əks istiqamətdə baş verir yəni, həm müsbət və həm də mənfi emosiyaların yaranması və bir-birini əvəz etməsi baş verir. Beləliklə, incəsənət əsəb enerjisinin daha məqsədəuyğun və əsaslı boşalmaları üçün ən güclü vasitə rolunu oynayır. Yəni ədəbi əsərlərin insanda doğurduğu iztirablı və xoşagəlməz həyəcanlar bir qədər zəifləməyə, sönməyə, onların əksinə çevrilməyə və yox olmağa məruz qalırlar. Əslinə baxanda mənfi emosiyaların sönməsi, hisslərin belə mürəkkəb çevrilmələri və həzzin yaranması insanı mənəvi cəhətdən inkişafa, ruhən təmizlənməyə gətirib çıxarır.

İnsana belə təsir edən əsərin yaradılmasında sənətkar hansı şəxsi keyfiyyətlərə malik olmalıdır? Bu məqalədə məhz bu suallara bu sahənin elmi mənbələrinə istinad edilərək cavab axtarmağa çalışılmışdır.

Psixologiyada psixoanalizin banisi hesab edilən Ziqmund Freydə görə, sənət əsərinin təhlili zamanı şüuraltı proseslər aktivləşməkdədir. Eyni zamanda sənətkarın şüuraltı motivasiyaları sənət əsəri üçün bir mənbə rolunu oynayır. Andreasan [2011] sənət əsərinin necə ortaya çıxdığı ilə maraqlanmış və yaradıcılıqda üç əsas cəhəti xüsusilə qeyd etmişdir. Bu cəhətlər orijinallıq, faydalılıq və ortaya çıxan məhsuldur. Yenə Andreasen sənətkarın yaradıcı iş vaxtı olan psixi vəziyyəti ilə şizofreniyanın əlamətləri arasında oxşarlıq olduğunu və bu oxşarlığın daha çox fikir uçuşmalarında özünü əks etdirdiyini ifadə edir. Şizofreniyada reallığa uyğun olmayan fikir uçuşmalarını pasiyent reallıq kimi qəbul edir. Sənət əsərini ortaya qoyan şəxsdə də fikir uçuşmaları var, yalnız bu yaradıcı təxəyyülün məhsulu kimi qarşımıza çıxır. Sənətkar bu fikir uçuşmaları zamanı reallıqla xəyal dünyasının sərhədini qoya bildiyi halda, şizofreniya xəstələrində yaradılan dünyadan çıxa bilməmə və reallığı qəbul edə bilməmə və ya görməmə kimi xüsusiyyətlər daha çox müşahidə edilir. İnsanın şüur səviyyəsində ən az iki və ya daha çox şəxsiyyətə sahib olması və bu şəxsiyyət strukturları arasında keçidlərin olması ilə xarakterizə edilən psixoloji xəstəlik dissosiativ şəxsiyyət pozuntusudur. Bəbii əsər yazan yazıçı da müxtəlif obrazlar yaradır onlara “can” verir, bir çox qəhrəmanın həyatını, xarakterini ortaya qoyub oxuyucuya çatdırmaq istəyir. Təbii ki, bu nümunədə də yazıçı müxtəlif qəhrəmanların onun yaradıcı təxəyyülün məhsulu olduğunu bilir. Beləcə, sənətkar yaratdığı əsərin təxəyyülün məhsulu olduğunu qəbul edərək günlük həyatına keçidi asanlıqla edir. Eysenck yaradıcılıq və psixotizm arasında yüksək pozitiv korelasiya olduğunu qeyd etmişdir. [Eysenck & Furnham, 1993].

Adela Juda [1949] 113 Alman yazıçı, rəssam, memar və bəstəkar üzərində tədqiqat aparır. O, 17 il ərzində 5000 dən çox incəsənət xadimi ilə görüşmüşdür. Tədqiqatçı, 113 sənətkarın üçdə ikisinin ümümi əhali qrupu ilə müqayisədə daha çox psixoloji simptomlar göstərdiyini ortaya qoymuşdur. Psixiyatrik pozuntu ən yüksək səviyyədə şairlərdə (50%), musiqiçilərdə (38%), rəssamlarda (20%), heykəltaraşlıq (18%), memarlıqda isə (17%) olaraq müəyyən etmişdir. İncəsənətlə məşğul olmaq ciddi əmək, səbr, dözümlülük tələb edir. Bu mənada da zaman-zaman belə əməyin insan üçün çətin və ağır ola biləcəyi düşünülə bilər, digər tərəfdən də sənətkarların həyatlarını incələdiyimizdə öz işləri ilə adətə bütünləşdikləri və zövq aldıqları da qeyd edilə bilər. Məhz o zaman əsl sənət əsərlərinin ortaya çıxdığının şahidi oluruq.

İncəsənətin istənilən sahəsinin psixoloji sıxıntılar zamanı müalicəvi və sakitləşdirici təsirinin olduğu da tədqiqatlarla müəyyən edilmişdir. Məsələn, musiqiyə qulaq asmaqla insan vücudunun hormonları arasında əlaqə də bir çox tədqiqatlar üçün maraqlı mövzu olaraq araşdırılmışdır. Uçan ve Ovayolu [2016, s.17] musiqini qəlb ritmini, bədən hərarətini və tənəffüsünü tənzimlədiyini, kimyəvi terapiya alan xəstələrdə narahatlığı azaldan, xəstələrin yaşam keyfiyyətini artıran vasitə kimi qiymətləndirməkdədir. Musiqinin müalicə üsulu olaraq ələ alınması da diqqəti çəkir. Bu sahədə fransız nevroloq Philippe Pinelin tədqiqatları ilklərdən hesab edilməkdədir. Xüsusilə şizofreniya xəstələrində, əqli məhdudiyyəti olanlar və autizmli uşaqlarda musiqinin istifadə edilməsinin müsbət mənada təsirləri olduğu ilə əlaqədar nəticələr var. [Kurt, 2006, s. 20–21] Yan təsirləri az olan və maddi cəhətdən ucuz sayılan musiqi ilə müalicə metodu tədqiqatçıları bu sahəyə istiqamətləndirmişdir. Musiqi və sağlamlıq arasında yaxın əlaqə, stresli vəziyyətlərdə sakitləşdirici musiqilərdən istifadə relaksasiya metodunun ayrılmaz parçası halına gəlmişdir. İncəsənətin terapiya üsulu kimi istifadə edilməsi son zamanlarda çox aktualdır. İncəsənət terapiyası vasitəsilə pasiyentin aqressiv, şüuraltına atdığı duyğularının sosial cəhətdən qəbul edilə bilən şəkildə ifadə edilməsi terapiyanin sürətlənməsinə kömək edir. İnsanın yaşadığı çətinlikləri və sıxıntıları sözlə ifadə etməsi çətinləşdiyi zaman, incəsənət numunəsinə daxili gərginliyin ötürülməsi asan olmaqdadır. Pasiyentlərin daxili gərginliklərini sənət əsərində ifadə etdikləri zaman aqresiyyanın və zərərverici duyğuların azala biləcəyi ifadə edilmişdir. İncəsənət terapiyası zamanı duyğuların maneəsiz olaraq incəsənət əsərində ifadə edilməsi onun fərqinə varılmasına və bir başqa sözlə simvollaşdırmasına kömək edir. Bu da pasiyentin daxili nəzarətini və nizamını gücləndirir. Buradan belə nəticəyə gəlmək olar ki, incəsənətlə məşğul olan insan gərgin əməyin nəticəsi olaraq gərginlik keçirə bilsə də, digər tərəfdən yaratdığı əsərdən ilham alaraq emosional cəhətdən daha da təmizlənməkdə və müsbət duyğular yaşamaqdadır.

Cross [1967] incəsənətlə məşğul olan və olmayan iki qrup arasında apardığı tədqiqatda Cattel 16ŞF adlı şəxsiyyət testini tətbiq edərək qrupları qarşılaşdırmışdır. Tədqiqat nəticələrinə əsasən sənətlə məşğul olan qrup üzvlərinin daha içinə qapanıq, iddialı, gərgin, yüksək enerjili, səbirsiz, zamanını idarə edən, aşağı səviyyədə superegoya (cəmiyyət qaydalarına çox əhəmiyyət verməmə kimi də izah edilə bilər) sahib olduğunu ortaya qoymuşdur. Roy [1993] yalnız incəsənətlə məşğul olan və heç olmayan 102 kişi üzərində tədqiqat apararaq onların şəxsiyyət xüsusiyyətlərini müəyyən etmişdir. O, bunu müəyyən etmək üçün Cattel 16F testini istifadə etmişdir. Bu testin alt şkalalarında çıxan nəticələri qısaca belə izah etmək olar; nəticəyə əsasən incəsənətlə məşğul olanlarda emosionallıq, içinə qapalılıq, tənqidilik, öz ideyalarında inadkarlıq, dəqiqlik, inamsızlıq (A-alt şkalası), özünə inamlılıq, aqressivlik, liderlik, tərslik, müstəqillik, kobudluq, diqqət mərkəzində qalma (E+alt şkalası), ürəyi yumşaqlıq, həssaslıq, dəyişkənlik, hədsiz ehtiyatlılıq, özünə və ətrafa qarşı dözümlülük, romantikaya meyillilik, xeyirxahlıq, intuisiyaya əsasən hərəkət etmə, dünyanı bədii qavrama (I+alt şkalası) kimi xüsusiyyətlətin digər qrupa nəzərən daha çox olduğu müəyyən edilmişdir.

Necka və Hlawacz [2013] 120 şəxsdən ibarət qrupu ikiyə ayıraraq tədqiqat aparmışdır. Bankda işləyən (yaş həddi 23-46) və İncəsənət Akademiyasında oxuyan tələbələr və rəssamlar (yaş həddi18-59) olmaq şərti ilə iki qrup üzərində tədqiqat aparır. Tədqiqatın əsas məqsədlərindən biri də bu iki qrupun temperament xüsusiyyətlərinə görə aralarında fərq olub olmaması idi. Tədqiqat nəticələrinə əsasən incəsənətlə məşğul olan qrupun canlılıq, dayanıqlılıq, hərəkətlilik və temperament xüsusiyyətlərinə görə test balları daha yüksək çıxmışdır. Tədqiqatları ümumiləşdirdiyimiz zaman, hansı şəxsiyyət xüsusiyyətinin məhz sənətkara məxsus olduğunu söyləmək və qəti fikir demək çətinləşir.

Yaradıcılığı yüksək olan hər bir insanın nevrotik xüsusiyyətlərə sahib olduğunu iddia edə bilməyəcəyimiz kimi, hər nevrotik xüsusiyyətlərə sahib olanın da sənətkar olacağını düşünmək ya da iddia etmək də mümkün deyildir. Gələcəkdə bu sahədə aparılacaq tədqiqatlar üçün Azərbaycan sənətkarlarının psixoloji xüsusiyyətlərinin incələnməsi aktual və maraqlı mövzulardan biri kimi təklif edilə bilər.

## ƏDƏBİYYAT


1. Andreasen. N.C. (2011). Yaratıcı Beyin. Arkadaş yayın evi
2. Andreasen. N.C. (1987). Creativity and mental illness: prevalance rates in writers and their first-degree relatives. Am J Psychiatry, 144 (10):1288-1292
3. Andreasen. N.C., & Canter. A (1974). The creative writer: psychiatric symptoms and family history. Compr Psychiatry, 15:123-131
4. Andreasen. N.C., & Power. P.S (1975). Creativity and psychosis: an examination of conceptual style. Arch Gen psychiatry, 32:70- 73
5. Juda. A. (1949). The relationship between highest mental capacity and psychic abnormalities. Am J Psychiatry, 106:296-307
6. Necka. E., & Hlawacz. T. (2013). Who has an Artictic Temperament? Relationships Between Creativity and Temperament Amon Artists and Bank Officers. *Creativity Research Journal.* Vol.25, No. 2, 182-188
7. Ross, C. A., & Keyes, B. (2004). Dissociation and schizophrenia. *Journal of Trauma & Dissociation, 5* (3), 69–83
8. Roy. D. (1996). Personality Model of Fine Artists. *Creativity Research Journal.* Vol.9,No.4, 391-394
9. Terziköy. E. (2014). Sanat dissosiasyon ve Kişilik. Yüksek Lisans Tezi. *İstanbul Arel Universitesi.*



## ABSTRACT

**Melek Karimova**

**PERSONALITY OF ARTISTS**

What kind of personality do artists possess? What differentiates them from those who are not involved in art? This article seeks answers to these questions. It studies personal traits of artists who have

created works of art. Art and human personality have a mutual affect. This mutually beneficial impact stimulates the development of society. As art changes a person, human beings also influence on art by transforming the society through the works they create. Being engaged in art requires hard work, patience and endurance. In this sense, this type of work can be considered difficult and burdensome for a person, on the other hand, studying the lives of artists reveals that they are usually feel integrated and contended in their work. In this case, we are witnessing the true art. During the research, it was determined that those who are engaged in art possess traits such as sensitivity, accuracy, introversion and rich fantasy. Moreover, the article introduces some recommendations highlighting the lack of researches in this field.

## РЕЗЮМЕ

**Мелек Керимова**

**ЛИЧНОСТНЫЕ КАЧЕСТВА ТВОРЧЕСКОГО ЧЕЛОВЕКА**

Какие личные особенности бывают у людей которые занимаются любым видом искусства? Чем отличаются эти люди от людей которые занимаются искусством? В этом статье постарались ответить на эти вопросы. С этой целью были исследованы личности характеристики творческих личностей, которые ввели понятие о искусстве и свои творческие произведения.Также в этой статье говорится о том, какую роль играет искусство в жизни творческих людей. Искусство влияет на личность человека,также человек влияет на исскуство.Это взаимовлияние дает толчек для развития общества.Как и искусство меняет человека,так же и человек создавая произведения искусства влияет на общество и меняет его.Занятие искусством требует серьезный труд,терпение и сдержанность.С этой точки зрения может показаться что заниматься искусством бывает тяжело и очень трудно для человека, однако с другой стороны если проанализировать жизнь творческих людей,часто можно заметить что они воссеединяются со своей работой и получают от нее удовольствие.Именно в это время мы и становимся сведетелями появление настоящего произведения искусства. во время исследования было выявлено,что люди занимающейся искусством отличаются своей точностью,чувствитетельностью,часто бывают интрэвертоми и их отношение к миру бывает образным.

Учитывая малочисленность исследований в этой области, а также влияние национальных особенностей на формирование личности мастеров искусства, выдвинуты предложения.

NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**AYTƏKİN QƏHRƏMANOVA**
*M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası*

**UOT: 02**

# NAXÇIVANIN QƏDİM MƏDRƏSƏ VƏ KİTABXANALARI

**Açar sözlər:** *Naxçıvan, kitabxana, mədrəsə.*
**Key words:** *Nakhchivan, medreses, libraries*
**Ключевые слова:** *Нахчыван, медресе, библиотека.*

Azərbaycanda kitabçılıq sənətinin inkişafı eramızın XI əsrinə aid edilsə də, bu ərazidə ilk kitabxanalar çox qədim dövrlərdə meydana çıxmışdır. Antik müəlliflərə görə, albanlar hələ bizim eradan əvvəl I əsrdə öz yazılarından istifadə edirdilər. V əsrdə təkmilləşdirilmiş 52 fonemli alban əlifbası mövcud idi [1.s.127]. Albanlar öz yazılarından təkcə ölkə daxilində deyil, beynəlxalq yazışmalarda da istifadə edirdilər.

Kitab sənəti indiki səviyyəyə çatıncayadək çox böyük inkişaf yolu keçmişdir. Azərbaycan da bu cəhətdən çox tipik və səciyyəvi bir ölkədir. Hələ orta əsrlərdən əsərləri və şəxsiyyətləri ilə ümumdünya şöhrəti qazanan Azərbaycan kitab çapına gec başlasa da bu sahədə çox böyük təcrübə əldə etmişdir. Bunu Respublika Əlyazmaları İnstitutunda olan müxtəlif elm sahələrinə: tarix, ədəbiyyat, dil, tibb, nücum, riyaziyyat, təbabət, heyvanat, nəbatat və s. elmlərə dair mühafizə olan əlyazmalardan da dərk etmək çətin deyil [4.s.15].

Tarixdə V-VII əsrlər alban ədəbiyyatının çiçəklənmə dövrü hesab edilir. Alban ədəbi nümunələrindən dövrümüzə Moisey Kalankatlının “Alban tarixi”, VII əsr şairi Davdəkin elegiyası və alban hüquqi mənbələri olan kilsə qanunları gəlib çatmışdır.

Azərbaycanda İslam dini qəbul edildikdən sonra isə məscid və mədrəsələrdə kitabxanalar meydana gəldi və kitab mədəniyyəti geniş yayılmağa başladı. Artıq VII-X əsrlərdə Azərbaycanda ədəbiyyat, hüquqşünaslıq və başqa ictimai elmlərlə birlikdə təbiətşünaslıq, riyaziyyat, astronomiya və başqa dəqiq elmlərin yayılması üçün əlverişli şərait vardı.

IX əsrin əvvəllərindən etibarən müsəlman Şərqində mövcud olan elmi ədəbiyyatın xarici dillərdən ərəbcəyə tərcümə olunması elmlərin inkişafını xeyli sürətləndirmişdi. IX əsrdən başlayaraq ərəb xilafətinin ən böyük şəhərləri Dəməşq, Bağdad, Hələb, Bəsrə, o cümlədən Azərbaycanın Ərdəbil, Marağa, Şamaxı, Naxçıvan və başqa şəhərləri təhsil ocaqları, kitabxanaları, məscidləri olan mədəni mərkəzlərə çevrilmişlər. Həmçinin bu dövrdə ümumi kitabxanalar, yarım umumi kitabxanalar, xüsusi kitabxanalar və mədrəsə kitabxanaları var idi. Bunlarm hamısında kitabxana personalı var idi. Kitabxana personalı kitabxananın böyüklüyü və kiçikliyindən asılı olaraq dəyişilirdi. Bu dəyişiklik vəzifələrin növünə və sayına görə dəyişirdi. Tarixçi Rüfət Hüseynzadıə qeyd edir ki, erkən orta əsrlərdə Azərbaycanın Gəncə, Naxçıvan, Şamaxı,Təbriz, Ərdəbil, Həmədan kimi şəhərlərinin əksər kitabxanalarında aşağıdakı vəzifələr var idi-,1.)Kitabxana xəzinadarı; 2)Mütərcimlər(tərcüməçilər); 3) Müstənsixlər (nüsxə çıxaranlar); 4)Mücəllidlər (cildçilər); 5)Müzahiblər (zər-bəzəkli cildlər hazırlayanlar); 6)Münavillər (Kitabxana xidmətçiləri). Kitabxana xəzinadarı kitabxananın müdiri vəzifəsində idi (3. S.127).

Araşdırmalar nəticəsində aydın olur ki, Azərbaycanın digər şəhərlərində olduğu kimi Naxçıvanda da nəinki kitabxanalar olmuş, hətta bu qədim peşənin işçilərinin adları belə olmuşdur. Buradan da belə nəticəyə gəlmək olar ki, Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da kitabxanalar XI əsrdə deyil, IX əsrdən yaranmağa başlamışdır. Bu dövrdən etibarən yaranan əsərlərin

qorunub saxlanılması, həmçinin mədrəsələrdə təhsil alan tələbələrin tədris proqramına uyğun dərsliklərin mühafizə olunması üçün kitabxanaların sayı da artmışdır. Bununla yanaşı, kitabı digər dillərdən tərcümə edənlər, nüsxə çıxaranlar, kitabı cilidləyənlər, zər-bəzəkli cildlər hazırlayanlar və kitabxana xidmətçiləri olmuşdur.

Tarixdə XII əsr Azərbaycan mədəniyyətinin intibah dövrü hesab edilir. Naxçıvanda orta əsr müsəlman tədris müəssisələri – mədrəsə, ruhani məhəllə məktəbləri, təkyələr mövcud idi. Eldənizlərin hakimiyyəti dövründə Naxçıvan şəhərində iki böyük mədrəsə tikilmiş və dini xeyriyyə idarəsinə məxsus vəqf kimi fəaliyyət göstərmişdir [2., s.213]. Bu mədrəsələrin nəzdində kitabxanalar yaradılmışdır.

Mənbələrdən aydın olur ki, Naxçıvan mədrəsələri Möminə xatın və Yusif Küseyiroğlu türbələri ilə əlaqəli olmuşdur. Bu da təsadüfi deyil. Çünki müsəlman Şərqində hökmdar türbələri nəzdində mədrəsə, kitabxana, xəstəxana və sair ictimai müəssisələr olmuş, bu ənənə Azərbaycan Atabəyləri dövründə də davam etdirilmişdir. Həmin mədrəsələrin xərcləri Möminə xatın və Yusif Küseyiroğlu türbələri vəqflərinin gəliri hesabına ödənilirdi. Mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də öyrədilirdi. Dünyəvi elmlərin tədris edilməsi üçün müəllimlərə dərsliklər gərək idi. Bu dərsliklər Azərbaycan alimlərinin əsərləri ilə yanaşı, əcnəbi müəlliflərin də əsərlərindən ibarət idi. Dərsliklər mədrəsələrin nəzdində yaradılmış kitabxanalarda mühafizə olunurdu.

Naxçıvan Eldənizlər dövlətinin paytaxtı olduğundan elm və mədəniyyətin inkişafına böyük şərait yaradılmışdı. Mənbələrdən aydın olur ki, Şəmsəddin Eldənizin özü Naxçıvanda məktəblər açdırmış, mədrəsələr və məscidlər tikdirmişdir. O dövrdə Naxçıvanla yanaşı, Ordubadda da məscidlərin nəzdində məktəb və mədrəsələr fəaliyyət göstərirdi. Naxçıvanda elm və mədəniyyətin sürətli inkişafı mədrəsələrin nəzdində yaranan kitabxanaların da inkişafına öz təsirini göstərirdi.

XIII yüzillikdə Naxçıvanda təhsil sisteminin əsasını mədrəsələr təşkil edirdi. Uşaqlar 5-6 yaşlarından mədrəsələrə qəbul edilir, 15 yaşınadək burada oxuyur, yazı vərdişlərinə yiyələnir, ayrı-ayrı fənlər haqqında məlumat alır, "Qurani-Kərim"i öyrənirdilər. Mədrəsələrin xərcləri vəqflər hesabına ödənilirdi.

O da qeyd olunmalıdır ki, Naxçıvan mədrəsələrini, mədrəsələrdə müəllim-tələbə münasibətlərini, orada tədris olunan fənləri, ümumiyyətlə, Azərbaycan məktəb tarixini öyrənmək baxımından "Naxçıvan mədrəsələri tədrisinin təsdiqinə dair fərman" dəyərli bir sənəddir [2.,s.264].

1263-1284-cü illər arasında imzalanması ehtimal edilən bu fərman, ilk növbədə, Naxçıvanda, geniş miqyasda isə bütün Azərbaycanda və müsəlman Şərqində məktəb və mədrəsələrin olduğunu qəti şəkildə təsdiq etməklə həm də onu sübut edir ki, Naxçıvanda hələ əvvəllər mövcud olmuş məktəb, mədrəsə və kitabxanalar XII əsrin sonlarından daha da sürətlə inkişaf etmişdir. XIII əsrin ilk rübündə dağıntılara məruz qalmış məktəb və mədrəsələr yuxarıda adı qeyd olunan fərmanla yenidən bərpa etdirilmişdir.

Fərmanda XIII yüzillikdə mədrəsələrdə tədris olunan fənlər haqqında dəyərli məlumatlar verilir və aydın olur ki, mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunurmuş. Onu da qeyd etmək lazımdır ki, həmin vaxtlarda mədrəsələrdə tədris olunan dərslikləri alimlər təqribi olaraq üç yerə ayırırlar: Azərbaycanda, Azərbaycandan kənarda və başqa dillərdə çap olunanlar. Bu dərsliklərin gətirilməsi və onların mühafizə edilməsi üçün də həmin mədrəsələrdə kitabxanalar fəaliyyət göstərirdi.

Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərən mədrəsələrdə təkcə naxçıvanlılar deyil, hətta Yaxın və Orta Şərqin bir sıra ölkələrindən uşaqlar təhsil alıb vətənlərinə qayıdırmışlar. Naxçıvanda fəaliyyət göstərən "Mədrəseyi Bəhtaniyyə" və "Mədrəseyi İrşadiyyə" adlı mədrəsələrdə təhsil alan tələbələrin içərisindən görkəmli alimlər yetişmişdir. Gəncə kitabxanasının müdiri işləmiş naxçıvanlı alim Həddad ibn Bekran Əbül-Fəzl ən-Nəşəvi ilk təhsilini Naxçıvan mədrəsələrində almış, sonra müsəlman Şərqinin mühüm elm və təhsil ocaqlarında oxuyaraq elmdə yüksək zirvələr fəth etmişdir. Onun rəhbərlik etdiyi Gəncə kitabxanası Bağdaddakı "Beyütül-hikmə" kimi elmi müəssisə funksiyasını daşımışdır [2.s.266]. Bu da onu göstərir ki, Naxçıvanda təhsilin səviyyəsi çox yüksək olmuşdur. Mədrəsələrin nəzdində fəaliyyət göstərən kitabxanaların fondu daim zənginləşdirilmişdir.

XIII əsrin 50-ci illərindən başlayaraq XIV əsrin ikinci yarısına kimi davam edən monqol əsarəti nəticəsində əhali öz torpaq sahiblərini qoyub digər yerlərə qaçırdılar. Bu vəziyyəti görən Qazan xan 1303-cü ildə kəndlilərin torpağa təhkim edilməsi haqqındakı fərman verdi. Bu fərman ilk dəfə Azərbaycan kəndlilərini rəsmi surətdə torpağa təhkim edir, onların bir yerdən başqa yerə köçməsini qadağan edirdi. Bu fərmandan sonra Azərbaycanda kənd təsərrüfatı ilə yanaşı şəhər həyatı, sənət, ticarət və mədəniyyəti də canlanmağa başlayır.Təbrizdə, Marağada, Naxçıvanda, Gəncədə saraylar, mədrəsələr, kitabxanalar tikilməyə başlayır [4. s.52]. Göründüyü kimi artıq həmin dövrdən kitabxanalar üçün ayrıca binalar tikilməyə başlamışdır.

XIII-XV əsrlərdə Naxçıvan nəinki Azərbaycanın, bütövlükdə, Şərqin elm və mədəniyyət mərkəzlərindən biri olaraq qalırdı. Bu dövrdə Naxçıvan Hülakülər dövlətinin tərkibində idi. Hülakülər dövlətində təhsilə, elmə diqqət yetirildiyindən Naxçıvanda da elmin inkişafı üçün münbit şərait yaradılmışdır. XIII yüzillikdə yaşayan naxçıvanlı alimlərdən Qazi Nəcməddin Əhməd ibn Məhəmməd Naxçıvani, Həsən ibn Ömər Naxçıvani və başqalarını misal göstərmək olar.

Əslən naxçıvanlı olan görkəmli ensiklopedik alim, filosof Nəsirəddin Tusinin Marağa şəhərində yaratdığı 400000 əlyazmaya malik kitabxanasında 100-dən artıq alim fəaliyyət göstərirdi.

Səfəvilərin hakimiyyəti illərində Naxçıvan mədrəsələrində ilahiyyat dərsləri ilə yanaşı, dünyəvi fənlər, o cümlədən Aristotelin, Mirxondun, Xaqani Şirvaninin, Nizami Gəncəvinin, Hafiz Şirazinin və başqalarının əsərləri, bununla yanaşı, fəlsəfə, astronomiya, cəbr və sair tədris olunurdu. Həmin dövrdə Naxçıvanla yanaşı, Ordubad şəhərində də mədrəsə fəaliyyət göstərirdi. Bu mədrəsə Azərbaycanın hüdudlarından kənarda da məşhur idi. Qonşu ölkələrdən də həmin mədrəsədə təhsil alanlar var idi. Ordubad mədrəsəsi Came məscidinin yanında tikilmiş ikimərtəbəli binada yerləşirdi. Mədrəsə özünün vəqfləri hesabına, həmçinin dükanların, hamam və digər müəssisələrin gəlirləri hesabına maliyyələşdirilirdi. Mənbələrdən aydın olur ki, bu mədrəsədə təhsil alan tələbələrə mədrəsənin gəlirindən 5 axça pul verilirmiş, qalan artıq vəsaiti lazım olanda mədrəsənin və aid olan tikililərin təmirinə sərf edirmişlər. Bunlarla yanaşı, mədrəsənin nəzdində kitabxana da fəaliyyət göstərmişdir.

Səfəvilərin hakimiyyəti dövründə Naxçıvanda bütün elm sahələrində mükəmməl biliyə malik olan elm adamları, alimlər və şairlər yetişmişdi. Türk səyyahı Övliya Çələbi “Səyahətnamə” əsərində qeyd edir ki, o, Naxçıvan hakimi ilə görüşərkən 40-50 nəfər uzaqgörən alim və nədimlə həmsöhbət olmuşdur. Bu dövrdə təkcə Naxçıvanın özündə deyil, başqa bölgələrində, xüsusən də Ordubadda ədəbi simalar çoxluq təşkil edirdi. Bunlardan Mirzə Sadıq Ordubadi, Ziyayi Ordubadi, Hatəmbəy Ordubadi, Münşi Mirzə Zeynalabdin Ordubadi və başqalarını misal göstərmək olar. Bu ədəbi simaların hamısı öz təhsillərini Ordubad mədrəsələrində almışlar. Ordubad şəhərində olan Zəhir əd-Dövlə Məhəmməd İbrahim mədrəsəsi XVIII yüzillikdə nəinki Naxçıvan bölgəsində, eyni zamanda Azərbaycanda əhəmiyyətli tədris müəssisələrindən biri olmuşdur.

Yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, Naxçıvanda kitabxanaların yaranmasının ilkin mərhələsi IX əsrdə başlamış, məscid, məktəb və mədrəsələrin nəzdində fəaliyyət göstərmiş, ictimai müəssisə kimi mədrəsələrin gəlirləri hesabına maliyyələşdirilmiş və bu ənənə Azərbaycan Atabəyləri dövründə də davam etdirilmişdir. Hətta mədrəsələrdə mövcud olan kitabxanalarda xazin, mübəddil və sair kimi işçilər çalışmışlar. X-XIII əsrlərdə elm inkişaf etdikcə kitaba olan tələbat artır, nəticədə kitabxanaların sayı artmağa başlayır. XIV-XV əsrlərdən başlayaraq saray kitabxanalarının inkişafı geniş vüsət alır.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Yeddi cilddə: II cild. Bakı, Elm, 2007,609 s.
2. Naxçıvan tarix III cilddə: I cild. Naxçıvan, Əcəmi, 2013, 451s.
3. Hüseynzadə R. L. Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Bakı, 2007, Nurlar, 326s.
4. Mollayev İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı, Maarif, 1996, 297s.
5. serqqapisi@nakhchivan.az 27. 04.2011

6. serqqapisi@nakhchivan.az 21.08.2015


**ABSTRACT**

**Aytəkin Qəhrəmanova**

**ANCIENT NAKHCHIVAN MEDRESES AND LIBRARIES**

The article deals with the first stages of the foundation of the libraries in Nakhchivan. In IX century the libraries were financed by the mosques and schools. Even there were libraries within the schools. Beginning with the XII century there was much need for the books and the number of libraries

Beginning with the IX century Azerbaijan cities Ardabil, Maragha, Shamakhy, Nakhchivan and others became cultural centers with their educational institutions, libraries and mosques. As well as were functioning public and private libraries and libraries within the madrasses at that time. Even there have been noted the names of official staff of the libraries. Financial expenses for the libraries were covered by the income of Mominekhatun Tomb and Youssif Kuseyiroglu institutions.



**РЕЗЮМЕ**

**Айтекин Кахраманова**

**ДРЕВНИЕ МЕДРЕСЕ И БИБЛИОТЕКИ В НАХЧЫВАНЕ**

В статье наряду с только что возникающими библиотеками даются подробные сведения об учебных заведениях вообще, о действующих в те времена в Нахчыване двух крупных медресе, в частности. Кроме того, в ней обосновывается существование библиотечного дела как древнее и значимое ремесло, также освещаются виды библиотек тех времен и формы распределения обязанностей среди обслуживающих лиц.

В статье представлена информация об истории создания библиотек в Нахчыване. Было отмечено, что после принятия исламской религии в Азербайджане были созданы мечеть и медресе, при которых начали функционировать и библиотеки. Создание этих библиотек привело к распространению книжной культуры вообще.

С начала IX века Ардабил, Марага, Шамахы, Нахчыван и другие города Азербайджана стали культурными центрами со своими учебными заведениями, библиотеками и медресе.

В статье высказываются мысли относительно действующих в те времена библиотек селедующих типов: общие библиотеки, полууниверсальные библиотеки, специальные библиотеки и библиотеки медресе.

В статье освещены некоторые аспекты работы сотрудников библиотеки.

В двенадцатом веке нахчыванские медресе были связаны с мавзолеями Момине Хатун и Юсуфа Кусеироглу. Расходы на такие библиотеки, как социальные учреждения, оплачивались за счет пожертвований - вакуфов этих мавзолеев.

Из статьи видно, что интерес к книгам и библиотекам в Нахчыване, который имеет древнюю историю и богатую культуру, был высоким еще в раннем средневековье.


NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**ƏŞRƏF YUSİFİ**
*İran İslam Respublikası*

**UOT: 78**

# MUSİQİ İLƏ MÜALİCƏ

**Açar sözlər:** *Musiqi ilə müalicə, musiqi terapist, musiqi və uşaqlar, tibdə musiqi, təsir, cism, ruh*

**Key words:** *music therapy, music therapist, music and children, music in medical, impact of body, psyche*

**Ключевые слова:** *музыкальная терапия, музыка терапевтов, музыка и дети, музыка в медицине, влияние, тело, дух*

Musiqi ilə əlaqəli çoxlu əsas anlayışlar yazılaraq bir çox cəhətlərdən araşdırılmışdır. Musiqi həm kəlimə(luğət) baxımından, həm də termin(istilah) olaraq açıqlana bilər. Bu söz, Yunanda Musiqiyə sözündən alınaraq zənginlik(qina) və ləhn(ton) anlamını da daşıyır. Qədim Yunanda musiqi ilə şəfa arasında yaxın əlaqə görünməkdədir. Bu əlaqə Yunan tanrılarından olan Apoloya şəxsiyət vermişdir. Apolo həm musiqi tanrısı, həmi də tibb tanrısı olmuşdur. Yunanlılara görə xəstəliklər insanın içində harmoniyanın olmamasından törənir və musiqi öz ruhi və əxlaqi gücü vasitəsilə harmoniya və nəzmi bədənə qaytararaq sağlamlığı insana töhfə verə bilər. Həmi də musiqinin tərifində belə gəlmişdir: insanı, özünə məchul və bilinməyən bir dünyaya götürən səslər və tonlardan ibarət olaraq, onun ruhuna o dərəcədə hakim olur ki, gah güldürür, gah ağladır, gahdan isə ixtiyarsız olaraq insanın bədən üzvlərini hərəkətə gətirir, bəzən isə eşqlə şəhvəti oyaldır və onu özünə əsir edərək, onun ağıl, ruh, fikir və əsəblərinə belə hököm sürür. Farabinin tarixdə çox məşhur olan Seyfüd-Dövlənin məclisində saz çaldığı kimi ki, öncə onun saz çalmağına hamı gülür, sonra ritmin dəyişməsiylə hamının ağlamağa məcbur edir, sonra isə başqa bir musiqi ilə hamını yuxuya daldırıb məclisdən çıxır; Ərəstunun "musiqi, Riyaziyatın bir şövbəsi kimidir" sözü İslam filozoflarının məqbulu olsa da, ancaq musiqinin bütün qayda-qanunları Riyaziyat kimi qət[1]i və dəyişilməz olmamağına görə və artistin də onda dəxl-təsərrüfü olduğundan dolayı, onu bir sənət kimi də hesab edirlər. Musiqinin gözəlliyi, estetikası onun dinləyicidə buraxdığı hisslər və duyğularla ölçülür. Bu sənət, çox diqqətlə ölçülür; bəlkə bu səbəbdəndir ki, qədim elmdə -deyildiyi kimi- onu riyaziyat şöbəsindən də hesablayırdılar.

Bilim adamlarının araşdırmalarına görə, bir aləti çala bilmək qabiliyyətinə sahib olan şəxs, başqalarından daha estedadlı olub, daha yaxşı yaşam biçimi olur, təhsil həyatında isə daha çox uğurlar qazana bilir. Bir musiqi alətini ardıcıl şəkildə çalan şəxsin beyin forması dəyişilərək daha güclü vəziyətdə gələrək bacarıqlarının inkişafına səbəb olur. Musiqi alətlərini çalmaq həmi də IQ səviyyəsinin uşaqlar və yaşlılarda 7 dərəcəyə qədər yüksəldə bilər.

Musiqi alətini çalmaq, beyində bəlli bir ritmin prosesi ilə vəzifəli olan bölümlərin güclənməsinə səbəb olur. Bu bölümlər həmi də hərəkət və eşitmə qabiliyyəti və informasiya saxlamaqla vəzifəlidirlər ki, bir aləti çalmaqla məşqul olan şəxsdə, bu bölümlər daha çox irəliləyərək gücləri gündən günə artır.

Araşdırmalara görə, bir musiqi alətinin öyrənməsində 4 ya 5 ay sonra, hətta 65 yaşdan yuxarı insanların beynində çoxlu dəyişmələr üz verərək neçə həftə sonra, öyrənmə sürəsində, yaşlıların beynində pozitiv nişanələr görünür və kollektiv olaraq onları alzaymer kimi beyin xəstəliklərinə qarşı daha gücləndirir.

Musiqi insanın iki yarımkürəsində də təsir buraxaraq onları zənginləşdirir. Musiqi alətlərini çalan şəxsin beynində eşitmə qabiliyyəti, yaddaş və əlləri kontrol edən bölümlər, öyrənmə sürəsində ən yaxşı səviyyədə çalışıb öyrənməyə ən ideal vəziyyətdə olurlar.

İnsan varlığının ən önəmli yanlarından biri onun ruh və hissiyatıdır; beləliklə musiqinin insanda buraxdığı mənəvi və ruhi təsirlər onun dirçəlmə, yoxsa alçalmasında da təsirlidir. Bu üzdən musiqinin insan ruhunda qoyduğu təsirlər yüksək səviyyədə əhəmmiyət daşıyır.

Musiqi iki baxımdan insanın ruhi və cismi vəziyətinin yaxşılaşmasına yardım edə bilər; belə ki, dinləyicini duyğulandıraraq beynində sevgi və məhəbbəti oyaldır, musiqi alətini çalan şəxsdə isə, onu duyğulandırmaqla bərabər, cismlə beyinin əlaqəsini gücləndirərək onların bir-birinə daha uyğunlaşmasını həyata keçirir.

Musiqi həmi də uşaqlara nəzm-nizam, diqqət və planlamanı öyrədir ki, bunların hər biri onların məktəb və universitetdə təhsil həyatlarında çox müsbət rol oynayır.

Uşaqların musiqi ilə əlaqədə olmaqları istər çalmaq, istərsə də dinləməklə onların eşitmə qabiliyyətlərini də gücləndirir.

Musiqi öyrənən uşaqlarda, ikinci dil öyrənmək daha tez baş verərək onların kələmə yaddaşlarını da gücləndirir. Bu məharətləri yüksəltmək üçün təkcə yol, təbii ki, musiqi deyil, ancaq əmin olmaq lazımdır ki, başqa üsullarla birlikdə musiqi də insan üçün effektiv rol oynamaqdadır.

Musiqini öyrəndiyimiz zaman, notları öyrənməliyik, zamanlamanı gözdən qaçırmamalıyıq ki, səsləri daha yaxşı beynimizdə saxlayaq.

Bu bacarıqların gücləndirilməsi, yeni dillərin öyrənməsini daha asanlaşdırır və kəlmələri uzun müddətli yaddaşında saxlamaqda yardımçı olur.

Musiqi beyinin elastikliyini o dərəcədə etkiləndirir ki, bilim adamları onun vasitəsilə zehni xəstəliyi olanlara yardım etmək niyyətindədirlər; dünyanın bir çox yerində musiqi ilə müalicə etmək barəsində yüksək səviyyədə araşdırmalar aparılır.

Kaolina universitesinin professorlarından olan Donald Hags bu barədə deyir: heç nə musiqi qədər beyinin bütün bölmələrini aktiv edə bilməz.

Musiqinin yuxarıda deyilən bütün istifadələri ilə yanaşı, dərman kimi təsiri də vardır. Sakitləşdirici bir musiqidə səs titrəmləri və dalğaları duyub eşitmək qəlbinizin daha müntəzəm bir ritmlə işləməsini həyata keçirir və beləliklə bədəninizin başqa orqanları da ondan təsirlənərək daha yaxşı və müntəzəm işləyir. Misal üçün beyinin coşqunlu və təlatümlü dalğaları, daha yavaş səviyyəyə inir, stresiniz azalır və bədənin müdafiə sistemi gücləndirilir.

Musiqi, bədən orqanları və sistemlərini daha müntəzəm şəkilə salır. Musiqi seçimində, təbii ki öz baxışınız əhəmmiyətlidir, ancaq bunu nəzərə almalıyıq ki, müalicə üçün seçilmiş musiqilərin hamısı xüsisi bir ritm və palsa malikdir. Yavaş və mülayim musiqilər ürək döyüntüsünü yavaşlatmaqla birlikdə, beyin və tənəffüsün dalğalarını da sakinləşdirir. Musiqinin bu səviyyədə etkilərinin olması bir çox bilim adamlarını özünü məşğul edibdir, ancaq onların uzun müddətli araşdırmalarına görə, musiqinin beyində müsbət təsir qoymasını təsdiq ediblər. Musiqi, xəstələrin dərmanını sürətləndirib, narahatlıqlarla mübarizə edib beyini daha sakin bir vəziyyətə çatdırır.

Musiqinin ruh sakitliyində bütün müsbət təsirləri ilə yanaşı, onun uyğunsuz şəkildə istifadə olunması da tam əks təsirlər göstərə bilər. Musiqi, sizin iç ritminizlə tam uyğun olmalı və balansınızı aradan aparmamalıdır.

Yüksək səsli musiqi, beyinin sağ və sol yarımkürələrində pozğunluq ortaya gətirə bilər. Uşaqlıq dönəmində bu növ musiqilərin eşidilməsi, bir sıra öyrənmə qabiliyyətlərini aradan qaldırıb və davranış problemlərini meydana gətirə bilər.

Yüksək səsli musiqilər, zehni və cismi narahatlıqlara yol aça bilər. Bir sıra dağınıq və mülayim ritmi olmayan musiqilər gərgin və aqressiv davranışlara səbəb olub hiperaktiv vəziyyətə yönəldərək onlarda yorqunluq və qəzəbli olmaq hisslərini gücləndirər.

Bu səbəblərdən dolayı musiqi seçimi çox vacibdir. Musiqi, dinclik və ruhi sakitlik üçün sehirli gücə sahib olmaqla birlikdə, düzgün şəkildə istifadə olunmazsa, əks nəticə ola bilər. Musiqi öyrənmə qabiliyyətini və kəşfiyyat səviyyəsinin artırılmasında təsirli ola bilər.

Musiqi dinləmək və ya bir aləti çalmaq öyrənmə səviyyəsini yaxşılaşdırıb və riyaziyyat bacarıqları artıraraq şəxsin daha diqqətli olmasına yardım edə bilər. Bunların həyata keçməsində hansı musiqiyə qulaq asmaq hələ də bilim adamlarına o dərəcədə bəlli deyil, ancaq bundan əmindirlər ki, musiqi sizi daha rahatladıb və sizdə ruhi sərxoşluq yaratmalıdır və onunla yanaşı başqa işləri görmək üçün enerjinizi yüksəldərək sizə yorğunluq, əzələ spasmı və stresin azalmsında, qan təziqinin aşağı səviyəyə enməsində və daha rahat yuxlamaqda yardımcı olmalıdır.

Bir çox insanlar musiqni bir hobi və ya bir əyləncə kimi bilirlər; Digərləri isə yuxarı səviyyədə duyğulanıb kövrəldikləri zaman musiqiyə doğru gedirlər. Bir sıra insanlar isə musiqini bir peşə kimi tanıyırlar. Musiqi, bizim hal-havamızda birbaşa təsir göstərməkdədir. Bir çox mağazalar, kitabevləri, restoranlar və s. müştərilərin əhval-ruhiyəsini yaxşılaşdırma və hətta onların o məkanda daha çox vaxt keçirmələri üçün musiqidən istifadə edirlər. Musiqi dinclik gətirir, gülüşü dodaqlara qondurur, ağladır, vurğun edir, və beləliklə sizin hal-havanızda birbaşa təsir göstərir. Müxtəlif vəziyyətlərdə çeşidli testlər bunu göstərir ki, əməliyyatdan əvvəl musiqi dinləmək, xəstələrdə stres və narahatlığı azaldaraq onları sakitləşdirir.

Yuxusuzluqla mübarizənin ən ucuz və asan yollarından biri musiqi dinləməkdir. Əyər 45 dəqiqə sakitləşdirici musiqi dinləsəniz, gecə daha rahat yuxuya dalmanızdan əmin olun; niyə ki, musiqi sizin ruhunuzu dərman edir.

İnsan beynində ən əhəmmiyətli vəzlərdən olan Hipotalamus vəzi, sinir sistemi vasitəsilə səs mühərriklərini alaraq, yaddaş və təxəyyüllə birlikdə onları cavablayır. Hipotalamus vəzindən fərman alan Hipofiz vəzi isə harmonik səsləri cavablayaraq Androfin adlı sakitləşdirici bir maddəni azad buraxır. Bu maddənin ən önəmli işlərindən biri ağrıkəsici kimi olduğunu nəzərə alaraq, musiqi ilə müalicənin dəyərlərini daha yaxşı anlamaq mümkün olur. Musiqi ilə müalicə aktiv bir prosesdir.

Musiqi ilə müalicə maneəlilərə düzgün hərəkətlənmələri üçün ritmik-muzikal hərəkətlərlə yardımcı olmaq artıq mümükündür. Həmi də onlar üçün xüsusi şer yazmaqla, onlara misal üçün paltar geyməkdə və dişlərini fırçalamaqda kömək olub yaddaşlarına tapşırmaqda kömək ola bilər.

Son müşahidələr və təcrübələrə görə, musiqi, eşitmə, görmə və nitqi qüsurluların müalicəsində istifadə olunur.

Şifahi ünsiyyətdə çətinlik çəkən insanlar, xüsusi oxumaqlar vasitəsilə səslərin tələffüzü və lüğət tanıma bacarıqlarını yaxşı səviyyəyə yüksəldə bilərlər. Həmi də musiqidəki səs və ritm, danışma pozuqluqları olan şəxslərə dərman kimi istifadə olunur. Musiqi diltutulması (aphasic) olan şəxslərə danışma əlaqəsi qurmaq üçün bir yol kimi tanınmaqdadır.

Melodik intonasiya müalicə (Melodic intonation Therapy)-Bu texnika 70.ci illərin əvvəllərində diltutulma problemi olan böyükyaşlılarda bir dərman yöntəmi kimi həyata keçirildi. Bu yöntəmdə qısa cümlələr sadə və ritmik şəkildə oxumaqla birlikdə ifa olunur. Xəstələr cümlələri öyrəndikdən sonra, ritmlər yavaş-yavaş geri çəkilib, aradan qaldırılır. Bu yöntəm bu əsasda qurulub ki, sol yarımkürə zərər gördüyündə, mahnıda mübaliğə ilə (ritm, vurguilə söyləmək və melodik cümlələr) beyinin sağ yarımkürəsinin yardımıyla danışmağa həvəsləndirib, danışmağı asanlaşdırsın.

Rodenbergə görə musiqidən bir neçə yerdə ortopedik əlillər üçün istifadə oluna bilər: yayındırmanın azaldılması, stres və ağır alerjilərdən qurtulmaq, öz-özünə dəyər vermənin yüksəlməsi və əzələ məşğələlərinin gücləndirilməsi.

Musiqi terapiyanın müxtəlif fəaliyyətləri ilə əzələlərin vəziyyətinin yaxşılaşdırılması və hərəkətlərin uyğun olması mümkündür. Örnək üçün xüsusi yöntəmlə çalınan alətləri seçməklə, əzələlərin hərəkət və dözümlülüyünü artıraraq başqa bölmələrlə əlaqəsini yaxşı vəziyətə gətirmək mümkündür. Məsələn, piyano çalmaqla barmaqların hərəkət, əymə və gərilməyi, sazların ritmi ilə də hərəkətin artması və hərəkət ülgülərinin qaynağı. Armonika çalmaq əllərin daha yaxşı kontrolu və onların ağızla koordinə olmağı və həyati imkanlarının gücləndirməsi üçün istifadə edilə bilər. Əlillərin bir aləti çalmaq üçün başqa qaynağı isə, onlarda uğur və məmnunluq hissin yaranmasıdır. Bir aləti çalmaq, şəxsdə dəyəri artırır və əyər bir qrup kimi də çalınsa, onların sosial inkişafı günü-gündən güclənir.

Yaşlanmaqla birlikdə umumiyətlə ruhi və fiziki funksiyanın azalması da vardır ki, müxtəlif şəxslərdə müxtəlif səviyyələrdə olur. Yaşlı insanların bir çoxu, xüsusi ilə qoca evlərində yaşayan şəxslərdə, fiziki və əqli ixtişaşlar görünməkdədir. Onların çoxu ürək xəstəlikləri, diabet, xərçəng və ya qan təziqi kimi medikal problemlərlə yaşayırlar. Bəziləri isə emosional səbəblərdən dolayı depressiya və təklik kimi problemlərdə üzbəüzdürlər.

Musiqi ilə müalicə onların fiziki və ruhi funksiyasını genişləndirmək üçün yararlı ola bilər. Misal üçün gündəlik məşqlər və idmanlarda musiqi vasitəsilə, bu məşqlərin onlarda yaratdığı ağrı hisslərini uzaqlaşdırmaq və ya onlarda bu məşqlərə qatılmaqları üçün maraq hisslərini yaratmaq mümkündür. Sevinclə birlikdə alqışlamaq və həmçinin ritmik musiqi, barmaqlarda olan artrit xəstəliyinə qarşı yaxşı dərman kimi olaraq, özünəinamı və müsbət enerjini artırmaqda yaxşı rol oynaya bilər. Yaşlıların maraqlandığı musiqilərin başqa təbəqələr kimi geniş bir alan olduğunu yaddan çıxarmamalıyıq. Onların maraqları yaşlarıyla birlikdə dəyişməkdədir. Yaşlılar adətən 18-20 yaşlar arasında dinlədikləri musiqilərə maraq göstərirlər.

Musiqidəki səslərdə olan həyəcan və emosional vəziyyət insan əhval-ruhiyəsində dərin təsirlər buraxaraq akupunktur, homeopati və Ayurveda kimi alternativ tibb filiallarında müalicə etmək üçün böyük rol oynayır.

Günümüzdə musiqinin xəstəliklərə dərman kimi dinlənməsi, elmi və metodoloji yanaşmalardan dolayı, musiqi ilə müalicəni müstəqil bir fənn kimi ortaya qoyur. Bu səbəbdən bu yöntəmdə mütəxəssislərin nəzarəti altda müəyyən musiqi təhriketmələri vasitəsilə əlillik və xəstəliyin azalması, uyqun olmayan vəziyətləri yoluna salmaq və xəstəliyin nişanələrini dərman etmək kimi konularda musiqidən yaralanmaq mümkündür. Bu dərman yöntəmində, musiqi bir alət və musiqi ilə müalicə edən şəxs, bir mütəxəssis kimi bir sıra xəstəliklərdə (xəstəliyin ciddiyəti ilə əlaqəli), xəstədə sağlamlıq vəziyyətini yaxşılaşdırıb və stresin azalmasında yardımcı olur. Bu şərait isə xəstənin cinsiyət, yaş və xəstəliyin şiddəti ilə müxtəlif narahatlıqlarda dəyişə bilər.

Musiqinin tibdə funksiyası haqda bir çox dəyərli və etibarlı araşdırmalar keçirilib ki, bunların bir sırası ürək döyüntüsü, qan təziqi, müxtəlif ağrılar, tənəffüs, dəri reaksiyaları, adrenalin hormonlar, prolaktin, kortizol, beyin dalğaları, ketkolaminlər, steroidlər, elektromyoqrafi, dərmanların yan təsirləri və onlardan istifadə müddəti, xəstəxanada qalma müddəti kimi mövzülarda olmuşdur.

Kollektiv olaraq bu musiqi tədqiqatların dərman hədəflərini aşağıda gələn sətirlərlə açıqlamaq olar:

Mane olma, təlim və öyrənmə, müxtəlif tibbi və diş ağrılarının azalması, xəstəlik və zərərlərin müalicəsindən dolayı narahatlıqların azalması, qəza sonrası cərrahlıqların zərərlərini yaxşılaşdırma, əzələ spazmının nəticəsində əmələ gələn yorqunluqların azaldılması, dərmanların yan təsirlərini azaltmaq, dərmanların istifadə müddətini azaltmaq, müalicə sürəsini azaltmaq.

Musiqi yuxarıda qeyd olunan müalicəvi təsirləri ilə yanaşı, sağlam şəxslərin bir sıra davranış faktorlarının yüksəlməsində istifadə edilə bilər. Musiqi növlərinin yaddaş, öyrənmək, diqqət, qavrayış və sinir sisteminin hərəkətindəki təsiri bu nümunələrdəndir.

Musiqinin problemləri tanıma və onların həllində addım atmaq yolunda da çox təsirləri var ki, bu davranış dəyişimi xüsusilə uşaqlıq dönəmində çox əhəmiyətlidir. Bu təsirin səbəblərindən sənətin, xüsusilə musiqinin duyğu dolu olduğundan dolayı, psixoloji boşalma aləti kimi istifadə olunmasıdır ki, psixoloji problemləri olan uşaqlarda da, bu həyəcanlar və stresləri musiqi vasitəsilə uzaqlaşdırmaqla, normal bir vəziyətə çata bilərlər. Cismi problemlər istisna olmaqla, başqa yöntəmlər, xüsusilə dava-dərmanla muqayisədə, musiqinin uşaqların davranışındakı müsbət təsiri daha uğurlu olub onların normallaşdırmaqda, əhəmiyətli yerə malik olmuşdur. Buna baxmayaraq ki, musiqinin orqanik qüsurlarda da təsirini gözdən qaçırmamalıyıq.

Musiqinin ən önəmli əlaqə saxlama xüsusiyətlərindən biri, onun sözsüz olmağıdır ki, müalicədə əsas rol oynayır. Musiqi, ictima və reallıqlardan qopmuş insanlarla (şizoferniya xəstələri) yenidən əlaqə qurmağın dəyərli vasitəçisi kimi də tanınır. Musiqi duyğuları yüksək səviyyəyə

qaldıran bir növ hərəkətvericidir: səsləri eşitmək vasitəsilə eşitmə quvvəsini, duyula bilən titrəyişlərin vasitəsilə toxunmaq və canlı ifayla görmək quvvəsini təhrik etmək. Məsələn musiqi fəaliyyətlərində uğur qazanmaqla fərdi dəyərin artmasını görə bilərik. Bununla yanaşı musiqi bir öyrənmək və informasiya vasitəçisi kimi də hesablanaraq, bacarıqların əks etməsində istifadə olunur.

Dünyada hər bir şeyin üzərində olan elmi tədqiqdə, öncə onda olan ünsürlərin tərkibini və onların arasında lazımi və dəngəli nisbətləri tanımaqla birlikdə, hər bir ünsürün onda necə oturması və onların bir-birləri ilə əlaqə və bir-birinə qarşı vəzifələrini araşdırmalıyıq. Musiqi ilə müalicədə isə, tiblə musiqinin iştirakı olduğuna görə, "musiqi terapist" musiqini duyub qavramağı üçün musiqi psixologiyası, musiqi nəzəriyyələri və tarixi barədə yüksək səviyyədə məlumata sahib olmalı, həmi də insan əhval-ruhiyəsinin müxtəlif cəhətlərini fiziologiya və patologiya elmləri baxımından tanımalıdır.

İşlə əlaqəli ruhiyəli olmaq, məsuliyət qəbul etmə, müalicə olunanlara sayqı duymaq və tədqiqə meyilli olmaq bir "musiqi terapist"in xüsusiyətlərindən olmalıdır. Beləliklə o, ən az bir alətdə texniki bacarıqlara malik olmalı və musiqi sahəsində fəaliyət etmək vasitəsilə insanlar arasında əlaqələrin artması uğrunda tam məharətə sahib olmalıdır.

Bütün psixoloji mövzuların nevrologiyaya əlaqədə olduğundan dolayı, həmi də musiqini dərk etmək beyin vasitəsilə olduğu üçün, musiqidə nevrologiya barədə tədqiq daha əhəmiyətli görünməkdədir. Musiqi, sinir sisteminin müxtəlif bölümlərini təhrik etməklə, insan üzvlərində, hissetmə və əməli fəaliyətlərdə dərin təsir buraxıb və xəstənin cismlə ruh şənliyinə səbəb ola bilər.

## ƏDƏBİYYAT


1. Şəriət Musəvi, Mustafa, Kitab və Sünnətdən musiqiyə bir baxış, birinci çap, İsmailiyan nəşri, Bica, 1372
2. Övliyayi, Əhməd, Musiqiyə bir baxış, s.9
3. Cəfəri, Məhəmməd təqi, Fəlsəfi və psixi baxımından musiqi, 4.cü çap, Əllamə Cəfəri əsərlərinin nəşr mərkəzi, Tehran, 1385
4. Quddusi, Həsən, İncə nüktələr, ü. 102
5. Məhəmmədi Niya, Əsədullah, Gənclərin cənnəti, s.359. Din və elm baxımından musiqi, s.20, Keyhan, 6265
6. Əbdullahi Xuruş, Hüseyn, Musiqinin sinir və ruhda təsiri, İsfahan, Mütəhhər nəşri, 1353
7. Qərib, Məhəmməd Hüseyn, Musiqi tarixi, Tehran, Fərhang və Hünər nəşri, 1320
8. Liburg, Fan, Musiqi və depressiya, tərcümə: Pərviz Bəhaduran, Şiraz, Nəvid nəşri, 1384
9. Muki, Kate və Richard, Musiqinin şəfaverici səsi, tərcümə: Aəzr Ümrani Gərgəri, Theran, Ərəsbaran nəşri, 1384
10. Androse, Ted, 1952, Musiqi ilə müalicə hamı üçün, tərcümə: Aəzr Ümrani Gərgəri, Theran, Rəvan nəşri, 1380
11. Esmith Peters, Jaklin, Musiqiyə giriş, tərcümə: Əli Zadə Məhəmmədi, Tehran, Mütərcim nəşri, 1380
12. Zadə Məhəmmədi, Əli, Əlil (sindrom) uşaqlar üçün musiqi ilə müalicə, Tehran, Karqah-i nəşr, 1374.


## ABSTRACT


**Əşrəf Yusifi**


## MUSIC THERAPY


A brief investigation has been done in this article on music therapy. Although music is one of the topics which returns to great ages, but is yet one of the modern issues and is also one of the topics which has especially engaged young people and consequently, many questions have been raised about it. Our life will not be the same as before, after experiencing the music therapy. Another principle says: "All the energies are in close contact with the thought emerge". Wherever

thought is, energy is also there. Whenever we feel or experience a mood, we understand its exact connections with our body. We become aware how life and energy follow each other, and how they are ongoing and moving at different levels of within and around us. When we use music therapy, it's better for us to be placed in comfortable place; this situation can be either sitting or lying. Some times it's good to listen to the healing music while doing the routine daily works. It is worth mentioning that music, like any human sciences and techniques has the right mental and behavioral balances and limitations. Proper use of any science makes progress and positive impact and any extremes will cause inconsistency and negative impacts. Music is also not apart from this condition and if its stimulation and stimulus conditions would not match with emotional and mental states of the listener, it will cause anxiety and delirium. Anyone who can react positively against music, s/he can use it for his/her health and happiness. Music can be a powerful physical and spiritual tool.

Katie kunkel says: "There is hope in each musical note, there is a healing in each musical sentence, and there is happiness and joy in each song; music offers a solution for each people; and it may also be a treatment for each patient".


**РЕЗЮМЕ**

**Əşrəf Yusifi**

**МУЗЫКАЛЬНАЯ ТЕРАПИЯ**

В этой статье было сделано краткое исследование по музыкальной терапии. Несмотря на то,что музвка имеет большую давность, является темой дня и одним из вопросов, которым занимается особенно многие молодые люди и естественно многие вопросы были подняты и поднимается об этом. С опытом музыкотерапии уже никогда наша жизнь не будет, как и раньше. Другой принцип говорит :" Появление всех энергий с мыслями тсно связано " Везде, где есть мысль энергия тоже есть. Каждый раз, когда имеем чувство или испытываем событию понимаем точное отношение нашего тело с ним. Узнаем как жизнь и энергия преследуют друг друга и внутри и вокруг нас на разных уровнях струятся и перемещаются. это лучше во время использования музыкотерапии находимся в удобном положении (сидеть или лежать). Иногда лучше при выполнении ежедневных задач послущать целебную музыку. Следует отметить что музыка, как и любая наука и техника, связанные с людьми имеет поведенческое и психологическое равновесие. Правильное и надлежащое применение любей знаний добивается движения и позитивного влияния. Крайность в ней имеет негативное влияние и дисгармонию. Музыка также не отделена от этого требования и если условия его возбуждения не имеет подходящего соотвествии с эмоциональным и психическим состоянием слушателя,то вызывает волнение и замешательство. Кто-то показывает положительную реакцию на музыку, может использовать её для вашего здоровья и счастья. Музыка может быть мощным физическим и духовным инструментом.

Кети Кионкел говорит: "В каждой ноты музыки ест надежда, в каждом предложении музыки исцеление, в каждой пении веселье. музыка предлагает решение для каждого человека и может быть, для каждого заболевания, терапие".



NDU-nun Elmi Şurasının 29 sentyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 01).

Məqaləni çapa təqdim etdi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

# PEDAQOGİKA


1. **Vahid Rzayev.** Cəlil Məmmədquluzadə və ictimai - pedaqoji fikrimiz................................ 3
2. **Vəli Əliyev.** Təlimdə əyanilikdən istifadənin səmərəli təşkili............................................. 8
3. **Mirhasan Eminov.** The role of person-oriented content of education in general secondary school.......................................................................................................... 12
4. **Məhsəti Əsgərova.** Məktəbəqədər yaş dövründə xarici dil öyrənməyin üstünlükləri........... 19
5. **Sevinc Orucova**. Uşaqların sosializasiya prosesində ailə mühüm amil kimi ..................... 22
6. **Məhcəbin Qədimbəyli.** Naxçıvan folkloru nümunələrinin etnopedaqoji mahiyyəti və şəxsiyyətyönümlülük xüsusiyyətlərinin ali məktəbdə tədrisinə dair ..................................... 25
7. **Könül Salmanova**. Şəxsiyyətin fəaliyyəti və dəyərlər seçimi............................................. 29
8. **Solmaz Bayramova.** Gənc ailələrdə şəxsiyyətlərarası münasibətlərin xüsusiyyətləri.......... 39
9. **Sevda Kərimova.** Özünü təhsil fəaliyyətinə hazırlığın xüsusiyyətləri və motivləri.............. 50
10. **Lalə Allahverdiyeva.** Azuşaqlı və çoxuşaqlı ailələrin tərbiyə imkanları ............................ 54
11. **Kifayət Əhmədova.** Gənc ailələrdə valideyn-övlad münasibətləri və uşaq şəxsiyyətinin inkişafına onun təsiri....................................................................................... 58
12. **Лятафят Гумматова.** Этнокультурная обусловленность развития личност............... 62
13. **Aynur İskəndərova.** Praktik psixoloqun şəxsi keyfiyyətlərinin öyrənilməsinin elmi- nəzəri əsasları.......................................................................................................... 67
14. **Törə Məcidova.** Qocalıq yaş dövründə ailənin rolu......................................................... 71


# METODİKA


15. **Fariz Əhmədov.** NDU elmi kitabxanasından istifadə qaydaları və yox cavablarının aradan qaldırılması yolları ................................................................................ 76
17. **Türkan İsmayıllı.** Sosial şəbəkələrin xarici dil öyrənilməsi prosesindəki üstün və qeyri-üstün cəhətləri …………………………………………………….. 80
18. **Arif Paşayev**. Ali məktəblərdə ingilis dili sahəsində gənc kadrların peşəkarlığının inkişaf etdirilməsi problemləri............................................................................ 83
17. **Səma Mehdi.** Ali məktəb tələbələrinin özünütəhsili yeni təhsil paradiqmaları konteksində ......................................................................................................... 87
18. **Aygün Rüstəmova.** Təlimə adaptasiyanın mahiyyəti ....................................................... 92
19. **Kəmalə İsayeva.** Söz tərkibində dilarxası damaq saitlərinin ardıcıllıq norması............. 96
20. **Günay Kazımova**. Təlim prosesində şagirdlərin elmi dünyagörüşünün formalaşmasının inkişafı yolları............................................................................................. 101
21. **Yaqut Abbasova.** Təhsil sistemində pedaqoji texnologiyalardan istifadənin konseptual əsasları ....................................................................................................... 105
22. **Mirvari Verdiyeva, Əsmət İsmayılxanova**. Magistr dissertasiyasının işlənməsi texnologiyası üzrə tövsiyyələr..................................................................... 110


# SƏNƏTŞÜNASLIQ


24. **Qadir Əliyev.** Oğlanqala tikinti növləri ......................................................................... 114
25. **Həbibə Allahverdiyeva.** Naxçıvanda səhnə qrafiyanın inkişafında bədii tərtibat obraz-atribut kimi.............................................................................................. 119
26. **Amil Əsgərov.** Naxçıvanda musiqişünaslıq elminin təşəkkülü və fəaliyyəti.................... 126
27. **Mübariz Əsgərov.** Naxçıvanda vokal sənətinin tədrisi...................................................... 132

28. **Ülkər Həsənzadə.** Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında tarixi-mədəni abidələrin yeri və rolu........................................................................... 136
29. **Zenfira Seyidova.** C.Cəlilməmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat müzeyi və görkəmli şair və yazıçılarımızın mənzil və xatirə muzeyləri............................................ 140
30. **Севда Гусейнова.** Новаторские Особенности в Творчестве Великого Композитора Петра Чайковского......................................................................... 145
31. **Solmaz Axundova.** Qara Qarayevin 12 Fuqası................................................................ 150
32. **Ляман Мамедова.** Живопись маслом ......................................................................... 153
33. **Ələkbər Qasımov.** "Koroğlu" dastanı teatr səhnəsində və kinoda.................................... 158
34. **Səyyarə Sadıxova**. Hüseyn Əliyevin yaradıcılığında natürmort janrı.............................. 162
35. **Əli Qəhrəmanov.** Bakılı aktyorlar Naxçıvan səhnəsində................................................ 166
36. **Elfanə Qasımova.** Dizayn Azərbaycan cəmiyyətinin sosio-mədəni dəyəri kimi............. 173
37. **Mələk Kərimova.** Sənətkar şəxsiyyəti........................................................................... 178
38. **Aytəkin Qəhrəmanova**. Naxçıvanın qədim mədrəsə və kitabxanaları............................. 182
39. **Əşrəf Yusifi.** Musiqi ilə müalicə........................................................................... 186